**Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyinə həsr olunur.**

*Layihənin rəhbəri:* **Cəfər Cəfərov**
**ADPU-nun rektoru**
**tarix elmləri doktoru, professor**

*Elmi redaktoru:* **Şəhla Əliyeva**
**Pedaqogika üzrə elmlər doktoru**

*Redaksiya heyəti:* **professor Müseyib İlyasov**

**professor Ramiz Əliyev**

**psixol.ü.e.d.Qızxanım Qəhrəmanova**

**dosent Nailə Hüseynova**

**professor Ərəstun Baxşəliyev**

**professor Elmar Hüseynov**

**dosent Şərafət Baxışova**

**dosent Tamilla Ağayeva**

ADPU-100 .Məktəbəbəqədər təhsil fakültəsi.Bakı,ADPU,2021. .. səh.

# Azərbaycan Dövlət Pedaqoji Universiteti



# Məktəbəqədər təhsil fakültəsi



**Bakı-2021**



“Azərbaycan Dövlət Pedaqoji İnstitutu böyük və çətin yol keçmişdir. Onun kollektivi Azərbaycan ümumtəhsil məktəbinin inkişafında böyük xidmət göstərmiş, institut xalq maarifi üçün yüksək ixtisaslı kadrlar ocağına çevrilmişdir.”

**Heydər Əliyev**
**Azərbaycan xalqının ümummilli lideri**



“Bizim ən böyük resursumuz insanlarımızın biliyidir, savadıdır. Biz öz imkanlarımızdan səmərəli istifadə edərək, maddi kapitalı insan kapitalına çevirməliyik və bunu edirik.”

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**


AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ
UNİVERSİTETİ
AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN
DÖVLƏT PEDAQOJİ
UNİVERSİTETİ



**Cəfər Cəfərov**

ADPU-nun rektoru
Tarix üzrə elmlər doktoru,professor

# Ön söz

Müasir dövrdə hər bir ölkənin uğurlu gələcəyi təhsilin səviyyəsi ilə müəyyən olunur. Bu günün güclü təhsil sistemi sabahın güclü və qüdrətli dövlətinin təminatıdır.

Təhsilin inkişafı, gənclərimizin savadlı vətəndaş kimi formalaşması Azərbaycanda da dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Beynəlxalq aləmdə və cəmiyyət həyatında gedən proseslər – qloballaşma, azad bazar iqtisadiyyatına keçid, milli-mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsi zərurəti bütün sahələrdə, o cümlədən təhsil sistemində əsaslı islahatların həyata keçirilməsini şərtləndirən vacib amillərdir.

Sosial-iqtisadi, elmi-mədəni inkişafın gələcək hədəfləri Azərbaycan təhsilinin beynəlxalq rəqabətə davamlılıq göstəricilərindən və ali təhsil müəssisələrinin səviyyəsindən birbaşa asılıdır. Bu baxımdan Azərbaycanda maddi kapitalın insan kapitalına çevrilməsi istiqamətində sistemli və məqsədyönlü iş aparılır. Dövlət tərəfindən

təhsil sistemindəki islahatların vahid konsepsiyası, strategiyası və proqramı hazırlanaraq uğurla həyata keçirilir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlət başçısı kimi fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində – iqtisadiyyatda, mədəniyyətdə, elm və təhsildə, ictimai şüurda sərbəstlik, azadlıq və müstəqillik ideyalarının formalaşdırılmasına yönəlmişdi. Bu ülvi niyyətlərin reallaşdırılması Azərbaycanın müstəqil dövlət kimi inkişafının ideya bazasını təmin etmişdir.

Ulu öndərin zəngin nəzəri irsində və əməli fəaliyyətində təhsil məsələləri həmişə önəmli yer tutmuşdur. Heydər Əliyev bütün fəaliyyəti boyu təhsil sahəsinə diqqət və qayğısını əsirgəməmiş, cəmiyyətdə yüksək bilikli, intellektual və müasir dünyagörüşlü təbəqənin formalaşmasına çalışmışdır. O deyirdi: “Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartları səviyyəsinə çatdırsın, o, mütləq, hər şeydən çox, təhsilə fikir verməli, təhsilin inkişafına səy göstərməli, təhsil üçün bütün imkanları yaratmalıdır”.

Milli təhsilimizin böyük hamisi ilk gündən bu sistemdə islahatların təkamül yolu ilə aparılmasının tərəfdarı kimi çıxış etmişdir: “Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri, tədrici xarakter daşıyır… Təhsil qanunu elə bir qanundur, təhsil islahatları elə islahatlardır ki, iqtisadiyyatdan, maliyyədən, başqa sahələrdən fərqli olaraq, bu prosesdə bütün cəmiyyətin iştirakı lazımdır”.

Ulu öndərin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev təhsil sahəsində yeniliklərə, inkişafa nail olmaq üçün bir çox fərman və sərəncamlar imzalamış, dövlət proqramlarını təsdiq etmişdir. Bu gün ölkəmizdə təhsil sahəsində islahatlar uğurla həyata keçirilir, bir vaxtlar böyük nüfuzu olan müəllim peşəsinə inamın və etibarın yüksəldilməsi üçün mühüm işlər görülür. Müasir dövrün tələblərinə uyğun bilik və bacarıq-

lara sahib olan müəllimlərin yetişdirilməsi istiqamətində əsaslı islahatlar aparılır, pedaqoji təhsilin institusional əsaslarının, infrastrukturunun və insan resurslarının inkişafına yönəlmiş ardıcıl və məqsədyönlü addımlar atılır.

İnsan kapitalının inkişafı təhsil alan şəxslərin müasir bilik və bacarıqlara yiyələnmələrinin təmin edilməsi yolu ilə mümkündür. Təsadüfi deyil ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın ikinci strateji istiqaməti təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənlərin formalaşdırılmasına xidmət edir. Bu da özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsini, təhsilalanların uğurlarının qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsilalanların istedadının aşkar olunması və inkişafını, xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını ehtiva edir.

Azərbaycan təhsilinin inkişafı pedaqoji kadrlar hazırlayan ADPU-nun professor-müəllim və tədris-yardımçı heyətinin üzərinə böyük yük qoyur, əsas hədəflərə doğru getməyin vacibliyini qətiləşdirir. Çoxminli kollektivi özündə cəmləşdirən qocaman təhsil ocağının həyatında zamanın tələblərinə uyğun yeniləşmə proseslərinin aparılması artıq reallığa çevrilib. Təhsilin təşkili və tədrisin keyfiyyətinin yüksəldilməsi, elmi araşdırmaların təkmilləşdirilməsi, kadr və struktur islahatlarının həyata keçirilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi və infrastrukturun inkişaf etdirilməsi universitetdə aparılan işlərin əsas istiqamətlərini təşkil edir.

Nəzərdə tutulan islahatların reallaşdırılmasını təmin etmək, idarəçiliyi təkmilləşdirmək üçün universitetdə əsaslı struktur dəyişiklikləri həyata keçirilmişdir ki, bunlar da qarşıya qoyulmuş strateji inkişaf planının uğurlu icrasına əlverişli zəmin yaratmışdır. Universitetimizdə müəllim hazırlığı sahəsində qarşıda duran

vəzifələrin yerinə yetirilməsi üç mühüm amilə əsaslanır: yüksək mənəvi-əxlaqi keyfiyyət, pedaqoji və psixoloji mədəniyyət; pedaqoji fəaliyyətdə səriştəlilik; əmək bazarına özünü təqdim etmə bacarığı.

Əminliklə deyə bilərik ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən hərtərəfli islahatlar fonunda Pedaqoji Universitetdə aparılan işlər 100 illik yubileyini qeyd etdiyimiz təhsil ocağımızın zəngin ənənələrinin daha da inkişaf etdirilməsinə, müasir dövrün tələblərinə layiqli cavab verə bilən müəllim kadrlarının hazırlanmasına öz töhfəsini verəcəkdir. Universitet “ADPU-2021: Strateji İnkişaf Planı”nda təsbit olunmuş Təhsil və Tədqiqat Mərkəzi missiyasını şərəflə yerinə yetirəcəkdir. Eyni zamanda, universitetimizin aparıcı fakültələrindən biri olan Məktəbəqədər təhsil fakültəsinin əməkdaşları da öz üzərlərinə düşən vəzifələrin öhdəsindən uğurla gələcəklər.



## Şəhla Əliyeva

Məktəbəqədər təhsil fakültəsinin dekanı, Pedaqogika üzrə elmlər doktoru, professor

Azərbaycan Dövlət Pedaqoji Universitetində təhsildə demokratik dəyərlər inkişaf etdirilir. Aparılan islahatlar müasir düşüncəyə, əxlaqi-mənəvi saflığa, yüksək peşə və ixtisas hazırlığına malik elmi-pedaqoji kadrların hazırlanmasına xidmət edir. İndi müəllim hazırlığında qarşıda duran vəzifələrin yerinə yetirilməsində üç mühüm komponentə – yüksək mənəvi-əxlaqi keyfiyyətlərə, pedaqoji-psixoloji mədəniyyətə, pedaqoji fəaliyyətdə səriştəyə malik olan və əmək bazarında özünü təqdim etməyi bacaran şəxslərin hazırlanmasına əməl olunmalıdır. Təhsil sahəsinin inkişafı, müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması, cəmiyyətdə müəllim nüfuzunun daha da artırılması ulu öndərin həyata keçirdiyi dövlət siyasətinin mühüm istiqamətlərindən biri idi. Ümummilli lider Heydər Əliyevin "Dünyada müəllim sənəti qədər şərəfli ikinci bir peşə tanımıram" sözlərində böyük həqiqət var. Buna görə də Azərbaycanda həyata keçirilən dövlət siyasətində, prezidentimizin imzaladığı strategiyada müəllimə və təh-

silə yüksək qiymət verilməsi başlıca faktdır. Azərbaycanın dövlətçilik siyasətində məktəbin, bütövlükdə təhsilin inkişafı əsas prioritetlərdən biri olduğu üçün Azərbaycanda təhsilin inkişafı, məktəbin səmərəli idarə olunması müəllimin daha yaxşı təhsil verməsi üçün bütün imkanların yaradılması istiqamətində çox böyük işlər görülür. Təhsilin inkişafı ulu öndərin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, Mehriban xanım Əliyevanın da daim diqqət mərkəzindədir.

Bu gün əminliklə demək olar ki, strateji sahə olan təhsil cəmiyyətin bütün sahələrinə nüfuz etmişdir. Cənab prezident ölkəyə rəhbərliyinin ilk illərindən başlayaraq, təhsilin inkişafını təmin edən əhəmiyyətli fərman və sərəncamlara imza atmışdır. Hazırda icrası uğurla davam etdirilən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" Azərbaycan təhsil sistemini iqtisadi cəhətdən dayanıqlı, dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun təhsil sisteminə çevirir. Məktəbəqədər təhsil fakültəsi ADPU-nun çoxsaylı tələbə və müəllim kontingentini özündə cəmləşdirən, universitetin rektoru, tarix üzrə elmlər doktoru, professor Cəfər Cəfərovun həyata keçirdiyi islahatları müvəffəqiyyətlə tətbiq edən, təhsil sahəsində öz sözünü demiş dəyərli kadrları olan fakültələrdəndir.

Fakültə müstəqil olaraq 1982-ci ildən fəaliyyət göstərir. Müxtəlif dövrlərdə fakültəyə dos. Eldar Abbaszadə (1982–1986), dos. Gülarə Qayıbova (1986–1987), prof. Xəlil Fətəliyev (1987–1989), prof. Məmməd Məmmədov (1989–1997–əyani), dos. Musa Həsənov (1989–1997–qiyabi), dos. Şəhla Əliyeva (1997–2001– əyani və qiyabi şöbələr vahid fakültə tərkibində birləşdirilmişdi), dos. Allahverdi Hacıyev (2001–2011) rəhbərlik edib. Fakültəyə 2011-ci ilin oktyabr ayından pedaqogika üzrə elmlər doktoru, prof. Şəhla Əliyeva rəhbərlik edir. Bu illər ərzində fakültənin adı bir neçə dəfə dəyişdirilib və Məktəbəqədər tərbiyə

(1982-1992), Pedaqogika və psixologiya (1992-2015), Məktəbəqədər təhsil, psixoloji xidmət və korreksiyaedici təlim (2015-2019) adları ilə fəaliyyət göstərib. 2019-cu ildən fakültə Məktəbəqədər təhsil adlanır.

1996-cı ilə qədər yalnız bir ixtisas – məktəbəqədər təhsilin pedaqogikası və metodikası (əyani və qiyabi şöbə) ixtisası üzrə kadr hazırlanırdı. 1996-cı ildə korreksiyaedici pedaqogika və xüsusi psixologiya (məktəbəqədər) ixtisası açıldı və onun bir buraxılışı oldu. 1997-ci ildən etibarən fakültədə defektologiya, 1998-ci ildən isə psixologiya ixtisasları üzrə ali təhsilli kadr hazırlığı həyata keçirilirdi. Bu ixtisaslar 2014-cü ildən məktəbəqədər təlim və tərbiyə, korreksiyaedici təlim və təhsildə sosial-psixoloji xidmət ixtisasları ilə əvəzləndi.

Keçən illər ərzində fakültənin inkişafında fakültəyə rəhbərlik edən dekanlarla yanaşı, dos. Ə.Qədimbəyova, prof. Ə.Əlizadə, dos. Z.Mehdizadə, prof. Ə.Baxşəliyev, prof. M.İlyasov, prof. R.Əliyev, dos. N.Rüstəmova, dos. B.Paşayeva və dos. R.Mursaqulovanın da mühüm xidmətləri olub.

Fakültədə tədrisin, sosial və humanitar işin təşkilində dekan müavinləri, dosent, ped.ü.f.d. Allahyar İmanov, ped.ü.f.d. Yeganə Məmmədova (ictimai əsaslarla), tyutorlar – Qönçə Rəhimova, Səkinə İbrahimova, Xəyalə Qara yeva, Nərgiz Əliyeva, Rəna Əhmədova, Qədəmli İsmayılova, Maral Abuzərli, İlahə Quliyeva və operator Leyla Cəfərzadə mühüm rol oynayırlar.

Hazırda fakültədə 1441 bakalavr, 86 nəfər magistr təhsil alır. Magistratura səviyyəsində hər üç ixtisas üzrə magistrantlar hazırlanır. Məktəbəqədər təhsilin pedaqogikası kafedrasında 27, Ümumi psixologiya kafedrasında 21, Pedaqoji psixologiya kafedrasında 19, Xüsusi təhsil kafedrasında 19 magistrant təhsil alır. Bakalavriatura və magistratura səviyyələrinə dair baza proqramları, dövlət standartları və tədris planları fakültədə hazırlanır. Bakalavriaturada ixtisaslar üzrə həm Azərbaycan, həm də rus bölmələri fəaliyyət göstərir. Fakültədə azərbaycanlı tələbələr-

lə yanaşı əcnəbi tələbələr də təhsil alır.
Hazırda fakültədə 64 nəfər Türkiyə Cümhuriyyətinin və 1 nəfər Çin Xalq Respublikasının vətəndaşı təhsil alır.

**Fakültədə ixtisasları üzrə təhsil alan tələbələr (bakalavriat səviyyəsi)**

| İxtisas | I tədris ili | | II tədris ili | | III tədris ili | | IV tədris ili | | V-VII tədris ili | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Azərb. | Əcnəbi | Azərb. | Əcnəbi | Azərb. | Əcnəbi | Azərb. | Əcnəbi | Azərb. | Əcnəbi |
| Məktəbəqədər təlim və tərbiyə | 128 | 2 | 111 | 2 | 100 | 2 | 130 | 13 | 9 | 3 |
| Korreksiyaedici təlim | 108 | | 95 | | 79 | | 80 | 1 | 6 | |
| Təhsildə sosial-psixoloji xidmət | 124 | 6 | 136 | 3 | 140 | 6 | 119 | 29 | 9 | |
| Yekun: 1441 | 360 | 8 | 342 | 5 | 319 | 8 | 329 | 43 | 24 | 3 |
| | 368 | | 347 | | 327 | | 372 | | 27 | |

Son illərdə ADPU-da aparılan köklü islahatlar universitetdə, o cümlədən, fakültədə tədrisin keyfiyyətinin yüksəlməsinə rəvac verib. Yeni tədris materiallarının hazırlanmasında müasir tələblərin nəzərə alınması, mühazirə, seminar məşğələlərinin yeni təlim texnologiyaları əsasında aparılması və s. tələbələrin biliklərə yiyələnmələrində mühüm rol oynayır.

Tələbə qəbulunun inkişaf dinamikası nəzərə alınarsa, ixtisaslara qəbul ballarının ildən-ilə artması müşahidə olunur. Bu da ondan xəbər verir ki, ADPU-nu, o cümlədən, fakültəmizi seçənlər daha hazırlıqlı və tədrisin keyfiyyətindən əmin olan abituriyentlərdir. Eyni zamanda, fakültənin hər üç ixtisasının müasir dövrdə tələb olunan peşələr olması və rəqabət mühitinə davamlılığı bu ixtisaslara marağın daha da artmasına səbəb olub.

**2011-2021-ci illərdə fakültədə tələbələrin inkişaf dinamikası aşağıdakı kimi olub (bakalavriat səviyyəsi üzrə)**

| İllər | İxtisaslar | | | | | |
|---|---|---|---|---|---|---|
| | Məktəbəqədər təlim və tərbiyə | | Korreksiyaedici təlim | | Təhsildə sosial-psixoloji xidmət | |
| | Qəbul | Məzun | Qəbul | Məzun | Qəbul | Məzun |
| 2011/12 | 83 | 121 | 44 | 17 | 43 | 34 |
| 2012/13 | 85 | 61 | 43 | 37 | 43 | 39 |
| 2013/14 | 85 | 67 | 43 | 35 | 43 | 37 |
| 2014/15 | 93 | 59 | 46 | 36 | 50 | 38 |
| 2015/16 | 90 | 105 | 50 | 42 | 53 | 38 |
| 2016/17 | 137 | 124 | 47 | 36 | 108 | 91 |
| 2017/18 | 120 | 134 | 73 | 62 | 114 | 97 |
| 2018/19 | 127 | 153 | 75 | 65 | 133 | 106 |
| 2019/20 | 133 | 158 | 92 | 68 | 127 | 142 |
| 2020/21 | 128 | 143 | 108 | 81 | 124 | 143 |

Fakültənin elmi potensialı ildən-ilə, yeni elmi qüvvələrin hesabına artmaqdadır. 78 nəfər professor-müəllim heyətinin 5 nəfəri elmlər doktoru, professor; 32 nəfər fəlsəfə doktorundan 1 nəfəri professor, 15 nəfəri dosentdir. 11 nəfər fəlsəfə doktoru baş müəllim, 5 nəfər fəlsəfə doktoru müəllim, 11 nəfər baş müəllim, 30 nəfər müəllim kimi çalışır.

Fakültə 2018, 2019-cu illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində professor-müəllim heyətinin, kafedraların və fakültələrin illik fəaliyyətinin reytinq qiymətləndirməsində ilk üçlükdə yer alıb.

Son 10 ildə fakültə əməkdaşları məktəbəqədər təhsilin pedaqogikası, ümumi və pedaqoji psixologiya, xüsusi təhsillə bağlı 236 beynəlxalq və 236 respublika konfransında çıxışlar etmiş, 37 monoqrafiya, 16 dərslik, 69 dərs vəsaiti, 1019 məqalə və 268 proqram

nəşr etdirmişlər. Məqalələrdən 34-ü impakt faktorlu jurnallarda nəşr edilmişdir.

**Məktəbəqədər təhsil fakültəsi üzrə elmi-metodiki fəaliyyəti əks etdirən cədvəl (2011-2021-ci illər)**

| N | Kafedranın adı | Monoqrafiya | Dərslik | Dərs vəsaiti | Metodik vəsait | Məqalə | | Proqram | Konfrans | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | İnpakt faktorlu | Respublika və xaricdə | | Respublika | Beynəlxalq |
| 1. | Məktəbəqədər təhsilin pedoqogikası | 13 | 2 | 28 | 38 | 12 | 499 | 85 | 96 | 88 |
| 2. | Ümumi psixologiya | 15 | 5 | 18 | 8 | 9 | 217 | 80 | 69 | 45 |
| 3. | Pedaqoji psixologiya | 7 | 2 | 12 | 7 | 10 | 137 | 63 | 34 | 45 |
| 4. | Xüsusi təhsil | 2 | 7 | 11 | 16 | 3 | 163 | 40 | 37 | 58 |
| | | 37 | 16 | 69 | 69 | 34 | 1019 | 268 | 236 | 236 |

2018/19-cu tədris ilində ADPU-nun Elmi Şurası tərəfindən ümummilli lider Heydər Əliyevin adına təsis olunmuş təqaüdə ilk dəfə fakültənin tələbəsi Günay Akif qızı Qəribova layiq görülmüşdür. 2018-ci ildən başlayaraq fakültə üzrə Abdulla Şaiq adına təqaüdə isə təhsildə sosial-psixoloji xidmət fakültəsinin tələbələri Burcəliyeva Ayşən Elşən qızı, Mehdiyeva Münəvvər Qubad qızı, məktəbəqədər təlim və tərbiyə ixtisasının tələbəsi Rəcəbova Gülyanaq Ehtibar qızı layiq görülmüşdür. Fakültədə "Loqopedlər" tələbə elmi seminar klubu və "Gənc pedaqoq" tələbə dərnəyi fəaliyyət göstərir.

Fakültədə Elmi Şura (sədr prof. Ş.Əliyeva), Fakültə Tədris-Metodik Şurası (sədr prof. M.İlyasov), HİK (sədr müəllim Fəridə Səmədzadə), TGT (sədr Nərmin Zamanova), THİK (sədr Mədinə Həsənli),YAP gənclər təşkilatı (sədr Ləman Rəhimli) fəaliyyət göstərir.

Fakültənin məktəbəqədər təlim və tərbiyə ixtisasının tələbələri uşaq bağçalarında, təhsildə sosial-psixoloji xidmət ixtisasının tələbələri ümumtəhsil məktəbləri və psixoloji mərkəzlərdə, korreksiyaedici təlim ixtisasının tələbələri xüsusi məktəblərdə, inteqrativ məktəblərdə və reabilitasiya mərkəzlərində pedaqoji təcrübə keçirlər.

2011/2012-ci tədris ilindən etibarən fakültə bir çox beynəlxalq layihələrdə iştirak edir. Fakültənin ixtisas kafedralarının əməkdaşları bu layihələrdə işçi qrupların üzvləri kimi fəaliyyət göstərirlər.

İlk dəfə 2011/2012-ci tədris ilində Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi, Dünyaya baxış təşkilatı, Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi ilə inklüziv təhsilə dair pilot layihə həyata keçirilib. Layihə çərçivəsində hər üç ixtisasda inklüziv təhsil fənni tədris olunmağa başladı.

Polşa Respublikasının Azərbaycandakı səfirliyi ilə əməkdaşlıq sayəsində Polşa Respublikasının səfirinin iştirakı ilə fakültədə "Uşaq İnkişaf Mərkəzi" yaradılıb. "Medeks" şirkəti ilə əməkdaşlıq nəticəsində fakültədə loqopedik avadanlıqlarla təchiz edilmiş kabinet təşkil olunub. Polşa Respublikasının Azərbaycandakı səfirliyi ilə əməkdaşlıq çərçivəsində polşalı metodistlər fakültənin müəllim və tələbələrinə praktik təlim kursları keçiblər.

2018/2019-cu tədris ilində fakültənin nəzdində Psixoloji Mərkəz yaradılıb ki, burada Ümumi psixologiya və Pedaqoji psixologiya kafedralarının əməkdaşları universitetin 4 tədris binasında tələbə və əməkdaşlara psixoloji xidmət göstərirlər.

2018–2020-ci illərdə Avropa İttifaqının "Azərbaycanda vətəndaş cəmiyyətinin iştirakı ilə təhsil sisteminin müasirləşdirilməsi və inklüziv təhsilin tətbiqi" proqramı çərçivəsində Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi tərəfindən həyata keçirilən "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması"

və YUNİSEF tərəfindən həyata keçirilən "Azərbaycanda əlilliyi olan uşaqlar üçün inklüziv keyfiyyətli təhsilin genişləndirilməsi" layihələrində məktəbəqədər təhsil fakültəsinin əməkdaşları işçi qrupunun üzvləri kimi fəaliyyət göstərirlər. 2019–2021-ci illər üçün Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin icrasına dəstək" (Az.MKÇ) layihəsində fakültənin hər üç ixtisası iştirak etmiş, pilot layihə olaraq məktəbəqədər təlim və tərbiyə, korreksiyaedici təlim və təhsildə sosial-psixoloji xidmət ixtisaslarında sınaqlar keçirilmişdir. Fakültə dekanı, professor Şəhla Əliyeva, Xüsusi təhsil kafedrasının müdiri, dosent Nailə Hüseynova və Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının müəllimi Xalidə Həmidova, layihədə işçi qrup üzvləri olaraq, modul dərs vəsaitlərini hazırlamışlar.

Fakültə əməkdaşları Xalidə Həmidova ABŞ-da (Vaşinqton və Miçiqan ştatları) məktəbəqədər təhsillə bağlı, dos. Nailə Hüseynova Belarus Respublikasında və Portuqaliyada, Ş. Kazımova, K. İsmayılova, S. Əlizadə Portuqaliyada inklüziv təhsillə bağlı təcrübə mübadiləsində olublar.

Fakültədə TEC (sədr Xüsusi təhsil kafedrasının müəllimi Turan Şahvələdli- Qədimova) xətti ilə tələbələrin elmi-tədqiqat işlərinə rəhbərlik edilir. Hər il tələbə elmi konfransları keçirilir, məruzələrin tezisləri toplu halında çap olunur. Fakültədə tələbələrin asudə vaxtlarının səmərəli və maraqlı keçirilməsi üçün bir çox maraqlı tədbirlər təşkil edilir. Hər il ümummilli lider Heydər Əliyevin anım günü qeyd olunur. Onun doğum gününə həsr olunmuş konfranslar keçirmək artıq bir ənənəyə çevrilib. Dövlət bayramları, mühüm əhəmiyyəti olan tarixi günlər, milli bayramlar təntənəli şəkildə qeyd olunur. 2016–2018-ci illərdə "Tələbəyəm, mən zamanın tələbiyəm!" adlı birinci tədris ili tələbələri üçün görüş tədbiri, 2016–2018 -cı illərdə "Tələbəliyin son günü" tədbiri, 2016-cı ildə Respublika Təhsil Şurasının sədri, professor Əjdər Ağayevlə görüş, 2017-ci ildə Əlillər gününə həsr olunmuş tədbir, 2019-cu ildə "Dünya azərbaycanlılarının həmrəylik günü" – universitet THİK

ilə birgə tədbiri, 2019-cu ildə “Novruz” şənliyi, 2021-ci il ”Ekstremal şərait və onun yaratdığı sosial-psixoloji problemlər” mövzusunda universitet üzrə vebinarlar və s. tədbirlər buna misaldır. Fakültə tələbələrinin böyük bir hissəsi respublikada keçirilən tədbirlərdə və beynəlxalq yarışlarda könüllü kimi fəaliyyət göstərirlər.

Fakültədə professor-müəllim heyəti və tələbələr tərəfindən mütəmadi olaraq xeyriyyə aksiyaları keçirilir, tələbələrin əl işlərindən ibarət sərgilər təşkil olunur. Tələbə və müəllimlər bayramlarda ehtiyacı olan ailələri, uşaq və qocalar evlərini ziyarət edirlər. Bu aksiyaların keçirilməsində əsas məqsəd gənclərimizdə insanpərvərlik, vətənpərvərlik, paylaşma, humanizm kimi keyfiyyətləri möhkəmləndirməkdir.

Fakültə Türkiyənin Hacəttəpə Universiteti, Polşa Respublikasının Azərbaycandakı səfirliyi, Kopenhagen Universitet Kolleci (UCC), Maksim Tank adına Belarus Dövlət Pedaqoji Universiteti, Özbəkistan Andican Universiteti, «Medeks» şirkəti, BDU, BSU, ATİ, Psixologiya Elmi-Tədqiqat İnstitutu, «Qayğı» ictimai birliyi, «Elit otizm» mərkəzi, Cahan Holdinq, AMEA-nın Fəlsəfə İnstitutunun Sosial psixologiya şöbəsi ilə, “Narınc” Psixologiya Mərkəzi, “Ailə” Psixoloji xidmət və nitq inkişafı mərkəzi və Anadolu liseyi ilə əməkdaşlıq edir.

2015-ci ilin dekabr ayına qədər fakültədə 3 ixtisas kafedrası fəaliyyət göstərirdi. 2015-ci ilin oktyabrında fakültə dekanı Ş.Əliyevanın təşəbbüsü ilə fakültənin nəzdində Korreksiyaedici təlim kafedrası yaradıldı. 2019-cu ildən etibarən bu kafedra Xüsusi təhsil adlanır. Hazırda fakültədə 4 ixtisas kafedrası fəaliyyət göstərir:

1.Məktəbəqədər təhsilin pedaqogikası (kafedra müdiri prof. Müseyib İlyasov);
2.Ümumi psixologiya (kafedra müdiri prof. Ramiz Əliyev);
3.Pedaqoji psixologiya (kafedra müdiri, p.ü.e.d.prof. Qızxanım Qəhrəmanova);
4.Xüsusi təhsil (kafedra müdiri dos. Nailə Hüseynova).

Kollektivimizin təhsil sahəsində ötən dövr ərzindəki fəaliyyəti lazımınca dəyərləndirərək gələcək strateji hədəfləri düzgün müəyyənləşdirəcəyinə və ölkənin intellektual potensialını təhsilin inkişafı məqsədi ətrafında səfərbər edəcəyinə əminəm. İnanıram ki, müəllimlərimiz bundan sonra da vəzifələrinin öhdəsindən layiqincə gələcək, təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi, ölkədə müasir təhsil sisteminin qurulması və insan kapitalının formalaşmasına töhfələr verəcək, gənc nəsli vətənpərvərlik, milli-mədəni irsə bağlılıq və azərbaycançılıq məfkurəsi ruhun da yetişdirəcək, yüksək peşəkarlığa və səriştəliliyə malik, rəqabətədavamlı mütəxəssislər hazırlanması üçün əzmlə çalışacaqlar.



**Məktəbəqədər təhsil fakültəsi dekanlığının əməkdaşları**

# 1982-2011
# FAKÜLTƏ DEKANLARI


Eldar Abbaszadə
(1982-1986)


Gülarə Qayıbova
(1986-1987)


Xəlil Fətəliyev
(1987-1989)


Musa Həsənov
(1989-1997)
(qiyabi)


Məmməd Məmmədov
(1989-1997)
(əyani)


Şəhla Əliyeva
(1997-2001)


Allahverdi Hacıyev
(2001-2011)



**Fakültə Elmi Şurası**



**Fakültə Tədris metodiki şurası**



## Allahyar İmanov

Pedoqogika üzrə fəlsəfə doktoru, dosent, dekan müavini

Allahyar Süleyman oğlu İmanov 1957-ci ildə, Laçın rayonunun Arduşlu kəndində anadan olub. 1974-cü ildə Laçın rayonunun Vağazin kənd orta məktəbini bitirib. 1976–1978-ci illərdə Ukrayna Respublikasının Belaya Serkov şəhərində hərbi xidmətdə olub. 1979-cu ildə V.İ.Lenin adına ADPİ-nin (indiki ADPU) ibtidai təhsil fakültəsinə qəbul olunub və oranı fərqlənmə diplomu ilə bitirib.

1984–1986-cı illərdə ADPİ-nin pedaqoji fakültəsində komsomol komitəsinin katibi,1986–1991-ci illərdə ADPİ komsomol komitəsinin katibi işləyib. 1991-ci ildən ADPİ-nin pedaqogika kafedrasının müəllimi, baş müəllim işləyib. Hazırda kafedranın dosenti vəzifəsində çalışır.

A.S.İmanov 1991-ci ildən 1994-cü ilə kimi ADPU-nun axşam növbəsində dekan müavini, 1994–1997-ci illərdə pedaqoji fakültədə, 2002–2016-cı illərdə pedaqogika və psixologiya fakültəsində dekan müavini işləyib. 2016-cı ildən hal-hazıra kimi mək-

təbəqədər təhsil fakültəsində dekan müavini vəzifəsində çalışır. 1993-cü ildə pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb.

A.S.İmanov "Məktəblilərin ordu sıralarına hazırlanmasında ailə ilə məktəbin əl bir işinin formaları", "Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi", "Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin inkişaf tarixi", "Azərbaycan mütəfəkkirlərinin vətənpərvərlik tərbiyəsi", "Qloballaşma dövründə məktəblilərin milli şüurunun formalaşması yolları", "Məktəblilərlə aparılan təlimin səmərəli yolları və onların pedaqoji, psixoloji əsasları", "Məktəblilərdə əxlaqi-mənəvi keyfiyyətlərin formalaşdırılması yolları" adlı dərs vəsaitlərinin, bir çox metodik vəsaitlərin, çoxsaylı elmi məqalələrin, tezislərin, fənn proqramlarının müəllifidir.

İşlədiyi müddət ərzində A.S.İmanovun fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, "Əməkdə igidliyə görə" medalı ilə təltif olunmuş və müxtəlif mükafatlarla mükafatlandırılmışdır.



## Qönçə Rəhimova

Fakültə tyutoru

Qönçə Mahmud qızı Rəhimova 1984-cü il avqustun 6-da, Qərbi Azərbaycanın Noyemberyan rayonu, Körpülü kəndində anadan olub. 1991-ci ildə Sumqayıt şəhər 24 saylı orta ümumtəhsil məktəbinin I sinfinə gedib. 2001-ci ildə orta məktəbi bitirib. 2002-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinə, pedaqogika və psixologiya fakültəsinin məktəbəqədər təhsilin pedaqogikası və metodikası ixtisasına qəbul olunub.

2006-cı ildə universitetin bakalavr səviyyəsini müvəffəqiyyətlə bitirib. 2007-ci ildə məktəbəqədər təhsilin pedaqogikası və metodikası ixtisası üzrə həmin universitetin magistraturasına qəbul olunub. 2009-cu ildə məktəbəqədər təhsilin pedaqogikası və metodikası ixtisası üzrə "Uşaq bağçasında nitqin səs mədəniyyətinin tərbiyəsi" mövzusunda dissertasiya müdafiə edərək, magistr dərəcəsinə yiyələnib. 2010-cu ilin oktyabr ayından məktəbəqədər təhsil fakültəsində tyutor vəzifəsində işləyir.

2013/2014-cü tədris ilindən Azərbaycan Dövlət Pedaqoji Univer-

sitetinin Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının 5804.01 – ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası üzrə doktorantıdır. Dissertasiya mövzusu "Məktəbəqədər yaşlı uşaqlarda təlim məşğələlərində həyati bilik və bacarıqların inkişafı yolları" adlanır.

Müxtəlif beynəlxalq seminarlarda, konfranslarda iştirak edib və bir çox sertifikatlara layiq görülüb. Bir çox məqalə və tezislərin müəllifidir. "Məktəbəqədər yaşlı uşaqlarda həyati bilik və bacarıqların inkişafı üzrə işin mahiyyəti" məqaləsi 2016-cı ildə doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfrans materialları (24–25 may, 2016-cı il, 2 cilddə, II cild. Bakı), Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Nəşriyyatında; 4 may 2017-ci ildə "Məktəbəqədər yaşlı uşaqlarda məşğələ həyati bilik və bacarıqları inkişaf etdirən təlim formasıdır"adlı məqaləsi isə ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Çağdaş dövr və təhsil" mövzusunda IX Ümumrespublika elmi-praktik konfransının materiallarında, "Bakı Universiteti" nəşriyyatında dərc olunmuşdur.

08 oktyabr 2016-cı ildə Azərbaycan Təhsil Şurasının keçirdiyi Məktəbəqədər Təhsil İşçilərinin Birinci Respublika Forumunda iştirak edib. "Yaşlıların Təhsili Assosiasiyası" İctimai Birliyinin 26–31 yanvar 2016-cı il tarixində Bakı şəhərində təşkil etdiyi məktəbəqədər təhsil kurikulumu üzrə təlimçilər üçün təlim kursunu bitirib. 23–25 mart 2018-ci ildə ADPU-da keçirilən XVII Beynəlxalq pedaqoji oxu konfransında, Global Career İnstitute və Azərbaycan–Kıbrıs Dostluq Cəmiyyətinin təşkil etdiyi "Milli Qurtuluşdan günümüzə Azərbaycan təhsili" seminarında, "Se-Nur" Psixologiya və İnkişaf mərkəzinin təşkil etdiyi 09.02.2020-ci il tarixində "Problemi deyil, səbəblərini görmək bacarığı"; 22.02.2020-ci il tarixində "Kliyenturanı oxumaq etiketləri" adlı psixoloji seminarda, 05.07.2020-ci il tarixində Development Power tərəfindən həyata keçirilən "Uşaqlarda öyrənmə çətinliyi" adlı vebinarda iştirak etmişdir. Çoxlu sayda sertifikatlara layiq görülmüşdür.



## Səkinə İbrahimova

Fakültə tyutoru

İbrahimova Səkinə Rafiq qızı 24 iyul 1986-cı ildə, Füzuli rayonunun Horadiz kəndində anadan olub. 2004-cü ildə Bakı şəhəri, Sabunçu rayonundakı 75 saylı orta məktəbi bitirib. Həmin il Azərbaycan Dövlət Pedaqoji Universitetinin ibtidai təhsilin pedaqogikası və metodikası ixtisasına qəbul olunub. 2008-ci ildə ali məktəbi bitirib. 2008-ci ildə ibtidai təhsilin pedaqogikası və metodikası ixtisası üzrə Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistr səviyyəsinə qəbul olunub.

2010-cu ildə "İbtidai siniflərdə üslubiyyat üzrə işin məzmunu" mövzusunda dissertasiya işini müdafiə edərək, magistr dərəcəsi alıb. 2014-cü tədris ilindən Azərbaycan Dövlət Pedaqoji Universitetində 5804.01 – ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası üzrə fəlsəfə doktoru proqramı üzrə dissertantdır. 2 məqalə, 1 tezis müəllifidir.

2011-ci il, 7 mart tarixindən ADPU-nun məktəbəqədər təhsil fakültəsində tyutor vəzifəsində çalışır.



## Xəyalə Qarayeva

Fakültə tyutoru

Qarayeva Xəyalə Tair qızı 31 avqust 1987- ci ildə, Masallı rayonunun Qəriblər kəndində anadan olmuşdur. 1994-cu ildə Qəriblər kənd orta məktəbinin I sinfinə qəbul olunub, 2005-ci ildə orta məktəbi bitirmişdir. Azərbaycan Dövlət Pedaqoji Universitetinin pedaqogika və psixologiya fakültəsinə qəbul olunmuş və 2009-cu ildə bakalavr səviyyəsini bitirmişdir. Həmin ildə də pedaqogika nəzəriyyəsi və tarixi ixtisası üzrə magistraturaya qəbul olunmuş və 2011-ci il də oranı bitirmişdir.
2014-cü ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin məktəbəqədər təhsil fakültəsində tyutor vəzifəsində çalışır.



## Rəna Əhmədova

Fakültə tyutoru

Əhmədova Rəna Eldəniz qızı 13 fevral 1988-ci ildə, Ucar rayonunda anadan olub. 1994-cü ildə Nərimanov rayonu, Rafiq Nəsrəddinov adına 39 nömrəli tam orta məktəbə qəbul olunub, 2005-ci ildə isə həmin məktəbin məzunu olub.

2011-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun ibtidai sinif müəllimliyi ixtisasına qəbul olunub. 2015-ci ildə həmin institutu bitirib. 2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistraturasına pedaqogikanın nəzəriyəsi və tarixi ixtisası üzrə qəbul olunaraq, 2018-ci ildə “Ali məktəb müəlliminin pedaqoji qabiliyyətləri və ustalığı” mövzusunda dissertasiya işini müdafiə edib və magistr dərəcəsi alıb.

Zirvə Tədris Mərkəzində ibtidai sinif müəllimi kimi fəaliyyət göstərib. 2018-ci il fevral ayının 6-dan Azərbaycan Dövlət Pedaqoji Universitetinin məktəbəqədər təhsil fakültəsində tyutor kimi fəaliyyət göstərir.



## Qədəmli İsmayılova

Fakültə tyutoru

Qədəmli İlham qızı İsmayılova 09 oktyabr 1994-cü ildə, Bakı şəhərində anadan olub. 2001-ci ildə Bakı şəhərindəki 246 №-li məktəb-liseyin 1-ci sinfinə gedib.2012-ci ildə həmin məktəbi bitirib. 2012-ci ildə Xəzər Universitetinə psixologiya ixtisası üzrə qəbul olunub. 2015–2016-cı illərdə Xəzər Universiteti Tələbə Məclisinin Psixologiya departamentinin direktoru vəzifəsində çalışıb. Bu müddətdə bir çox seminarların və müsabiqələrin təşkilatçısı olub. 2016-cı ildə universitetin bakalavr səviyyəsini fərqlənmə diplomu ilə bitirib. Elə həmin il magistraturaya qəbul olunub. 2018-ci ildə Xəzər Universitetinin klinik psixologiya ixtisası üzrə "Şəkərli diabetdən əziyyət çəkən xəstələrdə şəxsiyyət pozuntuları" mövzusunda dissertasiya işini müdafiə edərək, magistr dərəcəsi alıb. Bakırköy (prof. Dr. Mazhar Osman) Ruh Sağlığı ve Sınır Hastalıkları Eğitim Araştırma Hastanesində psixoloq işləyib. 1 saylı Respublika Psixiatriya Xəstəxanasında klinik psixoloq kimi təcrübə keçib. Neyromental Psixologiya Mərkəzi və "Loqos" Psixologiya və Nitq İnkişafı Mərkəzində psixoloq kimi çalışıb. Həmçinin, ixtisası ilə bağlı bir çox professional kurs və seminarlarda iştirak edərək sertifikatlara layiq görülüb.3 iyun 2019-cu ildən ADPU-nun məktəbəqədər təhsil fakültəsində tyutor kimi çalışır.



## Maral Abuzərli

Fakültə tyutoru

Maral Məhərrəm qızı Abuzərli 18 iyul 1994-cü ildə, Bakı şəhərində anadan olub. 2000-ci ildə Nərimanov rayonu, N.Tağıyev adına tam orta məktəbin birinci sinfinə qəbul olunub. 2011-ci ildə həmin məktəbi bitirib. Elə həmin ildə Azərbaycan Müəllimlər İnstitutunun filologiya və təhsildə sosial-psixoloji xidmət fakültəsinə qəbul olunub. 2015-ci ildə institutu bitirib. 2016-cı ildə Bakı Dövlət Universitetinin pedaqogika nəzəriyyəsi və tarixi ixtisası üzrə magistr səviyyəsinə qəbul olunub. 2018-ci ildə "Akademik Mehdi Mehdizadənin didaktik görüşləri" mövzusunda magistr dissertasiyasını müdafiə edərək magistr dərəcəsi alıb. 2 məqalə və 1 tezis müəllifidir.

2020-ci ildən ADPU-nun məktəbəqədər təhsil fakültəsində tyutor vəzifəsində çalışır.



## İlahə Quliyeva

Fakültə tyutoru

İlahə İsaməddin qızı Quliyeva 1996-cı il dekabr ayının 31-də, Quba şəhərində anadan olub. 2014-cü ildə Quba şəhər 6 saylı tam orta məktəbini bitirib. Elə həmin il ADPU-nun Quba filialında təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə bakalavr səviyyəsinə qəbul olunub və 2018-ci ildə ali təhsilini başa vurub. ADPU-da məktəbəqədər təlim və tərbiyənin metodika və metodologiyası ixtisası üzrə magistratura təhsili alıb. "Məktəbəqədər yaşlı uşaqların sosial inkişafı: mərhələləri, amilləri, vasitələri" adlı magistrlik dissertasiyasını müdafiə edərək, 2020-ci ildə magistratura təhsilini başa vurub. Magistraturada oxuduğu illərdə "Məktəbəqədər yaşlı uşaqların sosial-emosional inkişafının mərhələləri" adlı məqaləsi magistrantların II Respublika elmi konfransının materiallarında (Bakı, 18–19 aprel, 2019-cu il) nəşr edilib. Digər məqaləsi – "Məşğələlər məktəbəqədər yaşlı uşaqların sosial inkişafının əsas vasitəsi kimi" magistrantların III Respublika elmi konfransının materi allarında (Bakı, 14–15 may, 2020-ci il) nəşr olunub. 15 noyabr 2020-ci ildə Quba şəhər, B.Sultanov adına Ağbil kənd tam orta məktəbində psixoloq kimi fəaliyyətə başlayıb. 4 aylıq fəaliyyətindən sonra 2 aprel 2021-ci il tarixindən ADPU-nun məktəbəqədər təhsil fakültəsində tyutor işləyir.



## Leyla Cəfərzadə

Operator

Cəfərzadə Leyla Eldar qızı 1994-cü il may ayının 7-də, Bakı şəhərində anadan olmuşdur. 2011-ci ildə 1 saylı tam orta məktəbini bitirmişdir. 2012-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadiyyat fakültəsinə qəbul olunmuşdur. 2017-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadiyyat fakültəsini bitirmişdir.

2014-cü ilin sentyabr ayından məktəbəqədər təhsil fakültəsində operator işləyir.

## Məktəbəqədər təhsilin pedaqogikası kafedrası

Məktəbəqədər təhsil-tərbiyə müəssisələri üçün yüksək ixtisaslı pedaqoji və elmi-pedaqoji kadr hazırlığında xalqımıza 100 il şərəflə xidmət etmiş universitetimizin Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının müstəsna xidmətləri vardır.

Kafedra 1968-ci ildə, 5 nəfərdən – dosent Əfşan Qədimbəyova (müdir), dos.Nazimə Rüstəmova, dos.Brilyant Paşayeva, baş müəllim Liliya Şapiro və tədris köməkçi heyəti olan Sara Ələkbərovadan ibarət tərkibdə yaradılmışdır. 50 ildən artıq müddətdə fəaliyyət göstərən kafedra bu müddətdə respublikamızda məktəbəqədər təhsil müəssisələrinin ixtisaslı kadrlarla təmin olunmasına mühüm töhfələr vermişdir.

Yarandığı vaxtdan kafedraya dos.Əfşan Qədimbəyova (1968-1980), dos. Nazimə Rüstəmova (1980-1989), dos. Brilyant Paşayeva (1989-1999), dos.Raya Mursaqulova (1999-2012) rəhbərlik etmişlər. 2013-cü ildən kafedraya pedaqogika üzrə elmlər doktoru, professor Müseyib İlyasov rəhbərlik edir. Bu müddət ərzində kafedranın potensialı xeyli inkişaf etmiş, elmi-pedaqoji səviyyəsi yüksəlmiş, kadr təminatı güclənmişdir.

Kafedranın inkişafında ona müxtəlif illərdə rəhbərlik etmiş bu alimlərlə yanaşı, kafedra üzvlərindən professor Şəhla Əliyeva, dosent Zenfira Vəliyeva, dosent Sevil Cəmilzadə və başqalarının mühüm xidmətləri olmuşdur.

Son illər kafedrada tədris prosesinin səviyyəsinin yüksəldilməsi, yeni pedaqoji texnologiyalar və innovasiyaların tətbiq edilməsi sahəsində xeyli işlər görülmüş və müvəffəqiyyətlər əldə edilmişdir. 2014-cü ildə tədris planlarının yenilənməsi ilə əlaqədar olaraq, kafedrada təhsilin bakalavriat və magistratura səviyyələri üçün, yeni standartlara müvafiq olaraq, 30-dan çox fənn proqramı və bir sıra dərs vəsaitləri, metodik vəsaitlər hazırlanaraq çap edilmişdir. Kafedrada təhsilin bakalavriat səviyyəsində 17 fənn, magistratura səviyyəsində isə 12 fənn tədris olunur. Kafedra üzvləri təhsilin bakalavriat səviyyəsində "Pedaqogika", "Məktəbəqədər pedaqogi-

ka", "Sosial pedaqogika", "Nitq inkişafı metodikası", "Ətraf aləmlə tanışlığın metodikası", "Uşaq bağçasında fiziki tərbiyə", "Texnologiya və onun tədrisi metodikası", "Məktəb təliminə hazırlığın əsasları" kimi ixtisaslaşma fənlərini və 8 fənn bloku üzrə "Məktəbəqədər təhsildə pedaqoji texnologiyalar və innovasiyalar", "Uşaq hüququ", "Uşaq inkişafının izlənməsi və dəyərləndirilməsi", "Məktəbəqədər təhsil proqramları", "Məktəbəqədər yaşlı uşaqların ailədə tərbiyəsi", "Məktəbəqədər təhsil müəssisələrində təhsilləndirici mühitin təşkili", "Məktəbəqədər yaşlı uşaqların sosial-emosional inkişafı", "Tərbiyəçi-müəllimin pedaqoji ustalığı", "Məktəbəqədər təhsil müəssisələrinə rəhbərlik", "Məşğələlərin təşkili və qrupun idarə olunması" kimi yeni məzmunlu seçmə fənləri, magistratura səviyyəsində isə "Elmi-tədqiqat işləri nin metod və metodologiyası", "Məktəbəqədər təhsilin müasir problemləri", "Uşaqların məktəb təliminə hazırlanmasının müasir problemləri", "Nitq inkişafı və onun tədrisinin aktual məsələləri", "Sosial pedaqogikanın aktual problemləri", "Valeologiyanın aktual problemləri", "Məktəbəqədər təhsildə uşaqların öyrənmə–idrak fəaliyyətinin təşkili", "Pedaqoji peşəkarlıq və səriştəlilik" adlı ixtisas fənlərini və 4 fənn bloku üzrə "Məktəbəqədər təhsildə innovasiyalar", "Mək təbəqədər təhsildə milli-mənəvi dəyərlər və inteqrasiya", "Müasir pedaqoji texnologiyalar və idrakın inkişafı", "Ekoloji dayanıqlıq və uşaq şəxsiyyətinin inkişafı" və digər bir sıra yeni seçmə fənlər tədris olunur.

Hazırda kafedrada ali təhsilin hər üç səviyyəsi – bakalavriat, magistratura və doktorantura üzrə kadr hazırlığı həyata keçirilir. Təhsilin bakalavriat səviyyəsi üzrə məktəbəqədər təlim və tərbiyə, magistratura səviyyəsi üzrə məktəbəqədər təhsil və tərbiyə, doktorantura səviyyəsi üzrə isə ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi ixtisasları üzrə pedaqoji və elmi-pedaqoji kadrlar hazırlanır.

Kafedrada müntəzəm olaraq elmi seminarlar (rəhbəri p.ü.f.d., b/m Nigar İsmayılova), açıq dərslər (rəhbəri müəllim Fəridə Səmədzadə), dərnək məşğələləri (rəhbəri p.ü.f.d., b/m. P.Həsənova), müəllif dərsləri, tələbələrlə məktəbə qədər təhsilin problemlərinə dair

müxtəlif seminarlar və dəyirmi masalar təşkil olunur.

Təşkilati, metodik tədbirlərlə yanaşı, kafedrada elmi xarakterli məsələlərə də geniş yer verilir, diskussiyalar, müzakirələr aparılır. Kafedra əməkdaşları çoxsahəli elmi-pedaqoji fəaliyyətlə məşğul olurlar. Təkcə təhsil və tədris deyil, həmçinin, elmi istiqamətdə aparılan tədqiqatlara da geniş yer verilir. Kafedra həm tədris, həm də elmi tədqiqat mərkəzi kimi fəaliyyət göstərir. Elmi tədqiqat ların yüksək səviyyədə aparılmasına və tədqiqat nəticələrinin çap olunaraq pedaqoji ictimaiyyətə çatdırılmasına xüsusilə diqqət verilir. Kafedrada elmi-tədqiqat işləri iki istiqamətdə aparılır:

1) məktəbəqədər təhsilin təkmilləşdirilməsi problemi;
2) ali pedaqoji təhsilin müasir inkişaf istiqamətləri.

Hər iki istiqamət üzrə aparılan tədqiqatlarda yeniliklərin, innovasiyaların olması, tədqiqatlara yeni pedaqoji təfəkkürün gətirilməsi diqqət mərkəzində saxlanılır.

Kafedra əməkdaşları universitetin digər pedaqogika və metodika kafedraları ilə, həmçinin, Azərbaycan Respublikası Təhsil İnstitutu, Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universiteti, Gəncə Dövlət Universiteti, universitetimizin filialları, digər tədris və elmi-tədqiqat müəssisələri ilə geniş yaradıcılıq əlaqələri saxlayırlar. Aparılan elmi-tədqiqat işlərinin nəticələri respublikada və bir sıra xarici ölkələrin nüfuzlu mətbuat orqanlarının səhifələrində çap olunur. Kafedra əməkdaşlarından professor Müseyib İlyasovun, professor Şəhla Əliyevanın, dosent Şərafət Baxışovanın, p.ü.f.d., b/m. Pərişan Həsənovanın, p.ü.f.d., b/m. Sona Sadıqovanın, p.ü.f.d. Vüsalə Əliyevanın, baş müəllim Xalidə Həmidovanın, müəllim Fəridə Səmədzadənin və başqalarının məqalələri xarici ölkələrin bir sıra nüfuzlu jurnallarında çap olunmuşdur.

Kafedrada elmi-pedaqoji kadr hazırlığına xüsusi diqqət yetirilir. Doktorantura və dissertantura səviyyəsində xeyli elmi-pedaqoji kadrlar hazırlanmışdır. Kafedranın fəaliyyət göstərdiyi illər ərzində 2 nəfər elmlər doktoru, 20 nəfərə yaxın əməkdaş isə fəlsəfə doktoru elmi dərəcəsini almışlar. Hazırda təhsilin magistratura sə-

viyyəsini bitirmiş gənclərdən 2 nəfər doktorant və 3 nəfər dissertant kafedrada fəlsəfə doktorluğu proqramı üzrə təhsillərini davam etdirir və dissertasiya mövzusu üzərində işləyirlər.

Kafedrada ali təhsilin ikinci səviyyəsi olan magistr təhsilinə ciddi yanaşılır. Mövzu yeniliyinə, onların praktik əhəmiyyətinə xüsusi diqqət verilir. Bu günə qədər kafedrada 200 nəfərdən çox tələbə magistr hazırlığı keçmiş və müvəffəqiyyətlə müdafiə edərək, magistr dərəcəsi almışlar. Hazırda kafedrada 30 nəfər magistrant təhsil alır və elmi-tədqiqat işləri aparırlar.

2016-cı ildə Azərbaycan Müəllimlər İnstitutunun ADPU-ya qoşulması ilə əlaqədar olaraq, kafedranın pedaqoji kadrlarla təminatı daha da möhkəmlənmişdir.

Son onillikdə kafedra üzvləri məktəbəqədər yaşlı uşaqların təhsil və tərbiyəsinin mühüm problemlərinə dair müxtəlif mövzularda çoxsaylı tədqiqatlar aparmış, elmlər doktoru və fəlsəfə doktoru sahələrində dissertasiyalar müdafiə etmişlər. Prof. Şəhla Əliyeva məktəbəqədər təhsil sahəsi üzrə respublikada ilk olaraq "Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin elmi-pedaqoji əsasları" (2014) mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Dos. Şərafət Baxışova "Məktəbəqədər təhsil pilləsində inkişafetdirici təlimin nəzəri-praktik əsasları" (2017) mövzularında elmlər doktorluğu, Sədaqət Əliyeva "Ustadnamələrdə tərbiyə məsələləri" (2010), Sona Sadıqova "Məktəbə qədər yaşlı uşaqlarda vətənpərvərlik hissinin inkişaf etdirilməsi üzrə işin siste mi" (2010), Pərişan Həsənova ""Kitabi-Dədə Qorqud" dastanlarında mənəvi tərbiyə məsələləri" (2012), Nigar Əliyeva "Müstəqillik illərində Azərbaycanda ibtidai təhsilin inkişafı (1918–1920-ci illər və müasir dövr)" (2012), Vüsalə Əliyeva "Təlim prosesində kiçikyaşlı məktəblilərin fəallığının yüksəldilməsində əməkdaşlıq prinsipindən istifadə üzrə işin sistemi" (2015), Pərvin Cəfərova "Azərbaycanda məktəbəqədər pedaqogikanın inkişafı (XX əsrin II yarısı – XXI əsrin əvvəlləri)" (2014), Yeganə Məmmədova "Məktəbəqədər yaşlı uşaqların nitqinin inkişaf etdirilməsinin məzmunu və yolları" (2018) mövzularında fəlsəfə doktorluğu dissertasiyaları

müdafiə etmişlər. Təranə Sadıqova dosent elmi adını almışdır. Son illər kafedrada onlarla dərslik və dərs vəsaiti hazırlanaraq, müəllim və tələbələrin istifadəsinə verilmişdir. Professor Müseyib İlyasovun "Müəllimin pedaqoji ustalığı" (2013), "Didaktika" (2015), "Peşə, ixtisas seçimi" (2015), "Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyinin müasir problemləri" (2018), "Müasir təhsil: ənənə və innovasiyalar" (2021), professor Şəhla Əliyevanın "Məktəbəqədər təhsilin aktual problemləri" (2010), "Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsi" (2018), "Məktəbəqədər yaşlı uşaqların sosial inkişafının aktual problemləri"(2019), "Sosial pedaqogika" (2021), dosent Raya Mursaqulova və dosent Nazimə Rüstəmovanın birlikdə yazdıqları "Məktəbəqədər pedaqogika" (2010), dosent Şərafət Baxışovanın "Məktəbəqədər təhsil: konseptual problemlər" (2015), p.ü.f.d., b/m. Pərişan Həsənovanın "Məktəbəqədər təhsil müəssisələrində öyrənmə – idrak fəaliyyəti" (2019), p.ü.f.d., b/m Sədaqət Əliyevanın "Xalq pedaqogikasında tərbiyə məsələləri" (2016), "Məktəbəqədər yaşlı uşaqların nitq mədəniyyəti ilə tanışlığın təşkili metodikası" (2019), p.ü.f.d., b/m. Sona Sadıqovanın "Sosial pedaqogika fənni üzrə mühazirə mətnləri" (2019), p.ü.f.d., b/m Nigar Əliyevanın "Məktəbəqədər yaşlı uşaqların ailədə tərbiyəsi" (2018), p.ü.f.d., müəllim Yeganə Məmmədovanın "Məktəbəqədər yaşlı uşaqların nitqinin inkişaf etdirilməsinin məzmun və yolları" (2019) adlı monoqrafiya, dərslik və dərs vəsaitləri nəşr olunmuşdur.

Kafedra üzvləri müntəzəm olaraq beynəlxalq, respublika elmi-praktik konfranslarında iştirak və məruzələrlə çıxış edirlər. Son 5 ildə belə konfrans və simpoziumlarda kafedra üzvlərinin 30-dan çox məruzəsi dinlənilmiş, müzakirə edilmiş və çap olun- muşdur. Rusiya, Ukrayna, Türkiyə, Qazaxıstan, Özbəkistan və bir sıra ölkələrin keçirdikləri konfranslarda kafedra əməkdaşları fəal iştirak etmişlər.

Kafedra üzvləri universitetin və bir sıra digər təşkilatların əlaqədar qurumlarında təmsil olunurlar. Professor M.İlyasov Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası-

nın Ekspert Şurasının, professor Şəhla Əliyeva pedaqogika üzrə ixtisaslaşmış Müdafiə Şurasının, prof. M.İlyasov və p.ü.f.d., b/m. P. Həsənova Universitetin Tədris Metodiki Şurasının üzvləridir.

Hazırda kafedrada 25 nəfərlik professor-müəllim heyəti, o cümlədən, 2 nəfər pedaqogika üzrə elmlər doktoru, (professor Müseyib İlyasov, Şəhla Əliyeva), 4 nəfər pedaqogika üzrə fəlsəfə doktoru, (dosent Zenfira Vəliyeva, Şərafət Baxışova, Zərifə Zeynalova, Təranə Sadıqova,), 6 nəfər pedaqogika üzrə fəlsəfə doktoru, (baş müəllimlər Sədaqət Əliyeva, Səidə Abdullayeva, Sona Sadıqova, Pərişan Həsənova, Nigar Əliyeva, Pərvin Cəfərova), 3 nəfər baş müəllim (Almaz Əhmədova, Xədicə Məmmədova, Xalidə Həmidova), 3 nəfər pedaqogika üzrə fəlsəfə doktoru, müəllim (Vüsalə Əliyeva, Yeganə Məmmədova, Sevinc Hacıyeva), 7 nəfər müəllim (Nərgiz Əhmədova, Fəridə Səmədzadə, Könül Nəsibova, Zəhra Həsənova, Könül Şıxəliyeva, Şəhla Kazımbəyli, Şəkər Orucəliyeva) və 2 nəfər tədris köməkçi heyəti (böyük laborant Laləzar Şamxalova və Nigar Hümbətova) tələbələrin təhsili və tərbiyəsi ilə məşğul olurlar.



***Məktəbəqədər pedaqogika kafedrasının ilk müdiri Əfşan xanın Qədimbəyova (1969)***



## Müseyib İlyasov

Kafedra müdiri
Pedaqogika üzrə elmlər doktoru, professor

Müseyib İbrahim oğlu İlyasov 1951-ci il fevral ayının 11-də, Laçın rayonunun Oğuldərə kəndində, müəllim ailəsində anadan olub. 1967-ci ildə Laçın şəhər orta məktəbini bitirib. Elə həmin il H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutuna (indiki Gəncə Dövlət Universitetinə) daxil olub, 1971-ci ildə ali məktəbi bitirib.
M. İlyasov 1971-ci ildə ilk təhsil aldığı Laçın rayonu, Oğuldərə kənd 8 illik məktəbinə müəllim təyin olunub. 1972-ci ilin may ayında həqiqi hərbi xidmətə çağırılıb, 1973-cü ilin iyun ayına kimi hərbi xidmətdə olub. Hərbi xidməti ehtiyatda olan zabit kimi başa vurub. 1973-cü ilin sentyabr ayında yenidən Laçın rayonunun Oğuldərə kənd orta məktəbinə müəllim təyin edilib.

M.İlyasov hələ orta məktəbdə müəllim işlədiyi dövrdə təlim-tərbiyənin aktual problemləri ilə maraqlanıb, bunlarla bağlı rayonda çıxan "Laçın" qəzetində müxtəlif mövzulu məqalələrlə çıxış edib. "Ailə ilk tərbiyəçidir", "Məktəbdə metodik işlərin təşkili", "Valideyn nüfuzu" kimi məqalələr oxucular tərəfindən maraqla qarşılanıb.

M.İlyasov 1976-cı ilin sentyabr ayında işlədiyi Oğuldərə kənd orta mək təbinə təlim-tərbiyə işləri üzrə direktor müavini təyin edilib. Öz bacarığı, işgüzarlığı və təşkilatçılığı ilə məktəbdə təlim-tərbiyə işlərinin yüksək səviyyədə qurulmasına çalışıb. M.İlyasovun bu fəaliyyəti Laçın Rayon Maarif Şöbəsi rəhbərliyinin diqqətini cəlb edib və onun qabaqcıl iş təcrübəsinin rayonda yayılması məsləhət bilinib. Pedaqogika elminə olan marağı M.İlyasovu 1977-ci ilin payızında V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun aspiranturasına gətirir. O, müvəffəqiyyətlə imtahan verərək, pedaqogika nəzəriyyəsi və tarixi ixtisası üzrə aspiranturanın əyani şöbəsinə qəbul olunub. Həmin vaxtdan fəaliyyətini bu təhsil ocağı ilə bağlayıb.

M. İlyasov 1980-ci ilin sonunda aspiranturanı müvəffəqiyyətlə bitirib və Respublika Ali və Orta İxtisas Təhsili Nazirliyinin təyinatı ilə aspirantı olduğu Ümumi pedaqogika kafedrasına müəllim təyin edilib. 1987-ci ildə "Kənd məktəblərarası tədris-istehsalat kombinatlarında şagirdlərin peşəyönümünün pedaqoji əsasları" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək, pedaqoji elmlər namizədi elmi dərəcəsini alıb. Pedaqoq alimlərdən elmi rəhbəri, professor H.M.Əhmədov, rəsmi opponentlər – SSRİ Pedaqoji Elmlər Akademiyasının müxbir üzvü, professor V.A.Polyakov, pedaqoji elmlər namizədi, dosent S.Orucov, Düşənbə Pedaqoji İnstitutunun pedaqogika kafedrasının müdiri, professor İ.O.Obidov, A.S.Puşkin adına Tbilisi Pedaqoji İnstitutunun pedaqogika kafedrasının müdiri, professor V.Qaqua, həmin kafedranın dosenti, pedaqoji elmlər namizədi Ə.X.Paşayev, Xankəndi Pedaqoji İnstitutunun pedaqogika kafedrasının dosenti, pedaqoji elmlər namizədi S.M.Zeynalov və başqaları M.İlyasovun tədqiqatı haqqında müsbət fikirlər söyləyib və onu yüksək qiymətləndiriblər. M.İlyasov 1989-cu ildə pedaqogika kafedrasına baş müəllim, 1991-ci ildə isə dosent vəzifələrinə seçilib. 1989–1995-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin kimya-biologiya fakültəsində ictimai əsaslarla dekan müavini vəzifəsində işləyib.

M. İlyasov 1982–1984-cü illərdə üç dəfə, hər biri 10 gün olmaqla

Ümumittifaq Komsomol Təşkilatı Mərkəzi Komitəsinin, SSRİ Maarif Nazirliyinin və SSRİ Pedaqoji Elmlər Akademiyasının Rusiyanın Yaroslavl vilayətinin Rostov-Velikiy və Zveniqorod şəhərlərində təşkil etdiyi "Gənc alimlər və mütəxəssislər məktəbi"nin iştirakçısı olub.

1984–1995-ci illərdə M.İlyasov respublika televiziyasında ayda bir dəfə efirə çıxan "İstehsalatın əsasları. Peşə seçmə" adlı televiziya tədris proqramının daimi aparıcısı olmuş, peşə seçiminin əsaslarına dair maraqlı verilişlər aparıb.

1980–1990-cı illərdə respublika "Bilik" cəmiyyətinin xətti ilə Azərbaycanın müxtəlif bölgələrində pedaqoji mövzularda mühazirələr oxuyub, əhali arasında pedaqoji biliklərin yayılmasında fəal iştirak edib.

M.İ.İlyasov 1997–1998-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda fəaliyyət göstərən pedaqogika üzrə ixtisaslaşmış Müdafiə Şurasının üzvü olub. Bir neçə nəfər dissertantın rəsmi opponenti, onlarca dissertasiyaların rəsmi rəyçisi olub. 2007–2010-cu illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində fəaliyyət göstərən pedaqoji elmlər üzrə ixtisaslaşmış Müdafiə Şurasının elmi seminarının üzvü, 2010–2012-ci illərdə Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyasının Fəlsəfə, Pedaqogika, Psixologiya və İlahiyyat Komissiyasının Ekspert Şurasının elmi katibi olub. 2013–2015-cu illərdə isə Azərbaycan Dövlət Pedaqoji Universitetində fəaliyyət göstərən, pedaqoji elmlər üzrə ixtisaslaşmış Müdafiə Şurasının elmi seminarının sədri olub. Hazırda Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyasının filologiya və pedaqogika ixtisasları üzrə Ekspert Şurasının üzvüdür. Universitet və fakültə elmi şuralarının, universitet tədris-metodik şuralarının üzvü, fakültə Tədris-Metodik Şurasının sədridir.

M.İlyasov 2013-cü ildən ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası kafedrasına rəhbərlik edir. Kafedra müdiri işlədiyi dövrdə kafedranın elmi-pedaqoji səviyyəsi xeyli yüksəlib, kadr təminatı güclənib.

M. İlyasov 1992–1997-ci illərdə N.Tusi adına ADPU-nun elmi əsərlər məcmuəsi olan "Pedaqoji Universitet Xəbərləri"nin "Pedaqoji-psixoloji elmlər seriyası"nın, 2007–2010-cu illərdə isə "Azərbaycan Beynəlxalq Universiteti Xəbərləri"nin "Pedaqoji-psixoloji elmlər seriyası"nın məsul katibi olub. 2016-cı ildən ADPU-nun elmi əsərləri olan "Pedaqoji Universitet Xəbərləri" elmi jurnalının "Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası"nın redaktor müavini, "Pedaqogika", "Peşə təhsili və insan kapitalı", "Məktəbəqədər və ibtidai təhsil", "Musiqi elmi, mədəniyyəti və təhsilin aktual problemləri" jurnallarının redaksiya heyətinin üzvüdür.

M.İlyasov Özbəkistanın Səmərqənd (1988), Gürcüstanın paytaxtı Tbilisi (1997), Bakı (2007–2021), Naxçıvan (2015, 2016), Moskva (2011), Ankara (2020) şəhərlərində bir sıra beynəlxalq, həmçinin, bir çox respublika elmi-praktik konfranslarının iştirakçısı olub.

M.İlyasov 2011-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetində pedaqoji elmlər üzrə ixtisaslaşmış müdafiə şurasında pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün "Şagirdlərin peşə seçməyə hazırlanmasının pedaqoji əsasları" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Alimlərdən akademik H.M.Əhmədov, prof. Ə.Ə. Əlizadə, prof. Ə.X. Paşayev, prof. A. Həsənov, prof. Y.Ş. Kərimov, prof. Ə.A. Ağayev, prof. F. Sadıqov, prof. R.L. Hüseynzadə, prof. H.Ə. Əlizadə, prof. Ş.T.Tağıyev, prof. V.C. Xəlilov prof. F.A. Rüstəmov, prof. İ.Əliyev, prof. O. Həsənli, prof. Ş.Qasımlı və başqaları M.İlyasovun tədqiqatını yüksək qiymətləndirib, onun aktual və dəyərli bir əsər olduğunu qeyd ediblər. M. İlyasov 2017-ci ildə professor elmi adını alıb.

Prof. M.İlyasovun tədqiqatları pedaqogika elminin bir çox sahələrini əhatə edir. Ən çox və sistemli tədqiq etdiyi sahə isə şagirdlərin peşə seçiminə hazırlanması və müəllim peşəsi, müəllim hazırlığı problemləridir. O, 4 monoqrafiya, 5 dərs vəsaiti, 12 metodik vəsait, 40 proqram və 200-dən artıq elmi-pedaqoji və publisistik məqalənin müəllifi, 10 kitabın, onlarla tədris proqramının redaktoru və 6 kita-

bın tərtibçisidir. Prof. M.İlyasovun məqalələri Bakıda, Mos- kvada, Səmərqənddə, Tbilisidə, Kiyevdə, Kirovoqradda, Samarada, Tolyattidə, Ankarada bir sıra nüfuzlu jurnallarda çap olunub. Respublikamızda və xaricdə 50-yə yaxın beynəlxalq və respublika konfranslarının iştirakçısı olub. Professor M. İlyasov tələbələri tərəfindən sevilən yaxşı müəllim, pedaqoqdur. Fəal təlim və kurikulum üzrə təlimçi kimi Azərbaycan Respublikası Təhsil Nazirliyi və YUNİSEF-in birgə təşkil etdiyi treninqlərdə orta və ali məktəb müəllimləri üçün fəal təlim və kurikulum üzrə təlimlər aparıb.

Prof. M.İlyasovun rəhbərliyi ilə iki nəfər dissertasiya müdafiə edərək, pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışlar. Hazırda onun rəhbərliyi ilə iki nəfər elmlər doktoru proqramı üzrə, beş nəfər isə fəlsəfə doktoru proqramı üzrə dissertasiya işi üzərində çalışırlar.

Prof. M.I.İlyasov 2012-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunub.

Prof. M.İ.İlyasovun elmi-pedaqoji tədqiqatlarının əsas istiqamətləri bunlardır:

– şagirdlərin peşə yönümü və peşə seçiminə hazırlanmasının elmi-nəzəri problemləri;
– şagird şəxsiyyətinin sosiallaşması;
– müəllim peşəsi və müəllim hazırlığının müasir problemləri;
– müəllimin pedaqoji ustalığı;
– vətəndaşlıq və vətənpərvərlik tərbiyəsi;
– təlim prosesinin optimallaşdırılması;
– orta və ali məktəblərdə tədris prosesinin aktual problemləri;
– tələbələrin pedaqoji təcrübəsi;
– görkəmli pedaqoqların və mütəfəkkirlərin pedaqoji ideyaları və s.

Əsas elmi əsərləri:

1. Məktəbdə peşə yönümü işinin sistemi. (dərs vəsaiti). Bakı, ADPU-nun nəşriyyatı, 1997.
2. Yuxarı sinif şagirdlərinin vətəndaşlıq tərbiyəsi. Bakı, "Təhsil", 2003.

3. Şagirdlərin peşə seçməyə hazırlanmalarının pedaqoji əsasları. (monoqrafiya). Bakı, "Elm", 2005.
4. Şagirdlərin peşə seçməyə hazırlanmaları. (monoqrafiya). Bakı, "Elm",2009.
5. Peşə yönümünün əsasları. (dərs vəsaiti). Bakı, "Mütərcim", 2011.
6. Müəllimin pedaqoji ustalığı. (dərs vəsaiti) . Bakı, "Elm və təhsil", 2013.
7. Peşə, ixtisas seçimi. (yeniyetmə və gənclər üçün vəsait). Bakı, ADPU-nun nəşriyyatı, 2015.
8. Didaktika. (dərs vəsaiti). Bakı, ADPU-nun nəşriyyatı, 2015.
9. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. (monoqrafiya). Bakı, "Elm və təhsil", 2018.
10. Müasir təhsil: ənənədən innovasiyaya. (monoqrafiya). Bakı, "Elm və təhsil", 2021.



***Məktəbəqədər təhsilin pedaqogikası kafedrası***



## Şəhla Əliyeva

Pedaqogika üzrə elmlər doktoru, professor

Şəhla Qasım qızı Əliyeva 1960-cı ildə, Qərbi Azərbaycanın Zəngibasar rayonunun Qaraqışlaq kəndində anadan olub. Bakı şəhərindəki 155 №-li orta məktəbi bitirib. 1984-cü ildə V.İ.Lenin adına APİ-nin məktəbəqədər tərbiyə fakültəsini fərqlənmə diplomu ilə bitirib. Pedaqogika və psixologiya müəllimi ixtisasını alıb.Tələbəlik illərində fakültə komsomol komitəsinin katibi olub, sonra fəaliyyətini institut komsomol komitəsində davam etdirib.

1989–1993-cü illərdə Məktəbəqədər pedaqogika kafedrasının dissertantı olub. 1993-cü ildə "Təbiətlə tanışlıq məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsinin vasitəsi kimi" mövzusunda 13.00.01 – pedaqogika nəzəriyyəsi və tarixi ixtisası üzrə namizədlik dissertasiyasını müdafiə edərək, pedaqoji elmlər namizədi elmi dərəcəsini almışdır.1986-1997-ci illərdə Məktəbəqədər pedaqogika kafedrasında laborant, müəllim, baş müəllim, vəzifələrində çalışıb. 1998-ci ildə ona dosent elmi adı verilib. 1995-1997-ci illərdə Pedaqogika və psixologiya fakültəsinin dekan müavini, 1997-2001-ci illərdə həmin fakültənin dekanı, 2001-2011-ci illərdə Məktəbəqədər pedaqogika

kafedrasında dosent vəzifəsində çalışıb.

2011–2015-ci illərdə ADPU-nun pedaqogika və psixologiya fakültəsinin, 2015-2019-cu illərdə məktəbəqədər təhsil, psixoloji xidmət və korreksiyaedici təlim fakültəsinin dekanı vəzifəsində olub. Hazırda məktəbəqədər təhsil fakültəsinin dekanı, fakültə Elmi Şurasının sədri, Universitet Elmi Şurasının üzvüdür.

2014-cü ildə ADPU-da məktəbəqədər təhsil sahəsində ilk olaraq "Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin elmi-pedaqoji əsasları" (2014) mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Azərbaycan Respublikası Prezidenti yanında AAK tərəfindən ona 2015-cı ildə pedaqoji elmlər doktoru elmi dərəcəsi verilib. Respublikada məktəbəqədər təhsil sahəsində ilk elmlər doktorudur.

Azərbaycanda məktəbəqədər təhsilin nəzəri və tarixi problemlərinin araşdırılması, sosial tərbiyə işinin və inklüziv təhsillin təşkili tendensiyalarının müəyyənləşdirilməsi, məktəbəqədər yaşlı uşaqların sosial inkişafı və tərbiyəsi məsələlərinin öyrənilməsi onun tədqiqatlarının əsasını təşkil edir.

Ş.Q.Əliyeva pedaqogikanın bir sıra aktual problemlərinə həsr olunmuş elmi seminarlarda və müşavirələrdə iştirak etmiş, qabaqcıl təcrübənin yayılmasında fəal rol oynamışdır. Ş.Əliyevanın tədqiqatları pedaqogika və məktəbəqədər pedaqogika elminin bir çox sahələrini əhatə edir. O, 3 monoqrafiya, 4 dərs vəsaiti, 4 modul-dərs vəsaitinin, 6 metodik vəsaitin, 21 proqram və 90 elmi-pedaqoji məqalənin müəllifi (2 məqalə Web of Science Core Collection), 11 kitabın, bir neçə tədris proqramının redaktoru və 1 kitabın tərtibçisidir. Respublikamızda və xaricdə 22 beynəlxalq və respublika konfransının iştirakçısı olub. Ş.Əliyeva Rusiyanın Pyatiqorsk (2010), Özbəkistanın Daşkənd (2011), Naxçıvan (2011), Bakı (2015), Rusiyanın Qroznı (2017), Ukraynanını Dnepr (202, onlayn) şəhərlərində bir sıra beynəlxalq, həmçinin bir çox respublika (Bakı:1990-2021-ci illər) və s.elmi-praktik konfranslarının iştirakçısı olub.

Əsərləri Bakı, Moskva, Pyatiqorsk, Minsk, Qroznı, İstanbul, Daşkənd, Alma-Ata, Astana, Kazan, Krasnodar, Dnepr şəhərlərinin nü-

fuzlu jurnallarında və elmi məcmuələrində Azərbaycan, rus, türk, ingilis, ispan dillərində çap edilib.

ADPU-da keçirilən "İlin alimi" (2010) müsabiqəsinin qaliblərindən biri olub. 2016-2018-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın ADPU-nun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü olub.

Hazırda yeni tərkibdə Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın ADPU-nun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvüdür.

2016-cı ildən ADPU-nun elmi əsərləri olan "Pedaqoji Universitetin Xəbərləri" elmi jurnalının "Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası"nın redaksiya heyətinin üzvü, "Musiqi elmi, mədəniyyət və təhsilin aktual problemləri" jurnalının redaksiya komissiyasının məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə sədridir. 2018-ci ildən Özbəkistan Andican Dövlət Pedaqoji Universitetinin "Илмий хабарнома. Педагогик тадқиқотлар" jurnalının , 2019-cu ildən Ankara Eğitim Araştırmaları Dərgisinin, 2020-ci ildən "Məktəbəqədər və ibtidai təhsil" elmi-metodik jurnalının redaksiya heyətlərinin üzvüdür. Ş.Əliyeva elmlər doktoru proqramı üzrə işləyən doktorantın elmi məsləhətçisi, fəlsəfə doktoru proqramları üzərində çalışan doktorantların elmi rəhbəridir. Bir çox beynəlxalq layihələrin iştirakçısıdır.

ADPU-da "Müasir təhsil və tədrisə yardım mərkəzi", "Dünyaya baxış" təşkilatı və Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi ilə inklüziv təhsilə dair pilot layihənin həyata keçirilməsində fəal iştirak edib. Avropa İttifaqının texniki yardımı çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyinin "Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin İcrasına Dəstək" dəstəkləmək üçün "Uşaq baxıcısı" peşə standartının, kvalifikasiya standartları və qiymətləndirmə standartlarının hazırlanması prosesində iştirak edib. Azərbaycan Respublikası Milli Kvalifikasiya Çərçivəsi layihəsində peşə standartları hazırlayan işçi qrupun üzvü olaraq ixtisasın modul dərs vəsaitlərini hazırlayıb. Avropa İttifaqının "Azər

baycanda vətəndaş cəmiyyətinin iştirakı ilə təhsil sisteminin müasirləşdirilməsi və inklüziv təhsilin tətbiqi" proqramı çərçivəsində Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi tərəfindən həyata keçirilən "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi və YUNİSEF tərəfindən həyata keçirilən "Azərbaycanda əlilliyi olan uşaqlar üçün inklüziv keyfiyyətli təhsilin genişləndirilməsi" layihəsində ADPU üzrə işçi qrupun üzvüdür 2019-cu ildən Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının professorudur. Məktəbəqədər pedaqogika, sosial pedaqogika, məktəbəqədər pedaqogika və məktəbəqədər təhsilin tarixi fənlərindən dərs deyir.

Əsas elmi əsərləri:

1.Məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsinin formaları, yolları və vasitələr. (metodik vəsait). Bakı, ADPU, 1997
2.Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində milli qaynaqlardan istifadə." (dərs vəsaiti). Bakı, ADPU, 2008.
3.Uşaqların emosional aləminin inkişafı. (dərs vəsaiti). "Elm və təhsil", Bakı, 2010.
4.Məktəbəqədər təhsilin aktual problemləri. (monoqrafiya). Bakı, "Elm", 2010.
5.Məktəbəqədər təhsildə təlim və tərbiyənin metodikası. (metodik vəsait). ADPU, Bakı, 2016.
6.Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsi. (monoqrafiya). Bakı, ADPU, 2018.
7.Məktəbəqədər yaşlı uşaqların sosial inkişafının aktual problemləri. (monoqrafiya). Bakı, ADPU, 2019.
8.Məktəbəqədər təhsildə müasir pedaqoji texnologiyalar. (metodik vəsait). Bakı, 2020.
9.Sosial pedaqogika. (dərs vəsaiti). Bakı, ADPU, 2021.
10.Süjetli-rollu oyunlar və onlara rəhbərliyin metodikası. (metodik vəsait). Bakı, ADPU, 2020.
11.Gündəlik xidmətlərin həyata keçirilməsi. (Modul dərs vəsaiti). (AMKÇİD layihəsi tər. hazırlanıb). Bakı, ARTN və ARTİ, 2020.

12. Təlim-tərbiyə və inkişaf prosesinin həyata keçirilməsi. (Modul:-dərs vəsaiti). (AMKÇİD layihəsi tər.hazırlanıb). Bakı, ARTN və ARTİ, 2020, 297 s.
13. Dəstəkləyici və təhlükəsiz mühitin yaradılması (Modul dərs vəsaiti). (AMKÇİD layihəsi tər.hazırlanıb). Bakı, ARTN və ARTİ, 2020.
14. Ailələrlə işin həyata keçirilməsi. (Modul:dərs vəsaiti). (AMKÇİD layihəsi tər.hazırlanıb). Bakı, ARTN və ARTİ, 2020.
15. Məktəblərdə məktəbəhazırlığın təşkili metodikası. (metodik vəsait.) Bakı, ADPU, 2020.
16. Pedagogıcal aspects of preschool educatıon and the formatıon of educatıonal motıvatıon ın chıldren. Web of Science Core Collection , 2020 , s.361-374.
17. The Role of the didactic games in enhancing cognitive activity at preschool children, Web of Science Core Collection, 2020, Vol. 8, Núm. 2 (2020).




**Respublika təhsil şurasının sədri professor Əjdər Ağayevlə görüş (2016)**



# Zenfira Vəliyeva

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Zenfira İsmayıl qızı Vəliyeva 1940-cı ildə, Bakı şəhərində, ziyalı ailəsində anadan olub. 1958-ci ildə Bakıdakı 14 saylı orta məktəbi əla qiymətlərlə bitirib. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun ibtidai təhsilin pedaqogikası və metodikası fakültəsini fərqlənmə diplomu ilə bitirib (1958–1962 illər).

Tələbəlik illərində Tələbə Elmi Cəmiyyəti xətti ilə etdiyi məruzələr, fakültə və institutun ictimai həyatında fəal iştirakı professor-müəllim heyətinin nəzərini cəlb edib. Məhz bu səbəbdən Zenfira Vəliyevanın təyinatı APİ-nin İbtidai təhsilin pedaqogikası və metodikası kafedrasına müəllim kimi verilib. Həmin ildən 1968-ci ilə qədər İbtidai təhsilin pedaqogikası və metodikası kafedrasında müəllim, baş müəllim vəzifələrində çalışıb. 1968-ci ildən isə Məktəbəqədər pedaqogika kafedrasında fəaliyyət göstərir.

Z. Vəliyeva 1974-cü ildə “Yaşlıların əməyi ilə tanışlıq prosesində böyük məktəbəqədər yaşlı uşaqlarda Sovet Vətəninə məhəbbət hissinin tərbiyə edilməsi” mövzusunda namizədlik dissertasiyası-

nı müdafiə edib. 1975-ci ildə dosent vəzifəsinə seçilmişdir.

Dos. Z.Vəliyeva dəfələrlə Rusiya, Ukrayna, Belorusiya və başqa MDB respublikalarında, elmi praktik konfranslarda məruzə və tezislərlə çıxış edib. Çıxışları konfrans materiallarında çap olunub (1980, 1984). Respublikanın "Bilik" cəmiyyətinin xətti ilə təşkil edilmiş elmi-praktik konfransda məruzəsi I dərəcəli diploma layiq görülüb. Bu səbəbdən 1987-ci ildə Bolqarıstan Respublikasında təşkil edilmiş beynəlxalq konfransda Azərbaycandan nümayəndə kimi iştirak edib. Z. Vəliyeva dəfələrlə namizədlik dissertasiyalarının rəsmi opponenti olub.

Elmi fəaliyyətinə görə rektorluğun və AR Təhsil Nazirliyinin fəxri fərmanlarına və təşəkkürnamələrin, 2001-ci ildə "Əmək veteranı" adına layiq görülmüş dür. Dəfələrlə fakültə və universitet elmi şuralarının üzvü olub. Hazırda universitetin Ağsaqqallar Şurasının üzvüdür.

Z.Vəliyeva 100-dən çox kitabın, elmi məqalənin, fənn proqramlarının və metodik göstərişlərin müəllifidir.

Əsas elmi əsərləri:

1.Uşaqları öyrənmə və onlara yanaşma təcrübəsi (1967).
2.Məktəbəqədər yaşlı uşaqlarda vətənpərvərlik tərbiyəsi (1975).
3.Uşaqlara Vətənə məhəbbət tərbiyəsi aşılanmasında istifadə olunan üsul və vasitələr (1977).
4.Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsi (2012).
5.Məktəbəqədər yaşlı uşaqların inkişafının izlənilməsi və dəyərləndirilməsinə müasir yanaşmalar (2018).
6.Məktəbəqədər yaşlı uşaqlarda texnoloji biliklərin formalaşdırılması yolları (2019).



## Şərafət Baxışova

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Şərafət Aram qızı Baxışova 1960-cı il mart ayının 4-də, Bakı şəhərinin Buzovna qəsəbəsində, qulluqçu ailəsində anadan olub. 1977-ci ildə Buzovna qəsəbəsindəki 125 №-li orta məktəbi bitirib.

Ş.A.Baxışova Bakı Məktəbəqədər Pedaqoji Məktəbində (1984–1987), ADPİ-nin pedaqoji fakültəsində məktəbəqədər pedaqogika və psixologiya ixtisası üzrə (1990–1994) təhsil alıb.

1984–1997-ci illərdə Bakı şəhərinin müxtəlif məktəbəqədər təhsil müəssisələrində tərbiyəçi, metodist vəzifələrində çalışıb.

1994-cü ildə Nizami rayonu, 125 №-li körpələr evi-uşaq bağçasına müdir vəzifəsinə təyin edilib. Öz bacarığı, işgüzarlığı və təşkilatçılığı ilə körpələr evi-uşaq bağçasında təlim-tərbiyə işlərinin yüksək səviyyədə qurulmasına nail olub.

Ş.A.Baxışovanın bu fəaliyyəti nəzərə alınaraq, 1997-ci ildə AR Təhsil Nazirliyi Dövlət Nəzarət İdarəsində aparıcı mütəxəssis vəzifəsinə təyin olunub. 1998-ci ildə Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun dissertantı olub. 2001-ci ildə AR Təhsil Problemləri

İnstitutunun Təhsilin konseptual problemləri şöbəsində, 2004-cü ildə Məktəbəqədər təlim və tərbiyə şöbəsində elmi işçi, 2009–2012-ci illərdə TPİ-nin Kurikulum Mərkəzində aparıcı elmi işçi vəzifəsində çalışıb.

Ş.A.Baxışova 2006-cı ildə "Məktəbəqədər müəssisələr və ibtidai siniflərdə islam dəyərlərindən istifadə üzrə işin təşkili yolları" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək, pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb.

Elmi rəhbəri professor Y.Kərimov, elmi məsləhətçisi akademik V.Məmmədəliyev və başqa nüfuzlu pedaqoq-alimlər Ş.A.Baxışovanın tədqiqatının aktual və dəyərli bir əsər olduğunu qeyd ediblər. 2012-ci ildə dosent elmi adını almışdır. Ş.A. Baxışova ARTPİ-nin Kurikulum Mərkəzində aparıcı elmi işçi vəzifəsində çalışmaqla yanaşı, eyni zamanda, pedaqoji fəaliyyətlə də məşğul olub. 2000–2006-cı illərdə Azərbaycan Müəllimlər İnstitutunun Sumqayıt filialında, 2007–2013-cü illərdə isə Azərbaycan Dillər Universitetində baş müəllim vəzifəsində çalışıb.

Ş.A.Baxışova 2018-ci ildə, Azərbaycan Dövlət Pedaqoji Universitetində pedaqoji elmlər üzrə ixtisaslaşmış müdafiə şurasında "Məktəbəqədər təhsil pilləsində inkişafetdirici təlimin nəzə- ri-praktik əsasları" mövzusunda pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün doktorluq dissertasiyasını müdafiə edib. Elmi rəhbəri pedaqogika üzrə elmlər doktoru, professor F.A.Rüs təmov, rəsmi opponentlər – pedaqogika üzrə elmlər doktoru, professor A.N.Abbasov, pedaqogika üzrə elmlər doktoru, professor H. Əlizadə, psixologiya üzrə elmlər doktoru, professor R.İ.Əliyev və başqa mütəxəssis alimlər Şərafət Baxışovanın tədqiqat işini yüksək qiymətləndirmişlər.

Ş.A. Baxışovanın tədqiqatları məktəbəqədər təhsil sahəsini əhatə edir. O, 2 monoqrafiya, 2 dərslik, 8 metodik və 1 didaktik vəsait, 11 proqram, 80-dən artıq elmi-pedaqoji məqalənin müəllifidir. Onun məqalələri Bakıda, Moskvada, Tolyattidə, Kiyevdə, Sankt-Peterburqda, Dağıstanda, Odessada bir sıra nüfuzlu jurnallarda çap

olunmuşdur.

Ş.A.Baxışova tələbələri tərəfindən sevilən müəllim, pedaqoqdur. 2006–2012-ci illərdə Təhsil Nazirliyi və YUNİSEF-in birgə təşkil etdiyi treninqlərdə orta məktəb müəllimləri üçün fəal təlim və kurikulum üzrə təlimlər aparıb.

2012-ci ildə "Məktəbəqədər təhsilin proqramı (kurikulumu)"nun hazırlanmasında AR Təhsil Nazirliyinin sərəncamı ilə yaradılan işçi qrupunun üzvü olub. 2013-cü ildə respublikanın müxtəlif bölgələrində "Məktəbəqədər təhsilin proqramı (kurikulumu)"nun tətbiqi ilə bağlı təşkil olunan treninqlərdə təlimlər aparıb. 2016-cı ildə məktəbəqədər təhsil haqqında qanun layihəsinin hazırlanması məqsədilə yaradılan işçi qrupunun və 2017-ci ildə məktəbəqədər təhsilin kurikulumunun təkmilləşdirilməsi ilə bağlı AR Təhsil Nazirliyi tərəfindən yaradılan işçi qrupunun üzvü olub.

Ş.A.Baxışovanın elmi-pedaqoji tədqiqatlarının əsas istiqamətləri bunlardır:

– uşaqların milli-mənəvi və dini tərbiyəsi;
– uşaqların məktəb təliminə hazırlığının pedaqoji əsasları;
– inkişafetdirici təlimin nəzəri-praktik əsasları;
– uşaq bağçasında pedaqoji prosesin təşkili;
– uşaqların məktəbəqədər təhsil müəssisələrinə sosial adaptasiya səviyyəsinin müəyyənləşdirilməsi;
– məktəbəqədər təhsildə innovasiyalar;
– məktəbəqədər təhsildə kurikulum islahatları;
– məktəbəqədər təhsildə müasir pedaqoji texnologiyalar və innovasiyalar;
– tərbiyəçinin pedaqoji ustalığı;
–uşaqlarda humanizm tərbiyəsi və s.

Əsas elmi əsərləri:

1.Kiçikyaşlı uşaqların tərbiyəsində islam dəyərlərindən istifadə. (metodik tövsiyə). Bakı, ADPU-nun nəşriyyatı, 2005.
2.İslam dəyərləri və kiçikyaşlı uşaqların mənəvi tərbiyəsi. (metodik vəsait). Bakı, "R.N.Novruz–94" nəşriyyatı, 2009.

3.Məktəbəqədər yaşlı uşaqların təlim hazırlığına aid didaktik tapşırıqlar. (didaktik vəsait). Bakı, "Nasir", 2010.
4.Məktəbəqədər müəssisələr və ibtidai siniflərdə islam dəyərlərindən istifadə üzrə işin təşkili yolları. (monoqrafiya). Bakı, "R.N. Novruz-94" nəşriyyatı, 2011.
5.Uşaq bağçalarında gəzintilərin təşkili. (metodik vəsait). Bakı, "Apostrof" nəşriyyatı, 2011.
6.Məktəbəqədər təhsil müəssisələrində uşaqların nitq inkişafı. (metodik və sait). Bakı, ADPU-nun nəşriyyatı, 2012.
7.Məktəbəqədər müəssisələr və ibtidai siniflərdə islam dəyərlərindən istifadə üzrə işin təşkili. (metodik vəsait). Bakı, ADPU-nun nəşriyyatı, 2012.
8.Psychological and pedagogical features of developing training in preschool education. "International Journal of Biology, Pharmacy and Allied Sciences (IJ-BPAS)", 2015.
9.Məktəbəqədər təhsil: konseptual problemlər. (monoqrafiya). Bakı, "Elm və təhsil", 2015.
10.Məktəbəqədər təhsilin yeni məzmunu və idarə olunması məsələləri. (metodik vəsait). ARTPİ-nun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2016.



## Zərifə Zeynalova

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Zərifə Əbülfət qızı Zeynalova 1958-ci il, oktyabr ayının 29-da, Bakı şəhərində anadan olmuşdur. 1965–1976-cı illərdə Bakı şəhəri, 226 saylı orta məktəbdə oxuyub.

1976–1980-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin məktəbəqədər tərbiyə fakültəsində ali təhsil alıb. 1980–1984-cü illərdə Bakı şəhərindəki 195 saylı uşaq bağçasında tərbiyəçi işləyib.1984-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinə, müsabiqə yolu ilə müəllim vəzifəsinə seçilib.

1994-cü ildə "Uşaq bağçasının böyük qruplarında ətraf aləmlə tanışlıq prosesində lüğət ehtiyatının zənginləşdirilməsi" mövzusunda dissertasiya müdafiə edərək, Azərbaycan dilinin tədrisi metodikası ixtisası üzrə pedaqoji elmlər namizədi elmi dərəcəsini alıb.

1994-cü ildə ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrasına baş müəllim, 2000-ci ildə isə dosent vəzifəsinə seçilib.

Əsas elmi əsərləri:

1.Məktəbəqədər yaşlı uşaqların sadə riyazi təsəvvürlərinin formalaşdırılması metodikası. (tədris vəsaiti). Bakı, 1993.

2.Məktəbəqədər pedaqogika tarixi. (metodik vəsait). Bakı, N.Tusi adına ADPU-nun nəşriyyatı, 1994.

3.Məktəbəqədər tərbiyə müəssisələrində fiziki tərbiyənin təşkili formaları. Bakı, N.Tusi adına ADPU-nun nəşriyyatı, 1994.

4.Uşaq bağçasında fiziki tərbiyə işinə rəhbərlik. (metodik vəsait). N.Tusi adına ADPU-nun nəşriyyatı, Bakı, 1999.

5.Folklor nümunələrində məktəbəqədər yaşlı uşaqların tərbiyə problemi. (dərs vəsaiti). Bakı, ADPU-nun nəşriyyatı, 2011.

6.Məktəbəqədər yaşlı uşaqların fiziki inkişafı və tərbiyəsi. (dərs vəsaiti). Bakı, ADPU-nun nəşriyyatı, 2013.

7.Məktəbəqədər yaş dövründə uşaqların fiziki inkişafı və tərbiyəsi. //“İbtidai məktəb və məktəbəqədər tərbiyə” //. Bakı, 2013, № 1.

8.Ümummilli lider Heydər Əliyev. //Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunan konfransın materialları //. Bakı, ADPU-nun nəşriyyatı, 2013.

9.Məktəbəqədər yaşlı uşaqların əməyinin özünəməxsus xüsusiyyətləri. //Bakı Qızlar Universitetinin “Elmi əsərlər”i //, Bakı, 1914, №3.



## Təranə Sadıqova

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Təranə Buta qızı Sadıqova 1968-ci ildə, Bakı şəhərində, ziyalı ailəsində anadan olub. Bakı şəhərində 240 saylı məktəbi bitirib. 1991-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin pedaqogika və psixologiya müəllimi (məktəbəqədər) ixtisasını fərqlənmə diplomu ilə bitirib.

1991–1995-ci illərdə Bakı şəhəri, 96 nömrəli uşaq bağçasında tərbiyəçi vəzifəsində işləyib. 2006-cı ildə namizədlik dissertasiyası müdafiə edərək, pedaqogikanın nəzəriyyəsi və tarixi ixtisası üzrə elmi dərəcə alıb. Müasir təhsil proqramları üzrə təlimlərdə iştirak edib və müvafiq sertifikatlar alıb.1997–2015-ci illərdə ADPU-nun İbtidai təhsilin pedaqogikası və metodikası kafedrasında laborant, müəllim, baş müəllim vəzifələrində çalışıb. 2015-ci ildən ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası kafedrasında dosent vəzifəsində işləyir. 2012–2015-ci illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodik Şurasının məktəbəqədər və ibtidai təhsil bölməsinin üzvü olub. Məktəbəqədər təhsil üzrə proqramlar, milli məzmun standartlarının hazırlanması üzrə işçi qrupunun üzvü kimi

fəaliyyət göstərib. Məktəbəqədər təhsilin kurikulumunun tətbiqi ilə bağlı Tərtər, Goranboy və Tovuz rayonlarında təlimlər aparıb.

T.B. Sadıqova 85 əsərin – kitab, metodik vəsait, proqram, jurnal məqaləsi və məruzə tezislərinin müəllifidir.

Əsas elmi əsərləri:

1. Məktəbəhazırlıq qrupunda ətraf aləmlə tanışlıq üzrə məşğələlər. (metodik vəsait). Bakı, 2008.
2. Uşaq bağçasının böyük qrupunda fiziki mədəniyyət məşğələləri. (metodik vəsait). Bakı, 2009.
3. Məktəbəhazırlıq qrupunda fiziki mədəniyyət məşğələləri.(metodik vəsait). Bakı, 2009.
4. Uşaqlar üçün qaydalı oyunlar. (metodik vəsait). Bakı, 2009.
5. Məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkili. (dərs vəsaiti). Bakı, 2010.
6. Məktəbəqədər pedaqogikaya dair icmal və sxemlər. (dərs vəsaiti). Bakı, 2010.
7. Məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanışlığı prosesində didaktik oyunlardan istifadə. (metodik vəsait). Bakı, 2011.
8. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafına xidmət edən didaktik oyunlar. (metodik vəsait). Bakı, 2011.
9. Məktəbəqədər yaşlı uşaqların sadə riyazi təsəvvürlərinin formalaşdırılmasına xidmət edən didaktik oyunlar. (metodik vəsait). Bakı, 2012.
10. Uşaq bağçasının ailə ilə birgə işi. (dərs vəsaiti). Bakı, 2012.
11. Məktəbəqədər təhsil müəssisələrində nitq inkişafı məşğələləri. (metodik vəsait). Bakı, 2012.
12. Uşaq bağçasında fiziki mədəniyyət. (metodik vəsait). Bakı, 2013.
13. Məktəbəhazırlıq üzrə təlimin təşkili metodikası. (metodik vəsait). Bakı, 2016.
14. Məktəbəqədər təhsil müəssisələrində oyunların təşkili metodikası. (metodik vəsait). Bakı, 2017.
15. Məktəbəqədər təhsil müəssisələrində fiziki mədəniyyət məşğələləri. (metodik vəsait). Bakı, "Nərgiz", 2019.
16. Məktəbəqədər yaşlı uşaqlar üçün didaktik oyunlar. (metodik vəsait). Bakı, "Nərgiz", 2019.
17. Məktəbəqədər pedaqogika. (dərs vəsaiti). Bakı, "Nərgiz", 2020.



## Sona Sadıqova

Pedaqogika üzrə
fəlsəfə doktoru,
baş müəllim

Sona Mirağa qızı Sadıqova 20 aprel 1952-ci ildə, Ucar rayonunda anadan olub. 1968-ci ildə orta məktəbi bitirib.1969-cu ildə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutu, pedaqogika və psixologiya fakültəsinin qiyabi şöbəsinə qəbul olunub, 1974-cü ildə institutu bitirib.1969-cu ildə AR Daxili İşlər Nazirliyinin 1 saylı uşaq bağçasında tərbiyəçi köməkçisi, 1971-ci ildən tərbiyəçi vəzifəsində işləyib. 1979-cu ildə V.İ.Lenin adına APİ-nin Məktəbəqədər pedaqogika kafedrasına laborant vəzifəsinə qəbul olunub. 1995-ci ildə böyük laborant vəzifəsinə keçirilib. 1997-ci ildə Məktəbəqədər pedaqogika kafedrasına müəllim vəzifəsinə, 2000-ci ildə həmin kafedrada baş müəllim vəzifəsinə təyin edilib.2010-cu ildə "Məktəbəqədər yaşlı uşaqlarda vətənpərvərlik hisslərinin inkişaf etdirilməsi üzrə işin sistemi" mövzusunda dissertasiya müdafiə edib, pedaqoji elmlər namizədi elmi dərəcəsini alıb.Bir sıra konfransların iştirakçısı olub, məruzələrlə çıxış edib. O, bir neçə elmi-pedaqoji və tədris-metodik əsərlərin müəllifidir.

Əsas elmi əsərləri:

1.Məktəbəqədər yaşlı uşaqların sosial-əxlaqi tərbiyəsi məsələləri (hərbi vətənpərvərlik) (dərs vəsaiti). Bakı, ADPU-nun nəşriyyatı, 2016.

2. Məktəbəqədər yaşlı uşaqlarda hərbi vətənpərvərlik haqqında ilkin təsəvvürlərin formalaşdırılması. (monoqrafiya). Bakı, ADPU-nun nəşriyyatı, 2017.

3. Təhsil və cəmiyyət. (dərs vəsaiti). Bakı, ADPU-nun nəşriyyatı, 2021.



## Sədaqət Əliyeva

### Pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim

Sədaqət Ağarəhim qızı Əliyeva 29 yanvar 1970-ci ildə, Bakı şəhərində anadan olub. 1987-ci ildə Bakı şəhərinin Sabunçu rayonundakı 187 nömrəli məktəbi bitirib və həmin ildə də N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin pedaqogika və psixologiya (məktəbəqədər) fakültəsinə qəbul olunub. 1991-ci ildə universiteti bitirəndən sonra Məktəbəqədər təhsilin pedaqogikası kafedrasında çalışır. 2010-cu ildə "Ustadnamələrdə tərbiyə məsələləri" mövzusunda dissertasiya müdafiə etmiş və pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

1 dərslik, 4 dərs vəsaiti, 3 metodik vəsait, 1 monoqrafiya, 8 proqram, 27 məqalə (xaricdə 4 məqalə) və 5 tezisi (1 tezis xaricdə) çap olunub. AR Təhsil Nazirliyi tərəfindən təşkil edilmiş layihələrdə, kurslarda, seminarlarda iştirak edib, pedaqoji fəaliyyət sahəsində bir cox sertifikatlar alıb.

YUNİSEF təşkilatı tərəfindən AR Təhsil Nazirliyi ilə əməkdaşlıqda və Avropa İttifaqının maliyyə dəstəyi ilə "2018–2024-cü illərdə

Azərbaycan Respublikasında inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"na dəstək olaraq Azərbaycanda İnklüziv Təhsilin Genişləndirilməsi üzrə Layihədə təlimçi kimi fəaliyyət göstərmişdir.

Əsas elmi əsərləri:

1. Ustadnamələr. (dərs vəsaiti). Bakı, ADPU-nun nəşriyyatı, 2006.
2. Ustadnamələrdə tərbiyə məsələləri. (monoqrafiya). Bakı, ADPU-nun nəşriyyatı, 2012.
2.Etnopedaqogika. (dərslik). Bakı, ADPU-nun nəşriyyatı, 2016.
3.Xalq pedaqogikasında tərbiyə məsələləri. (dərs vəsaiti). Bakı, ADPU-nun nəşriyyatı, 2016.
4.Xalq tərbiyəsinin amilləri və vasitələri. (metodik vəsait). Bakı, ADPU-nun nəşriyyatı, 2016.
5.Məktəbəqədər yaşlı uşaqların milli mədəniyyətlə tanışlığının təşkili metodikası. (metodik vəsait). Bakı, ADPU-nun nəşriyyatı, 2019.
6.Məktəbəqədər yaşlı uşaqlarla tərbiyə işinin təşkili metodikası. (metodik vəsait). Bakı, ADPU-nun nəşriyyatı, 2019.
7.Məktəbəqədər pedaqogika tarixində metodoloji yanaşmalar (M. Montessorinin pedaqoji ideyaları əsasında).(dərs vəsaiti). Bakı, ADPU-nun nəşriyyatı, 2021.
8.Məktəbəqədər təhsilin inkişaf tarixi. (dərs vəsaiti). Bakı, ADPU-nun nəşriyyatı, 2021.



## Pərişan Həsənova

Pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim

Pərişan Məhərrəm qızı Həsənova 1967-ci ildə, Yevlax rayonunun Qaraoğlan kəndində anadan olub. Yevlax rayonunun Qaraoğlan kənd orta məktəbini əla qiymətlərlə bitirmişdir. 1985-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin (keçmiş V.İ.Lenin adına APİ) məktəbəqədər tərbiyə fakültəsinə daxil olub. 1989-cu ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirib və məktəbəqədər tərbiyə (pedaqogika və psixologiya) ixtisasına yiyələnib.

Oxuduğu müddətdə institut həmkarlar təşkilatının adlı təqaüdünü alıb, fakültə TEC-nin sədri, İnstitut Elmi Şurasının üzvü olub.

1989-cu ildə Mingəçevir şəhər 11 №-li körpələr evi-uşaq bağçasında tərbiyəçi kimi əmək fəaliyyətinə başlayıb, 2000–2005-ci illərdə Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun dissertantı olub. 2012-ci ildə ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası üzrə ““Kitabi-Dədə Qorqud” dastanlarında mənəvi tərbiyə məsələləri” mövzusunda fəlsəfə doktorluğu üzrə dissertasiya müdafiə edib və pedaqogika üzrə fəlsəfə dokto-

ru elmi dərəcəsini alıb. 2002–2007-ci illərdə Azərbaycan Müəllimlər İnstitutunun Mingəçevir filialında Pedaqogika və ictimai elmlər kafedrasında baş müəllim vəzifəsində fəaliyyət göstərib. 2007–2015-ci illərdə Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunda Elmi-Pedaqoji Tədqiqatlar Mərkəzinin Təhsilin konseptual problemləri şöbəsində aparıcı elmi işçi, 2012–2016-cı illərdə Bakı Qızlar Universitetində Pedaqogika kafedrasının müdiri vəzifəsində çalışıb.

P.M.Həsənova 2015-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrasına baş müəllim vəzifəsinə təyin edilib və 2018-ci ildən həmin kafedrada dosent vəzifəsinə seçilib. O, bir monoqrafiya, üç dərs vəsaiti, üç metodik vəsait, on dörd proqram, qırxdan çox elmi məqalə və tezisin müəllifidir. P.M.Həsənovanın impakt faktorlu jurnallarda dörd elmi məqaləsi çap olunub. Bir sıra beynəlxalq və respublika konfranslarında elmi məqalə və tezislərlə çıxış edib.

SABAH qruplarında məktəbəqədər pedaqogika fənnini tədris edir. P.M.Həsənova bakalavriat səviyyəsi üçün "Uşaq fəaliyyətinin psixoloji yası" (1998), "Ailə pedaqogikasının kurikulumu" (2015), "Məktəbəqədər yaşlı uşaqların sosial-mənəvi inkişafı" (2017), "Ailədə milli tərbiyə məsələləri" (2017), "Məktəb təliminə hazırlığın əsasları" (2019), magistratura təhsil pilləsi üçün "Ailə dəyərləri" (2015), "Məktəbəqədər təhsil müəssisələrində öyrənmə-idrak fəaliyyəti" (2017), "Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsi" (2021), "Məktəbəqədər yaşlı uşaqların humanizm tərbiyəsi" (2021), "Müasir pedaqoji texnologiyalar və idrakın inkişafı" (2021) və s. proqramların müəllifidir.

P.M. Həsənova fakültə Tədris-Metodik Şurasının və universitetin Elmi Metodiki Şurasının üzvüdür.

Əsas elmi əsərləri:

1.“Kitabi-Dədə Qorqud” dastanlarında mənəvi tərbiyə məsələləri. (monoqrafiya). Bakı, 2015.

2.Məktəbəqədər yaşlı uşaqların sosial-mənəvi inkişafı. (dərs vəsa-

iti). Bakı, 2017.
3.Məktəbəqədər təhsil müəssisələrində öyrənmə-idrak fəaliyyəti. (magistratura səviyyəsi üçün dərs vəsaiti,). Bakı, 2019.
4."Məktəb təliminə hazırlığın əsasları" fənnindən mühazirə konspektləri.(dərs vəsaiti). Bakı, 2019.
5.Ümumtəhsil məktəblərində dərs cədvəlinin tərtibinə verilən didaktik tələblər. (metodik tövsiyə). Bakı, 2015.
6.Məktəbəqədər müəssisələrdə uşaq əməyinin təşkilinə müasir yanaşmalar. (metodik vəsait). Bakı, 2017.
7.Folklor nümunələri əsasında uşaqlarda mənəvi keyfiyyətlərin formalaşdırılması. (metodik vəsait). Bakı, ADPU-nun nəşriyyatı, 2021.



## Pərvin Cəfərova

Pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim

Pərvin Aydın qızı Cəfərova 1975-ci il avqust ayının 8-də, Bakı şəhərində, ziyalı ailəsində anadan olub. 1991-ci ildə Xətai rayonundakı 116 saylı orta məktəbi əla qiymətlərlə bitirib. Elə həmin il Bakı Məktəbəqədər Pedaqoji Texnikumuna qəbul olunub. 1995-ci ildə texnikumu musiqi müəllimi, əlavə məktəbəqədər müəssisələrdə tərbiyəçi ixtisası üzrə bitirib. 1995-ci ildə Xətai rayonunun 55 saylı körpələr evi-uşaq bağçasında tərbiyəçi vəzifəsində çalışmağa başlayıb. 1997-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin ibtidai təhsilin pedaqogikası və metodikası fakültəsinə qəbul olunub. 2002-ci ildə oranı fərqlənmə diplomu ilə bitirib. 2004-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin ibtidai təhsilin pedaqogikası və metodikası ixtisası üzrə magistratura səviyyəsini fərqlənmə diplomu ilə bitirib.

2004-cü ildə həmin universitetin Məktəbəqədər pedaqogika kafedrasında müəllimlik fəaliyyətinə başlayıb. 2012-ci ildə Məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrasına baş müəl-

lim vəzifəsinə seçilib.

2015-ci ildə "Azərbaycanda məktəbəqədər pedaqogikanın inkşafı (XX əsrin II yarısı – XXI əsrin əvvəlləri)" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək, pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır. P.A.Cəfərova təlimçi, mentor, monitorinq rəhbəri olaraq fəaliyyət göstərib. 2013–2017-ci illərdə məktəbəqədər təhsilin kurikulumu üzrə təlimlərdə Bakı, Sumqayıt şəhərlərində, Saatlı, Sabirabad, Kürdəmir, Siyəzən, İsmayıllı rayonlarında təlimçi kimi fəaliyyət göstərib. Uzun müddət Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda mühazirələr oxuyub.

P.A.Cəfərova 34 adda elmi əsərin – 22 məqalə, 8 məruzə tezisi və bir neçə proqramın müəllifidir. Əlliyə yaxın beynəlxalq və respublika əhəmiyyətli elmi pedaqoji konfranslarda iştirak etmiş və sertifikatlar almışdır. "Gender və təhsil", "Gender bərabərliyinin təminatları haqqında", "Ümumi orta təhsil səviyyəsi üzrə yeni fənn kurikulumlarının tətbiqi və fəal təlim", "UNİCEF unite for children", "Məktəbəqədər Təhsil Kurikulumu üzrə Öyrədənlərin Öyrədəni", ali təhsil müəssisələri üçün "Ümumi təhsil kurikulumunun əsasları", "Təhsil prosesində uşaqlara şəxsiyyətyönümlü, humanist yanaşmanın əsasları", "Məktəbəqədər təhsildə men torluq sisteminə giriş", "Mentorluq sisteminin yaradılması", "Undersanding and Developing Young Learners through Educational pedaqogogies and Frame work", "Ustad təlimçi" və s. təlimlərdə iştirak etmişdir.

Əsas elmi əsərləri:

1.Körpə yaşlı (0–2) uşaqların tərbiyəsi. (dərs vəsaiti). Bakı, 2010.
2.Tərbiyənin əxlaqi və sosial problemləri. (monoqrafiya). Bakı, 2015.



## Səidə Abdullayeva

Pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim

Səidə Ataş qızı Abdullayeva 1973-cü il avqust ayının 28-də, Göyçay rayonunda anadan olub. 1990-cı ildə Bakı şəhəri, N. Nərimanov rayonundakı 36 №-li orta məktəbi gümüş medalla bitirib. 1990–1995-ci illərdə M.Ə.Rəsulzadə adına BDU-nun kimya fakültəsində ali təhsil alıb.

1995-ci ildə Naxçıvan Universitetinin Pedaqogika və psixologiya kafedrasında baş laborant və müəllim işləyib. 2000-ci ildə həmin universitetin humanitar fənlər fakültəsində dekan köməkçisi işləyib. 2001-ci ildən Azərbaycan Müəllimlər İnstitutunun ibtidai təhsilin pedaqogika və metodikası fakültəsində metodist, 2004-cü ildən həmin institutun Pedaqogika kafedrasında müəllim, baş müəllim vəzifələrində çalışıb.

S.A.Abdullayeva ARTPİ-nin dissertantı olub və 2007-ci ildə ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası üzrə dissertasiya müdafiə edib, pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb.

2016-cı ildən ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrasında baş müəllim kimi pedaqoji fəaliyyətə başlayıb. Bir sıra respublika və beynəlxalq elmi konfransların iştirakçısı olub. 20 məqalə, tezis, 1 dərs vəsaiti, 1 metodik vəsait, 4 proqram müəllifidir.

Əsas elmi əsərləri:

1.Sinifdənxaric tədbirlər vasitəsilə şagirdlərin milli mənlik şüurunun formalaşdırılması yolları. (metodik vəsait). Bakı, "Müəllim", 2006.

2.İbtidai məktəb pedaqogikası. (dərs vəsaiti). Bakı, ADPU-nun nəşriyyatı, 2016.





## Nigar İsmayılova

Pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim

Nigar Ramiz qızı İsmayılova 1983-cü il dekabrın 13-də, Bakı şəhərində anadan olub. 2000-ci ildə Suraxanı rayonundakı Ə.A.Eyvazov adına 275 saylı orta məktəbi bitirib və ibtidai təhsilin pedaqogika və metodikası ixtisası üzrə Azərbaycan Müəllimlər İnstitutunun pedaqogika fakültəsinə qəbul olunub.

2004-cü ildə həmin institutun bakalavr pilləsini müvəffəqiyyətlə bitirib və magistratura şöbəsində təhsilini davam etdirib. 2006-cı ildə magistraturanı fərqlənmə diplomu ilə bitirib. Həmin ildə Azərbaycan Müəllimlər İnstitutunda aspiranturaya qəbul olunub. 2009-cu ildə aspiranturanı bitirib. 2012-ci ildə "Müstəqillik illərində Azərbaycanda ibtidai təhsilin inkişafı (1918–1920-ci illər və müasir dövr)" adlı dissertasiya işini müdafiə edib. 2013-cü ildə pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb.

2008-ci il 15 sentyabr tarixindən 2016-cı ilin noyabrına kimi Azərbaycan Müəllimlər İnstitutunun Pedaqogika kafedrasında müəllim vəzifəsində çalışıb. 2016-cı ilin noyabr ayında AMİ-nin Azərbay-

can Dövlət Pedaqoji Universitetinə birləşməsi ilə əlaqədar olaraq, universitetin Məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrasında müəllim olaraq işini davam etdirib. 2018-ci ilin sentyabr ayından həmin kafedrada baş müəllim vəzifəsinə seçilib.

2016-cı ildən etibarən fakültənin Tədris-Metodik Şurasının katibidir. 2020–2021-ci tədris ilindən etibarən kafedrada elmi seminarlara rəhbərlik edir.

Pedaqogika, Azərbaycanda məktəbəqədər təhsil və pedaqogikanın inkişaf tarixi, ailədə milli tərbiyə məsələləri, ətraf aləmlə tanışlıq, məktəbəqədər yaşlı uşaqların sosial-emosional inkişafı problemlərinə dair 60 elmi əsərin müəllifidir.

Müxtəlif beynəlxalq seminar, simpozium və konfranslarda iştirak edib, 40-dan çox sertifikata layiq görülüb. Fəal təlim və kurikulumla bağlı, o cümlə dən, AR Təhsil Nazirliyinin keçirdiyi "Təhsilin əsasları" mövzusu ilə əlaqədar təlimlərdə iştirak edib, təlimçidir. 5 xarici və 13 respublika konfransında məqalələrlə, tezislərlə çıxış edib.

N.R. İsmayılova tələbələri tərəfindən yüksək dəyərləndirilən müəllimdir.

Tələbələrə qarşı qayğıkeşdir və öz peşəsini çox sevir.

Əsas elmi əsərləri:

1.Müstəqillik illərində Azərbaycanda ibtidai təhsilin inkişafı. (monoqrafiya). Bakı, 2013.
2.Məktəbəqədər yaşlı uşaqların ailədə tərbiyəsi. Bakı, 2018.
3.Məktəbəqədər yaşlı uşaqların ailə tərbiyəsində olan çətinliklər və onların aradan qaldırılması yolları. (metodik vəsait). Bakı, 2021.



## Vüsalə Əliyeva

Pedaqogika üzrə fəlsəfə doktoru, müəllim

Vüsalə Sərdar qızı Əliyeva 1983-cü il mart ayının 27-də, Bakı şəhərində anadan olub. 2000-ci ildə Bakı şəhərinin Xətai rayonundakı 64 saylı tam orta məktəbi bitirib.

2000-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun ibtidai təhsilin pedaqogika və metodikası fakültəsinə qəbul olunub və 2004-cü ildə təhsilin bakalavriat səviyyəsini, 2006-cı ildə isə həmin ixtisas üzrə magistratura səviyyəsini bitirib.

2012-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası üzrə doktorantura səviyyəsini bitirib. 2015-ci ildə "Təlim prosesində kiçikyaşlı məktəblilərin fəallığının yüksəldilməsində əməkdaşlıq prinsipindən istifadənin sistemi" mövzusunda dissertasiya müdafiə edib. 2016-cı ildə pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb.
2006–2009-cu illərdə Azərbaycan Müəllimlər İnstitutunun magistratura və doktorantura şöbəsində inspektor vəzifəsində çalışıb.
2007–2016-cı illərdə həmin institutun Pedaqogika kafedrasında

müəllim vəzifəsində işləyib. 2016-cı ildən etibarən ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası kafedrasında müəllim vəzifəsində işləyir.

YUNİSEF tərəfindən AR Təhsil Nazirliyi ilə əməkdaşlığa və Avropa İttifaqının maliyyə dəstəyi ilə "2018–2024-cü illərdə Azərbaycan Respublikasında inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"na dəstək olaraq, Azərbaycanda İnklüziv Təhsilin Genişləndirilməsi üzrə Layihədə həm monitorinq müşahidəçisi, həm də TOT təlimçi kimi fəaliyyət göstərib. "Azərbaycanda Milli Kvalifika siya Çərçivəsinin icrasına dəstək" layihəsi adlı təlimdə iştirak edib.

V.S.Əliyeva 1 monoqrafiya, 40-a yaxın elmi məqalə, 30-a yaxın beynəlxalq və respublika konfranslarında iştirak tezislərinin, 1 proqram və 2 metodik vəsaitin müəllifidir.

Əsas elmi əsərləri:

1.Məktəblərdə məktəbəhazırlığın təşkili metodikası. (metodik vəsait). Bakı, ADPU-nun nəşriyyatı, 2020.

2.The Ways In Which Teachers And Parents Work Mutually In The Inclusive Classroom, Pearson Journal Of Social Sciences & Humanities, Issn: 2717-7386, Pages 120-124.



## Sevinc Hacıyeva

Pedaqogika üzrə fəlsəfə doktoru, müəllim

Sevinc Təhməz qızı Hacıyeva 1988-ci ildə, Bakı şəhərində anadan olub. 2005-ci ildə Yasamal rayonundakı 176 saylı orta məktəbi bitirib. Elə həmin il Xəzər Universitetinin ingilis dili və ədəbiyyatı fakültəsinə daxil olub və 2009-cu ildə universiteti fərqlənmə diplomu ilə bitirib. 2011-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin məktəbəqədər təhsilin metodikası və metodologiyası ixtisası üzrə magistraturanı bitirib. 2012-ci ildə ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası üzrə ADPU-nun doktoranturasına daxil olub. 2015-ci ildə "Qafur Rəşad Mirzəzadənin pedaqoji fəaliyyəti və maarifçilik görüşləri" mövzusunda dissertasiya işini müdafiə edib. 2017-ci ildə pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb. 2012–2016-cı illərdə ADPU-nun Xarici dillər kafedrasında müəllim vəzifəsində çalışıb. 2017-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsilin pedaqogikası kafedrasında müəllim vəzifəsində çalışır. 16 məqalənin və 1 monoqrafiyanın müəllifidir. Əsas elmi əsərləri:

1.Pedaqoji irsimizdən. Q. R. Mirzəzadə. (monoqrafiya). Bakı, "Elm və Təhsil", 2014.



## Yeganə Məmmədova

Pedaqogika üzrə fəlsəfə doktoru, müəllim, sosial və humanitar işlər üzrə dekan müavini

Yeganə Xanoğlan qızı Məmmədova 1981-ci il fevral ayının 22-də, Bakı şəhərində anadan olub. 2000-ci ildə Yasamal rayonundakı Telman Abbasov adına 225 saylı orta məktəbi bitirib. Elə həmin il Bakı Kommersiya Texnikumunun mühasibat uçotu və audit ixtisasına daxil olub, 2002-ci ildə texnikumu fərqlənmə diplomu ilə bitirib. 2002-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun məktəbəqədər təhsilin pedaqogika və metodikası ixtisasına qəbul olunub, 2006-cı ildə ali məktəbi bitirib.

2009-cu ildə Azərbaycan Müəllimlər İnstitutunun magistraturasını məktəbəqədər təhsilin pedaqogika və metodikası ixtisası üzrə fərqlənmə diplomu ilə bitirib. Y.X. Məmmədova 2011-ci ildə təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Azərbaycan dilinin tədrisi metodikası) ixtisası üzrə əyani doktoranturaya qəbul olunub. 2014-cü ildə doktoranturanı müvəffəqiyyətlə bitirib və Azərbaycan Müəllimlər İnstitutunun Psixologiya kafedrasında baş laborant vəzifəsinə təyin edilib.

2018–2019-cu illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Keyfiyyətin təminatı şöbəsinin təşkil etdiyi müəllimlərin reytinq qiymətləndirilməsində müsabiqənin qaliblərindən biri olub.

2018-ci ildə "Məktəbəqədər yaşlı uşaqların nitqinin inkişaf etdirilməsinin məzmunu və yolları" mövzusunda dissertasiya işini müdafiə edib. 2020-ci ildə pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb.

Y.X. Məmmədova 1 monoqrafiya, 1 dərs vəsaiti, 3 proqram və 24-dən artıq elmi-pedaqoji məqalənin müəllifidir. Y.X. Məmmədovanın məqalə və tezisləri Bakıda, Moskvada, Qazaxıstanda, Kalininqradda, Penzada, bir sıra nüfuzlu jurnallarda çap olunub. Respublikamızda və xaricdə 27-yə yaxın respublika və beynəlxalq konfransın iştirakçısı olub.

Əsas elmi əsərləri:

1.Məktəbəqədər yaşlı uşaqların nitqinin inkişaf etdirilməsinin məzmunu və yolları. (monoqrafiya). Bakı, ADPU-nun nəşriyyatı, 2019.

2.Məktəbəqədər təhsil müəssisələrində uşaqların nitq inkişafı və səs mədəniyyəti üzrə işin təşkili. (dərs vəsaiti). Bakı, ADPU-nun nəşriyyatı, 2020.





## Elnarə Məmmədova

Pedaqogika üzrə fəlsəfə doktoru, müəllim

Elnarə Nəcəf qızı Məmmədova 1970-ci il dekabrın 24-də, Şamaxıda, müəllim ailəsində anadan olub. 1988-ci ildə Bakı şəhərindəki 80 nömrəli orta məktəbi gümüş medalla, 1993-cü ildə BDU-nun mexanika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1994–1995-ci illərdə ABPKİA və YHİ-nin yenidən hazırlanma fakültəsində praktik psixoloq ixtisasına yiyələnib. Bakı şəhərindəki 1, 3, 80, 72, 200 nömrəli məktəblərdə pedaqoji fəaliyyətlə məşğul olub. 276 nömrəli məktəbin tərbiyə işləri üzrə direktor müavini vəzifəsində işləyib. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. “Qızıl qələm” mükafatı laureatıdır.

E.N. Məmmədova Azərbaycan Respublikası Təhsil İnstitutunun dissertantı olmuş, 2010-cu ildə “Müstəqil Azərbaycanda ümumtəhsil məktəb dərsliklərinin inkişaf istiqamətləri“ mövzusunda namizədlik dissertasiyası müdafiə edərək, 2012-ci ildə pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır. 2010–2012-ci illərdə AR Təhsil Problemləri İnstitutunda riyaziy-

yatın kurikulumu şöbəsində aparıcı elmi işçi vəzifəsində çalışıb, kurikulum proqramının həmmüəlliflərindən biri olub. AR Təhsil Nazirliyinin Qiymətləndirmə Şurasının üzvü kimi fəaliyyət göstərib. Riyaziyyat müəllimləri üçün yeni ümumi orta təhsil kurikulumu üzrə təlimdə təlimçi kimi fəaliyyət göstərib.

2012–2018-ci illərdə ADPU-nun Pedaqogika kafedrasında saat hesabı müəllim kimi fəaliyyət göstərib. 2015–2018-ci illərdə Bakı Mühəndislik Universitetində baş müəllim vəzifəsində çalışmış, pedaqogika fənnini tədris etmişdir.

E.N.Məmmədova 2019-cu ildən ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası kafedrasında əvəzçiliklə baş müəllim vəzifəsində çalışır. Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmlər doktoru proqramı üzrə doktorantıdır. "Azərbaycanda pedaqoji fikrin formalaşmasında "Azərbaycan məktəbi" jurnalının rolu" mövzusunda doktorluq dissertasiyası üzərində işləyir.

E.N. Məmmədova 50-yə yaxın elmi məqalənin və iki kitabın müəllifidir. Məqalələrinin bir qismi Moskvada, Alma-Atada, Təbrizdə, Naxçıvanda, Türkiyədə çap olunub.

Əsas elmi əsərləri:

1. "Azərbaycan məktəbi" jurnalının nəşri tarixindən (1924–1991-ci illər). (dərs vəsaiti). Bakı, "Ərgünəş", 2019.
2. Ömrün əbədi işığında... (monoqrafiya). Bakı, "Ərgünəş", 2021.



## Xədicə Məmmədova

Baş müəllim

Xədicə Muxtar qızı Məmmədova 1946-cı ildə, Bakı şəhərində anadan olub. 1964-cü ildə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun ibtidai təhsilin pedaqogikası və metodikası fakültəsinin məktəbəqədər şöbəsinə daxil olub. 1972-ci ildə Məktəbəqədər pedaqogika kafedrasında laborant, 1973-cü ildə isə baş laborant vəzifəsinə təyin edilib.

1974-cü ildə Məktəbəqədər pedaqogika kafedrasına müəllim vəzifəsinə təyin edilib. 1984-cü ildə baş müəllim vəzifəsinə seçilib. Hazırda Məktəbəqədər təhsilin pedaqogikası kafedrasında baş müəllim vəzifəsində çalışır.

1978-ci ildə Rusiyanın Leninqrad şəhərində məktəbəqədər təhsillə bağlı Ümumittifaq konfransında iştirak və çıxış edib. Respublikanın elmi pedaqoji mətbuatında da bir neçə elmi məqaləsi çap olunub və bir sıra konfranslarda iştirak edib.



## Almaz Əhmədova

Baş müəllim

Almaz Hacıbala qızı Əhmədova 1952-ci ildə, Bakı şəhərində anadan olub. 1969-cu ildə N.Tusi adına 173 №-li orta məktəbi bitirib. Həmin ildə ADPİ-nin tədris hissəsində çalışmaqla bərabər, pedaqogika və psixologiya fakültəsinə qəbul olunub və 1975-ci ildə ali məktəbi bitirib.1976-cı ildə Məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrasına baş laborant vəzifəsinə təyin edlib.

1977–1978-ci tədris ilində institutun pedaqogika üzrə ixtisasartırma kursunu bitirib.Hesablama texnikasının əsasları və informatika ixtisası üzrə təhsil alıb.

1994-cü ildə AR Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun dissertantı olub. 1995-ci ildə Məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrasında müəllim, 2000-ci ildə isə baş müəllim vəzifəsinə təyin edilib.Universitetin ictimai həyatında fəal iştirak edir. Əmək fəaliyyətinin 50 illiyi münasibətilə Fəxri fərmanla təltif olunub.

Əsas elmi əsərləri:

1. Ana dilini uşaqların mənimsəmələrinin pedaqoji-psixoloji xüsusiyyətləri.(metodik vəsait). Bakı, "Maarif", 1995.
2. Zəif eşidən uşaqların tələffüzü üzərində işin təşkili yolları. (dərs vəsaiti). Bakı, "Maarif", 1998.3.
3. Uşaqların emosional aləminin inkişafı. (dərs vəsaiti). Bakı, "Elm və təhsil", 2010.
4. Ətraf aləmlə tanışlığın tədrisi metodikası. (dərslik). Bakı, "Nərgiz", 2015.



## Xalidə Həmidova

Baş müəllim

Xalidə Aydın qızı Həmidova 1981-ci il oktyabrın 7-də, Qax şəhərində anadan olub. 1997-ci ildə Qax şəhərindəki 2 saylı məktəb-liseyi bitirib. 2000–2004-cü illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində məktəbəqədər təhsilin pedaqogikası və metodikası ixtisası üzrə bakalavr təhsili, 2004–2007-ci illərdə isə Azərbaycan Dövlət Pedaqoji Universitetində pedaqogika nəzəriyyəsi və tarixi ixtisası üzrə magistr təhsili alıb. Bakalavr təhsili zamanı Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı (ATİAHİ) Respublika Komitəsinin adlı təqaüdünü ("Respublika") alıb.

2014–2018-ci illərdə ARTPİ-nin doktorantı olub. "Məktəbəqədər təhsil müəssisələrində nəticəyönümlü idarəetmənin pedaqoji əsasları" mövzusunda dissertasiya işi müdafiəyə təqdim edilmişdir.

X.A. Həmidova 2004-cü ildə H.Əliyev adına Müasir Təhsil Kompleksində tərbiyəçi köməkçisi, 2009–2010-cu illərdə Azərbaycan Milli Elmlər Akademiyasında elmi işçi, 2010–2013-cü illərdə Azərbaycan Müəllimlər İnstitutunda Əlavə təhsilə xidmət ka-

binetində metodist, 2013-cü ildən Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Məktəbəqədər və ibtidai təhsil" jurnalında şöbə redaktoru, 2015–2016-cı illərdə "Nərgiz" körpələr evi-uşaq bağçası MMC-nin direktoru vəzifəsində çalışıb. 2018-ci ildən ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası kafedrasında baş müəllim vəzifəsində fəaliyyət göstərir.

X.A. Həmidova 20-dən çox layihənin iştirakçısı olub. Təhsil sahəsində bir çox respublika səviyyəli işçi qruplarının üzvü olub. Son illərdə 50-dən çox beynəlxalq və yerli təlimlərdə iştirak edib. Xarici və yerli jurnallarda çap olunan 36 məqalə və tezisin, 17 metodik vəsaitin, bakalavr səviyyəsi üçün 4 dərs vəsaitinin, 2 proqramın müəllifidir.

Yeni fənn kurikulumlarının, məktəbəqədər təhsil kurikulumlarının tətbiqi üzrə təlim, özünədəstək qruplarının monitorinqi, məktəbdənkənar təhsil müəssisələrində 5–7 yaşlı uşaqlar üçün xüsusi təlim (İsrail proqramı üzrə), "Sağlam təhsil" layihəsi, məktəbəhazırlıq kurslarında dərs deyən ibtidai sinif müəllimləri üçün təlimlər, məktəbəhazırlıq üzrə vəsaitlərin hazırlanması, məktəbəqədər təhsil pilləsinin keyfiyyət standartları üzrə göstəricilər, məktəbəqədər təhsil müəssisələrinin akkreditasiya qaydaları, Milli Kvalifikasiya Çərçivəsinin icrasına dəstək layihəsinin kvalifikasiya standartlarının hazırlanması, Milli Kvalifikasiya Çərçivəsinin icrasına dəstək layihəsinin kvalifikasiya standartları üzrə modulların hazırlanması kimi layihələrdə təlimçi və təşkilatçı, işçi qrupunun üzvü, mentor, məsləhətçi, ekspert kimi fəaliyyət göstərib.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən "Sağlam Təhsil – Sağlam Millət" layihəsinin həyata keçirilməsində səmərəli fəaliyyətinə və əldə etdiyi uğurlara görə təşəkkürnamə ilə təltif olunub.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı tərəfindən Abşeron rayon məktəbəqədər təhsilinə dəstəyinə görə Fəxri fərmanla təltif olunub.

09–19 oktyabr, 2019-cu ildə Open World Leadership Center proq-

ramının dəstəyi ilə Amerikada səfərdə olub.

Əsas elmi əsərləri:

1.Azərbaycan və rus bölmələri üçün məktəbəhazırlıq qruplarına aid təlim vəsaitləri. “Məntiqi və riyazi təfəkkürün inkişafı”. (təlim vəsaiti). Bakı, “Çaşıoğlu”, 2016 (müştərək).

2.Azərbaycan və rus bölmələri üçün məktəbəhazırlıq qruplarına aid təlim vəsaitləri.“Savad təliminə hazırlıq və nitq inkişafı”. (təlim vəsaiti). Bakı, “Çaşıoğlu”, 2016 (müştərək).

3.Azərbaycan və rus bölmələri üçün məktəbəhazırlıq qruplarına aid təlim vəsaitləri “Təsviri fəaliyyət”. (təlim vəsaiti). Bakı, “Çaşıoğlu”, 2016 (müştərək).

4.İnkişafetdirici, dəstəkləyici və təhlükəsiz mühitin yaradılması (məktəbəqədər təhsil ixtisası üçün) (dərs vəsaiti). Bakı, ARTN, ARTİ, Aİ, 2020.

5.Gündəlik xidmətlərin həyata keçirilməsi (məktəbəqədər təhsil ixtisası üçün) (dərs vəsaiti). Bakı, ARTN, ARTİ, Aİ, 2020 (müştərək).

6.Ailələrlə işin həyata keçirilməsi (məktəbəqədər təhsil ixtisası üçün). (dərs vəsaiti). Bakı, ARTN, ARTİ, Aİ, 2020 (müştərək).



## Nərgiz Əhmədova

Müəllim

Nərgiz Edvinovna Əhmədova 13 fevral 1983-cü ildə, Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində anadan olub. 1989–1999-cu illərdə Bakı şəhərində, 82 saylı orta məktəbdə təhsil alıb.

1999–2003-cü illərdə Azərbaycan Beynəlxalq Universitetində ibtidai təhsilin pedaqogikası və metodikası ixtisası üzrə bakalavr səviyyəsində, 2004–2006-cı illərdə ADPU-nun ibtidai təhsilin pedaqogikası və metodikası ixtisası üzrə magistr səviyyəsində təhsil alıb. 2003–2005-ci illərdə "Heydər Əliyev irsi" Beynəlxalq Elektron Kitabxanasında redaktor-dilçi işləyib. 2005–2009-cu illərdə Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasında mütəxəssis, "Azərbaycan Bu Gün və Sabah" jurnalında koordinator vəzifələrində çalışıb. 2010–2016-cı illərdə Azərbaycan Universitetində müəllim vəzifəsində işləmişdir.2018-ci ildən ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası üzrə pedaqogika üzrə fəlsəfə doktoru proqramı üzrə dissertantıdır. 2017-ci ildən ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası kafedrasın da müəllim vəzifəsində çalışır. Son illərdə 15-dən çox təlimdə iştirak edib. Xarici və yerli jurnallarda çap olunan 10 məqalənin müəllifidir.



## Fəridə Səmədzadə

Müəllim

Fəridə Oqtay qızı Səmədzadə 19 fevral 1992-ci ildə, Hacıqabul rayonunda, ziyalı ailəsində anadan olub. 2009-cu ildə Hacıqabul rayonunda 1 saylı orta məktəbi bitirib. Həmin il Bakı Dövlət Univeristetinin coğrafiya fakültəsinin coğrafiya müəllimliyi ixtisasına qəbul olunub və 2013-cü ildə həmin ali məktəbi bitirib. 2013-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin məktəbəqədər təlim və tərbiyənin metod və metodologiyası ixtisasi üzrə təhsilin magistratura səviyyəsinə qəbul olunub. 2015-ci ildə magistraturanı bitirib və Azərbaycan Respublikası Təhsil İnstitutunun ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi ixtisası üzrə dissertanturasına qəbul olunub. "Məktəbəqədər yaşlı uşaqlara ailə ənənələrinə hörmət hissinin aşılanması" mövzusunda dissertasiya işi üzərində işləyir.

2015-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universiteti, məktəbəqədər təhsil fakültəsinin Məktəbəqədər təhsilin pedaqogikası kafedra sında müəllim vəzifəsində çalışır. Fakültə Həmkarlar Təşkilatının sədridir. Universitetdə keçirilən müəllimlərin reytinq qiymətləndirilməsinin fakültə üzrə koordinatoru, fakültə Elmi Şurasının üzvüdür. Beynəlxalq və respublika konfranslarında məruzələrlə çıxış edib və sertifikatlara layiq görülüb. Bir sıra yerli və xarici nüfuzlu jurnallarda çap edilmiş elmi məqalələrin müəllifidir.



## Könül Şıxəliyeva

Müəllim

Könül Zaur qızı Şıxəliyeva 1989-cü il oktyabrın 4-də, Bakı şəhərində anadan olub. 2007-ci ildə Göyçay şəhər 3 saylı orta məktəbini bitirib.

2012-ci ildə Bakı Qızlar Universitetinin ibtidai təhsilin pedaqogikası və metodikası ixtisası üzrə bakalavr, 2015-cı ildə Azərbaycan Müəllimlər İnstitutunun məktəbəqədər təhsilin metodika və metodologiyası ixtisası üzrə magistratura səviyyəsini bitirib. 2015-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun təlim-tərbiyənin nəzəriyyəsi və metodikası (Azərbaycan dili və onun tədrisi metodikası) ixtisası üzrə doktoranturaya qəbul olunub.

2016–2020-ci illərdə ADPU-nun Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasında doktorantura pilləsi üzrə təhsilini davam etdirib. "Azərbaycan dili təlimində şagirdlərin nitq və təfəkkürünü əlaqəli inkişaf etdirilməsi (I–IV siniflər)" mövzusunda dissertasiya işi üzərində işləyir. 20-dən çox məqalə və məruzə tezislərinin müəllifidir. 2017–2018-ci illərdə ADPU-nun Məktə

bəqədər təhsilin pedaqogikası və metodikası kafedrasında saathesabı müəllim işləmişdir. 2018-ci ildən Məktəbəqədər təhsilin pedaqogikası kafedrasında müəllim vəzifəsində çalışır. K.Z. Şıxəliyeva YUNİSEF tərəfindən AR Təhsil Nazirliyi ilə əmək daşlıqda və Avropa İttifaqının maliyyə dəstəyi ilə "2018–2024-cü illərdə Azərbaycan Respublikasında inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"na dəstək olaraq Azərbaycanda İnklüziv Təhsilin Genişləndirilməsi üzrə Layihədə həm monitorinq müşahidəçisi, həm də TOT təlimçi kimi fəal fəaliyyət göstərib. "Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin İcrasına Dəstək Layihəsi" təlimində, digər bir sıra təlimlərdə və seminarlarda iştirak edib.



## Zəhra Həsənova

Müəllim

Zəhra Rəşid qızı Həsənova 1973-cü ildə, Laçın rayonunun Minkənd kəndində, ziyalı ailəsində anadan olub. 1991-ci ildə Minkənd kənd orta məktəbini bitirib.

1996-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin ibtidai təhsilin pedaqogikası və metodikası fakültəsini bitirib. 1996-cı ildə Bakı şəhərində 4 nömrəli tam orta məktəbdə müəllim kimi fəaliyyətə başlayıb.

2015-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə ixtisasdəyişmə kursunu bitirib. 2015-ci ildə Azərbaycan Müəllimlər İnstitutunda müəllim işləyib. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsilin pedaqogikası kafedrasında müəllim vəzifəsində çalışır. Z.R.Həsənova bir sıra respublika və beynəlxalq seminarlarda, konfranslarda və təlimlərdə iştirak edib. Bir neçə elmi məqalənin müəllifidir.



## Könül Nəsibova

Müəllim

Könül Elxan qızı Nəsibova 1972-ci il sentyabrın 17-də, Qazax rayonunun Yuxarı Salahlı kəndində, müəllim ailəsində anadan olub. 1989-cı ildə Yuxarı Salahlı kənd tam orta məktəbini bitirib. 1995-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirib.

2015-ci ildə Azərbaycan Müəllimlər İnstitutunda metodist vəzifəsində çalışıb. 2016-cı ildən ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası kafedrasında müəllim vəzifəsində çalışır.

Bir neçə təlimdə iştirak edib, 4 məqalə və 1 tezisin müəllifidir.



# Şəhla Kazımbəyli

Müəllim

Şəhla Tahir qızı Kazımbəyli 1984-cü ildə, Bakı şəhərində anadan olub. 2001-ci ildə Bakı şəhəri, Nəsimi rayonundakı 28 saylı orta məktəbi bitirib. 2001–2006-cı illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində ibtidai təhsilin pedaqogikası və metodikası ixtisası üzrə bakalavr təhsili, 2009–2012-ci illərdə isə həmin universitetdə həmin ixtisas üzrə magistr təhsili alıb.

2005-ci ildə Nərimanov rayonunun 34 nömrəli orta məktəbində laborant vəzifəsində, 2006–2019-cu illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Yaş və pedaqoji psixologiya kafedrasınında laborant vəzifəsində çalışıb.

2019-cu ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsilin pedaqogikası kafedrasında müəllim vəzifəsində çalışır.

Yerli jurnallarda 10 məqalə və tezislər çap etdirib, bir çox seminarlarda iştirak edib.



## Şəkər Orucəliyeva

Müəllim

Şəkər Şahlar qızı Orucəliyeva 1991-ci ildə, Sumqayıt şəhərində anadan olub.1998–2009-cu illərdə Sumqayıt şəhər 1 nömrəli orta məktəbdə oxuyub. 2009-cu ildə Azərbaycan Müəllimlər İnstitutu, ibtidai təhsilin pedaqogikası və metodikası fakültəsinin ibtidai sinif müəllimliyi ixtisasına qəbul olunub. 2013-cü ildə institutu bitirib. Müəllimlərin işə qəbulu imtahanından keçərək, Şamaxı Rayon Dağ Bağırlı kənd orta məktəbində ibtidai sinif müəllimi kimi fəaliyyətə başlayıb.

2014–2016-cı illərdə Azərbaycan Müəllimlər İnstitutunda məktəbəqədər təlim və tərbiyənin metodika və metodologiyası ixtisası üzrə magistraturada təhsil alıb.

2018-ci ildə öz istəyi ilə Şamaxı rayon Dağ Bağırlı kənd orta məktəbində işdən ayrılıb. 2020-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetində Məktəbəqədər təhsilin pedaqogikası kafedrasında müəllim kimi fəaliyyətə başlayıb. 3 məqalənin müəllifidir.



## Pərvanə İmanova

Dissertant

Pərvanə İldırım qızı İmanova 1975-ci il avqust ayının 24-də, Yevlax şəhərində anadan olub. 1992-ci ildə Yevlax şəhər 8 saylı orta məktəbini bitirib. Elə həmin il Bakı Məktəbəqədər Pedaqoji Kollecinə daxil olub. Kolleci fərqlənmə diplomu ilə bitirdikdən sonra laborant vəzifəsində çalışıb. 1996-cı ildə ADPU-nun pedaqogika və psixologiya ixtisasına qəbul olunub. 2006-cı ildə Azərbaycan Dövlət Pedaqoji Unversitetinin pedaqogika nəzəriyyəsi və tarixi ixtisası üzrə magistratura səviyyəsini fərqlənmə diplomu ilə bitirib. Təhsil aldığı müddətdə Bakı Məktəbəqədər Pedaqoji Kollecində (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec) pedaqoji fəaliyyətlə məşğul olub.2015-ci ildə ADPU-nun ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası üzrə dissertanturaya qəbul olunub, 2020-ci ildə isə dissertanturanı bitirib. Fəlsəfə doktorluğu proqramı üzrə "Pedaqoji ünsiyyət məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin formalaşmasının mühüm amili kimi" mövzusunda dissertasiya işini tamamlamışdır. Dissertantlıq müddətində Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının pedaqoji kollektivi ilə sıx peşəkar münasibətlərdə olub və kafedrada saathesa bı müəllim kimi fəaliyyət göstərib. P.İ.İmanova bir sıra kitab, məqalə, proqram və metodik vəsaitlərin müəllifidir.



## Mehbanu Verdiyeva

Doktorant

Mehbanu Əlimurad qızı Verdiyeva 1991-ci il avqust ayının 13-də, Sumqayıt şəhərində anadan olub. 2008-ci ildə Sumqayıt şəhərindəki 34 nömrəli məktəbi bitirib və elə həmin il Azərbaycan Dövlət Dillər Universitetinə qəbul olunub. 2012-ci ildə ali məktəbi bitirərək, ilk təhsil aldığı Xızı rayon Xələnc kənd ümumi təhsil məktəbində alman dili müəllimәsi kimi fəaliyyətə başlayıb.

2013-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetində Azərbaycan dili və ədəbiyyat müəllimliyi üzrə yenidənhazırlanma təhsilini bitirib.

2014–2016-cı illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində magistr təhsili alıb. 2017-ci ildə fəlsəfə doktoru hazırlığı üzrə ADPU-nun doktoranturasına ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası üzrə qəbul olunub. “Ali pedaqoji təhsil müəssisələrində tələbələrdə peşə səriştəliliyinin formalaşdırılması üzrə işin sistemi” mövzusunda dissertasiya işi üzərində işləyir.

2018-ci ildə Gete İnstitutu tərəfindən tələbə təqaüdü qazanıb və Almaniyada seminarlarda iştirak edib. Bir sıra respublika konfrans və seminarlarında iştirak edib.



# Ayşən Babayeva

Doktorant

Ayşən Ramiz qızı Babayeva 1987-ci il fevralın 8-də, Qərbi Azərbaycanın Vedibasar rayonunda, ziyalı ailəsində anadan olub. 2005-ci ildə Bakı şəhərindəki 146 saylı orta məktəbi bitirib. 2007-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun məktəbəqədər təhsilin pedaqogikası və metodikası fakültəsinin bakalvar pilləsinə qəbul olunub. 2011-ci ildə həmin fakültəni bitirib. 2012-ci ildən 192 saylı körpələr evi-uşaq bağçasında tərbiyəçi-müəllim vəzifəsində işləmişdir. 2014-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin məktəbəqədər təhsilin pedaqogikası və metodologiyası ixtisasının magistratura səviyyəsinə qəbul olunub. 2016-cı ildə magistraturanı fərqlənmə diplomu ilə bitirib.

2019-cu ildə ADPU-nun ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi ixtisasına fəlsəfə doktorluğu proqramı üzrə doktoranturaya qəbul olunub. “Məktəbəqədər yaşlı uşaqlarda humanist dəyərlərin formalaşdırılması yolları” mövzusunda dissertasiya üzərində işləyir.Bir neçə respublika və beynəlxalq konfranslarının iştirakçısı olub. 10-a qədər elmi-pedaqoji məqalənin müəllifidir.



## Firuzə Məhərrəmova

Doktorant

Firuzə Cabbar qızı Məhərrəmova 1993-cü il oktyabr ayının 9-da, Bakı şəhərində anadan olub. 2011-ci ildə 70 saylı pilot- liseyi fərqlənmə attestatı ilə bitirib. Elə həmin il Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olunub. 2014–2015-ci illərdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Avropa İttifaqının “Erasmus Mundus” Birgə Magistr proqramında 2021/2022-ci tədris ili üzrə təqaüd proqramının birgə layihəsinin dəstəyi ilə təhsilini Rumıniyanın Babeş-Bolyai universitetində davam etdirib. 2016-cı ildə ali təhsilini ikili diplomla başa vurub.Avropanın ən nüfuzlu xüsusi məktəbləri və məktəbəqədər təhsil müəssisələrində pedaqoji təcrübədə iştirak edib.

2016-cı ildə ADPU-da məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə magistraturaya daxil olub, 2018-ci ildə isə magistraturanı bitirib. 2020-ci ildə ADPU-da fəlsəfə doktoru proqramı əsasında ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi ixtisası üzrə doktoranturaya qəbul olunub və “İnformasiya təhsil mühitində gələcək müəllimlərdə özünütəhsil kompetensiyalarının inkişaf etdirilməsi” mövzusunda dissertasiya üzərində işləyir. Bir sıra beynəlxalq və respublika konfranslarının iştirakçısı olub. 10-a qədər elmi-pedaqoji məqalənin müəllifidir.



## Laləzar Şamxalova

Böyük Laborant

Laləzar Tofiq qızı Şamxalova 1953-cü ildə, Bakı şəhərində anadan olub. 1972-ci ildə Bakı şəhəri, Nəsimi rayonunun 240 saylı orta məktəbini bitirib. 1972-ci ildən 1976-cı ilə qədər Bakı qənnadı fabrikində fəhlə işləyib. İşlədiyi müddətdə "Əmək zərbaçisi" döş nişanı ilə təltif edilib.O, 1976-cı ildə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) Rəsm və rəsmxətt kafedrasına baş laborant vəzifəsinə işə qəbul olunub. Sonra pedaqoji fakültədə katibə işləyib.

1981-ci ildə Məktəbəqədər Pedaqoji Texnikumuna qəbul olunub, 1985-ci ildə texnikumu məktəbəqədər müəssisələrdə tərbiyəçi ixtisası üzrə bitirib. 1990-cı ildə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin məktəbəqədər pedaqogika və psixologiya fakültəsinə qəbul olunub. 1994-cü ildə həmin fakültəni bitirərək, məktəbəqədər pedaqogika və psixologiya (tərbiyəçi) ixtisasını alıb. 1997–2003-cü illərdə Bakı Qızlar Seminariyasında müəllim vəzifəsində çalışıb. L.Şamxalova 1976-cı ildən V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) Məktəbəqədər təhsilin pedaqogikası kafedrasında böyük laborant vəzifəsində işləyir.



# Nigar Heydərova

Böyük Laborant

Nigar Çingiz qızı Heydərova 01 iyun 1987-ci ildə, Bakı şəhərində, ziyalı ailəsində anadan olub. 1993-cü ildə Nərimanov rayonundakı 207 saylı orta məktəbin birinci sinfinə qəbul olunub. 2004-cü ildə orta məktəbi bitirib. Elə həmin ildə də ADPU-nun məktəbəqədər pedaqogika, psixologiya və defektologiya fakültəsinin psixologiya ixtisasına qəbul olunub. 2008-ci ildə psixologiya ixtisasına yiyələnərək, bakalavr təhsilini bitirib.

2010-cu ildə ADPU-nun pedaqogika nəzəriyyəsi və tarixi ixtisasının magistratura səviyyəsinə qəbul olunub, 2013-cü ildə magistraturanı bitirib. 2008–2016-ci illərdə ADPU-nun Elektroradiotexnika kafedrasında, 2016-2019-cu illər də isə Texnologiya və onun tədrisi metodikası kafedrasında laborant vəzifəsində çalışıb.

2019-cu ildən Məktəbəqədər təhsilin pedaqogikası kafedrasında böyük laborant vəzifəsində çalışır. Bir neçə məqalənin müəllifidir.

## Ümumi psixologiya kafedrası

1921-ci ildə fəaliyyətə başlayan APİ-də (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) psixologiya fənni tədris olunmağa başlandı. Fənnin tədris olunması, eləcə də yerli ixtisaslı kadrların hazırlanması məqsədilə Türkiyədən Tofiq Fikrət, Mühiddin Birgün, Əhməd Kərədi Zəkuzadə, Kazandan A.O.Makovelski dəvət olun muşdular. İlk illərdə, demək olar ki, psixologiya üzrə hec bir vəsait yox idi. Yaranmış boşluğu doldurmaq üçün 1923-cü ildə Mühiddin Birgünün “Psixologiya”, 1924-cü ildə “Fənni-tərbiyə”, 1924-cü ildə T.Fikrətin “Tərbiyə və təlim” kitabları nəşr edilir və onlardan dərslik kimi istifadə olunur. 1941-ci ilədək müstəqil psixologiya kafedrası olmadığından müəllimlər pedaqoqika kafedrasında çalışırdılar.1941-ci ildə üç nəfər müəllimlə psixologiya kafedrası yaradıldı və Surxay Haçıyev kafedra müdiri təyin olundu. Kafedra çox qısa müddət fəaliyyət göstərdi. APİ Bakı Dövlət Universiteti ilə birləşdirildi. 1943-cü ildə institut BDU-dan ayrılaraq müstəqil fəaliyyətə başlayır.

1943–1955-ci illərdə psixologiya kafedrasına Əhməd Kərədi Zəkuzadə (1888-1968) rəhbərlik etmişdir. Ə.K.Zəkuzadə 1921-ci ildə Türkiyədə təhsilini başa vurduqdan sonra Bakıya gəlmiş, 1922–1960-cı illərdə V.İ.Lenin adına APİ-də dərs demişdir.

1933-cü ildə APİ-nin nəzdində aspirantura şöbəsinin yaradılması ilə psixologiya üzrə kadr hazırlığında da bir dönüş yarandı. 1963-cü ildə psixologiya kafedrası yenidən müstəqil fəaliyyətə başladı. Kafedraya 1963-cü ildən 1975-ci ilədək Şövqi Süleyman oğlu Agayev ( 1926–1975) rəhbərlik etmişdir.

Ş.S.Ağayev 1954-cü ildə “Fikri məqsədin xarakterindən asılı olaraq görmə qavrayışının dinamikası” mövzusunda namizədlik, 1967-ci ildə “Əmək, tərbiyə və inkişaf” mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdi. Şəxsiyyətin psixologiyası, təlim psixologiyası, tərbiyə psixologiyası və s. sahələr üzrə tədqi qatlar aparmış, kadr hazırlığında önəmli rol oynamışdır.

1975–2013-cü illər ərzində kafedraya Əbdül Əli oğlu Əlizadə (1932–2015) rəhbərlik etmişdir. Respublikada kadr hazırlığı və

psixologiya elminin inkişafın da Ə.Ə.Əlizadənin xüsusi rolu olmuşdur. O, 1962-ci ildə "Şagirdlərin yaradıcı təxəyyül fəaliyyətində analiz və sintez proseslərinin xüsusiyyətləri" mövzusun da namizədlik, 1975-ci ildə "Cinsi dimorfizm və şəxsi qarşılıqlı münasibətlərin formalaşmasının psixoloji problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Ə.Ə.Əlizadənin xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. O, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, orden və medallarla təltif edilmişdir.

2013-cü ilin dekabr ayından kafedraya professor Ramiz İbrahim oğlu Əliyev rəhbərlik edir. O, 1985-ci ildə Kiyev şəhərində Ukrayna Elmi-Tədqiqat Psixologiya İnstitutunda "Kiçik məktəbli şəxsiyyətinin formalaşmasında ictimai fəallığın rolu" mövzusunda namizədlik, 2004-cü ildə BDU-da "Şagird şəxsiyyətinin formalaşmasının etnopsixoloji əsasları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür.

Ötən əsrin 30-cu illərindən başlayaraq respublikanın bir sıra tanınmış psixoloqları psixologiya kafedrasında fəaliyyət göstərməyə başladılar. Onların sırasında Fuad Əhməd oğlu İbrahimbəyov, Surxay Hacıyev, Muxtar Hacıyev, Muxtar Abbasov və başqalarının adlarını qeyd etmək olar.

1948–1953-cü illərdə APİ-də məntiq-psixologiya şöbəsi fəaliyyət göstərirdi. Respublikamızda tanınmış psixoloqların bir qismi burada təhsil almışdır. Ötən əsrin 50-ci illərinin sonlarında psixologiya elmində bir canlanma baş verir. Təbii ki, bu psixologiya kafedrasına da aiddir. Həmin dövrdə psixologiyaya dair xeyli sayda kitablar və dərsliklər nəşr olundu. Eyni zamanda, ixtisaslı kadrların sayı artdı. M.R.Abbasov ("N.Gəncəvinin psixoloji görüşləri",1945), A.K.Abdullayev ("İbtidai məktəbin III sinif şagirdlərində idrak maraqlarının inkişafı",1953), M.N.Mustafayeva ("Böyük bağça yaşlı azərbaycanlı uşaqlarda söz ehtiyatının inkişafı",1949) və digərləri namizədlik dissertasiyaları müdafiə etdilər. 60-cı illərin sonu, 70-ci

illərin əvvəllərində istər namizədlik, istərsə də doktorluq dissertasiyalarının müdafiəsi sahəsində bir canlanma baş verdi. Ş.S. Ağayev (1965), Ə.S.Bayramov (1967), M.Ə.Həmzəyev (1968), Ə.Ə.Qədirov (1974), Ə.Ə.Əlizadə (1975) doktorluq dissertasiyalarını müdafiə etdilər. Onların hamısının kafedra ilə bu və ya digər şəkildə bağlılığı var idi.

XX əsrin 70–80-ci illərində kafedranın əməkdaşlarından Ə.T. Bəxşəliyev (1973), E.Ə.Quliyev (1968), Q.E.Əzimov (1970), M.Ş.Əbdülov (1972), A.Ü.Məmmədov (1965), B.İ.Rzayev (1989), İ.A.Fərəcov (1968), N.A.Cavadov (1974), Z.A.Orucov (1985), S.F. Şabanov (1986) və b. namizədlik dissertasiyalarını müdafiə etdilər. Yuxarıda göstərildiyi kimi, Azərbaycanda uzun müddət psixologiya üzrə dərslik olmamışdı. Bu sahədə ilk addım 60-cı illərin əvvəllərində atıldı.

1960–1961-ci illərdə iki hissədən ibarət olan "Psixologiya" dərsliyi hazırlandı. Dərsliyin müəllifləri Ə.K.Zəkuzadə, A.K.Abdullayev, Ş.S.Ağayev, M.Mustafayev olmuşlar. 1964-cü ildə nəşr olunan fundamental "Psixologiya" dərsliyinin müəlliflərindən biri də Ə.Ə. Əlizadə olmuşdur. 1982-ci ildə rus dilindən tərcümə olunaraq nəşr edilən "Ümumi psixologiya" dərsliyinin tərcüməçilərindən biri də Ə.Ə.Əlizadə olmuşdur. Sonrakı illərdə hazırlanan "Psixologiya" (1989), "Sosial psixologiya" (2003) və digər dərsliklərin müəllifləri Ə.S.Bayramov və Ə.Ə.Əlizadə olmuşlar.

Kafedra fəaliyyətə başladığı illərdən bəri digər respublikaların psixoloqları ilə sıx əməkdaşlıq edirdi. Bu sahədə A.O.Makovelski və Ə.K.Zəkuzadənin böyük xidmətləri olmuşdur. 50-ci illərdən başlayaraq bu əlaqələr daha da genişlənmişdi. Z.M.Mehdizadə N.A. Mençinskayanın, A.K.Abdullayev N.Q.Morozovanın, E.M.Quliyev R.E.Levinanın rəhbərliyi ilə namizədlik dissertasiyalarını müdafiə etdilər. Z.Ə.Orucov Moskva, R.İ.Əliyev, S.F.Şabanov Kiyev şəhərində namizədlik dissertasiyalarını müdafiə etdilər.

Kafedra əməkdaşları bir sıra beynəlxalq konfranslarda iştirak etmişlər. Ə.Ə.Əlizadə Tbilisi, Moskva, Daşkənd, R.İ.Əliyev Moskva, Kiyev şəhərlərində keçirilən beynəlxalq konfranslarda iştirak

və çıxış etmişlər.

Müstəqillik illərindən sonra kafedranın fəaliyyət istiqaməti daha da genişləndi. SSRİ dövründə qadağan olunmuş etnopsixologiya sahəsində tədqiqatlar aparılmış, xeyli sayda monoqrafiyalar nəşr olunmuşdu. Bunlara misal olaraq Ə.Ə.Əlizadənin "Azərbaycan etnopsixologiyasına giriş", Azərbaycanda güzəran psixologiyası", R.İ.Əliyevin "Etnopsixologiya: qloballaşma və millilik", "Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması", "Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları" və digər əsərləri göstərmək olar.

Son illərdə kafedrada bir sıra istiqamətlərdə tədqiqatlar aparılır. İstiqamətlərdən biri də yaş dövrləri və təlim-tərbiyə məsələləri ilə bağlıdır. Buraya məktəbəqədər yaşdan başlamış gənclik yaş dövrlərinədək bütöv dövrlər daxildir. Digər bir istiqamət isə Azərbaycan ailəsinin etnopsixoloji xüsusiyyətlərini əhatə edir. Üçüncü istiqamət müasir dövrün sosial-psixoloji xüsusiyyətlərinin tədqiqinə aiddir. Son illərdə kafedrada kadr hazırlığına da xüsusi diqqət yetirilir. Məhərrəm Sabir oğlu Əliyev "Tələbələrdə özünənəzarətin formalaşmasının psixoloji xüsusiyyətləri" (2013), Yeganə Baxış qızı Əskərova "Azərbaycanda elmi psixologiyanın inkişafında Ə.Ə. Əlizadə yaradıcılığının rolu" (2016), Vəfa Mansur qızı Kərimova "Qloballaşma və milli xüsusiyyətlərin ailədaxili münasibətlərə təsiri" (2018), Kifayət Xanlar qızı Əhmədova "Gənc ailələrdə qarşılıqlı münasibətlərin psixoloji xüsusiyyətləri" (2018), Hüseyn Ədalət oğlu Xəlilov "Ailədaxili münasibətlər sistemində yaşlıların rolu və şəxsiyyətin formalaşmasına onların təsiri" (2018) mövzusunda dissertasiya müdafiə etmişlər.

Son 10 ildə kafedrada 15 monoqrafiya, 5 dərslik, 18 dərs vəsaiti, 8 metodik vəsait, 9 impakt faktorlu məqalə, xaricdə və respublikamızda 217 məqalə, 80 proqram, respublikada 69, beynəlxalq mətbuatda 45 məqalə nəşr olunmuşdur. Hazırda kafedrada, I və II kurslar daxil olmaqla, 21 nəfər magistr təhsil alır.

2020-ci ildə 2 nəfər elmlər doktoru, 4 nəfər fəlsəfə doktoru proqra-

mı üzrə təhsillərini başa vurmuş və tədqiqatlarını, əsasən, tamamlamışlar. 2 nəfər isə fəlsəfə doktoru proqramı üzrə təhsilini davam etdirir.

Kafedranın əməkdaşlarından dosent Məhərrəm Sabir oğlu Əliyev və dosent Lamiyə Mehdi qızı Qurbanova BDU-nun nəzdində fəaliyyət göstərən Disserta siya Şurasında seminarın, Ramiz İbrahim oğlu Əliyev Dissertasiya Şurasının üzvüdürlər.

Kafedranın müəllimi, psixologiya üzrə fəlsəfə doktoru Səbinə Hikmət qızı Əlizadə 2019-cu ildə Portuqaliyada elmi ezamiyyətdə olmuşdur.

Kafedrada bir nəfər elmlər doktoru, professor (Ramiz İbrahim oğlu Əliyev), bir nəfər psixologiya üzrə fəlsəfə doktoru, professor (Elmar Afis oğlu Hüseynov), beş nəfər psixologiya üzrə fəlsəfə doktoru, dosent (Nurəngiz Tofiq qızı Rzayeva, Solmaz Qüdrət qızı Həsənli, Ülviyyə Akif qızı Əfəndiyeva, Məhərrəm Sabir oğlu Əliyev, Lamiyə Mehdi qızı Qurbanova), bir nəfər fəlsəfə doktoru, müəllim (Səbinə Hikmət qızı Əlizadə), bir nəfər fəlsəfə doktoru, baş müəllim (Yeganə Baxış qızı Əskərova), altı nəfər baş müəllim (Sədaqət Raci qızı Ələk bərova, Günəş Əli qızı Əfəndiyeva, Könül Allahverdi qızı Məmmədova, Sona İbrahim qızı Əliyeva, Rəna Nurəddin qızı Qasımova), dörd nəfər müəllim (Gülər Akif qızı Məmmədova, Nigar Hadi qızı Muradova, Leyla Səfərbəy qızı Dadaşzadə, Təranə Qalib qızı Abdullayeva), iki nəfər laborant (Elnarə Novruz qızı Cəfərova, Gülşən Elman qızı Mahmudzadə) fəaliyyət göstərirlər.

Kafedra BDU-nun psixologiya kafedrası, Psixologiya Elmi-Tədqiqat İnstitutu, Təhsil İnstitutu ilə yaxından əməkdaşlıq edir. Kafedrada dosent Ülviyyə Akif qızı Əfəndiyevanın rəhbərliyi ilə elmi seminar fəaliyyət göstərir. Seminarlarda, əsasən, müasir dövrdə psixologiyanın aktual problemləri müzakirə olunur. Kafedra nın nəzdində Psixoloji Xidmət Mərkəzi yaradılmışdır. Mərkəzin işinə professor Elmar Hüseynov rəhbərlik edir. Mərkəzdə müxtəlif problemləri olan tələbə və müəllimlərə məsləhətlər verilir, söhbətlər aparılır.



**Professor Əbdül Əlizadə və ümumi psixologiya kafedrasının əməkdaşları (2011-ci il)**




**Ümumi psixologiya kafedrası**



## Ramiz Əliyev

Psixologiya üzrə elmlər doktoru, professor,ümumi psixologiya kafedrasının müdiri,əməkdar müəllim

Ramiz İbrahim oğlu Əliyev 09 noyabr 1954-cü il də Gədəbəy rayonu, Arısu kəndində müəllim ailəsində anadan olmuşdur. 1960-cı ildə Gədəbəy rayonu Arısu kənd səkkizillik məktəbin I sinfinə daxil olmuş, 1970-ci ildə Miskinli kənd orta məktəbini bitirmişdir. 1971-ci ildə M.F.Axundov adına APXDİ-yə daxil olmuş və 1975-ci ildə SSRİ-nin 50-illiyi adına APXDİ-nin ingilis dili fakültəsini bitirmişdir. 1975–1978-ci illərdə Arısu kənd səkkizillik məktəbində müəllim işləmişdir.

1978-ci ilin noyabr ayında Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutuna yaş və pedaqoji psixologiya ixtisası üzrə əyani aspiranturaya qəbul olunmuşdur.

Professor Əbdül Əlizadənin elmi rəhbərliyi ilə “Kiçik məktəbli şəxsiyyətinin formalaşmasında ictimai fəallığın rolu” mövzusunda namizədlik dissertasiyası üzərində çalışmağa başlamışdır.

1979–1980-ci illərdə ordu sıralarında xidmət etmişdir. Hərbi xidməti başa vurduqdan sonra təhsilini aspiranturada davam etdirmiş-

dir. 1981–1982-ci illərdə Moskva şəhərində Ümumi və Pedaqoji Psixologiya İnstitutunda professor İrina Vladimirovna Dubrovinanın rəhbərlik etdiyi laboratoriyada təhsilini davam etdirmişdir. Həmin institutda təhsil aldığı müddətdə məşhur psixoloqlar A.V. Petrovski, V.V. Davıdov, İ.V.Dubrovina, D.İ.Feldşteyn və başqalarının seminar və məşğələlərində iştirak etmiş, V.İ.Lenin adına kitabxanada dissertasiyalarla tanış olmuşdur.

1983-cü ildə təhsil müddəti başa çatmış və Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun Psixologiya və defektologiya şöbəsində kiçik elmi işçi kimi fəaliyyətə başlamışdır. 1984-cü ildə dissertasiya işi müzakirə olunaraq müdafiəyə buraxılmışdır. Müdafiə üçün Ukrayna Elmi-Tədqiqat Psixologiya İnstitutuna sənədlərini təqdim etmiş və 1985-ci ildə namizədlik dissertasiyasını müdafiə etmişdir.

1983-cü ildə "Kiçik məktəblilərdə cinsi fərqlər" adlı ilk elmi məqaləsi "İbtidai məktəb və məktəbəqədər tərbiyə" jurnalının 2-ci nömrəsində çap olunur. Məqalə xeyli narazılıq və tənqidlə qarşılanır. Hətta məqalə maarif nazirinə təqdim edilir. Səbəb? Səbəb çox sadə idi. Həmin dövrdə cinsi fərqlərdən yazmaq xoşa gələn iş deyildi. Halbu ki, bu mövzu həmin dövrdə rus alimləri İ.S.Kon, A.Q.Xripkova, Y.P.Azarov və b. tərəfindən geniş tədqiq olunur, bu barədə monoqrafiyalar yazılırdı. İnandırıcı fakt və sübutlardan sonra vəziyyət aydınlaşdı. "Kiçik məktəblilərin ictimai fəallıq tərbiyəsi" adlı metodik vəsait isə 1984-cü ildə çap olunur.

1987-ci ildə R.İ.Əliyev ETPEİ-nin Psixologiya və defektologiya şöbəsində baş elmi işçi vəzifəsinə seçilir. 2001-ci ildə AR Təhsil Problemləri İnstitutunda Psixologiya və yaş fiziologiyası şöbəsinin müdiri seçilir. R.İ.Əliyev 2004-cü ildə Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən psixologiya üzrə Dissertasiya Şurasında "Şagird şəxsiyyətinin formalaşmasının etnopsixoloji əsasları" mövzusunda dissertasiya işini müdafiə edərək, psixologiya elmləri doktoru elmi dərəcəsini alır.

R.İ.Əliyev 1983-cü ildə Zaqafqaziya Psixoloqlarının Bakıda keçirilən XI konfransında, eləcə də Kiyev, Moskva, Bakı şəhərlərin-

də keçirilən beynəlxalq konfranslarda çıxışlar etmişdir. Onun Azərbaycan, rus və ingilis dillərində 200-dən artıq monoqrafiya, dərslik, dərs vəsaiti, məqalə və tezisləri çap olunmuşdur. Nümunə kimi "Psixologiya" (2003), "Psixologiya" (2008), "Psixologiya tarixi" (2006), "Psixologiya" (2007) dərslik və dərs vəsaitlərini, "Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması" (1995), "Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları" (2000), "Tərbiyə psixologiyası" (2006), "Etnopsixologiya: qlobal laşma və millilik" (2007), "Mentalitet" (2009), "Mən. Atam-anam. Sevgilim və övlad larım"(2019) monoqrafiyalarını göstərmək olar. Bu əsərlərdə alman, ingilis, fransız və b. xalqların psixoloji xüsusiyyətləri, adət-ənənələri öz əksini tapmışdır. R.İ.Əliyev xüsusilə Azərbaycan xalqının keçdiyi ictimai-tarixi prosesləri, onların psixoloji xüsusiyyətlərini tədqiq və təhlil etmişdir. Ümumiyyətlə, R.İ.Əliyevin əsərlərində filosof və tarixçilərin, ədəbiyyatşünasların mübahisə predmetinə çevirdikləri "Biz kimik?" sualına cavab axtarılır, təhlil edilir, münasibət bildirilir.

Ötən əsrin 80-ci illərinin II yarısından etibarən SSRİ-də xalqların milli-azadlıq hərəkatı başladı. Azərbaycanda vəziyyət daha mürəkkəb idi. Dağlıq Qarabağ münaqişəsi, ermənilərin seperatçılıq hərəkatı, özlərinin olmayan torpaqları iddia etmələri, Moskvanın tutduğu ədalətsiz mövqe xalqı ayağa qaldırdı. Milli hisslər, milli ləyaqət, soy-kökümüzə qayıdış elm adamlarını xüsusilə narahat edirdi. R.İ.Əliyev də qəzet və jurnal səhifələrində bu mövzuda məqalələr çap etdirirdi. Onun "Azərbaycan gəncləri" qəzetində çap etdirdiyi "Özünü dərk et!" adlı məqaləsində milli özünüdərk məsə ləleri psixoloji aspektdə təhlil olunurdu. Qeyd etmək lazımdır ki, hələ SSRİ dağılmamışdı və SSRİ-nin xofu hələ də qalmaqdaydı. Ona görə də bu səpkili yazılar birmənalı şəkildə qarşılanmırdı. Maraqlıdır ki, 70 illik sovet ideologiyasından, onun tələblərinə uyğun formalaşan dünyagörüşündən uzaqlaşmaq xeyli çətin idi. Çox təəssüf ki, onun həsrətini çəkən insanlar hələ də qalmaqdadır.

Məhz bu dövrdə R.İ.Əliyev doktorluq dissertasiyasının mövzusu

kimi “Şagird şəxsiyyətinin formalaşmasının etnopsixoloji əsasları”nı təqdim edəndə söz sahibi olan bir çoxları ona qarşı çıxdılar. Bu, yenilik, yeni yanaşma idi. Belə bir fikir var ki, yenilik həmişə (istər o, müsbət, istərsə də mənfi olsun) müqavimətlə qarşılanır. Növbəti mərhələdə müqavimət göstərənlər tərəddüd edirlər. Üçüncü mərhələdə isə məhz onlar ideya müəllifi olduqlarını iddia edirlər.Burada da vəziyyət oxşar idi. Məhz həmin söz sahibləri ideyanın onlardan gəldiyini iddia edirdilər.

R.İ.Əliyevin başlıca ideyası belədir: Gəlin özümüzə aludə olub, yalnız təriflər yağdırmayaq. Gəlin, müsbətlərlə yanaşı, nöqsanlarımızı da üzə çıxarıb, islah etməyə çalışaq.

R.İ.Əliyevin elmi rəhbərliyi ilə 22 nəfər namizədlik (fəlsəfə doktoru), 1 nəfər elmlər doktoru proqramı üzrə müdafiə etmişdir. 4 nəfərin dissertasiya işi tamamlanıb və Dissertasiya Şurasına təqdim olunub. Elmi rəhbərlik etdiyi dissertasiya işləri, əsasən, üç istiqamətdə aparılıb: a) milli xüsusiyyətlərlə bağlı olanlar, b) ailə həyatına aid olanlar, c) müxtəlif yaş dövrlərində qarşılıqlı münasibətlər, şagird şəxsiyyəti və təlim-tərbiyənin müxtəlif problemlərinə aid olanlar. Onun rəhbərliyi ilə müdafiə edib elmi dərəcə və elmi ad alanlar hazırda respublikanın müxtəlif ali təhsil müəssisələrin də – Naxçıvan, Gəncə, Sumqayıt dövlət universitetlərində, Azərbaycan Dövlət Pedaqoji Universitetində, Azərbaycan Dillər Universitetində, Azərbaycan Universitetində fəaliyyət göstərirlər. Daha beş nəfər doktorluq, doqquz nəfər isə fəlsəfə doktoru proqramı üzrə dissertasiya üzərində çalışırlar.

R.İ.Əliyev 2006–2012-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspert Şurasının üzvü olmuşdur. 2013-cü ildən indi yədək psixologiya üzrə Dissertasiya Şurasının üzvüdür.

R.İ.Əliyev ötən dövr ərzində elmi-tədqiqat işləri ilə yanaşı Azərbaycan Müəllimlər İnstitutunda, Azərbaycan Dillər Universitetində dərs demişdir. 2014-cü ildən indiyə qədər Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrasına

rəhbərlik edir.

R.İ.Əliyev onlarla monoqrafiya, dərslik və dərs vəsaitlərinin elmi redaktoru və rəyçisi olmuşdur. O, həm öz yaradıcılığına, həm də digərlərinin yaradıcılığına həmişə obyektiv, ədalətli və prinsipial yanaşmağa çalışmışdır. O, respublikada və ondan kənarlarda nəşr olunan doqquz elmi jurnalın redaksiya heyətinin üzvüdür.

Böyük və şərəfli bir yol keçmiş, 100 illik tarixi olan Azərbaycan Dövlət Pedaqoji Universitetində çalışmaq, fəaliyyət göstərmək şərəfli olduğu qədər də məsuliyyətli bir işdir. Öz ənənələri olan, tanınmış alimlərin işlədiyi bir kafedraya rəhbərlik etmək isə ikiqat məsuliyyətlidir. 38 il ümumi psixologiya kafedrasına rəhbərlik et miş, Azərbaycan psixologiya elminin korifeylərindən olan professor Əbdül Əlizadənin kafedrada yaratmış olduğu sağlam psixoloji mühiti qorumaq, ənənələri davam etdirmək və zamanın tələblərinə uyğunlaşdırmaq kimi çətin, məsuliyyətli, lakin şərəfli bir işi yerinə yetirmək lazım gəlir. Belə bir kollektivdə çalışmaq, doğrudan da, qürur verici bir haldır.



## Elmar Hüseynov

Psixologiya üzrə fəlsəfə doktoru, professor

Hüseynov Elmar Afis oğlu 1971-ci ildə, Bakı şəhərində anadan olub. 1988-ci ildə 154 nömrəli orta məktəbi bitirib. Elə həmin il Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun pedaqogika fakültəsinə daxil olub, 1992-ci ildə oranı fərqlənmə diplomu ilə bitirib.

1986-cı ildən AR DİN "Dinamo" idman klubunda boks idman növü ilə məşğul olmağa başlayıb. Dəfələrlə Azərbaycan birinciliklərinin, ümumittifaq və beynəlxalq turnurlərin qalibi və mükafatçısı olub. Boks idman növündə göstərdiyi nailiyyətlərə görə SSRİ idman ustası fəxri adına layiq görülüb. Elmar Hüseynov boks idman növü üzrə beynəlxalq və Avropa dərəcəli hakimdir. Dəfələrlə Azər baycan çempionatlarında, Avropa və dünya birinciliklərində, çempionatlarda, Avropa oyunlarında, beynəlxalq turnirlərdə hakimlik, katiblik etmiş, baş hakim, baş katib vəzifələrini icra etmşdir. Hakimlik fəaliyyətinə görə Avropa, Azərbaycan və Dünya Boks Federasiyaları, Milli Olimpiya Komitəsi, Azərbaycan Respublikası

Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən dəfələrlə fəxri fərmanlarla təltif olunmuşdur. İnstitutda təhsil alarkən, 1991-ci ildən 1992-ci ilə kimi AR DİN “Dinamo” idman klubunda boks idman növü üzrə məşqçi-müəllim vəzifəsində çalışmış-dır.

1992–1996-cı illərdə hərbi xidmətdə olmuşdur. 1996-cı ildən 2008-ci ilə kimi “Dinamo” idman klubunda məşqçi-müəllim vəzifəsini davam etdirmişdir. Bir neçə idman ustası, Azərbaycan çempionatlarının, Avropa və dünya birinciliklərinin, beynəlxalq turnirlərin qaliblərini və mükafatçılarını hazırlamışdır. 2007-ci ildə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən “Əməkdar məşqçi” fəxri adına layiq görülmüşdür. 1996-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetində ümumi psixologiya ixtisası üzrə aspiranturaya qəbul olunmuş və 1999-cu ildə “Şəxsiyyətin iddia səviyyəsinin formalaşmasında cinsi fərqlərin xüsusiyyətləri” mövzusunda psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün dissertasiya müdafiə etmişdir. 2000-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülmüşdür.

1996-cı ildən 2008-ci ilə kimi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrasının müəllimi olmuşdur. 1997-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının ağırlıqqaldırma və boks, pedaqoqika və psixologiya kafedralarında müəllim, 2000-ci ildən baş müəllim, 2002-ci ildən dosent, 2010-cu ildən isə professor vəzifəsində işləmişdir. 2008–2015-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının idman təkmübarizliyi fakültəsinin dekanı vəzifəsində işləmişdir. 2003-cü ildə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attes tasiya Komissiyasının qərarı ilə dosent, 2014-ci ildə isə professor elmi adlarına layiq görülmüşdür.

2016–2018-ci tədris illərində müqavilə əsasında Türkiyə Res-

publikasının Trabzon şəhərində yerləşən Avrasya Universitetində Psixologiya kafedrasının müdiri vəzifəsində çalışmışdır.

2018-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrasında çalışır.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə 2009-2011-ci illərdə Oğuz, Lənkəran, Gəncə şəhərlərində "Yeniyetmə və gənc boksçuların hazırlığı", "Boksçuların yarışlara psixoloji hazırlığı" mövzularında, 2018–2019-cu illərdə Azərbaycan Respublikası Təhsil Cəmiyyətinin təşkilatçılığı ilə Bakı, Sumqayıt, Gəncə, Şamaxı şəhərlərində "İnklüziv təhsil", "Təhsildə sosial-psixoloji xidmətin aktual problemləri" mövzularında elmi mühazirələr oxuyub, elmi-praktik seminarlar aparmışdır.

İdman və elm sahələrində göstərdiyi xidmətlərə görə 2003-cü ildə "XXI əs-rin gənc alimi" beynəlxalq diplomu ilə təltif olunmuşdur. 2008-ci ildə Azərbaycan Respublikasının Gənclər Parlamenti tərəfindən təşkil olunan "Ən qayğıkeş dekan" müsabiqəsində tələbələr tərəfindən seçilib, fəxri diplomla təltif olunmuşdur. Dövlətin idman siyasətinin həyata keçirilməsində, bədən tərbiyəsi və idmanın inkişafında göstərdiyi xidmətlərə görə, kütləvi informasiya vasitələri və mətbuatla daimi ünsiyyətə görə dəfələrlə fəxri fərmanlarla təltif olunmuşdur. 2015-ci ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən Fəxri fərmanla təltif olunmuşdur.

180-ə yaxın elmi əsərin müəllifidir. Müəllif və həmmüəllif olduğu "Boks, yaş psixologiyası", "Boksda terminologiya, psixoloji korreksiya işi", "Yarış fəaliyyəti nin psixologiyası, boksçuların psixoloji hazırlığı", "Спортивная психология", "Bədən tərbiyəsinin nəzəriyyəsi və metodikası", "Boksda tədqiqatlar, boksda hərtərəfli hazırlığın elmi-metodiki əsasları", "Исследование психологических аспектов влияющих на процесс обучения студентов", "Qadın boksu, boksda məşq və yarış fəaliyyətinin strukturu və məzmunu", "Referi, yeniyetmə boksçu ların ilkin hazırlığı", "Fiziki tərbiyə müəlliminin peşə fəaliyyətinin pedaqoji-psixoloji əsasları", "Психологические особенности

формирования личности студента" adlı kitabları özünə geniş oxucu kütləsi qazanmışdır. "Исследование психологических аспектов, влияющих на процесс подготовки будущих специалистов в ВУЗ-е" mövzusunda məqaləsi 2012-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universiteti, "Анализ содержания психологических различий в изменении активности студентов" adlı məqaləsi 2015-ci ildə Dağıstan Pedaqoji Universitetinin, "Öğrencilerin kişilik oluşumuna ve eğitim faaliyetlerine başarı ve başarısızlık etkisinin psikolojik temelleri" adlı məqaləsi 2017-ci ildə Türkiyənin, "Psychological features of learning as an activity affecting the for mation of a student's personality" mövzulu məqaləsi 2020-ci ildə Avstriyanın və "Psychological features of the influence of success and failure on various functions of the students' psyche" adlı məqaləsi 2020-ci ildə Çexiyanın elmi jurnallarında dərc olunmuşdur.



## Nurəngiz Rzayeva

Psixologiya üzrə fəlsəfə doktoru, dosent

Nurəngiz Tofiq qızı Rzayeva 1968-ci ildə Lerik rayonunda, ziyalı ailəsində anadan olub. 1985-ci ildə Lerik rayon 1 nömrəli orta məktəbini bitirib. 1990-cı ildə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinə daxil olub. 1995-ci ildə oranı pedaqogika və psixologiya ixtisası üzrə fərqlənmə diplomu ilə bitirib.

1985-1995-ci illərdə Lerik rayon uşaq bağçasında tərbiyəçi, 1995-1997-ci illərdə isə Lerik Rayon Təhsil şöbəsində metodist vəzifəsində işləyib.

1997-ci ildə Azərbaycan ETPEİ-nin (indiki Təhsil İnstitutu) ümumi psixologiya və psixologiya tarixi ixtisası üzrə əyani aspiranturasına daxil olmuş, 2000-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir. 2001-ci ildən hal-hazıra kimi Yeni Azərbaycan Partiyasının üzvüdür.

2004-cü ildə BDU-nun N02.014 ixtisaslaşmış şurasında “Azərbaycan maarifçiliyinin psixoloji konsepsiyası” (19.00.01 – Ümumi psixologiya, şəxsiyyət psixologiyası, psixologiya tarixi ixtisası

üzrə) mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 2000-ci ildə keçmiş Azərbaycan Müəllimlər İnstitutunun psixologiya kafedrasına müsabiqə yolu ilə müəllim, 2004-cü ildə baş müəllim seçilib. 2008-ci ildə həmin institutun psixologiya kafedrasına seçki yolu ilə müdir vəzifəsinə təyin edilmişdir.

2009-cu ildə müasbiqə yolu ilə keçmiş Azərbaycan Müəllimlər İnstitutunun psixologiya kafedrasına dosent seçilmiş və Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının diplomunu almışdır.

2008-2016-illərdə AMİ-nin psixologiya kafedrasında müdir vəzifəsində işləyib. AMİ-nin ADPU-ya birləşməsi ilə əlaqədar olaraq 2016/2017-cı tədris ilinin sentyabr ayında ADPU-nun Ümumi Psixologiya kafedrasına müsabiqə yolu ilə müəllim seçilib və hal-hazırda dosent vəzifəsində çalışır.

15 (on beş) fəlsəfə doktoru dissertasiyasına rəsmi opponent olaraq, rəy vermiş, psixoloji və pedaqoji ədəbiyyatların elmi redaktoru və rəyçisi olmuşdur. Keçmiş AMİ-də rəhbərlik etdiyi kafedrada 10-dan artıq doktorluq və namizədlik dissertasiyalarını aparıcı müəssisə olaraq müzakirə edib, rəy vermişdir. 3 (üç) nəfər fəlsəfə doktoru proqrmı üzrə təhsil alan doktorantın elmi rəhbəridir. 2009-cu ildən etibarən respublikanın bir neçə ali məktəblərində (Gəncə Dövlət Universiteti, Bakı Qızlar Universiteti və universitetimizin filialları) dövlət imtahan komissiyasının sədri kimi fəaliyyət göstərir. Azərbaycan Respublikası Təhsil Nazirliyi Akkreditasiya Komissiyasının eksperti kimi ali məktəblərdə iştirak edib. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən fəlsəfə doktoru dissertasiyalarına ekspert rəyçisi təyin olunub.

2009-cu ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Fəxri fərman"ı ilə təltif olunmuşdur. 2011-ci ildə Azərbaycan Respublikası Təhsil İnstitutunun "Psixologiya və yaş fiziologiyası" şöbəsinə elmlər doktoru proqramı üzrə dissertant qəbul olunub.

ADPU-nun fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya qəbul imtahanlarında üzv kimi, magistrantların dissertasiyalarının mü-

dafiəsində əvvəl elmi katib, sonra isə həmsədr kimi iştirak edib. İnstitutun ictimai işlərində və elmi konfranslarda vaxtaşırı fəal iştirak etmiş, konfranslarda bölmə sədri və həmsədr kimi fəaliyyət göstərmişdir. Universitetdə və ondan kənarda keçirilən təlimlərdə həm xarici, həm də yerli alimlərin seminarlarında fəal iştirak etmiş və 40-dan artıq sertifikat almışdır. 65 (altmış beş) adda elmi məqalə, proqram, dərs vəsaiti, metodik tövsiyə və tezisləri çap edilib. O cümlədən, "Uşaq psixologiyası" adlı dərs vəsaiti (2010; 2015), "Uşaqlarda idrak proseslərinin inkişafina xidmət edən didaktik materiallar" adlı metodik tovsiyə (2007; 2010); magistratura, yenidənhazırlanma və bakalavr pillələri üzrə "Psixologiya" (2011), "Sosial psixologiya"(2010), "Pedaqoji psixologiya" (2011), "Psixologiya tarixi" (2011), "Uşaq psixologiyası" (2010; 2015), "Sosial-psixoloji xidmətin tarixi və metodologiyası" (2015), "Psixopedaqogika" (2015), "Psixologiyanın əsasları" (2015) və s. proqramları çap edilib.

Bunlarla yanaşı, bir sıra elmi məqalə və tezisləri – "Milli-mənəvi birlik xalqın psixoloji düşüncə tərzi kimi", "Heydər Əliyev ideya-nəzəri irsində milli-mənəvi birlik problemi" (2011), "Ekstremal situasiyaların psixoloji səciyyələndirilməsi" (2010), "Müəllim hazırlığının etik problemləri" (2011), "Tələbələrin dəyərlər sisteminin formalaşdırılmasının psixoloji əsasları və istiqamətləri" (2012), "Heydər Əliyev ideya-nəzəri irsində dəyərlərimiz xalqın psixoloji düşüncə tərzi kimi" (2013), "Pedaqoji psixologiyada maraq effekti: kiçik məktəblinin marağının psixoloji xüsusiyyətləri" (2017), "Azərbaycan güzəran psixologiyasında dəyərlər və şəxsiyyətin formalaşmasında onların rolu" (2015), "Azərbaycan psixopedaqogikasında yeni pedaqoji təfəkkürün inkişaf mərhələləri: Ə.Ə.Əlizadənin psixoloji görüşləri" (2018), "Azərbaycan ailəsində ailədaxili münasibətlər: valideyn-uşaq ünsiyyəti" (2019), "N.Tusinin "Əxlaqi-Nasiri" əsəri: ailə və qadın psixologiyası məsələləri"(2020) və s. məqalələr AAK-ın tələblərinə cavab verən jurnallarda çap edilib.



## Solmaz Həsənli

Psixologiya üzrə fəlsəfə doktoru, dosent

Solmaz Qüdrət qızı Həsənli 1972-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1979-cu ildə Naxçıvan şəhər 4 sayılı orta məktəbinin I sinfinə daxil ol muş, 1989-cu ildə həmin məktəbin X sinfini bitirmişdir.

1992-1997-ci illərdə dövlət xətti ilə Türkiyənin Ankara Qazi Universitetinin Eğitim fakültəsində təhsil almışdır.

1997-1999-cu illərdə Naxçıvan Dövlət Universitetinin pedaqoji fakültəsində magistratura təhsili almışdır.

1998-ci ildən 2001-ci ilədək Naxçıvan Özəl Universitetində təcrübə işləri üzrə metodist, 2001-2007-ci illərdə həmin universitetin Pedaqogika və psixologiya kafedrasında müəllim vəzifəsində çalışmışdır.

2001-ci ildə Naxçıvan Dövlət Universitetinin doktoranturasına qəbul olunmuşdur. 2005-ci il noyabrın 14-də pedaqogika ixtisasından fəlsəfə doktoru proqramı üzrə dissertasiya müdafiə etmiş və Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 23 yanvar 2007-ci il tarixli (protokol №-03) qərarı ilə

fəlsəfə doktoru elmi dərəcəsini almışdır.
2007-ci ildən 2014-cü ilə qədər Naxçıvan Özəl Universietinin Pedaqogika və psixologiya kafedrasının müdiri vəzifəsində çalışmışdır. 2015-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 10 fevral 2015-ci il tarixli (protokol №-06-k) qərarı ilə ona pedaqogika üzrə dosent elmi adı verilmişdir. 2003-cü ildən 2014-cü ilə qədər Naxçıvan Müəllimlər İnstitutunun Pedaqogika və psixologiya kafedrasının müəllimi vəzifəsində çalışmışdır.
2004-cü ildən 2013-cü ilə qədər Naxçıvan Müəllimlər İnstitutunun elmi katibi vəzifəsini yerinə yetirmişdir.
2014-cü ildə Bakı Qızlar Universitetində Psixologiya kafedrasının dosenti vəzifəsində çalışmışdır.
2014-cü ilin noyabr ayından Azərbaycan Respublikası Təhsil İnstitutunun Psixologiya və yaş fiziologiyası şöbəsində aparıcı elmi işçi, 2016-cı ildə həmin şöbənin müdiri vəzifəsində işləmişdir. 2017-ci ildən Azərbaycan Respublikası Təhsil İnstitutunun Psixoloji xidmət şöbəsinin müdiri vəzifəsinə təyin olunmuş dur.
2017-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi Psixologiya kafedrasının dosenti kimi  fəaliyyət göstərir.
2009-cu ildən Naxçıvan Dövlət Universitetinin ümumi psixologiya (6107. 01) ixtisası üzrə elmlər doktoru proqramı üzrə doktorantıdır. Hazırda "Müasir şəraitdə şəxsiyyətin sosiallaşmasının psixoloji xüsusiyyətləri" adlı doktorluq dissertasiyası üzərində işləyir. Ümumi psixologiya, psixologiyanın əsasları, idarəetmə və menecment psixologiyası, test nəzəriyyəsi, eksperimental psixologiya, sosial-psixoloji xidmətin müasir problemləri, istedadlı uşaqlara psixoloji xidmət konsepsiyası fənlərini tədris edir.
"Psixologiya" adlı dərs vəsaitinin, "Ailə tərbiyəsində etnopedaqoji materiallardan istifadə imkanları" adlı monoqrafiyanın, "Məktəblərdə peşə seçiminə psi xoloji rəhbərlik" adlı metodik vəsaitin, "Ali məktəb psixologiyası", "Ümumi psixologiya", "İdarəetmə və menecment psixologiyası" adlı tədris proqramları və müxtəlif elmi məcmuələrdə 50-dən çox elmi məqalə və tezislərin müəllifidir.



## Ülviyyə Əfəndiyeva

Psixologiya üzrə fəlsəfə doktoru, dosent

Əfəndiyeva Ülviyyə Akif qızı 1968-ci ildə Kürdəmir rayonunda ziyalı ailəsində anadan olmuşdur. 1976–cı ildə Bakı şəhərindəki 7 saylı orta məktəbə daxil olmuş, 1986-cı ildə məktəbi əla qiymətlərlə bitirmişdir. 1986-cı ildə V.İ.Lenin adına APİ-yə (indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinə) qəbul olunmuş, 1990-cı ildə universiteti pedaqogika və psixologiya (məktəbəqədər) ixtisası üzrə bitirmişdir. Ü.A.Əfəndiyeva 1992-cı ildən 1996-cı ilə qədər 183 saylı uşaq bağçasında tərbiyəçi vəzifəsində, 2002-2008-ci illərdə Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Psixologiya və yaş fiziologiyası şöbəsində kiçik elmi işçi vəzifəsində çalışmışdır.

O, 2008-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrasında baş müəllim vəzifəsində fəaliyyətini davam etdirmişdir. 2016-cı ildən kafedranın dosenti vəzifəsində çalışır. 2002-ci ildən Təhsil Problemləri İnstitutunun Pedaqoji psixologiya ixtisası üzrə dissertantı olmuş, 2008-ci ildə Bakı Dövlət Universitetinin nəzdindəki H.02.014 Dissertasiya Şurasında professor Ramiz İbrahim oğlu Əliyevin rəhbərliyi ilə "Uşağın məktəbə psixoloji hazır-

lığında yaşıdları ilə qarşılıqlı münasibətlərinin rolu" (19.00.07- pedaqoj psixologiya ixtisası üzrə) mövzusun da namizədlik dissertasiyasını müdafiə edərək, 2009-cu ildə psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır. 2018-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə dosent elmi adını almışdır.

ADPU-da işlədiyi müddət ərzində Ümumi psixologiya kafedrasında "Özünüqiymətləndirmənin kiçik yaşlı məktəblilərin şəxsiyyətinin formalaşmasına təsiri", "Müasir dövrdə müəllim şəxsiyyətinə verilən psixoloji tələblər", "Gender psixologiyası", "Psixoterapiya praktik psixologiyanın sahələrindən biri kimi", "Psixoloji təsir və şəxsiyyətlərarası münasibətlərin psixologiyası" adlı elmi-tədqiqat işlərini hazırlayaraq universitetə təhvil vermişdir.

Ü.A.Əfəndiyeva bakalavr təhsil səviyyəsində "Psixologiya", "Ailə və gender psixologiyası", magistratura səviyyəsində "Ünsiyyət və qarşılıqlı münasibətlər", "Əsrin gender konsepsiyası" fənlərini tədris edir. Onun rəhbərliyi ilə 2 bakalavr diplom işini, 17 magistrant dissertasiya işini uğurla müdafiə etmişdir. Hazırda 3 magistranta və Ümumi psixologiya kafedrasının fəlsəfə doktoru proqramı üzrə 1 qiyabi doktoranta elmi rəhbərlik edir. Dəfələrlə magistratura üzrə Müdafiə Şurasının elmi katibi olmuşdur.

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasi ya Komissiyası tərəfindən bir sıra fəlsəfə doktoru dissertasiyalarına ekspert rəy-çisi təyin olunmuşdur. 10 fəlsəfə doktoru dissertasiyasına və bir neçə avtoreferatlara rəy vermişdir. Psixoloji və pedaqoji ədəbiyyatların və proqramların elmi rəyçisi olmuşdur.

Ülviyyə Əfəndiyeva fakültənin və universitetin ictimai həyatında yaxından iştirak edir, rəhbərlik tərəfindən verilən hər bir tapşırığı vaxtında və yüksək səviyyədə yerinə yetirir.

Məktəbəqədər təhsil Fakültə Şurasının, Fakültə Metodik Şurasının üzvüdür. Məktəbəqədər təhsil fakültə TEC-nin təşkil etdiyi konfransda bölmə rəhbəri, universitet üzrə magistrantların III Respublika elmi konfransının Təhsildə sosial-psixoloji xidmət bölməsində katib kimi iştirak etmişdir. Universitet və kənarda keçirilən təlimlərdə, həm xa-

rici, həm də yerli alimlərin iştirak etdiyi seminar və konfranslarda fəal iştirak etmiş və 20-dən artıq sertfikat almışdır.

Ülviyyə Əfəndiyeva televiziya verilişlərində universiteti təmsil edərək, psixoloq-ekspert kimi çıxış etmişdir. Dəfələrlə tələbələr və magistrantların iştirakı ilə elmi seminarlar təşkil etmiş, onların psixologiya elminə və onun praktik sahələrinə olan maraqlarını artırmağı qarşısına məqsəd qoymuşdur. Fakültə üzrə tələbələrin olimpiadalara hazırlanması işinə rəhbərlik edir. Ümumi psixologiya kafedrasında elmi işlərin müzakirələrinə, müəllimlərin elmi seminarları nın keçirilməsinə rəhbərlik edir.

53-ə qədər elmi əsərin, o cümlədən, "Ünsiyyət və qarşılıqlı münasibətlər məktəbə psixoloji hazırlığın əsası kimi" (Bakı, 2007) adlı monoqrafiyanın, "Əsrin gender konsepsiyası" (Bakı, ADPU, 2017), "Ailə və gender psixologiyası" (dos. N.Z. Çələbiyevlə birlikdə) (Bakı, ADPU, 2021) adlı dərs vəsaitlərinin, "Müəllim şəxsiyyətinin psixologiyası" (Bakı, ADPU, 2014) adlı metodik vəsaitin, magistratura və bakalavr pillələri üzrə "İstedadlı uşaqlara psixoloji xidmət konsepsiyası" (Bakı, ADPU, 2014), "Ünsiyyət və qarşılıqlı münasi bətlər" (Bakı, ADPU, 2014), Təhsildə liderlik" (АДПУ, 2014), "Ailə və gender psixologiyası" (Bakı, ADPU, 2019) və s. proqramları çap edilmişdir. Bunlarla yanaşı, 2-si xaricdə olmaqla 40-a yaxın elmi və elmi-metodik məqalənin, beynəlxalq və respublika elmi konfranslarının materialları və tezislərin: "Социально-психологическая готовность детей к школе как значимый компонент об щепсихологической готовности ребенка к школьному обучению" (Москва, "Спутник",2008),"Yeniyetməlik dövründə intihar problemi" (Bakı, ADPU, 2014), "Особенности психического развития детей с синдромом раннего детско го аутизма" (Bakı, ADPU, 2015), "Pedaqoji psixologiyada təlim, inkişaf, tərbiyə problemləri" (Bakı, ADPU, 2017), "Psixoterapiya praktik psixologiyanın əsas sahələrindən biri kimi" (BQU, 2018), "Psixoterapevtik konsultasiyanın humanist yanaşmasında konseptual dəyərlər" (Iğdır Universitesi, İksad Publication, 2019), "Psixoterapevtik konsultasiyanın prosessual xarakteristikası" (Bakı, ADPU, 2020) və s. müəllifidir.



## Məhərrəm Əliyev

Psixologiya üzrə fəlsəfə doktoru, dosent

Məhərrəm Sabir oğlu Əliyev 1977-ci il sentyabrın 4-də, Bakı şəhərində anadan olub. 1984–1990-cı illərdə I–V siniflərdə N.Nərimanov adına 45 nömrəli orta məktəbdə, 1990–1994-cü illərdə isə (VI–X siniflərdə) 263 nömrəli orta məktəbdə təhsil alıb.

1994–1998-ci illərdə Bakı Dövlət Universitetinin sosial elmlər və psixologiya fakültəsinin psixologiya şöbəsində eyni adlı ixtisas üzrə bakalavr, 1998–2000-ci illərdə isə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrasında ümumi psixologiya ixtisası üzrə magistratura təhsili alıb və oranı fərqlənmə diplomu ilə bitirib.

2000-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrasında müəllim vəzifəsində işə başlayıb. 2011-ci ildən baş müəllim vəzifəsində çalışıb. Hazırda həmin kafedranın dosentidir.

2001-ci ilin sentyabr ayından Yeni Azərbaycan Partiyasının üzvüdür. 2002–2008-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universite-

tinin Yaş və pedaqoji psixologiya kafedrasının doktorantı (istehsalatdan ayrılmamaqla) olub. 27 noyabr 2013-cü il tarixdə BDU-nun (FD.02.014) Dissertasiya Şurasında "Tələbələrdə özünənəzarətin formalaşmasının psixoloji xüsusiyyətləri" (19.00.07–pedaqoji psixologiya ixtisası üzrə) mövzusunda fəlsəfə doktoru elmi dərəcəsi üzrə dissertasiya müdafiə edib. 2014-cü ildə Azərbaycan Respubli kası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsinə (təsdiq tarixi: 16.09.2014) layiq görülüb.

2006–2007-ci illərdə həqiqi hərbi xidmətdə olub, ehtiyatda olan (baş leytenant) zabitdir. 2010–2011-ci illərdə Azərbaycan Müəllimlər İnstitutunda saathesabı müəllim kimi çalışıb.

2013-cü il oktyabrın 1-dən həmin ilin sonuna qədər ADPU-nun Ümumi psixologiya kafedrasının müdiri vəzifəsini icra edib.

2013–2015-ci illərdə ADPU-nun Elmi-Metodik Şurasının elmi katibi olub. 2008–2013-cü illərdə Bakı Qızlar Universitetinin Psixologiya kafedrasında baş müəllim, 2013-cü ildən dosent vəzifəsində çalışıb. 2013–2015-ci illərdə həmin kafedranın müdiri olub.

2014–2015 və 2017–2018-ci illərdə (II semestr) Dövlət Gömrük Komitəsinin Akademiyasında saathesabı müəllim kimi çalışıb. 2015/2016-cı tədris ilində Türkiyə Respublikasının Trabzon şəhərində yerləşən Avrasya Universitetində Psixologiya kafedrasının müdiri vəzifəsində çalışıb.

2018–2020-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Sosial elmlər kafedrasında baş müəllim kimi fəaliyyət göstərib. Müxtəlif vaxtlarda magistrantların dissertasiyalarının müdafiəsində üzv kimi iştirak edib.

2018-ci ildən Psixologiya Elmi-Tədqiqat İnstitutunda Nəzəri və Eksperimental Psixologiya şöbəsinin müdiri və elmi katibi vəzifələrini icra edir. 2019–2020-ci illərdə ETƏŞ (Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası) Psixologiya və sosiologiya üzrə koordinasiya şurasının elmi katibi olub.

2020-ci ildə, elmi və pedaqoji fəaliyyətinə görə, Azərbaycan Res-

publikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə dosent (təsdiq tarixi: 05.03.2020) elmi adı verilib.

Müxtəlif illərdə BDU-da imtahan komissiyasının üzvü olub. 2018-ci ildən etibarən, ADPU-nun Quba filialı üzrə dövlət imtahan komissiyasının sədri kimi fəaliyyət göstərir.

Psixoloji və tərcümə ədəbiyyatlarının elmi redaktoru və rəyçisi olmuşdur.

2021-ci ildən bir nəfər fəlsəfə doktoru proqramı üzrə təhsil alan doktorantın elmi rəhbəridir. 2021-ci ildən psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini həyata keçirən (FD2.43) Dissertasiya Şurasının üzvüdür.

Uzun illərdir ki, praktik psixoloq kimi fəaliyyət göstərir. Psixologiya üzrə onlayn kurs və təlimlərə qatılıb, geştalterapiya, pozitiv psixologiya və ilkin psixoloji yardım üzrə sertifikatlar alaraq, kursları uğurla tamamlayıb.

2013-cü ildən Türkiyə və Rusiyada şəxsi inkişafla bağlı müxtəlif təlimlərə qatılıb, hazırda neyrolinqvistik proqramlaşdırma üzrə beynəlxalq dərəcəli təlimçidir. 2014-cü ildən NLP üzrə müxtəlif seminar və təlimlər (NLP-diplom, NLP -praktik və NLP-master praktik) keçirir və beynəlxalq sertifikat verir. Eyni zaman da, psixologiyaya giriş kursunu tədris edir. 23.02.2019-cu ildə Psixologiya Elmi-Tədqiqat İnstitutunda "Neyrolinqvistik proqramlaşdırmada qorxu və fobiyalar: tərifi və aradan qaldırılması yolları" mövzusunda simpoziumda həm təşkilatçı, həm də məruzəçi olub.

25.06.2019-cu ildə Psixologiya Elmi-Tədqiqat İnstitutunun təşkilatçılığı ilə ADPU-da keçirilmiş beynəlxalq konfransda "Psixologiya və NLP: axtarışlar və perspektivlər" mövzusunda məruzəçi olub.

26.06.2019-cu ildə Psixologiya Elmi-Tədqiqat İnstitutunun təşkilatçılığı ilə ADPU-da keçirilmiş beynəlxalq konfransda "Metamodel və onun psixoterapiya da istifadə imkanları" mövzusunda

seminar keçirib. Microsoft Office proqramlarını bilir.

Bakalavr pilləsində psixologiya, ünsiyyət və münasibətlər psixologiyası, ailə və gender psixologiyası, eksperimental psixologiya, sosial psixologiya, psixoanaliz, fərdiyyət və şəxsiyyət, nitq və təfəkkür, idman psixologiyası fənlərini tədris edir.

Magistratura pilləsində psixologiyanın müasir problemləri fənnini tədris edir. Qeyri-tarazlıq psixologiyası konsepsiyasının və intiharın qarşısının alınmasında yeni yanaşma olan "intiharın 7-li preventiv modeli"nin müəllifidir. Özünənəzarət, suisid problemləri və neyrolinqvistik proqramlaşdırma məsələləri əsas tədqiqat sahələridir. Universitetin ictimai işlərində və elmi konfranslarda vaxtaşırı fəal iştirak edir, konfranslarda həmsədr kimi fəaliyyət göstərir. Universitetdaxili və xarici təlimlərdə, seminarlarda fəal iştirak edib və 20-dən artıq sertfikat alıb. 37 adda elmi məqalə, proqram, dərs vəsaiti, tezis və monoqrafiyası çap edilib. O cümlədən, "Psixologiya atlası" (2009), "Psixologiyanın əsasları (sxemlər)" (2017) adlı dərs vəsaitləri, ""Özünənəzarət sahəsi" anlayışı və onun konseptual modeli" (2017) adlı monoqrafiyası, magistratura və bakalavr pillələri üzrə "Psixologiya" (2015), "Müasir psixologiyanın tədqiqat metodları" (2010), "Psixologiya elminin müasir problemləri" (2015), "Ünsiyyət və münasibətlərin psixologiyasi" (2015), "Nitq və təfəkkür" (2010), "Fərdiyyət və şəxsiyyət" (2010), "Eksperimental psixologiya" (2010), "Psixoterapiya" (2020) və s. proqramları çap edilib. Bununla yanaşı, bir sıra elmi məqalə və tezisləri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələblərinə cavab verən jurnallarda çap edilib. Eyni zamanda, döyüş idman növləri ilə maraqlanır, 2013-cü ildən real ay-kido ilə məşğul olur, hazırda 2.kyu göy kəmər (blue belt) sahibidir. 2017– 2019-cu illərdə kikboksinqlə həvəskar səviyyədə məşğul olub.

Xarici dillərdən türk (əla), rus (əla) və ingilis (orta) dillərini bilir.



# Lamiyə Qurbanova

Psixologiya üzrə fəlsəfə doktoru, dosent

Lamiyə Mehdi qızı Qurbanova 10 iyun, 1974-cü ildə Gürcüstan Respublikasının Qardabani rayonunda, ziyalı ailəsində anadan olmuşdur. 1991-ci ildə Sumqayıt şəhər 31 saylı orta məktəbi qızıl medalla, 1996-cı ildə Azərbaycan Sənaye İnstitutunun energetika və avtomatika fakültəsini mühəndislik ixtisası üzrə fərqlənmə diplomu (AB-I №004664) ilə bitirmişdir.

2000-ci ildə Sumqayıt Dövlət Universitetində laborant kimi əmək fəaliyyətinə başlamış və 2002–2004-cü illərdə bu universitetin Psixologiya kafedrasının dissertantı olmuşdur.

2006-cı ildə Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən N.02.014 Dissertasiya Şurasında 19.00.07–pedaqoji psixologiya ixtisası üzrə (prof. Ə.Ə.Əlizadənin elmi rəhbərliyi ilə) “Tələbə gənclərin şəxsiyyətinin strukturunda cinsi fərqlərin xüsusiyyətləri” mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 8.05.2007-ci il tarixli (protokol № 16–k) qərarı ilə psixologiya elmləri namizədi alimlik dərəcəsinə (diplom: EN №04514) layiq görülmüşdür.

2007–2016-cı illərdə Azərbaycan Müəllimlər İnstitutunda baş müəllim vəzifəsində fəaliyyət göstərmişdir. 2012/2013, 2014/2015-ci tədris illərində Qafqaz Universiteti və Bakı Dövlət Universitetində saathesabı müəllim kimi fəaliyyət göstərmişdir.

2016/2017-ci tədris ilindən etibarən Azərbaycan Müəllimlər İnstitutunun Azərbaycan Dövlət Pedaqoji Universitetinə qoşulması ilə əlaqədar olaraq, universitetin Ümumi psixologiya kafedrasında baş müəllim vəzifəsində fəaliyyət göstərir. 2018-ci ildə, müsabiqə yolu ilə bu kafedranın dosenti seçilmişdir. 50-dən yuxarı elmi əsərin, o cümlədən, "Eksperimental psixologiya" (Bakı, 2014), "Psixi sağlamlıq" (Bakı, 2019) adlı dərs vəsaitlərinin, "Ailənin psixoloji problemləri və onların həlli yolları" (Bakı, 2012) adlı monoqrafiyanın, "Psixodiaqnostikanın əsasları" (Bakı, 2009) və "Eksperimental psixologiyaya dair mühazirə mətnləri" (Bakı, 2010) adlı metodik vəsaitlərin, 7 proqramın (4-ü xaricdə olmaqla), 40-a yaxın elmi və elmi-metodiki məqalənin, beynəlxalq və respublika səviyyəli elmi konfrans materiallarının müəllifidir.

2010–2014-cü illərdə Azərbaycan Müəllimlər İnstitutu Tələbə Elmi Cəmiyyətinə sədrlik etmişdir. 2012–2013-cü illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurasının pedaqogika və psixologiya bölməsinin üzvü olmuşdur. 2012-ci ildən psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən (FD.02.014) Dissertasiya Şurası yanında elmi seminarın üzvüdür. Çox sayda dissertasiyaların elmi rəyçisi və opponenti olmuşdur.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin və KİV-in təşkil etdiyi müxtəlif sosial əhəmiyyətli layihələrdə, treninq və proqramlarda ekspert qismində, eləcə də elmi-pedaqoji təcrübəni təkmilləşdirmək məqsədilə keçirilən müxtəlif seminar və treninqlərdə aktiv iştirak etmiş, sertifikatlar almışdır.

Fortepiano üzrə musiqi təhsili almışdır. Həvəskar kimi şeirlər yazır, rəssamlıqla məşğul olur (SDU-da sərgisi təşkil olunmuş və rəsm müsabiqəsində portret nominasiyası üzrə I yerə layiq görülmüşdür).



## Səbinə Əlizadə

Psixologiya üzrə fəlsəfə doktoru, müəllim

Səbinə Hikmət qızı Əlizadə 1988-ci ildə Bakı şəhərində, ziyalı ailəsində anadan olmuşdur. 1994-cü ildə Bakı şəhərində H.Mahmudbəyov adına texniki-humanitar liseyinə daxil olmuş, 2005-ci ildə həmin məktəbi bitirmişdir.

Həmin ildə Bakı Dövlət Universitetinin sosial elmlər və psixologiya fakültəsinin psixologiya ixtisası üzrə bakalavriat pilləsinə qəbul olunmuşdur. Bakalavr təhsili alarkən konfranslarda iştirak etmiş, elmi məqalələrlə mətbu orqanlarda çıxış etmişdir.

2009-cu ildə bakalavr pilləsini fərqlənmə diplomu ilə bitirib, BDU-nun psixologiya ixtisası üzrə magistratura pilləsinə qəbul olunmuşdur. Magistratura təhsili müddətində universitetdaxili “50+50” qrant layihəsini qazanmışdır. 2011-ci ildə magistratura pilləsini fərqlənmə diplomu ilə bitirmişdir.

2011-ci ildə BDU-nun Sosial və pedaqoji psixologiya kafedrasında sosial psixologiya ixtisası üzrə doktorantura pilləsinə qəbul olunmuşdur. 2014-cü il də doktorantura pilləsini bitirmişdir. Hə-

min ildə "Müəllimin məktəbdə rəhbərlik üslubunun sosial-psixoloji məsələləri" mövzusunda dissertasiya işini müdafiə edərək, psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülmüşdür.

2011–2014-cü illərdə Bakı Dövlət Universitetində, 2014/2015-ci tədris ilində Azərbaycan Dövlət Pedaqoji Universitetində saathesabı mühazirə və seminar məşğələləri aparmışdır. 2015-ci ildən ADPU-nun Ümumi psixologiya kafedrasında müəllim kimi çalışmağa başlamışdır. Bu müddət ərzində bir sıra kurslar üzrə mühazirə və məşğələlər aparmış, magistrantlara elmi rəhbərlik etmişdir. 2017-ci ildən Yeni Azərbaycan Partiyasının üzvüdür. 2019 və 2020-ci illər də ADPU-nun nəzdindəki Azərbaycan Dövlət Pedaqoji Kollecində Dövlət Attestasiya Komissiyasının sədri kimi buraxılış imtahanlarına rəhbərlik etmişdir.

Regional İctimai İnkişaf Birliyinin "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi çərçivəsində 19–25 yanvar, 2020-ci il tarixin də Portuqaliyanın Lissabon şəhərinə səfərdə iştirak etmişdir.

2020-ci ildə Bakı Dövlət Universiteti, sosial elmlər və psixologiya fakültəsinin Sosial və pedaqoji psixologiya kafedrasının (6114.01) sosial psixologiya ixtisasına, elmlər doktoru proqramı üzrə doktoranturaya qəbul olunmuşdur. Hazırda "Sosial intellektin formalaşmasının mədəni-psixoloji əsasları" mövzu sunda elmi araşdırmalar aparır.

Universitetin ictimai həyatında, elmi konfranslarda, təlimlərdə fəal iştirak edir. Bir sıra yerli və xarici sertifikatlara layiq görülmüşdür. 2019-cu ildə "Böyük çex pedaqoqu Yan Amos Komenski: təhsildə klassik və müasir yanaşmalar" adlı beynəlxalq konfransda bölmə sədri kimi fəaliyyət göstərmişdir.

Səbinə Əlizadədə psixologiya elminə marağın yaranmasında, onun tədqiqatçı alim kimi formalaşmasında görkəmli psixoloq-alim, Əməkdar elm xadimi, professor Əbdül Əlizadənin həm şəxsiyyətinin, həm də zəngin kitabxanası ilə yaxından tanışlığın əvəz-

siz rolu olmuşdur. Tələbəlik illərindən etibarən həm universitetin ictimai həyatında iştirak etmiş, həm də respublika və xarici ölkələrdə keçirilən konfranslarda məruzələrlə çıxış etmiş, nüfuzlu elmi jurnallarda məqalələr dərc etdirmişdir.

Ümumilikdə 45 elmi əsərin müəllifidir. Bu illər ərzində 25 məqaləsi çap olunmuşdur. Bu məqalələrdən ikisi impakt faktorlu və Web of science seriyalı jurnallarda dərc olunmuşdur. 15 tezis, 3 proqram, 1 metodik və 1 dərs vəsaiti çap olunmuşdur. "Ailə psixologiyası" adlı metodik vəsaitin müəllifi, "Psixopeda qogika" adlı dərs vəsaitinin müəlliflərindən biridir. "Psixopedaqogika", "Sosial psixologiya", "İdarəetmə psixologiyası" adlı proqramları işıq üzü görmüşdür. Hazırda elmi təqdiqatlarını davam etdirir. Rus və ingilis dillərini bilir.



## Yeganə Əskərova

Psixologiya üzrə fəlsəfə doktoru, baş müəllim

Yeganə Baxış qızı Əskərova 1974-cü ildə, Bakı şəhərində anadan olub. 1991-ci ildə Bakı şəhərindəki 38 saylı orta məktəbi bitirib. 1993-cü ildə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin riyaziyyat fakültəsinə qəbul olunub. 1998-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin riyaziyyat ixtisası üzrə bakalavriat səviyyəsini, 2001-ci ildə isə həmin ixtisasın magistratura səviyyəsini fərqlənmə diplomu ilə bitirib. 2008-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetində ibtidai təhsilin pedaqogikası və metodikası ixtisasına yiyələnmişdir.

1994-cü ildən Riyaziyyat və onun tədrisi metodikası kafedrasında laborant vəzifəsində çalışıb. 2017-ci ildən Ümumi psixologiya kafedrasının baş müəllimidir

2011-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin dissertantı olub.

2016-cı ildə "Azərbaycanda elmi psixologiyanın inkişafında Ə.Ə.Əlizadə yaradıcılığının rolu" mövzusunda dissertasiyasını

müdafiə üçün təqdim etmişdir. 2016-cı ildə BDU-nun (FD.02.014) ixtisaslaşmış şurasında "Azərbaycanda elmi psixologiyanın inkişafında Ə.Ə.Əlizadə yaradıcılığının rolu" (6107.01 – ümumi psixologiya, şəxsiyyət psixologiyası, psixologiya tarixi ixtisası üzrə) mövzusun da namizədlik dissertasiyasını müdafiə etmişdir. 2001-ci ildən Yeni Azərbaycan Partiyasının üzvüdür. 2017-ci il 8 iyunda psixologiya üzrə fəlsəfə doktoru diplomunu almışdır.

Universitetin ictimai işlərində və elmi konfranslarda vaxtaşırı fəal iştirak etmiş, universitetdə və universitetdən kənarda keçirilən təlimlərdə, həm xarici, həm də yerli alimlərin seminarlarında fəal iştirak etmiş və 30-dan artıq sertfikat almışdır. 34 adda elmi məqalə, proqram və tezisləri çap edilib. Bununla yanaşı, bir sıra elmi məqalələri də çap edilib: "Yeniyetməlik dövründə şagirdlərin müstəqilliyinin təmin olunmasının psixoloji amilləri" (2011), "Güləşçinin ümumi psixoloji hazırlığı haqqında" (2011), "Yeniyetməlik dövründə şagirdlərin müstəqilliyə cəhd meyilləri" (2011), "Şagirdlərin şəxsiyyət kimi formalaşmasında müəllimin və valideynin rolu" (2012) və s.



## Sədaqət Ələkbərova

Baş müəllim

Sədaqət Raci qızı Ələkbərova 1945-ci ildə Bakı şəhərində anadan olub. 1966-cı ildə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinə daxil olub, 1970-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir.1971-ci ilə kimi ADPU-nun fizika fakültəsində laborant vəzifəsində işləmişdir. 1971–1974-cü illərdə həmin institutun aspiranturasında oxumuşdur. 1974–1976-cı illərdə institutun ETS-də kicik elmi işçi vəzifəsində, 1976–1990-cı illərdə elmi işlər üzrə prorektor köməkçisi, 1990-cı ildən bu günə kimi psixologiya kafedrasında fəaliyyət göstərmişdir. Hazırda ADPU-da baş müəllim vəzifəsində çalışır.

Bir sıra elmi məqalələri çap olunub: "İbtidai məktəbdə psixoloqun diaqnostik işi" (2012), "İbtidai məktəbdə psixoloqun inkişaf-korreksiyaediçi fəaliy yəti" (2012), "Xüsusi bölmələrin hərbi qulluqçularının travmadan sonrakı stress pozulmaları və profilaktik tədbirlər" (2013), "Psixologiya, fizika və tibbi biliklərin əsasları fənlərinin tədrisində inteqrativ təlimin təşkili" (2013), "Uşaqlarda idrak proseslərinin xüsusiyyətlərinin müqayisəli təhlili" (2016), "Erkən yaşlı uşaqların sosializasiya prosesləri" (2017).



## Günəş Əfəndiyeva

Baş müəllim

Günəş Əli qızı Əfəndiyeva 10 aprel 1953-cü ildə, Bakı şəhərində anadan olub. 1969-cu ildə 175 №-li məktəbi bitirmişdir. 1969-cu ildə Bakı Məktəbəqədər Pedaqoji məktəbinin əyani şöbəsinə qəbul olunmuş, 1973-ci ildə oranı bitirmişdir.

1974-cu ildə V.İ.Lenin adına APİ-yə (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) daxil olub və 1979-cu ildə pedaqogika-psixologiya ixtisası üzrə tam kursu bitirmişdir.

1980–1990-cı illərdə APİ-nin Pedaqogika kafedrasında laborant vəzifəsində çalışmışdır. 1990–2000-ci illərdə "Dədə Qorqud" Elmi-Tədqiqat Laboratoriyasında kiçik elmi işçi vəzifəsində işləmişdir. 2001-ci ildən indiyə qədər ADPU-nun Ümumi psixologiya kafedrasında müəlim, baş müəllim vəzifələrində çalışmağa davam edir.

Bundan əlavə, 2001-ci ildən bu günədək Ümumi psixologiya kafedrasında pedaqoji təcrübəyə rəhbəlik edir. Eyni zamanda, fakültə elmi şurasının üzvüdür. 21 məqalə, proqram, metodik göstəriş və

tezisləri çap edilib. O cümlədən, “Pedaqoji psixologiya və psixo-pedaqogika” (magistr hazırlığı üçün proqram, 2015), “Koqnitiv, humanist və geştalt psixologiyası (bakalavr səviyyəsi üçün proqram, 2016), “Pedaqoji təcrübəyə aid metodik göstərişlər (təhsilin bakalavr pilləsi üçün, 2017), “Məktəblilərdə qabiliyyətlərin inkişaf etdirilməsi məsələləri” (məqalə, 2017), “Əbdül Əlizadənin yaradıcılığında pedaqoji psixologiya məsələləri” (2017) və s. proqramlar, məqalələr də buraya daxildir.

Bununla yanaşı, beynəlxalq elmi-praktik konfransın materialları – “Gənclik yaşı dövründə şəxsiyyətin inkişafının psixoloji xüsusiyyətləri”, “Uşaqlarda intellekt qabiliyyətlərinin inkişaf etdirilməsi” (2020) adlı məqalə və tezislər çap edil mişdir.





## Könül Məmmədova

Baş müəllim

Könül Allahverdi qızı Məmmədova 11 noyabr 1981-ci ildə, Bakı şəhərində anadan olub. 1997-ci ildə Bakı şəhəri, Suraxanı rayonundakı 275 nömrəli orta məktəbi bitirib.

2001-ci ildə ADPU-nun ibtidai təhsilin pedaqogika və metodikası ixtisası üzrə bakalavr səviyyəsini, 2003-cü ildə ADPU-nun ümumi psixologiya ixtisası üzrə magistr səviyyəsini bitirmişdir.

2010-cu ildən hazırkı dövrə qədər ADPU-nun Ümumi psixologiya kafedrasında baş müəllim vəzifəsində çalışır.

Bir sıra elmi əsərləri çap edilib. Bunlara "Uşaq şəxsiyyətinin formalaşma sında Azərbaycan şifahi xalq ədəbiyyatının rolu" (2011), "Laylalar və bayatılar da psixoloji fikirlər" (2014), "Təlim fəaliyyətində tələbələrin əxlaqi şüurunun və ünsiyyətinin inkişafı" (2015), "İbtidai siniflərdə nitq qüsurlarının psixoloji təhlili" (2016), "Ailə mühitinin şəxsiyyətin inkişafına təsiri" (2018), "Yeniyetmələrlə valideynlər arasında qarşılıqlı münasibətlər" (2018) və s. aiddir.



## Sona Əliyeva

Baş müəllim

Əliyeva Sona İbrahim qızı 1983-cü il avqust ayının 28-də, Şəki şəhərində anadan olub. 1999-cu ildə Bakı şəhər 42 nömrəli orta məktəbi bitirmişdir.

2003-cü ildə Müstəqil Azərbaycan Universitetinin ibtidai təhsilin pedaqogika və metodikası ixtisası üzrə bakalavr səviyyəsini fərqlənmə diplomu ilə bitirib. 2007-ci ildə Sumqayıt Dövlət Universitetinin ümumi psixologiya ixtisası üzrə magistr səviyyəsini fərqlənmə diplomu ilə bitirib.

2007-ci ildən Bakı Dövlət Universitetinin doktorantıdır. AMEA-nın müxbir üzvü, prof. B.H.Əliyevin rəhbərliyi altında "Azərbaycan psixoloji fikir tarixində təfəkkürün tənqidiliyi konsepsiyasının təşəkkülü" mövzusunda dissertasiyanı yazıb tamamlamışdır. BDU-nun doktorantı olduğu müddətdə 2008-ci ildən 2012-ci ilə qədər orada, Psixologiya kafedrasında saathesabı dərs aparmışdır.

2003–2007-ci illərdə ADPU-nun İnformatika kafedrasında ope-

rator,2007–2011-ci illərdə kompüter mərkəzində proqramçı vəzifələrində çalışıb.

2011-ci ildən bu günə qədər ADPU-nun Ümumi psixologiya kafedrasında müəllim vəzifəsində çalışır. 2020-ci ildən həmin kafedranın baş müəllimidir. 2018-ci ilin dekabr ayından Keyfiyyətin Qiymətləndirilməsi və Reytinq Komissiyasının üzvüdür.

Biri xaricdə olmaqla, 16 elmi məqalə və tezisin müəllifidir. Bununla yanaşı, bir sıra elmi məqalə və tezisləri – "Təfəkkürün tənqidiliyi ilə bağlı professor Ə.S.Bayramovun tədqiqatlarının təhlili və onun psixoloji fikir tarixində yeri" (2010), "Təfəkkürün tənqidiliyinin funksiyaları və strukturu haqqında" (2010), "Особенности разви тия критического мышления учащихся в условиях новой образовательной па радигмы" (2011), "Təfəkkürün tənqidiliyi konsepsiyasının formalaşmasına Azərbaycan maarifçilərinin təsiri" (2011), "Ə.S.Bayramov təfəkkürün tənqidiliyi konsepsiya sına dair" (2011), "Fikri fəaliyyətin emosional tənzimi probleminin tədqiqi məsələləri" (2013), "Azərbaycan şifahi xalq ədəbiyyatında təfəkkürün tənqidilik məsələləri" (2016), "Əbdül Əlizadə yaradıcılığında təfəkkür psixologiyası məsələləri" (2017), "Tapmaca və lətifələr təfəkkürün tənqidiliyinin inkişafetdirici vasitəsi kimi" (2018), "Fəal təlim metodları tənqidi təfəkkürün inkişaf etdirilməsinin yeni pedaqoji texnologiyası kimi" (2018), "Azərbaycan fəlsəfi fikrində təfəkkürün tənqidiliyi problemi" (2019), "Müasir Azərbaycan psixoloqlarının tədqiqatlarında təfəkkürün tənqidilik problemi" (2020), "Kiçik məktəblilərdə təfəkkürün tənqidiliyinin psixoloji tədqiqi" (2020) və s. məqalələri, tezisləri çap olunmuşdur.



## Rəna Qasımova

Baş müəllim

Rəna Nurəddin qızı Qasımova 1967-ci ildə, Bakı şəhərində anadan olmuşdur. 1984-cü ildə Bakı şəhərindəki 12 saylı orta məktəbi bitirib. 1993-cü ildə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olunub, 1997-ci ildə həmin universitetin defektologiya ixtisası üzrə bakalvr pilləsini bitirmişdir.

1997-ci ildə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin psixologiya ixtisası üzrə magistraturasına daxil olmuş, 1999-cu ildə oranı bitirmişdir.

2000-ci ildə Azərbaycan ETPEİ-nin (indiki AR Təhsil İnstitutu) ümumi psixologiya ixtisası üzrə qiyabi aspiranturasına daxil olmuş, 2004-cü ildə oranı bitirmişdir.

Əmək fəaliyyətinə 1998-ci ildən başlamışdır. 1998-ci ildə 3 №-li Bakı Poliqrafiya Peşə Məktəbində psixoloq vəzifəsində, 2000–2004-cü illərdə Azərbaycan ETPEİ-nin defektologiya və psixologiya şöbələrində elmi işçi vəzifəsində çalışmışdır. Həmin illər ərzində "Yeniyetmələrdə "mən" konsepsiyası-

nın xüsusiyyətləri","İbtidai sinif şagirdlərində nitq nöqsanları və onların aradan qaldırılması yolları", "Kiçik məktəblilərdə "mən" konsepsiyasının öyrənilməsi məsələləri","Məktəbəqədər yaşlı uşaqlarda "mən"in formalaşmasına tərbiyəvi işin təsiri" və s. elmi-tədqiqat işləri üzərində çalışmışdır.

2004–2007-ci illərdə ADPU-nun Psixologiya kafedrasında saathesabı müəllim vəzifəsində çalışmışdır. 2007-ci ildən bu günə kimi ADPU-nın Ümumi psixologiya kafedrasında müəllim, baş müəllim vəzifələrində çalışır.

2009–2010-cu illərdə beşyaşlıların məktəbə qəbulu üzrə, 2014–2015-ci illər ərzində müəllimlərin işə qəbulu üzrə komissiyaların eksperti vəzifəsində işləmişdir. Universitetin ictimai işlərində, elmi konfrans və seminarlarda fəal iştirak etmişdir. Universitetdə və ondan kənarda keçirilən təlimlərdə fəal iştirak etmiş, 20-dən artıq sertifikat almışdır.

Bütün bunlarla yanaşı, bir sıra elmi məqalə və tezisləri – ""Mən" konsepsiyası və yeni təhsil proqramlarında şəxsiyyətyönümlülük" (2013), ""Mən" konsepsiyası problemləri və yeniyetmələrdə özünüqiymətləndirmənin təzahür xüsusiyyətləri" (2013), ""Mənlik" şüuru və yeniyetməlik yaşı dövründə özünü dərketmənin psixoloji xüsusiyyətləri" (2013), "Oliqofreniyanın təşəkkülü tarixindən" (2013), "Müasir psixologiyada "mən" konsepsiyası problemi və özünüdərk etmənin psixoloji xüsusiyyətləri" (2014), "Şagird şəxsiyyətinin formalaşmasında psixoloji xidmətin rolu" (2014), "İntellektual inkişafında geri qalan uşaqların psixoloji xüsusiyyətləri və onların cəmiyyətə inteqrasiyası" (2015), "İntellektual inkişafdan geri qalan uşaqların nitq inkişafının xüsusiyyətləri və onlarla aparılan loqopedik işin təşkili" (2015), "Suisidal hadisələrin yaranmasının səbəb və şəraitinin psixoloji məsələləri" (2016), "Yeniyetməlik yaşı dövründə deviant davranışın xüsusiyyətləri" (2017) və s. məqalələri müxtəlif jurnallarda çap edilib.



## Gülər Məmmədova

Müəllim

Gülər Akif qızı Məmmədova 1976-cı ildə, Azərbaycan Respublikasının Cəlilabad rayonunda anadan olub. 1994-cü ildə Bakı şəhərinin Səbail rayonu, Badamdar qəsəbəsində yerləşən Tofiq Məmmədov adına 239 saylı orta məktəbi bitirib.

1994-cü ildə Qızlar Universitetinə daxil olaraq pedaqogika və psixologiya ixtisası üzrə bakalavr təhsili almış, 1999-cu ildə oranı bitirmişdir. Eyni zamanda, həmin illər ərzində Tofiq Məmmədov adına 239 saylı orta məktəbdə praktik psixoloq kimi fəaliyyət göstərib.

2009-cu ildən 2013-cü ilə qədər Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyazi analiz kafedrasında böyük laborant vəzifəsində çalışıb.

2010-cu ildə ümumi psixologiya ixtisası üzrə ADPU-nun magistraturasına qəbul olunub, 2012-ci ildə oranı bitirmişdir. Həmin illər ərzində Ümumi psixologiya kafedrasının saathesabı müəllimi olaraq, riyazi metodların psixologiyada tətbiqi, sosial psixologiya

fənlərindən dərs demişdir.
2011-ci ildə Azərbaycan Dillər Universitetinin "Elmi Xəbərlər" jurnalında "Təxəyyülün konseptual modelləri" adlı məqaləsi nəşr olunub.
2012-ci ildə Qafqaz Universitetində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş gənc tədqiqatçıların I Beynəlxalq konfransında "Gender psixologiyasında empatiya konsepsiyası" adlı məqaləsi ilə iştirak etmişdir.
2013 -cü ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.
2014-cü ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 91 illiyinə həsr olunmuş Ümumi psixologiya və Ümumi pedaqogika kafedralarının "Təhsilin aktual psixoloji-pedaqoji problemləri" mövzusunda elmi-praktik konfransının materiallarında "Gender psixologiyasında emosiya problemi" adlı məqaləsi dərc olunub. 2013-cü ildən indiyə qədər Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrasında müəllim işləyir.
2013–2014-cü illərdə Psixologiya və Konsultasiya Mərkəzində "Psixoanaliz", "Klinik psixologiya", "Uşaq psixologiyası", "Psixodiaqnostika", "Psixoloji konsultasiya", "Zamanın idarə olunması" mövzularında təlimlərdən keçmiş və sertifikat almışdır. Akdeniz Universiteti Tibb Fakültəsi Psixiatriya bölümünün uzman klinik psixoloqu Sibel Dinç Çalışkanın "Cinsellik, Cinsel Anatomi ve Cinsel İşlev Bozuklukları" təlimində iştirak edərək sertifikat almışdır.
2014-cü ildə Psixologiya Konsultasiya Mərkəzinin konsul- tant-psixoloqu kimi fəaliyyət göstərərək, insanların ruhi aləmin- də və mənəvi sferasında yaranan psixoloji gərginlikləri, həmçinin, ailə konfliktləri, valideyn-övlad münasibətləri, cinsi münasibətlə- rin psixoloji pozulmaları sahəsində yaranan problemlər lə məşğul olmuş və keçirdiyi seanslardan uğurlu nəticələr əldə etmişdir.
2015-ci ildə "Narınc" Uşaq Psixologiya mərkəzində "Psixologiya Günü –2" layihəsində "Cinsi tərbiyənin əsas prinsipləri" mövzu-

sunda seminar təqdim etmişdir.
2016-cı ildə Ümumi psixologiya kafedrasının "İnsan qloballaşma epoxasında: dünən və bu gün" mövzusunda elmi-praktik konfransda "Bütün azadlıqlar beyində başlayar, beyində bitər" adlı tezisi çap olunmuşdur.

2016-cı ildə 9 nömrəli peşə liseyində şagird və müəllimlərə "Komplekslərdən, zərərli vərdişlərdən və asılılıqlardan necə azad olmalı?" mövzusunda seminarını təqdim etmişdir.

2016-cı ildə Naxçıvanski adına hərbi liseydə "Sağlam ordu, yaradıcı gənclər naminə!" layihəsi üzrə təlim aparmışdır.

2017-ci ildə psixoloji konsultasiya mərkəzində "Motivasiya", "Abituriyentlərlə görüş", "Qadın–kişi münasibətləri", "Ailə münasibətləri və konfliktlər" mövzularnda seminarlar təqdim etmişdir.
2019-cu ildən 2020-ci ilə qədər Psixologiya Elmi Tədqiqat İnstitutunda Psixoloji Xidmət və Reabilitasiya Mərkəzinin direktoru vəzifəsində çalışmışdır.

2017-ci ildən ADPU-nun Ümumi psixologiya kafedrasının fəlsəfə doktoru proqramı üzrə (6107.01– ümumi psixologiya ixtisası üzrə) dissertantıdır. Dissertasiyasının mövzusu "Ər və arvadın peşə fəaliyyətinin ailədaxili münasibətlərin formalaşmasına təsiri" adlanır.
2018-ci ildə ADPU-da keçirilən doktorantların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransında "Peşə və xarakter", 2019-cu ildə İnşaat və Mühəndislik Universitetində doktorantların, gənc tədqiqatçıların XXIII Respublika elmi konfransında "Rəhbər qadınların psixoloji xüsusiyyətələri" mövzusun da tezisləri çap olunmuşdur.
2019-cu ildə İstanbulda Uluslararası V.TURKÇESS Egitim və Sosyal Bilimlər Konqresində "Aynı mesleğe sahip çiftler arasındakı ilişkilərin psikolojik özəllikləri" mövzusunda çıxış etmişdir.
Müxtəlif TV kanallarında psixologiyanın aktual problemlərinə dair çıxışlar edir.



## Nigar Muradova

Müəllim

Nigar Hadi qızı Muradova 1983-cü il sentyabrın 18-də, Bakı şəhərində anadan olmuşdur.2000-ci ildə Sabunçu rayonu, Bakıxanov qəsəbəsində yerləşən 252 saylı orta məktəbi bitirmişdir. Həmin ildə Bakı Dövlət Universitetinin sosial elmlər və psixologiya fakültəsinin psixologiya şöbəsinə qəbul olunmuşdur. 2004-cü ildə universiteti bitirmişdir.2004-cü ildə Bakı Dövlət Universitetinin klinik psixologiya ixtisası üzrə magistratura pilləsinə qəbul olunmuşdur. 2006-cı ildə magistraturanı fərqlənmə diplomu ilə bitirmişdir.

2006/2007-ci tədris ilində ADPU-nun Yaş və Pedaqoji psixologiya kafedrasında saathesabı müəllim vəzifəsində çalışmışdır.

2009-cu ildən indiyə kimi ADPU-nun Ümumi psixologiya kafedrasında müəllim vəzifəsində çalışır. Ümumi psixologiya, ünsiyyət və münasibətlər psixologiyası fənlərini tədris edir. 10-dan artıq məqalə və tezisin müəllifidir. O cümlədən, "Şəxsiyyətin formalaşmasında uşaqlıq dövrünün rolu" (2013), "Uşağın tərbiyəsində bəzi psixoloji cəhətlərin nəzərə alınması" (2016), "Yaddaşlarda iz qo-

yan insan" (2017), "Ailədaxili münasibətlərdə güvən duyğusunun olmasının psixoloji məsələləri" (2017), "Ailə mühitinin şəxsiyyətin inkişafına təsiri" (2018), "Ailədaxili münasibətlərdə qısqanclıq" (2020) adlı məqalə və tezisləri çap olunmuşdur. Bir sıra yerli və beynəlxalq konfranslarda iştirak etmişdir.





## Leyla Dadaş-Zadə

Müəllim

Leyla Səfərbəyovna Dadaş-Zadə 1981-ci il iyulun 21-də, Tbilisi şəhərində anadan olub. 1998-ci ildə Bakı şəhəri, 129 saylı orta məktəbi bitirib. 2003-cü ildə Bakı Dövlət Universitetinin tətbiqi kimya ixtisası üzrə bakalavr səviyyəsini, 2015-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə magistr səviyyəsini fərqlənmə diplomu ilə bitirib.

2005–2006-cı illərdə keçmiş Azərbaycan Müəllimlər İnstitutunun tələbə şöbəsində operator vəzifəsində, 2006–2007-ci illərdə boyük inspektor vəzifəsində çalışıb. 2007–2015-ci illərdə həmin institutun xüsusi şöbəsində baş mütəxəssis vəzifəsində, 2015-ci ildən tələbə şöbəsində metodist vəzifəsində çalışmış və Psixologiya kafedrasında saathesabı dərs aparmışdır. AMİ-nin ADPU ilə birləşməsi ilə əlaqədar, 2016-cı ildən bu günədək ADPU-nun Ümumi psixologiya kafedrasında müəllim vəzifəsində çalışır. “İnklüziv təhsilə cəlb edilmiş oliqofren uşaqlarla praktik psixoloqun apardığı korreksiya işləri” (2014), “İnklüziv məktəblərdə müəllimlərlə aparılan psixoloji işlər” (2015) adlı 2 elmi məqaləsi çap olunmuşdur.



## Təranə Abdullayeva

Müəllim

Təranə Qalib qızı Abdullayeva 1985-ci ildə, Gəncə şəhərində anadan olmuşdur. 1991-ci ildə Gəncə şəhərində orta məktəbə daxil olmuş, 2003-cü ildə həmin məktəbi bitirmişdir. 2003-cü ildə pedaqogika və psixologiya ixtisası üzrə Gəncə Dövlət Universitetinə qəbul olunmuş, 2007-ci ildə təhsilini başa vurmuşdur.

2007-ci ildə Türk gimnaziyasında bağça müəlliməsi işləmişdir. 2009-cu ildə pedaqoji psixologiya ixtisası üzrə ADPU-nun magistraturasına qəbul olunmuş, 2011-ci ildə bitirmişdir.

2011-ci ildə Qafqaz Universitetində kitabxanaçı işləmişdir. 2017-ci ildə pedaqogika kafedrasında müəllim vəzifəsinə keçmişdir. Psixologiya, defektologiya və loqopediyanın əsasları fənlərini tədris etmişdir. 2017-ci ilin mart ayında Ümumi psixologiya kafedrasında ümumi psixologiya ixtisası üzrə dissertanturaya qəbul olunmuşdur. Dissertasiya mövzusu “Ailədaxili münaqişələrin yaranmasına demoqrafik amillərin psixoloji təsiri”dir. Elmi rəhbəri pedaqogika üzrə elmlər doktoru, prof. H.Ə.Əlizadədir.

2021-ci ildən ADPU-nun Ümumi psixologiya kafedrasında müəllim işləyir.



## Elnarə Cəfərova

Baş laborant

Elnarə Novruz qızı Cəfərova 1970-ci ildə, Bakı şəhərində anadan olmuşdur. 1977-ci ildə 19 saylı orta məktəbin İ sinfinə qəbul olunmuş, 1987-ci ildə həmin məktəbi bitirmişdir. 1988-ci ildə N. Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin (indiki ADPU) pedaqogika və psixologiya fakültəsinə qəbul olunmuş, 1992-cü ildə oranı bitirmişdir. O, pedaqogika və psixologiya müəllimi, tərbiyəçi-müəllim ixtisaslarına yiyələnmişdir.

1992-ci ildə laborant kimi Ümumi psixologiya kafedrasına işə qəbul olunmuşdur. Məhsuldar fəaliyyətini və işində məsuliyyətli olmasını nəzərə alaraq, 1998-ci ildə həmin kafedraya baş laborant vəzifəsinə təyin edilmişdir.

2015/2016-cı tədris ilində universitetin kafedralar üzrə laborant və baş laborant seçkilərində iştirak etmiş, müsabiqədən müvəffəqiyyətlə keçərək, baş laborant vəzifəsinə seçilmişdir. Hazırda Ümumi psixologiya kafedrasında məsuliyyətlə və kafedranın nizam-intizam qaydalarına uyğun fəaliyyət göstərir.

E.N. Cəfərova işlədiyi müddət ərzində fakültənin və kafedranın həm ictimai, həm də elmi fəaliyyətində fəal iştirak etmişdir. Belə ki, tədbirlərin hazırlanmasında, seminarların keçirilməsində, doktorant və magistrantların müdafiəsinin təşkilində daim fəallıq göstərmiş, vaxtlı-vaxtında elanları vermiş, lazım olan mənbələrə məlumatları çatdırmışdır. Kafedrada hər bir müəllimin kafedranın bütün sənədlərini həm kompüterdə, həm də qovluqlarda səliqə ilə, illər üzrə, ardıcıl sistemləşdirmişdir. Müəllimlərin tədqiqat işləri, elmi əsərləri, dərs yükləri, təqdimatlar, aparıcı təşkilat rəyləri və s. sənədlər kafedrada xronoloji qaydada yerləşdirilmişdir.

Bütün bu fəaliyyətləri ilə yanaşı, E.N.Cəfərova pedaqoji kollektivin, tələbə və magistrların dərin rəğbətini qazanmışdır. Elnarə Novruz qızı Cəfərova bu fəaliyyəti ilə yanaşı, müxtəlif illərdə kafedrada saathesabı dərslər aparmışdır. Eyni zamanda, elmi fəaliyyətini davam etdirmək məqsədi ilə bir neçə elmi məqalələr çap etdirmişdir. Belə ki, “Şagirdlərin təlimdə geridəqalma problemi” (2014), “Müasir dövrdə “çətin uşaqlar” problemi” (2016), “O, qəlbləri fəth etməyi bacarırdı” (2017), “Процесс социализации детей раннего возраста” (2017) kimi məqalə və tezislərin müəllifidir.



## Gülşən Mahmudazdə

Laborant

Gülşən Elman qızı Mahmudzadə 1995-ci ildə, Tərtər rayonunda anadan olmuşdur. 2002-ci ildə Tərtər rayonu, Ə. Məmmədova adına 1 saylı tam orta məktəbin I sinfinə qəbul olunmuş, 2013-cü ildə həmin məktəbi bitirmişdir. 2013-ci ildə Bakı Qızlar Universitetinin filologiya-tarix fakültəsinə qəbul olunmuş, 2017-ci ildə oranı bitirmişdir. 2018-ci ildə ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının magistrantı olmuş, 2020-ci ildə "Məktəbəqədər təhsil müəssisələrində metodik işlərin təşkili" mövzusunda dissertasiya müdafiə edərək, magistraturanı bitirmişdir. Magtistr olduğu zaman "Məktəbəqədər təhsil müəssisələrində metodik işlərin əsas istiqamətləri" adlı məqaləsi (magistrlərin II Respublika elmi konfransı, I cild, Bakı) 18-19 aprel, 2019-cu ildə nəşr edilmişdir. Digər məqalə – "Yeni texnologiyalar və tədris prosesinin idarə olunması" Azərbaycan Respub likasının Prezidenti,cənab İlham Əliyevin Sərəncamı ilə "Elm günü"nə həsr olunmuş magistrlərin III Respublika elmi konfransının materiallarında (Bakı, 14-15 may 2020-ci il) nəşr olunmuşdur. 2015–2017-ci illərdə 1 saylı Asan Xidmət Mərkəzində könüllü kimi fəaliyyət göstərmişdir. Fəaliyyəti müddətində "Asan məktub" layihəsində aparıcı koordinator işləmişdir. 2020-ci ilin oktaybr ayından etibarən, ADPU-nun Ümumi psixologiya kafedrasında laborant vəzifəsində çalışır.

## Pedaqoji psixologiya kafedrası

Azərbaycan Dövlət Pedaqoji Universitetinin (keçmiş V.İ.Lenin adına APİ) 1921-ci ildə, fəaliyyətə başladığı ilk illərdə psixologiya ixtisası üzrə milli kadrlara kəskin ehtiyac duyulurdu. Bu məqsədlə instituta xarici ölkələrdən – Türkiyədən, Rusiyadan, Belorusiyadan psixologiya sahəsində çalışan mütəxəssislər– A.O. Makovelski, B.B. Komarovski, D.Q. Qulyayev, Ə.K. Zəkuzadə, M. Muhiddin, M.Tofiq və başqaları dəvət olunmuşdu.

Pedaqoji psixologiya kafedrasının (keçmiş Yaş və pedaqoji psixologiya kafedrası) inkişaf tarixində universitetdə psixologiyanın tədrisində, həm də bu sahə üzrə kadr hazırlığında A. Makovelskinin və1921-ci ildə Türkiyənin İstanbul Universitetinin psixologiya-fəlsəfəşöbəsini bitirib Bakıya gələn A.K. Zəkuzadənin adlarını xüsusiləqeyd etmək lazımdır. XX əsrin 50-ci illərinə qədər Azərbaycandayetişən milli psixoloji kadrlar məhz bu alimlərin adı ilə bağlıdır.Sonralar Azərbaycanda mütəxəssis alim kimi fəaliyyət göstərən M.Məhərrəmov, Ş.Ağayev, Ə. Bayramov, Ə. Əlizadə, M. Həmzəyevvə başqaları bu alimlərin köməyi ilə psixoloq kimi formalaşmışlar.1947/1948-ci tədris ilində indiki ADPU-da Azərbaycan dili, mən-tiq-psixologiya şöbəsi açıldı. Bu şöbənin açılması psixologiya sahə-sində əlamətdar hadisə oldu. Bir çox görkəmli alimlər – M. Həm-zəyev, A. Məmmədov və Ə. Abdullayev həmin şöbənin məzunlarıolmuşlar.

1959-cu ildə psixologiya kafedrası pedaqogika kafedrası ilə birləşdi. 1963/1964-cü tədris ilində kafedra yenidən müstəqil fəaliyyətə başladı. Kafedraya 1963-cü ildən 1975-ci ilə qədər Ş. Ağayev rəhbərlik etmişdir. M. Əbdülov, İ. Məmmədov, Ə. Baxşəliyev, Z.Orucov və başqaları həmin kafedrada Ş.Ağayevin rəhbərliyi altında elmi-tədqiqat işləri aparmışlar. 1974-cü ildə həmin kafedranın əsasında iki – 1 saylı və 2 saylı psixologiya kafedraları təşkil edildi. Kafedralar 1996-cı ilə qədər bu şəkildə fəaliyyət göstərdilər.1996-cı ildə universitetin Elmi Şurasının qərarı ilə kafedraların adları dəyişdirilərək,

Ümumi psixologiya, Yaş və pedaqoji psixologiya adlandırıldı.Yaş və pedaqoji psixologiya kafedrasına 1974-cü ildən 1988-ci ilə qədər dosent Z.Mehdizadə, 1988-ci ildən 1992-ci ilə qədər professor Q.Əzimli, 1992-ci il dən 2019-cu ilədək isə prof. Ə.T. Baxşəliyev rəhbərlik etmişdir.

Yaş və pedaqoji psixologiya kafedrası 2019-cu ildən "Pedaqoji psixologiya kafedrası" adlandırılmışdır. Kafedraya 2019-cu ildən psixologiya üzrə elmlər doktoru Qızxanım Nizaməddin qızı Qəhrəmanova rəhbərlik edib.

Pedaqoji psixologiya kafedrasının elmi işlərinin istiqaməti, əsasən, təlim-tərbiyə prosesində şagird şəxsiyyətinin formalaşması, təhsildə sosial-psixoloji xidmətin, Azərbaycanda psixoloji fikrin inkişaf problemləri, psixikanın anomal inkişaf məsələləri, Azərbaycanda güzəran psixologiyasının tədqiqini əhatə edir.

2019-cu ildən etibarən, kafedrada müasir dövrün problemlərini əks etdirən, müxtəlif mövzularda elmi seminarlar, dəyirmi masalar, diskussiyalar təşkil olunur.

Respublikada tanınmış elm xadimləri ilə görüşlərin keçirilməsi kafedra da müntəzəm hal almışdır. Kafedranın professor-müəllim heyəti ADPU-nun tədris korpuslarında fəaliyyət göstərən Psixoloji mərkəzdə psixoloq müəllimlərimiz tələbələrlə müvafiq səmərəli işlər aparırlar.

Pedaqoji psixologiya kafedrası respublikamızın digər ali təhsil məktəbləri, müxtəlif yönümlü psixoloji mərkəzlər və elmi-tədqiqat müəssisələri ilə də sıx əlaqə yaratmışlar. Belə ki, kafedranın professor-müəllim heyəti mütəmadi olaraq digər ali məktəblərdə fəaliyyət göstərən psixologiya kafedralarının dəvəti ilə müxtəlif mövzularda keçirilən beynəlxalq və respublika əhəmiyyətli konfranslar, dəyirmi masalar və tədbirlərdə mühazirələr oxuyur, çıxışlar edirlər. Bu da kafedra əməkdaşlarının məsuliyyətini artırmaqla yanaşı, onların elmi fəaliyyətlərinin daha da məhsuldar olmasına təkan verir.

Son dövrlərdə kafedrada müxtəlif istiqamətlərdə bir çox tədqiqatlar aparılır. Bunlar Azərbaycanda psixologiya elminin əsas inkişaf istiqamətləri, yaradıcılıq psixologiyasının tarixi, psixoloji problemləri, ünsiyyət psixologiyasının nəzəri-praktik məsələləri istiqamətlərini əhatə edir.

Son illərdə kafedrada İsmayılova Mehriban Cəlal qızı (2000-ci il) “Tərbiyəçinin ünsiyyət üslubunun məktəbəqədər yaşlı uşaqların qarşılıqlı münasibətlərinə psixoloji təsiri” mövzusunda, psixologiya sahəsində fəlsəfə doktoru proqramı üzrə dissertasiya müdafiə etmişdir. 2013-cü ildə isə psixologiya üzrə dosent elmi adını almışdır. Əzizov Qulam Qəribəli oğlu (2004-cü il) 13.00.01– ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası üzrə “Ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərində humanizm tərbiyəsinin imkanları və yolları” mövzusunda, pedaqogika üzrə fəlsəfə doktoru proqramı üzrə dissertasiya müdafiə etmişdir. O, 2014-cü ildə psixologiya üzrə dosent elmi adını almışdır. Heydərova Simnarə Hadir qızı (2013-cü il) “Uşaq şəxsiyyətinin forma laşmasında Azərbaycan xalq nağılları və atalar sözlərinin rolu” mövzusunda, psixologiya sahəsində fəlsəfə doktoru proqramı üzrə dissertasiya müdafiə etmişdir. O, 2017-ci ildə psixologiya

üzrə dosent elmi adını almışdır. Rəhimova Qəribə Vahid qızı (2013-cü il) "Azərbaycan psixoloqlarının tədqiqatlarında milli-mənəvi dəyərlər problemi və onun müasir vəziyyəti" mövzusunda, psixologiya sahəsində fəlsəfə doktoru proqramı üzrə dissertasiya müdafiə etmişdir. O, 2017-ci ildə psixologiya üzrə dosent elmi adını almışdır.

Əlixanova Gülnarə Həmzəbəyovna (2018-ci il) "Məktəbəqədər yaşlı uşaqlarda "mən" obrazının formalaşmasında ailənin rolu" mövzusunda, psixologiya sahəsində fəlsəfə doktoru proqramı üzrə dissertasiya müdafiə etmişdir. 2019-cu ildə psixologiya üzrə fəlsəfə doktoru elmi adını almışdır.

Bu elmi fəaliyyət mütəmadi olaraq davam etdirilir. Belə ki, 2011-ci ildə M.C.İsmayılovanın "Ünsiyyət psixologiyası (məntiqi-struktur sxemlərdə)", Q.Q.Əzi zovun "Psixologiya", 2012-ci ildə M.C.İsmayılovanın "Sosial psixologiya (məntiqi-struktur sxemlərdə və şərhlərdə)", "Tərbiyə işi və onun metodikası", "Psixologiyanın tədrisi metodikası", 2016-cı ildə Q.V.Rəhimovanın "Azərbaycan klassiklərinin yaradıcılığı psixologiya tarixinin öyrənilməsində əsas mənbə kimi", "Müasir psixologiyada şəxsiyyətin inkişafı problemi", 2019-cu ildə Ə.T.Baxşəliyev, S.N. Heydərovanın "Azərbaycanda psixoloji fikrin ilkin qaynaqları", Ə.T.Baxşəliyev, Q.V.Rəhimovanın "Azərbaycanda psixologiyanın inkişaf tarixi", M.C.İsmayılovanın "Psixolo giyanın tədrisi metodikası (məntiqi-struktur sxemlərdə və şərhlərdə)", S.N.Heydərovanın "İnkisaf və yaş psixologiyası", 2021-ci ildə Q.N.Qəhrəmanovanın "Uşaq psixologiyası" dərs vəsaitlərinin, G.H.Əlixanovanın "Məktəbəqədər uşaqlarda "mən" obrazının formalaşmasında ailənin rolu" adlı monoqrafiyasının çap olunmasını misal göstərmək olar. Hazırda kafedrada 1 nəfər elmlər doktoru, professor 4 nəfər fəlsəfə doktoru, dosent ,

1 nəfər fəlsəfə doktoru, baş müəllim ,3 nəfər baş müəllim, 13 nəfər müəllim, 2 nəfər laborant fəaliyyət göstərir. Kafedrada I və II kurslar üzrə 19 nəfər magistr təhsil alır. 3 nəfər fəlsəfə doktoru proqramı üzrə təhsillərini başa vurmuşlar və onların tədqiqatları tamamlanmaq üzrədir.

Kafedranın dosenti M.C.İsmayılova elmlər doktoru proqramı üzrə, dissertantlardan K.Ə.Həsənquliyeva, A.Y.Mahmudova, N.M.Məmmədova və Y.T.Ağasıyeva fəlsəfə doktoru proqramı üzrə dissertasiya üzərində çalışırlar.

Uzun illər ərzində kafedra əməkdaşları keçmiş Sovetlər İttifaqının bir çox respublikaları, elmi mərkəzləri ilə, habelə İran, Türkiyə və başqa ölkələrin universitetləri, elmi-tədqiqat institutları ilə əlaqə saxlamış, birlikdə elmi-tədqiqat işləri aparmışlar. Kafedra əməkdaşlarının əldə etdikləri elmi nəticələr dəfələrlə bir sıra xarici ölkələrdə, o cümlədən, Rusiyada, Gürcüstanda, İranda, Türkiyədə və başqa xarici ölkələrdə keçirilən beynəlxalq elmi konfranslarda və simpoziumlarda məruzə edilmiş və elmi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

Kafedranın professor-müəllim heyətinin Ümummilli lider Heydər Əliyevin qarşıdan gələn 100 illik yubileyinə tövhəsi, əsas vəzifə hesab olunan təhsilin keyfiyyətinin daha da yüksəltməyə çalışmasıdır



*Pedaqoji psixologiya kafedrası*



## Qızxanım Qəhrəmanova

Pedaqoji psixologiya kafedrasının müdiri, psixologiya üzrə elmlər doktoru, professor

Qızxanım Nizaməddin qızı Qəhrəmanova 20 sentyabr 1973-cü ildə, Bakı şəhərində, ziyalı ailəsində anadan olmuşdur. 1990-cı ildə Bakı şəhərinin Nərimanov rayonundakı 45 saylı tam orta məktəbi bitirmiş, 1990-cı ildə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olunmuşdur. 1995-ci ildə ADPU-nun ibtidai təhsil pedaqogikası və metodikası (əlavə musiqi) fakültəsini əla qiymətlərlə bitirmişdir. Q.Qəhrəmanova pedaqoji fəaliyyətə 1995-ci ildə, təhsil aldığı Azərbaycan Dövlət Pedaqoji Universitetinin Musiqi fənləri və onun tədrisi metodikası kafedrasında başlamışdır. Həmin kafedrada müəllim, baş müəllim və s. vəzifələrdə çalışmışdır. Q.Qəhrəmanova 2007-ci ildə ARTPİ-nin psixologiya və yaş fiziologiyası şöbəsində fəlsəfə doktoru proqramı üzrə qiyabi (büdcə hesabına) doktoranturaya qəbul olunmuş və 2010-cu ildə onu müvəffəqiyyətlə bitirmişdir.

2011-ci ildə BDU-nun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasında "Tələbə şəxsiyyətinin formalaşmasında birgə fəaliyyət və şəxsiyyətlərarası münasibətlərin rolu" mövzusunda dissertasiya müdafiə edərək, psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır.

2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə dosent elmi adına layiq görülmüşdür. Q.Qəhrəmanova 2011-ci ildə əlavə təhsil fakültəsinin dekan müavini işləmişdir.

Pedaqoji fəaliyyətdə göstərdiyi fəallıq və məsuliyyətinə görə əlavə təhsil fakültəsinin dekan əvəzi vəzifəsinə təyin olunmuşdur.

Qəhrəmanova Qızxanım Nizaməddin qızı 2013-cü ildən elmi fəaliyyətini müvəffəqiyyətlə davam etdirərək, ARTPİ-nun psixologiya və yaş fiziologiyası şöbəsinə təhkim olunmaqla, elmlər doktoru proqramı üzrə qiyabi doktoranturaya qəbul olunmuşdur.

2018-ci ildə "Tələbə kollektivinin idarə olunmasında gender xüsusiyyətlərinin nəzərə alınması" mövzusunda BDU-nun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasında dissertasiya müdafiə etmiş və psixologiya üzrə elmlər doktoru elmi dərəcəsini almışdır. Elmi rəhbəri psixologiya üzrə elmlər doktoru, Əməkdar müəllim, professor R.İ.Əliyev olmuşdur. Pedaqogika üzrə elmlər doktoru, professor H.Ə.Əlizadə, pedaqogika üzrə elmlər doktoru, professor A.Ə.Abbasov, pedaqogika üzrə elmlər doktoru, professor H.Ə.Əhmədov, fəlsəfə üzrə elmlər doktoru, professor Ş.T.Tağıyev Q.N.Qəhrəmanovanın doktorluq tədqiqatı haqqında müsbət fikirlər söyləmiş və onu yüksək qiymətləndirmişlər. Q.N.Qəhrəmanovanın fəal təşkilatçılıq qabiliyyətini və səlis iş üslubunu nəzərə alaraq, 2019-cu ildə o, ADPU-nun Pedaqoji psixologiya kafedrasının müdiri vəzifəsinə təyin olunmuşdur. Kafedra müdirinin rəhbərliyi ilə kafedranın elmi-pedaqoji fəaliyyətinin səviyyəsi keyfiyyətcə daha da yüksəlmiş, kadr təminatı güclənmişdir. ADPU-nun və fakültə Elmi Şurasının üzvüdür. YAP-ın fəal üzvlərindəndir, kollektivi və tələbələri tərəfindən sevilən müəllim, yaxşı pedaqoqdur. ADPU-nun Davamlı Təhsil və İnnovasiyalar şöbəsi tərəfindən tyutor (akademik məsləhətçi) hazırlığı üzrə təlim proqramının (təlim qanunvericiliyi, tələbələrlə davranış qaydaları və onlarla işin psixoloji xüsusiyytələri və s.) həyata keçirilməsi ilə əlaqədar təlimlərdə təlimçi kimi fəaliyyət göstərir.

Q.N.Qəhrəmanovanın tədqiqatları psixologiya elminin bir çox sahələrini əhatə edir. Ən çox və sistemli tədqiq etdiyi sahə isə gender

fərqlərinin təzahür xüsusiyyətləri və müxtəlif peşə sahəsində çalışan insanların gender problemlərinin öyrənilməsidir. Q.N Qəhrəmanova 80-dan artıq elmi məqalə, dərs vəsaiti, metodik vəsaitin, "Vokal üzrə proqram", "Vokal və onun tədrisi metodikası", "Xor sinfi və onun tədrisi metodikası", "Azərbaycan xalq yaradıcılığı", "Aşıq musiqisinin nota köçürülməsi","İnkişaf və yaş psixologiyası" mövzularında bakalavr pilləsi üçün proqramların müəllifidir.

On iki tezisin müəllifidir. Doqquz respublika səviyyəli, üç beynəlxalq əhəmiyyətli konfransda iştirak etmişdir. Müasir Azərbaycan Psixoloqları İctimai birliyi və Psixologiya Elmi-Tədqiqat İnstitutunun birgə layihəsi olan, ADPU-nun dəstəyi ilə keçirilən "Psixologiya zirvəsi: problemlər, perspektivlər və yeni yanaşmalar" Beynəlxalq konfransında iştirakına görə sertifikat almışdır.

2020-ci il, 1–2 may tarixlərində Al-Farabi Uluslararası Sosial Bilimlər Konqresində "Psixoloqun peşəkarlığı onun vacib keyfiyyəti kimi" mövzusunda, 2021-ci il, 6–7 mart tarixlərində keçirilən "Humanitar Elmlərin İnkişafı Strategiyası" adlı Respublika Elmi Konfransında "Peşə etikası və əxlaqın qarşılıqlı əlaqəsi" mövzusunda çıxışlarına görə təltif edilmişdir.

Bunlardan yüksək reytinqli beynəlxalq xülasələndirmə indeksi üzrə 10-dan çox adda: "The main aspects of the problem of sex and gender elements of the structure (Основные аспекты проблемы пола и елементы структуры гендера)"// Epistemologia, Rivistaİtaliana di FilosofiadellaScenza, İssue 2, 2017, "The study of the main aspects of the problem of sex and gender elements of the structure", // DILEMAS CONTEMPORANEOS-EDUCAC ION POLITICA Y VALO RES, Volume: 6,Special Issue: SI, Article Number: 7,Published: JUL. 2019, "Problems of genderand sex of the structure in the context of social factors, education and the environment" // Milton Stu dies, Vol.59, İssuse II // 2019, "DIRECTIONS OF IMPACT ON PROFESSIONAL PREPARATION OF STUDENTS' GENDER-ROLE BEHAVIOR IN THE LEARNING PROCESS" // REVISTA PRAXIS EDUCACIONAL, Volume: 16, Issue: 37, Pages: 133-145, Special Issue: SI,DOI: 10.22-481/praxisedu.v16i37.6025 məqalələr çap olun-

muşdur.
“Dövlətçiliyimizn, müstəqilliyimizin və elmimizin inkişafında müstəsna xidmətlərinə, elmdəki uğurlarına və nailiyyətlərinə görə görkəmli alim Q.N Qəh rəmanova “Media Araşdırma”, “Azərbaycan və Avropa” layihələri əsasında 2019-cu ildə “Azərbaycan Ziyalısı” və “İlin Alimi” Fəxri diplomlarına layiq görül müşdür.

Q.N.Qəhrəmanovanın elmi-pedaqoji tədqiqatlarının əsas istiqamətləri aşağıdakılardır:

– gənclərin fəaliyyətinin sosial-psixoloji xüsusiyyətləri;
–qrupdaxili qarşılıqlı münasibətlərin psixoloji xüsusiyyətləri;
–virtual ünsiyyətin psixoloji və gender xüsusiyyətləri;
– pedaqoji fəaliyyətdə peşəkar ünsiyyətin mərhələləri;
– tələbə kollektivinin idarə olunmasında gender problemi;
– peşə etikası və əxlaqın qarşılıqlı əlaqəsi.

Əsas elmi əsərləri:

1.Qrup fəaliyyətinin sosial-psixoloji xüsusiyyətləri. (monoqrafiya). Sosial-psixoloji elmlər. Bakı, BDU, 2008.
2.Musiqinin tədrisi metodikası fənni üzrə kurs işlərinin mövzuları. (metodik tövsiyə). Bakı, ADPU-nun nəşriyyatı, 2008.
3.Kurs işlərinin mövzuları. (monoqrafiya). Bakı, ADPU-nun nəşriyyatı, 2008.
4.Gənclərin sosiallaşmasında fəaliyyət və şəxsiyyətlərarası münasibətlərin rolu. (monoqrafiya). Bakı, “Elm və Təhsil”, 2013.
5.Gənclərin fəaliyyətinin sosial-psixoloji xüsusiyyətləri. (monoqrafiya).Bakı,“Elm və təhsil”, 2013.
6.Tələbə kollektivinin idarə olunmasında gender problemi.(monoqrafiya). Bakı, “Mütərcim”, 2017.
7.Peşə etikası. (monoqrafiya). Bakı, “OPTiMiST” MMC, 2019.
8.Gələcək müəllimin gender identikliyi və kommunikativ-gender səriştəliliyinin səviyyəli modeli. (elmi-metodik vəsait). Bakı, ADPU-nun nəşriyyatı, 2021.
9.Uşaq psixologiyası. (dərs vəsaiti). Bakı, ADPU-nun nəşriyyatı, 2021.



## Ərəstun Baxşəliyev

Psixologiya üzrə elmlər doktoru, professor

Baxşəliyev Ərəstun Təriş oğlu 1939-cu ildə, Cəlilabad rayonunun kiçik Bəcrəvan kəndində anadan olmuşdur. 1957-ci ildə Prişib qəsəbəsində orta məktəbi bitirmişdir. Ali təhsillidir.

Ə.T.Baxşəliyev 1964-cü ildə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin pedaqoji fakültəsini bitirmişdir. Pedaqoji fəaliyyətə 1964-cü ildə, Cəlilabad rayonunun Göytəpə qəsəbə orta məktəbində sinif müəllimi kimi başlamışdır.

Ə.T.Baxşəliyev 1967-ci ildə psixologiya ixtisası üzrə qiyabi aspiranturaya qəbul olunmuş, 1971-ci ildə aspiranturanı müvəffəqiyyətlə bitirmişdir.

Ə.T.Baxşəliyev 1967–1970-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektor köməkçisi vəzifəsində işləmişdir. 1970-ci ildən Ümumi psixologiya kafedrasında müəllim, baş müəllim və dosent vəzifələrində fəaliyyət göstər mişdir.

Elmi tədqiqatlara böyük həvəslə başlayan Ə.T.Baxşəliyev 1973-cü ildə "Azərbaycan SSRİ-də psixoloji fikrin inkişaf tarixindən"

adlı namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək, psixologiya üzrə elmlər namizədi adını almışdır. Pedaqoji fəaliyyətində və tədqiqat işindəki uğurlarına görə Ə.T. Baxşəliyev 1982-ci ildə Azərbaycan SSR Maarif Nazirliyinin Fəxri fərmanı ilə təltif olunmuşdur.

20 ildən artıq bir müddətdə Azərbaycanda psixologiya üzrə doktorluq dissertasiyası müdafiə olunmadı. Elmi tədqiqatlarını davam erdirən Ə.T.Baxşəliyev 1995-ci ildə "XX əsrdə Azərbaycanda psixoloji fikrin inkişafı" mövzusunda doktorluk dissertasiyasını müdafiə edərək, psixologiya üzrə elmlər doktoru adını aldı.1996-cı ildən psixologiya üzrə elmlər doktoru, professordur.

Pedaqoji fəaliyyətində göstərdiyi nəticələrə görə Ə.T.Baxşəliyev 2005-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Qabaqcıl maarif işçisi", 2012-ci ildə "Qabaqcıl təhsil işçisi" döş nişanları və fəxri fərmanlarla təltif olunmuşdur.

Professor Ə.T.Baxşəliyev 1992-ci ildən 2019-cu ilədək ADPU-nun Yaş və pedaqoji psixologiya kafedrasının müdiri vəzifəsində işləmişdir. O,140-dan çox əsərin – 8 monoqrafiya, 3 dərs vəsaiti, 50 məqalə, 9 tezis, 40 proqram, 11-dən artıq dərslik və dərs vəsaitlərinin müəllifidir.

Əsas elmi əsərləri:

1.Azərbaycanda psixologiya elminin müasir inkişaf vəziyyəti. (məqalə). "Pedaqoji Universitetin xəbərləri", Bakı, 2014.
2.Ömrün mənalı illəri (sosial-psixoloji oçerklər). (kitab). Bakı, 2014.
3.Fəaliyyət və şəxsiyyətin psixologiyası (proqram). // Pedaqoji universitet və institutlarda bakalavr pilləsində təhsil alan tələbələr uçün. // Bakı, ADPU-nun nəşriyyatı, 2015.
4.Şəxsiyyət və fəaliyyətin psixologiyası (proqram). // Pedaqoji universitet və institutlarda bakalavr pilləsində təhsil alan tələbələr uçün //. Bakı, ADPU-nun nəşriyyatı, 2015.
5.Pedaqoji fəaliyyətin psixoloji əsasları (proqram). // Pedaqoji universitet və institutlarda magistr pilləsində təhsil alan tələbələr

uçün. // Bakı, ADPU-nun nəşriyyatı, 2015.

6. Psixopedaqoqika. (bakalavr təhsili üzrə proqram). (h/m.G.H.Əlixanova.).Bakı, ADPU-nun nəşriyyatı, 2018, 23 s.

7. Azərbaycanda psixologiyanın inkişaf tarixi. (dərs vəsaiti). Bakı, ADPU-nun nəşriyyatı, 2019.

8. Azərbaycanlı gənclərdə mədəni adət və vərdişlərin formalaşmasının psixoloji problemləri. (psixoloji oçerklər). Bakı, ADPU-nun nəşriyyatı, 2019.

9. Təhsildə sosial–psixoloji xidmət və psixoloji praktikum. (bakalavr təhsili üzrə proqram). (h/m.G.H.Əlixanova).Bakı, ADPU-nun nəşriyyatı, 2019, 36 s.

10. Təlim fəaliyyətində temperament tiplərinin nəzərə alınması. (metodik vəsait). Bakı, ADPU-nun nəşriyyatı.

11. Bakalavr təhsili üzrə Proqram. (h/m.G.H.Əlixanova). Bakı, ADPU-nun nəşriyyatı, 2021, 38 s.

12. Psixologiya tarixi (proqram). (pedaqoji universitet və institutlarda bakalavr pilləsi üçün). AR TN. Bakı, ADPU-nun nəşriyyatı, 2021.





## Qulam Əzizov

Pedaqoji psixologiya kafedrasının dosenti

Əzizov Qulam Qəribəli oğlu 1962-ci il iyulun 7-də, Masallı payonunun Mahmudavar kəndində anadan olub. 1969–1979-cu illərdə həmin kəndin orta məktəbində təhsil alıb. 1980–1982-ci illərdə ordu sıralarında xidmət edib.

1983–1986-cı illərdə Bakı Sənaye Pedaqoji Texnikumunda təhsil almış və oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1990–1994-cü illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində təhsil almışdır. 1994–1995-ci illərdə Azərbaycan Baş Pedaqoji Kadrların İxtisasartırma və Yenidən Hazırlanma İnstitutunda təhsil almış və praktik psixoloq ixtisasına yiyələnmişdir. 1999–2004-cü illərdə AR Təhsil Problemləri İnstitutunun dissertantı olmuş və 2004-cü ildə "Yuxarı sinif şagirdlərində humanizm tərbiyəsinin imkanları və yolları" mövzusunda dissertasiya müdafiə edərək, pedaqogika üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almışdır. 2014-cü ildən psixologiya üzrə dosentdir.

Q.Q.Əzizov 1986–1988-ci illərdə Bakı Sənaye Pedaqoji Texni-

kumunda texniki nəzarətçi, 1988–1989-cu illərdə istehsalat təlimi ustası, 1989–1992-ci illərdə komsomol komitəsinin katibi, 1992–1997-ci illərdə baş dispetçer (həmçinin, 0,5 ştatla psixologiya müəllimi), 1997–2012-ci illərdə tam ştatla psixologiya müəllimi vəzifəsində çalışmışdır.

Q.Q. Əzizov 2000–2013-cü illərdə Azərbaycan Müəllimlər İnstitutunun Psixologiya kafedrasında baş müəllim, 2014–2016-cı illərdə dosent vəzifəsində çalışmışdır.

2014–2016-cı illərdə Azərbaycan Müəllimlər İnstitutunun pedaqogika fakültəsinin dekanı vəzifəsində çalışmışdır (Azərbaycan Müəllimlər İnstitutu Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə birləşənə qədər). 2016-cı ildən Azər baycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji psixologiya kafedrasının dosentidir.

Q.Q. Əzizov 1 monoqrafiya, 1 dərs vəsaiti, 4 metodik vəsait, 23 tədris proqramı, 26 məqalə və tezisin müəllifidir.

Q.Q. Əzizovun elmi-pedaqoji tədqiqatlarının əsas istiqamətləri aşağıdakılardır:

– pedaqoji fəaliyyət prosesində müəllim-şagird münasibətləri;
– pedaqoji kollektivdə münaqişə və onun həlli yolları;
– əxlaq psixologiyası;
– şəxsiyyətin iradi keyfiyyətlər kontekstində təhlili;
– şəxsiyyətin formalaşmasına təsir göstərən hissi-iradi keyfiyyətlər;
–yeniyetmələrdə iradi keyfiyyətlərin formalaşmasına milli mənlik şüurunun təsiri.

Əsas elmi əsərləri:

1.Halal adam (monoqrafiya). Bakı, 2006.
2.Uşaqlarda hafizənin inkişafının səmərəli yolları. (metodik vəsait). Bakı, 2007.
3.222 psixoloji test (metodik vəsait). Bakı, 2007.
4.Psixologiya fənni üzrə testlər (metodik vəsait). Bakı, 2010.
5.Psixologiya. (dərs vəsaiti). Bakı, 2011.
6.Yeniyetmələrlə aparılan psixoloji işin xarakteristikası. (metodik

vəsait). Bakı, 2013.

Nailiyyətləri:

1.1.YUNİSEF tərəfindən Mina Təhlükəsizliyinin izahına dair təşkil edilmiş seminar. Sertifikat–2001.

2.YUNİSEF və ANAMA-nın birgə təşkil etdiyi Mina Təhlükəsizliyinin izahı üzrə təkmilləşdirmə kursu. Sertifikat–2002.

3.Amerika hərbi mütəxəssisləri tərəfindən təşkil olunmuş Mina Təhlükəsizliyinin izahı üzrə 10 günlük təkmilləşdirmə kursu. Sertifikat–2002.

4."Təhsilin əsasları" fənni üzrə təşkil olunmuş 21 günlük təlim kursu. Sertifikat– 2006.

5."GENDER və TƏHSİL"– müəllimlər üçün qısamüddətli treninq. Sertifikat–2007.

6."Fəal və interaktiv təlim" mövzusunda keçirilmiş 5 günlük seminar. Sertifikat– 2009.

7.AMİ-nin təşkilatçılığı ilə "Müəllim hazırlığının müasir problemləri". III Beynəlxalq konfrans. Beynəlxalq sertifikat –2014.

8.Türkiyədə təşkil olunmuş "YÜKSEK ÖĞRETİM YÖNETİMİ". İki həftəlik (30 kredit) seminar. Sertifikat–2014.

9."Qızıl qələm" media mükafatı –Azər. KİVİHİ. Diplom, 2014.



## Mehriban İsmayılova

Psixologiya üzrə fəlsəfə doktoru, dosenti

İsmayılova Mehriban Cəlal qızı 1962-ci il yanvar ayının 4-də, Bakı şəhərində anadan olmuşdur. 1979-cu ildə Mərdəkan qəsəbəsindəki 181 №-li orta məktəbi bitirmişdir. 1980-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin pedaqogika və psixologiya (məktəbəqədər) ixtisasının əyani şöbəsinə qəbul olunmuşdur. 1984-cü ildə həmin ixtisası fərqlənmə diplomu ilə bitirmişdir.

M.C.İsmayılova 1984–1990-cı illərdə Mərdəkan qəsəbəsindəki 131 №-li uşaq bağçasında metodist-tərbiyəçi, 1990–1993-cü illərdə Sumqayıt şəhərindəki 67 №- li uşaq bağçasında tərbiyəçi vəzifəsində çalışmışdır.

1993-cü ildə müsabiqə yolu ilə Azərbaycan Müəllimlər İnstitutunun Psixologiya kafedrasına müəllim vəzifəsinə seçilmişdir. Azəbaycanın 15 rayonunda elmi məzuniyyətdə olmuş, orada fənn müəllimləri ilə psixologiyanın aktual məsələlərinə dair dərslər aparmışdır. M.C.İsmayılova həmin illərdə indiki Xəzər Rayon Təhsil Şöbəsində institutun göndərişi əsasında ibtidai, məktəbəqədər və ingilis dili müəllimləri üçün seminarlar təşkil etmişdir. M.C. İsmayılova 1993–1995-ci

illərdə indiki Azərbaycan Respublikası Təhsil İnstitutunun psixologiya və defektologiya şöbəsində elmi işçi, 1995–1999-cu illərdə həmin institutda fəaliyyət göstərən aspiranturanın yaş və pedaqoji psixologiya şöbəsinin qiyabi aspirantı olmuşdur. M.C.İsmayılova 1999-cu ildə Bakı Dövlət Universitetində "Tərbiyəçinin ünsiyyət üslubunun məktəbəqədər yaşlı uşaqların qarşılıqlı münasibətlərinə psixoloji təsiri" mövzusunda (19.00.07.– pedaqoji və yaş psixologiyası) namizədlik dissertasiyasını müdafiə edərək, psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır.

2000–2001-ci illərdə Bakının indiki Xəzər rayonunda yerləşən 156 №-li məktəbdə psixoloq vəzifəsində çalışmışdır.

2001-ci ildə insan hüquqlarının məktəbdə tədrisi ilə bağlı seminarın iştirakçısı olmuşdur. 2002-ci ildə Əzizbəyov (indiki Xəzər) rayonunda "İnsan hüquqlarının məktəbdə tədrisi" mövzusunda seminarın təlimçisi olmuşdır.

2009-cu ildə AR Təhsil Nazirliyi tərəfindən "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunmuşdur. 2010-cu ildə institutun elmi şurasının qərarı ilə dosent əvəzi vəzifəsinə seçilmişdir. 2010-cu ilin aprel ayında AR Təhsil Nazirliyinin "Məktəbəqədər təhsilin kurikulumu" üzrə işçi qrupunun üzvü olmuşdur.

M.C.İsmayılova 2011-ci ildə indiki Azərbaycan Respublikası Təhsil İnstitutunda elmi müxbir vəzifəsinə seçilmişdir.

2012-ci ildə yeni fənn kurikulumlarının tətbiqi ilə əlaqədar AMİ-də təşkil olunmuş "Öyrədənlərin öyrədəni" kursundan keçərək, təlimçi statusu almışdır.

2013-cü ildə məktəbəqədər təhsilin kurikulumu üzrə Öyrədənlərin Öyrədəni proqramında iştirak etmişdir.

2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə dosent elmi adını almışdır. Yeni Azərbaycan Partiyasının üzvüdür.

Çalışdığı müddətdə Azərbaycan Beynəlxalq Universitetində, Beynəlxalq Kollecdə psixologiya dərsləri aparmış, hazırda Bakı Qızlar Universitetində, Sumqayıt Dövlət Universitetində pedaqoji fəaliyyətini davam etdirərək, psixologiyanın müxtəlif sahələrini tədris edir.

Beynəlxalq Kollecdə fənn birləşməsinin sədri, 3 il Dövlət İmtahan Komissiyasının sədri vəzifələrində çalışmışdır. 6 ildir ki, Sumqayıt Dövlət Universitetində filologiya fakültəsinin psixologiya ixtisası üzrə Dövlət İmtahan Komissiyasının sədridir.

Müəllim işlədiyi müddətdə Bakı Dövlət Universitetinin İxtisaslaşdırılmış Müdafiə Şurasında 5 nəfərə rəsmi opponent, BDU-nun və indiki Azərbaycan Respublikası Təhsil İnstitutunun elmi seminarlarında 6 nəfərə rəsmi rəyçi təyin olunmuşdur.

2015-ci ildən Azərbaycan Respublikası Təhsil İnstitutunun (6104.01–pedaqoji psixologiya) elmlər doktoru proqramı üzrə qiyabi şöbəsinin doktorantıdır. Mövzusu "Gənclərin sosiallaşmasının ailədaxili qarşılıqlı münasibətlərin formalaşmasına psixoloji təsiri" adlanır.

M.C.İsmayılova hazırda ADPU-nun Pedaqoji psixologiya kafedrasının dosentidir. İşlədiyi müddətdə 40-dan artıq tədris proqramının, iştirak etdiyi 20-dən artıq respublika əhəmiyyətli və beynəlxalq səviyyəli konfranslarda 10-dan artıq tezisin, 25-dən artıq elmi məqalənin müəllifidir. M.C.İsmayılovanın "Nitqin səs mədəniyyəti üzrə işin təşkili" (2002), "Nitq nöqsanlarının aradan qaldırılmasında yanıltmaclardan istifadə" (2005), "İdrak prosesinin inkişafında didaktik oyunlardan istifadə" (2005), "Uşaqların idrak proseslərinin inkişafına xidmət edən didaktik materiallar" (2006), "Основы психодиагностики" (2018) və s. mövzularda metodik vəsaitləri nəşr olunmuşdur.

Bunlarla yanaşı, M.C.İsmayılova "Ünsiyyət psixologiyası (məntiqi-struktur sxemlər və şərhlər)" (2011), "Tərbiyə işi və onun metodikası" (2012), "Sosial psixologiya (məntiqi-struktur sxemlər və şərhlər)" (2012), "Psixologiyanın tədrisi metodikasından test tapşırıqları" (2016), "Psixologiyanın tədrisi metodikası" (2016), "Педагогическая психология: конспект лекций" (2018), "Sosial psixologiya" (2019), "Psixologiyanın tədrisi metodikası (məntiqi-struktur sxemlər və şərhlər)"(2019) və s. dərs vəsaitlərinin müəllifidir.

M.C.İsmayılova tələbələri ilə sıx əməkdaşlıq şəraitində pedaqoji fəaliyyətini davam etdirir. Fəal təlim və kurikulum üzrə təlimçi kimi respublikanın Təhsil Nazirliyi ilə YUNİSEF-in birgə təşkil etdiyi treninqlərdə həm uşaq bağçaları, həm də ibtidai siniflər üzrə fəal təlim

və kurikulum üzrə təlimlər aparmışdır.

M.C. İsmayılova 70-ə qədər yerli və xarici ölkə seminarlarında fəal iştirak edərək sertifikatlar almışdır. 25 ildən artıqdır ki, ADPU-da təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə təhsil alan magistrantlara dərs keçir, onların dissertasiyalarına rəhbərlik edir. 50-dən artıq kitab, dərs vəsaiti və proqramlara rəylər vermişdir. 2 kitabın elmi redaktoru olmuşdur.

Hazırda bakalavr, davamlı təhsil pillələrində dərslərini davam etdirir. M.C.İsmayılovanın elmi-pedaqoji tədqiqatlarının əsas istiqamətləri aşağıdakılardır:

– psixologiyanın tədrisi metodikasının aktual məsələləri;
–tələbələrin sosiallaşması və onların cəmiyyətdə sosial mövqeyi;
– sosial psixologiyanın aktual məsələləri;
– eksperimental psixologiyanın inkişafına dair araşdırmalar;
– uşaq, yaş psixologiyası və pedaqoji psixologiyanın aktual məsələləri;
– psixopedaqogikanın aktual problemləri;
– təhsildə sosial-psixoloji xidmətin aktual məsələləri və s.

Əsas elmi əsərləri:

1. Tərbiyə işi və onun metodikası.(dərs vəsaiti). Bakı, ADPU-nun nəşriyyatı, 2012
2. Sosial psixologiya (məntiqi-struktur sxemlərdə və şərhlərdə).(dərs vəsaiti). Bakı, AMEA-nın İnformasiya Texnologiyaları nəşriyyatı, 2012.
3. Psixologiyanın tədrisi metodikası.(dərs vəsaiti). Bakı, ADPU-nun nəşriyyatı, 2012, 2016.
4. Psixologiyanın tədrisi metodikasından test tapşırıqları. (metodik vəsait). Bakı, ADPU-nun nəşriyyatı, 2016.6.
5. Основы психодиагностики. (metodik vəsait). Bakı, ADPU-nun nəşriyyatı, 2018.
6. Педагогическая психология: конспект лекций. (dərs vəsaiti). Bakı, ADPU-nun nəşriyyatı, 2018.
7. Sosial psixologiya. (dərs vəsaiti). Bakı, ADPU-nun nəşriyyatı, 2019.
8. Psixologiyanın tədrisi metodikası (məntiqi-struktur sxemlərdə və şərhlərdə). (dərs vəsaiti). Bakı, ADPU-nun nəşriyyatı, 2019.



## Simnarə Heydərova

Psixologiya üzrə fəlsəfə doktoru, dosent

Heydərova Simnarə Nadir qızı 1969-cu ildə, Qərbi Azərbaycanın Qafan şəhərində anadan olub. O, 1986-cı ildə Qafan şəhərinin 8 №-li orta məktəbini bitirib. 1990–1995-ci illərdə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin məktəbə qədər pedaqogika və psixologiya fakültəsində təhsil alıb. S.N. Heydərovanın "Azərbaycan milli-mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti" adlı dərs vəsaiti 2001-ci ildə Bakıda nəşr olunub.

2005-ci ildə ADPU-nun Yaş və pedaqoji psixologiya kafedrasına baş laborant, 2006-cı ildə həmin kafedrada müəllim vəzifəsinə təyin edilib və həmin il ADPU-nun dissertantı olub. 2010-cu ildə "Uşaq şəxsiyyətinin formalaşmasında Azərbaycan xalq nağılları və atalar sözlərinin rolu" adlı dissertasiya işini müdafiə edərək, 2013-cü ildə psixologiya elmləri üzrə fəlsəfə doktoru adını almışdır.
S.N.Heydərova 2014-cü ildə "Defektologiyanın müasir problemləri", "Tərbiyə və özünütərbiyənin psixopedaqoji problemləri", "Psixologiya elminin tarixi və metodologiyası", "Ünsiyyət psixo-

logiyasının müasir problemləri", "Uşaq və şagird qruplarında qarşılıqlı münasibətlər" adlı proqramları, 2015-ci ildə isə "Autizm – səbəbləri və ümumi xarakteristikası", "Pedaqoji psixologiya və psixopedaqogika","Təlim psixologiyası" proqramlarını tərtib etmişdir.

S.N.Heydərovanın "Etnopsixologiya" adlı dərs vəsaiti 2016-cı ildə nəşr olunub. 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən ona dosent elmi adı verilmişdir.

Heydərova Simnarə Nadir qızı hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetinin məktəbəqədər təhsil fakültəsində Pedaqoji psixologiya kafedrasının müəllimi kimi fəaliyyətini davam etdirir.
S.N.Heydərovanın elmi-pedaqoji tədqiqatlarının əsas istiqamətləri bunlardır:

– şəxsiyyətin idrak fəaliyyəti və onun Azərbaycan psixoloji fikir tarixində tədqiqi;
– Azərbaycan folklorunun etnopsixoloji mahiyyəti;
– Azərbaycan folklorunda şəxsiyyətin əqli keyfiyyətləri haqqında fikirlər.

Əsas elmi əsərləri:

1. Azərbaycanda psixoloji fikrin ilkin qaynaqları. (dərs vəsaiti). Bakı, 2019.
2. İnkisaf və yaş psixologiyası. (dərslik). Bakı, 2019.



## Qəribə Rəhimova

Psixologiya üzrə fəlsəfə doktoru, dosent

Rəhimova Qəribə Vahid qızı 1968-ci ildə, İsmayıllı rayonunda anadan olub. 1984-cü ildə orta məktəbi bitirmişdir. 1984–1988-ci illərdə ADPU-da məktəbəqədər pedaqogika və psixologiya müəllimi işləmiş, məktəbəqədər tərbiyə işləri üzrə metodist ixtisasına yiyələnmişdir.

1988–1998-ci illərdə 222 saylı,1998–2003-cü illərdə isə 8 saylı uşaq bağçası-körpələr evində tərbiyəçi vəzifəsində işləmişdir.

2003-cü ildən indiyə kimi ADPU-nun pedaqoji psixologiya kafedrasının müəllimdir. 2007-ci ildə ADPU-nun dissertantı olub. "Azərbaycan psixoloqlarının tədqiqatlarında milli-mənəvi dəyərlər problemi və onun müasir vəziyyəti" mövzusunda dissertasiya müdafiə etmış və 2013-cü ildə psixologiya üzrə fəlsəfə doktoru diplomunu almışdır. 2017-ci ildən kafedranın dosentidir.

Q.V. Rəhimova məktəbəqədər təhsil fakültəsinin Elmi Şurasının üzvüdür. 2009-ci ildən fakültə üzrə Qızıl Aypara Cəmiyyətinin sədri, Yeni Azərbaycan Partiyasının üzvüdür. "Musiqi elmi, mədəniyyət və təhsilin aktual problemləri" jurnalının məkəbəqədər təlim, tərbiyə ixtisası üzrə komissiyasının üzvüdür. Məktəbəqədər təhsil fakültəsində ictimai işlərdə fəallığı ilə seçilən müəllimdir. Neçə ildir ki, magistrant-

lara rəhbərlik edir. Elmi-tədqiqat və elmi-pedaqoji təcrübə müddətində magistrantların sərbəst işləməsi üçün tapşırıqları müəyyənləşdirir və onların yerinə yetirilməsində öz məsləhətlərını verir, diplom işlərinə rəhbərlik edir.

Dəfələrlə təlimlərdə fəal iştirak edərək sertifikatlar almışdır. Hər ilin sonunda elmi-tədqiqat işlərini təhvil verərək, mövzu ilə bağlı məqalələr çap etdirir. Konfransların iştirakçısı olur və orada məruzələrlə çıxış edir.

Q.V.Rəhimovanın elmi-pedaqoji tədqiqatlarının əsas istiqamətləri bunlardır:

–Azərbaycan maarifçilərinin yaradıcılığında şəxsiyyətin mənəvi təkamülünün psixoloji konsepsiyası;

–Azərbaycan maarifçilərinin yaradıcılığında tərbiyə psixologiyası;

–Azərbaycan maarifçilərinin yaradıcılığında əxlaqi hisslərin mahiyyəti.

Q.V.Rəhimova 10 tezis, 25 məqalə,18 proqram, 3 dərs vəsaiti, 1 psixoloji oçerkin müəllifidir.

Əsas elmi əsərləri:

1.Azərbaycan klassiklərinin yaradıcılığı psixologiya tarixinin öyrənilməsində əsas mənbə kimi.(dərs vəsaiti). s.1-104. Bakı, ADPU-nun nəşriyyatı, 2016.

2.Məktəbdə psixoloji xidmətin xüsusiyyətləri. (proqram). (pedaqoji universitet və institutlarda magistr pilləsində təhsil alan tələbələr uçün). s.1-16 (h.m.) . Bakı, ADPU-nun nəşriyyatı, 2017 .

3.Müasir psixologiyada şəxsiyyətin inkişafı problemi. (dərs vəsaiti,104 s.). Bakı, ADPU-nun nəşriyyatı, 2016.

4.Azərbaycanda psixologiyanın inkişaf tarixi. (dərs vəsaiti, s.346 (h.m.). Bakı, ADPU-nun nəşriyyatı, 2019.

5.Azərbaycanlı gənclərdə mədəni adət və vərdişlərin formalaşmasının psixoloji problemləri (psixoloji oçerklər). s.154 (h.m.). ADPU-nun nəşriyyatı, Bakı, 2019.

6.Pedaqoji psixologiya və psixopedaqogika. (proqram). (pedaqoji universitet və institutlarda magistr pilləsi üçün. s.1-23 (h.m.). Azərbaycan Respublikası Təhsil Nazirliyi. Bakı, ADPU-nun nəşriyyatı, 2021.



## Gülnarə Əlixanova

Psixologiya üzrə fəlsəfə doktoru
baş müəllim

Əlixanova Gülnarə Həmzəbəyovna 1961-ci il iyun ayının 23-də, Bakı şəhərində anadan olmuşdur. 1978-ci ildə Bakı şəhərindəki 96 saylı tam orta məktəbi bitirmişdir. G.H.Əlixanova 1979-cu ildə 82 saylı TPM-i fərqlənmə diplomu ilə bitirmiş, EZK-da qrup rəhbəri təyin edilərək, əmək fəaliyyətinə başlamışdır.

1988-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin pedaqogika və psixologiya fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdur.1993-cü ildə həmin fakültənin pedaqogika və psixologiya müəllimi (məktəbəqədər) ixtisası üzrə məzunu olmuşdur.

G.H.Əlixanova pedaqoji fəaliyyətə 1990-cı ildə başlamışdır. O, 1990–1995-ci illər ərzində Bakı şəhər Balaxanıneft NQÇİ-nin 3 saylı uşaq müəssisəsində tərbiyəçi vəzifəsində işləmişdir.

İş fəaliyyətini 1997–2006-cı illərdə Suraxanı Rayon Təhsil Şöbəsində metodist kimi davam etdirmişdir. 2006–2007-ci illərdə Bakı Baş Təhsil İdarəsinin Suraxanı, Xətai rayonları üzrə Metodik Mərkəzində metodist vəzifəsində çalışmışdır. 1997–2006-cı tədris illərində TQK-nın Suraxanı RTŞ-də fəaliyyət göstərən Ali Mək-

təblərə Sənəd Qəbulu Komissiyasının üzvü kimi öz işini məsuliyyətlə yerinə yetirmişdir.

2005-ci ildə AR TN Estetik Tərbiyə üzrə Respublika Tədris-Metodik Mərkəzinin diplomu, 2006-cı ildə Suraxanı RTŞ-nin və fəal ictimai fəaliyyətinə görə Suraxanı İH-nin Fəxri fərmanı ilə təltif olunmuşdur. Suraxanı TRŞ-də və BBTİ-nin Metodik Mərkəzində işlədiyi müddətdə G.H.Əlixanova Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanması İnstitutunda saathesabı əsaslarla qrup rəhbəri vəzifəsinə dəvət olunmuş, orada pedaqoji fəaliyyət göstərmişdir.

G.H.Əlixanova 1999-cu ilin sentyabr ayından YAP-ın üzvüdür. 2012-ci ildə Yeni Azərbaycan Partiyasının yaradılmasının 20-ci ildönümü münasibətilə və rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirak etdiyinə görə 21 noyabr 2012-ci ildə YAP Binəqədi Rayon Təşkilatının Fəxri fərmanı ilə təltif olunmuşdur.

G.H. Əlixanova 2007-ci ildə Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidən hazırlanması İnstitutuna metodist vəzifəsinə dəvət edilmişdir. 2008–2009-cu illərdə Psixologiya kafedrasında müəllim, 2009–2016-cı illərdə BPKİYİ-nin Psixologiya və ictimai elmlər kafedrasının baş müəllimi vəzifəsində çalışmışdır.

2014-cü ilin yekunlarına görə, BPKİYİ Elmi Şurasının 30 dekabr 2014-cü il tarixli qərarı ilə "İlin tədqiqatçısı" nominasiyası üzrə diplomla təltif olunmuşdur. G.H.Əlixanova "2015/2016-cı tədris ili üçün I sinfə qəbulun elektron yolla həyata keçirilməsi" barədə Azərbaycan Respublikası Təhsil Nazirliyinin 19 fevral 2015-ci il tarixli, 242 saylı və BBTİ-nin 09.05.2015-ci il tarixli, 172 saylı əmrlərinə əsasən, Bakı şəhəri, Sabunçu rayonunun ümumtəhsil məktəblərinin I siniflərinə şagird qəbulu ilə bağlı yarana biləcək mübahisələrin həlli üzrə Appelyasiya Komissiyasının Sədri vəzifəsinə təyin olunmuşdur.

G.H.Əlixanova 2016–2017-ci illərdə Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunda Qiymətləndirmə şöbəsinin mütəxəssisi vəzifəsində fəaliyyətini davam etdirmişdir. Öz bacarığı və təşkilatçılığı

sayəsində işlədiyi kollektivdə işgüzarlığı ilə seçilmişdir.

Yüksək tədqiqatçılıq həvəsi onu psixologiyada “mən” obrazının tədqiqinə yönəltmişdir. Bu məqsədlə G.H.Əlixanova 2011-ci ildə Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Psixologiya və yaş fiziologiyası şöbəsinə təhkim olunmaqla fəlsəfə doktoru proqramı üzrə (qiyabi, ödənişli) doktoranturaya qəbul olunmuşdur.

2015-ci ilin dekabr ayında doktoranturanı müvəffəqiyyətlə bitirmişdir. ARTPİ-nin doktorantı olduğu müddətdə, 2011-ci ildən ADPU-nun Pedaqoji psixologiya kafedrası tərəfindən saathesabı əsaslarda pedaqoji fəaliyyətə dəvət edilmişdir.

2017-ci ildən G.H.Əlixanova ADPU-nun Pedaqoji psixologiya kafedrasının baş müəllimi vəzifəsində fəaliyyətini davam etdirir. Pedaqoji psixologiya kafedrasında pedaqoji təcrübə rəhbəri işini yerinə yetirir.

G.H.Əlixanova 2018-ci ildə BDU-nun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasında fəlsəfə doktoru proqramı üzrə “Məktəbəqədər yaşlı uşaqlarda “mən” obrazının formalaşmasında ailənin rolu” adlı dissertasiya işini müdafiə etmişdir. 2019-cu il 25 yanvar tarixində psixologiya üzrə fəlsəfə doktoru diplomunu almışdır. Elmi rəhbəri psixologiya üzrə elmlər doktoru, professor, Əməkdar müəllim Ramiz İbrahim oğlu Əliyev olmuşdur. Rəsmi opponentləri psixologiya üzrə elmlər doktoru, professor Gülnarə Kazım qızı Qurbanova, psixologiya üzrə fəlsəfə doktoru Hökümə İmran qızı Əliyeva, psixologiya üzrə elmlər doktoru, professor Ə.T.Baxşəliyev, psixologiya üzrə elmlər doktoru, professor R.H.Qədirova, pedaqogika üzrə elmlər doktoru, professor N.M.Muxtarova, filologiya üzrə elmlər doktoru, professor S.Ş.Nuriyev, psixologiya üzrə elmlər doktoru, professor E.İ.Şəfiyeva və başqaları G.H. Əlixanovanın tədqiqat işi haqqında müsbət fikirlər söyləmiş və onu yüksək qiymətləndirmişlər.

G.H.Əlixanovanın 2007–2015-ci illər ərzində BPKİYİ-də fəaliyyət göstərən “Psixoloq” qəzetində müxtəlif psixoloji mövzuları

əhatə edən 25-dək məqaləsi çap olunmuş və oxucular tərəfindən maraqla qarşılanmışdır. O, 42 elmi məqalənin, 12 tezisin, 1 monoqrafiyanın, 10 proqramın müəllifi, 4 metodik vəsaitin həmmüəllifidir. Onun məqalələri Bakıda, Moskvada, Tbilisidə, Almaniyada, Xersonda, Ukraynada, Qırğızıstanda bir sıra nüfuzlu jurnallarda çap olunmuşdur. Respublikamızda və xaricdə 12-yə yaxın respublika səviyyəli və beynəlxalq əhəmiyyətli konfransların iştirakçısı olmuş və məruzələrlə çıxış etmişdir.

G.H.Əlixanovanın elmi-pedaqoji tədqiqatlarının əsas istiqamətləri bunlardır:

– yeniyetmələrin təlim fəaliyyəti;
– təhsildə sosial-psixoloji xidmət;
– təlim fəaliyyətində temperament tipinin nəzərə alınması;
– məktəbəqədər yaşlı uşaqlarda “mən” obrazının formalaşması;
– “mən” obrazının ailədə formalaşması.

Əsas elmi əsərləri:

1.Təlim fəaliyyətində temperament tiplərinin nəzərə alınması. (metodik vəsait). (h/m. Baxşəliyev Ə.T.). ADPU-nun nəşriyyatı, 2019, 156 s.

2.Məktəbəqədər yaşlı uşaqlarda “mən” obrazının formalaşdırılmasında ailənin rolu. (monoqrafiya). Bakı, ADPU-nun nəşriyyatı, 2021, 168 s.



## Zemfira Səlimova

Baş müəllim

Səlimova Zemfira İlyas qızı 1954-cü ildə, Bakı şəhəri, Nizami rayonunun Keşlə qəsəbəsində, ziyalı ailəsində anadan olmuşdur. 1971-ci ildə Nizami rayonunun 201 saylı orta məktəbini bitirmişdir. Ali təhsillidir. 1973-cü ildə V.İ. Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olmuş, 1978-ci ildə ibtidai təhsilin pedaqogikası və metodikası fakültəsini bitirmişdir.

1973-cı ildə 201 saylı orta məktəbin kimya kabinetində, laborant vəzifəsində işləyib.

1979-cu ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tədris şöbəsində, 1980-ci ildə isə Yaş və pedaqoji psixologiya kafedrasında laborant, baş laborant vəzifələrində çalışmışdır.

1986-cı ildə Yaş və pedaqoji psixologiya kafedrasında saathesabı əsaslarda pedaqoji fəaliyyət göstərmişdir.

1992-ci ildə "Şifahi xalq ədəbiyyatında psixologiya" mövzusu üzrə professor Ə.T.Baxşəliyevin dissertantı olub, dörd minimum imtahanlarından keçib və müvəffəq qiymətlər alıb. Bəzi səbəblərə görə dissertasiyanı tamamlamamışdır.

1997-ci il-dən ADPU-nun Yaş və pedaqoji psixologiya kafedrasında müəllim vəzifəsində fəaliyyət göstərmişdir. Hazırda Pedaqoji psixologiya kafedrasında baş müəllim vəzifəsində çalışır. O, kafedranın elmi seminarlarında iştirak edir və müxtəlif illərdə "Gənclərdə milli mentalitetin inkişafı", "Çətin tərbiyə olunan uşaqlarla aparılan iş" kimi bir çox mövzularda elmi seminarlarda çıxış etmişdir. Z.İ. Səlimova 20-dən çox məqalə və tezisin müəllifidir. Onun elmi tədqiqat işinin əsas istiqamətləri bunlardır – gənc nəsildə əxlaqi dəyərlərin inkişafı, yeniyetməlik yaşı dövründə baş verən psixoloji dəyişikliklər, yaş dövrlərində idrak proseslərini inkişafı və s.

Əsas elmi əsərləri:

1.Психологические идеи в загадках (Tapmacalarda psixoloji ideyalar). (məqalə). AR Pedaqoji Universitetinin "Xəbərlər" jurnalı, № 1, s.127-129. Bakı, 2014.
2.Uşaq təfəkkürürnün inkişafında Azərbaycan xalq nağıllarının rolu. (məqalə).
3.Bakı Slavyan Universitetinin "Elmi əsərlər"i, № 2, s.233-235. Bakı, 2018
4.Yeniyetmələrin təlim fəaliyyətinin psixoloji xüsusiyyətləri. (məqalə). Bakı Qızlar Universiteti, "Elmi əsərlər", № 1, s.111-113. Bakı, 2019.
5.Gənc nəsildə əxlaqi hisslərin inkişaf etdirilməsi. (məqalə). Azərbaycan Respublikası Təhsil İnstitutu, "Elmi əsərlər", № 1, s.215-217. Bakı, 2019.



## Nigar Məmmədova

Baş müəllim

Məmmədova Nigar Məhəmmədəli qızı 1962-ci ildə, Ağdaş rayonunun Ləki kəndində anadan olub. 1979-cu ildə Ağdaş rayon Ləki qəsəbəsinin 6 saylı orta məktəbini bitirib.

1979-cu ildə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin məktəbəqədər pedaqogika və metodika fakültəsinə qəbul olunmuşdur. 1983-ci ildə həmin ixtisas üzrə məzun olmuşdur. Həmin ildən başlayaraq Ağdaş rayon Ləki qəsəbəsinin 6 saylı orta məktəbində ibtidai sinif müəllimi vəzifəsində çalışmışdır.

1998-ci ildən Bakı Dövlət Humanitar Kollecində müəllim, 2010-cu ildən Azərbaycan Müəllimlər İnstitutunda baş müəllim vəzifəsində çalışıb.

2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji psixologiya kafedrasında baş müəllim vəzifəsində çalışır. 2016-cı il dən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji psixologiya kafedrasının doktorantıdır.

N.M.Məmmədova kafedrada keçirilən seminarlarda mütəmadi və fəal iştirak edir. “Ailədə uşaqlarda mədəni adət və vərdişlərin forma-

laşdırılmasının psixoloji xüsusiyyətləri" mövzusunda keçirdiyi elmi seminar zəngin məlumatlılığı ilə seçilmişdir. N.M.Məmmədova bakalavr tələbənin yazdığı "Yeniyetməlik yaş dövrünün psixoloji xüsusiyyətləri" mövzusunda diplom işinə rəhbərlik etmişdir.

N.M.Məmmədova "Psixoloji söhbət" televiziya verilişində psixoloji mövzuda keçirilən rubrikalarda mütəmadi olaraq praktik psixoloq kimi iştirak edir. Hazırda Loqos Psixoloji Nitq və İnkişaf Mərkəzində praktik psixoloq kimi fəaliyyət göstərir. N.M.Məmmədova 15-dən çox məqalə və tezisin müəllifidir.

N.M. Məmmədovanın elmi-pedaqoji tədqiqatlarının əsas istiqamətləri bunlardır:

– sosiallaşma probleminin psixoloji mahiyyəti;
– yeniyetmələrin həmyaşıdlar qrupunda sosiallaşmalarının psixoloji xüsusiyyətləri;
– yeniyetmələrin həmyaşıdlar qrupunda sosiallaşmalarının eksperimental tədqiqi.

Əsas elmi əsərləri:

1. Tələbələrin təlimə adaptasiya problemi və yaranan çətinliklərin psixoloji xüsusiyyətləri. Bakı Qızlar Universiteti, "Elmi əsərlər",cild 10, № 2, 2019 (38).
2. Tələbələrin təlim şəraitinə adaptasiyasının mərhələləri və psixoloji amilləri. Bakı Qızlar Universiteti, "Elmi əsərlər", cild 10, № 3, 2019 (38).
3. Tələbələrin adaptasiyasına təlim və imtahan stressinin psixoloji təsiri. Cəmiyyətə inteqrasiya və sosial adaptasiya: nəzəri və praktik aspektlər. Respublika Elmi konfransı, SDU. 26-27 noyabr, 2020.
4. Tələbələrin adaptasiyasına təlim və imtahan stresinin psixoloji təsiri. (Sumqayıt Dövlət Universitetinin konfrans materialları). 2020. № 8,(47)
5. Tələbələrin təlimə adaptasiyasında əqli iş qabiliyyətlərinin dinamikası. Bakı Qızlar Universiteti, "Elmi əsərlər", cild 12, № 1, 2021, (45).

N.M.Məmmədova fakültədə bakalavr tələbələrə psixofiziologiya, inkişaf və yaş psixologiyası, etnopsixologiya, klinik psixologiya, təhsildə sosial-psixoloji xidmət və psixoloji praktikum və digər fənləri tədris edir. Universitetdə yaradılan Psixoloji Mərkəzdə praktik psixoloq kimi fəaliyyət göstərir.



## Sveta Nuruyeva

Baş müəllim

Nuruyeva Sveta Nuru qızı 1957-ci ildə, Zərdab rayonunda anadan olmuşdur. 1971-ci ildə Zərdab rayonunda orta məktəbi bitirmiş, 1974-cü ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun rus dili fakültəsinə qəbul olunmuş, 1978-ci ildə ali təhsilini tamamlamışdır.

S.N.Nuruyeva 1978–1985-ci illərdə Zərdab rayonunda rus dili müəllimi vəzifəsində çalışmışdır. 1988-ci ildə Bakı şəhəri, 264 saylı məktəbdə "Mütərəqqi xalq ideya və ənənələrindən müasir məktəb təcrübəsində istifadə" dərnəyinin rəhbəri kimi fəaliyyət göstərmişdir. Fəaliyyəti dövründə gənc nəslin təlim-tərbiyəsində mütərəqqi xalq ideya və ənənələrindən istifadə probleminin tədqiqi ilə məşğul olmuşdur. Bu sahədə görülən bütün işlər şagirdlərin təlim-tərbiyəsinə böyük təsirini göstərmişdir. Məktəbdəki fəaliyyətinə görə məktəb rəhbərliyi tərəfindən dəfələrlə mükafatlandırılmışdır.

S.N.Nuruyeva 2004–2005-ci illərdə Azərbaycan Müəllimlər İnstitutunun yenidənhazırlanma kursunu bitirərək, psixoloq ixtisasına

yiyələnmişdir. O, 2005-ci ildən etibarən müqavilə yolu ilə Azərbaycan Müəllimlər İnstitutunun psixologiya kafedrasında müəllim işləmişdir.

S.N.Nuruyeva 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji psixologiya kafedrasında müəllim kimi fəaliyyət göstərir. 2019-cu ildə seçki yolu ilə bu kafedrada baş müəllim vəzifəsinə seçilmişdir.

S.N. Nuruyeva fakültədə pedaqoji psixologiya, klinik psixologiya, uşaq psixologiyası, psixologiya tarixi və s. fənləri tədris edir. O, 20 məqalə və tezisin müəllifidir.

S.N.Nuruyevanın elmi-pedaqoji tədqiqatlarının əsas istiqamətləri bunlardır:

– məktəbəqədər yaşlı uşaqlarla aqressiv davranışın psixopedaqoji xüsusiyyətləri;

– kiçik məktəb yaşlı uşaqlarda aqressiv davranışın xüsusiyyətləri və korreksiyası;

– yeniyetmələrdə suisid və aqressiyanın korreksiyası.



## Münəvvər Məmmədova

Müəllim

Məmmədova Münəvvər İsmayıl qızı 1961-ci il fevral ayının 7-də, Ermənistan SSR-in Ararat rayonunda anadan olmuşdur. 1978-ci ildə Xaçmaz rayonun da orta məktəbi bitirmişdir.

1978-ci ildə ildə M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutuna qəbul olunmuş, 1983-cü ildə institutu bitirmişdir. M.Məmmədova 1983–1987-ci illərdə təyinatla Yevlax şəhər 2 nömrəli məktəbində rus dili və ədəbiyyatı müəllimi vəzifəsində işləmişdir. 1989–1998-ci illərdə Bakı şəhəri, Nərimanov rayonunun 47 saylı orta məktəbində rus dili və ədəbiyyatı müəllimi vəzifəsində fəaliyyət göstərmişdir.

2004–2005-ci illərdə Azərbaycan Müəllimlər İnstitutunda psixologiya ixtisası üzrə təhsil almışdır. 2009–2010-cu illərdə Azərbaycan Turizm İnstitutunda müəllim işləmişdir.

2010–2016-cı illərdə Azərbaycan Müəllimlər İnstitutunun psixologiya kafedrasında müəllim vəzifəsində çalışmışdır.

2016-cı ildən indiyə qədər Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji psixologiya kafedrasında müəllim kimi fəaliyyət

göstərir.

M.Məmmədova kafedranın elmi seminarlarında, müxtəlif mövzulu tədbirlərdə fəal iştirak edir. Bir çox beynəlxalq əhəmiyyətli və respublika səviyyəli konfranslarda çıxış etmişdir. M. Məmmədova 20-dən çox məqalə və tezisin müəllifidir.

Onun elmi-pedaqoji tədqiqatlarının əsas istiqamətləri bunlardır:

– kiçik məktəb yaşlı şagirdlərin təlim fəaliyyəti;

–kiçik yaşlı məktəblilərin həmyaşıdları ilə qarşılıqlı münasibətlərinin psixoloji xüsusiyyətləri.

Əsas elmi əsərləri:

1.Psixologiyanın əsasları. (proqram). (bakalavr təhsil pilləsi üçün). Bakı, ADPU-nun nəşriyyatı, 2015.

2.Основы психодиагностики. (методическое пособие). Баку, издательство АГПУ, 2017.

3.Педагогическая психология. (методическое пособие). Баку, издательство АГПУ, 2017.





## Rəna Cəbrayılova

Müəllim

Cəbrayılova Rəna Nüsrəddin qızı 1961-ci il 14 oktyabr tarixində, Şabran rayon Ağalıq kəndində, ziyalı ailəsində anadan olmuşdur. 1979-cu ildə Şabran rayon Ağalıq kənd məktəbini bitirmişdir.

1981-ci ildə V.İ.Lenin adina Qırmızı Əmək Bayrağı ordenli Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) ibtidai təhsilin metodikası və pedaqogikası fakültəsinə qəbul olunmuş, 1986-cı ildə institutu fərqlənmə diplomu ilə bitirmişdir. 1986-cı ildə təyinatla Şabran rayonunun Böyük Həmyə kənd orta məktəbinə ixtisası üzrə müəllim təyin olunmuşdur. 1989-cu ildə isə həmin rayonun Beynəlmiləl kəndində pedaqoji fəaliyyətini davam etdirmişdir.

R.N.Cəbrayılova işlədiyi müddətdə məsuliyyətli və hörmətli müəllim kimi nüfuz qazanmışdır. O, 2003-cü ildən Bakı şəhərində, Bakı Humanitar Kollecində pedaqogika və psixologiya müəllimi vəzifəsində işləmişdir. Bakı Humanitar Kollecində işləyə-işləyə, 2008-ci ildə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin psixologiya fakültəsini bitirmişdir.

2019-cu ilədək Bakı Humanitar Kollecində psixologiya müəllimi vəzifəsində fəaliyyətini davam etdirmişdir. Həmin il ərzində ADPU-nun Pedaqoji psixologiya kafedrasında saathesabı müəllim kimi fəaliyyət göstərmişdir.

2019-cu ilin may ayında R.Cəbrayılova ADPU-nun nəzdində təşkil olun muş müəllimlərin işə qəbulu müsabiqəsində iştirak etmiş və Pedaqoji psixologiya kafedrasında müəllim vəzifəsində fəaliyyətə başlamışdır.

R.N.Cəbrayılova universitetdə işlədiyi müddətdə bir sıra konfransların (Uluslararası Sosial Bilimler Kongresi, 1-2 may 2020, Bursa; Cəmiyyətə İnteqrasiya və Sosial Adaptasiya: nəzəri və praktik aspektlər, Respublika Elmi Konfransı, SDU,) iştirakçısı olmuş və məruzə ilə çıxış etmişdir.

R.Cəbrayılova bir neçə elmi, tədris, metodik əsərlərin müəllifidir. Elmi-pedaqoji tədqiqatlarının əsas istiqamətləri aşağıdakılardır:

– kiçik yaşlı məktəblilərin idrak maraqlarının inkişafının nəzəri məsələləri;

– kiçik yaşlı məktəblilərdə idrak maraqlarının inkişafının psixopedaqoji əsasları;

– kiçik yaşlı məktəblilərdə idrak maraqlarının inkişafının eksperimental tədqiqi

Əsas elmi əsərləri:

1.Təlim fəaliyyətində kiçik yaşlı məktəblilərin idraki maraqlarının keyfiyyət göstəriciləri. /beynəlxalq tezislər/ Al-Farabi, 7. Uluslararası Sosyal bilimler Kongresi,1-2 mayıs, 2020, Bursa, səh.28.

2.Təlim fəaliyyətində kiçik yaşlı məktəblilərin idraki maraqlarının psixoloji səciyyəsi. /elmi məqalə/. Bakı Qızlar Universitetinin "Elmi əsərlər"i. Cild 11, №1, səh. 364-368. Bakı, "Mütərcim" TM, 2020 (41).

3.Təlim fəaliyyətində kiçik yaşlı məktəblilərin idraki maraqlarının inkişaf səviyyələri. /elmi məqalə/. Bakı Qızlar Universitetinin "Elmi əsərlər"i. Cild 12, №1, səh. 346-351. Bakı, "Mütərcim" TM, 2021 (45).

4.Kiçik yaşlı məktəblilərin idrak maraqlarının inkişaf dinamikası. /respublika tezisləri/ Cəmiyyətə inteqrasiya və sosial adaptasiya: nəzəri və praktik aspektlər. Respublika Elmi Konfransı, SDU, səh. 94-98.



## Könül Həsənquliyeva

Müəllim

Həsənquliyeva Könül Ənvər qızı 1974-cü ildə, Qərbi Azərbaycanın Qafan rayonunun Oxtar kəndində anadan olmuşdur. 1992-ci ildə Bakı şəhəri, 155 saylı tam orta məktəbi bitirmişdir.

1992-ci ilin oktyabrında Bakı şəhər RİTT-nin nəzdində olan 4 saylı Təmir-Tikinti İdarəsində kadrlar şöbəsinin inspektoru vəzifəsində əmək fəaliyyətinə başlamışdır.

K.Ə.Həsənquliyeva 1994-cü ildə N.Tusi adına ADPU-nun pedaqogika və psixologiya (məktəbəqədər) fakültəsinin axşam şöbəsinə qəbul olunub.1995-ci ildən RİTT-nin nəzdində olan 10 saylı RİTT-də kadrlar şöbəsinin inspektoru vəzifəsində çalışmışdır.

K.Ə.Həsənquliyeva 1997-ci ildən köçürmə yolu ilə N.Tusi adına ADPU-nun Tədris-metodika şöbəsində qiyabi təhsil üzrə metodist vəzifəsində işləmişdir.

1999-cu ildə N.Tusi adına ADPU-nun pedaqogika və psixologiya fakültəsini bitirmişdir. 1999-cu ildə ADPU-nun yenidən hazırlanma kursuna daxil olmuşdur.

2000-ci il, 26 iyulda ibtidai təhsilin pedaqogikası və metodikası ixtisası üzrə tam kursu bitirmiş və həmin il ADPU-nun psixologiya üzrə magistraturasına daxil olmuşdur.

K.Ə. Həsənquliyeva 2002-ci ildə ümumi psixologiya üzrə magistratura şöbəsini fərqlənmə diplomu ilə bitirmişdir. 2002-ci ildən yaş və pedaqoji psixologiya fakültəsində 0,5 ştatla müəllim, sonra isə tam ştatla müəllim vəzifəsində fəaliyyətini davam etdirib.

Hazırda həmin kafedrada müəllim vəzifəsində çalışır. 2005-ci ildən ADPU-nun Pedaqoji psixologiya kafedrasının dissertantıdır. Dissertasiya mövzusu "Yusif Vəzir Çəmənzəminlinin irsində etnopsixoloji fikirlərin inikası"dır. Onun elmi-pedaqoji tədqiqatlarının əsas istiqaməti Azərbaycanın görkəmli yazıçılarının yaradıcılığında psixoloji fikirlərdir.

Əsas elmi əsərləri:

1.Y.V.Çəmənzəminlinin irsində qadınlara olan münasibətin etnopsixoloji xüsusiyyətləri. Qafqaz Universiteti, Bakı, 2016.
2.Y.V.Çəmənzəminlinin "Qızlar bulağı" romanında Azərbaycan mifologiyasının istiqamətləri. ADPU, GDU, 2017.
3.Y.V.Çəmənzəminlinin irsində qadın "məni" haqqında fikirlər. ADPU, Bakı, 2017.
4.Müasir dövrdə şəxsiyyətin formalaşmasında Y.V.Çəmənzəminlinin irsində ailənin etnopsixoloji xüsusiyyətləri. ADU, Bakı, 2017.
5.Y.V.Çəmənzəminlinin irsində ailə münasibətlərinin etnopsixoloji məsələləri. ADU, Bakı, 2017.
6.Y.V.Çəmənzəminlinin "Studentlər" romanında adət-ənənələr haqqında fikirlər. BSU, Bakı, 2018.



# Aynur Mahmudova

## Müəllim

Mahmudova Aynur Yaqub qızı 1974-cü il dekabrın 28-də anadan olub. 1991-ci ildə Bakı şəhər 126 №-li orta məktəbi bitirib. 1996-cı ildə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetində pedaqoqika və psixologiya ixtisası üzrə ali təhsil alıb.

1993-cü ildən 2003-cü ilədək Bakı şəhərinin Binəqədi rayonundakı 40 saylı uşaq bağçası-körpələr evində tərbiyəçi-müəllim vəzifəsində işləyib. 2003–2005-ci illərdə ADPU-nun əsaslı kitabxanasında kitabxanaçı vəzifəsində işləyib. 2005-ci ildən indiyə qədər ADPU-nun Yaş və pedaqoji psixologiya kafedrasının müəllimidir. A.Y.Mahmudovanın elmi-pedaqoji tədqiqatlarının əsas istiqamətləri aşağıdakılardır:

– 1920–1950-ci illərdə Azərbaycanda qadın psixoloqların hazırlanması sahəsində aparılan işlərin tarixi-psixoloji səciyyəsi;

– məktəbəqədər təhsilin psixoloji problemlərinin öyrənilməsi sahəsində qadın psixoloqların apardığı tədqiqatlar;

– Azərbaycanda qadın psixoloqların yaradıcılğında təlim psixologiyası sahəsində aparılan tədqiqatlar.

5 məqalə, 3 tesizin müəllifidir.



## Kübra Mehdiyeva

Müəllim

Mehdiyeva Kübra Nazim qızı 1970-ci il iyul ayının 20-də, Bakı şəhərində anadan olub. Orta təhsilini S.S.Axundov adına 172 №-li orta məktəbdə almışdır. 1985-ci ildə Bakı Məktəbəqədər Pedaqoji Məktəbinə daxil olub. 1989-cu ildə oranı bitirərək, Səbail rayonunun 85 №-li körpələr evi-uşaq bağçasında tərbiyəçi vəzifəsində işə başlamışdır.

K.N.Mehdiyeva 1990-cı ildə tərbiyəçi kimi çalışmaqla yanaşı sənədlərini ADPU-nun məktəbəqədər təhsil fakültəsinin axşam şöbəsinə təqdim edib və müsabiqə qəbul olunub.1994-cü ildə universiteti bitirmiş, 1995-ci ildə məktəbəqədər təhsil fakültəsinin Yaş və pedaqoji psixologiya kafedrasında baş laborant vəzifəsində işə başlamışdır.

K.N.Mehdiyeva 1997-ci ildən başlayaraq saathesabı yolu ilə dərs demişdir. 2002-ci ildən 0,5 ştatla müəllim vəzifəsinə təyin olunmuşdur. Hazırda məktəbəqədər təhsil fakültəsinin Pedaqoji psixologiya kafedrasında müəllim vəzifəsində çalışır. Pedaqoji fəaliy-

yəti ərzində bir çox elmi seminar və konfranslar da iştirak etməsi onun gələcək fəaliyyətində bir psixoloq kimi təkmilləşməsinə təkan vermişdir.

K.N.Mehdiyeva bu illər ərzində bir neçə istiqamətdə elmi-tədqiqat mövzuları üzərində çalışmışdır. Elmi-tədqiqat işlərinin mövzuları daha çox yeniyetməlik yaş dövrü ilə bağlı olmuşdur. Yeniyetməlik yaş dövrünün psixoloji xüsusiyyətləri möv zusunda məqalələrin və tezislərin də müəllifidir.

K.N.Mehdiyevanın elmi-pedaqoji tədqiqatlarının əsas istiqamətləri aşağıdakılardır:

– təlim-tərbiyə prosesində yeniyetmə şəxsiyyətinin formalaşması;
– yeniyetmə şəxsiyyətinin formalaşmasında müəllim-şagird münasibətlərinin rolu;
– yeniyetmə şəxsiyyətinin formalaşmasında müəllimin şəxsi keyfiyyətlərinin rolu.

Əsas elmi əsərləri:

1. Tələbə gənclərdə əxlaqi dəyərlərin formalaşdırılmasının psixoloji xüsusiyyətləri. (məqalə). ADPU, "Musiqi elmi, mədəniyyət və təhsilin aktual problemləri" jurnalı, № 2. Bakı, 2019, s.50 –54.
2. Yeniyetməlik yaş dövrünün psixoloji xüsusiyyətləri.(məqalə). Bakı Qızlar Universiteti, "Elmi əsərlər" jurnalı, № 6. Bakı, 2019, s.264–267.
3. Yeniyetmələrdə əxlaqi hisslərin inkişaf xüsusiyyətləri.(məqalə). ARTİ, "Elmi əsərlər" jurnalı, № 4. Bakı, 2019, s.84–87



## Könül Xuda-Zadə

Müəllim

Könül Akif qızı Xuda-Zadə 1984-cü ildə, Bakı şəhərində anadan olub. 2001-ci ildə Bakı şəhərindəki 263 saylı orta məktəbi bitirib. Elə həmin ildə Bakı Dövlət Universitetinin sosial elmlər və psixologiya fakültəsinin psixologiya ixtisasına qəbul olunmuşdur. 2005-ci ildə həmin ixtisas üzrə bakalavr pilləsini bitirmişdir.

K.A.Xuda-Zadə 2006-cı ildə uşaq psixologiyası ixtisası üzrə ADPU-nun magistraturasına qəbul olunmuş, 2008-ci ildə oranı bitirmişdir. Magistraturada təhsil aldığı müddətdə məktəbəqədər yaşlı uşaqların məktəbə psixoloji hazırlığı sahəsində fərdi şəkildə fəaliyyət göstərmiş və bəzi jurnal və qəzetlərdə valideynlərin psixoloji maarifləndirilməsi istiqamətində psixologiyaya dair məqalələri çap olunmuşdur.

2013-cü ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin fəlsəfə doktoru proqramı üzrə dissertantıdır. Hal-hazırda "Tələbələrin müəllim peşəsinə hazırlığının psixoloji xüsusiyyətləri" adlı dissertasiya mövzusu üzərində tədqiqatlarını davam etdirir.

2008-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqo-

ji psixologiya kafedrasında müəllim vəzifəsində çalışır. "Psixologiyanın tədrisi metodikası", "İnkişaf və yaş psixologiyası", "Pedaqoji psixologiya", "Psixoterapiya və psixokorreksiya, "Uşaq psixologiyası" və s. fənlərini tədris edir.

Azərbaycan Dövlət Pedaqoji Universitetində məktəbəqədər təhsil fakültəsinin təşkilatçılığı ilə müəllim və tələbələrə psixoloji dəstək və konsultasiya məqsədi ilə yaradılmış psixoloji xidmət mərkəzinin üzvüdür. Pedaqoji psixologiya kafedrasında fəaliyyət göstərdiyi illər ərzində bir çox psixoloji problemlərin tədqiqinə yönəlmiş elmi-tədqiqat işləri aparmışdır. Elmi-tədqiqat işlərinin əsas istiqamətini pedaqoji psixologiyanın aktual problemləri, o cümlədən, tələbələrin müəllim peşəsinə hazırlığı, pedaqoji fəaliyyətin psixopedaqoji xüsusiyyətləri, müəllim peşəsinə psixoloji hazırlıq və s. məsələləri tədqiq etmişdir.

2020-ci ilin yanvar ayında Avropa İttifaqının maliyyə dəstəyi ilə Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi (RİİB) tərəfindən icra olunan "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi çərçivəsində Azərbaycan nümayəndə heyətinin tərkibində Portuqaliyaya ezam olunmuşdur. "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi çərçivəsində təşkil olunmuş səfərin məqsədi, ibtidai və orta təhsil məktəblərində inklüziv təhsil siniflərinə baş çəkmək, belə siniflərdə dərsə verilən tələblər, müəllim-şagird münasibətləri, eləcə də dəstək xidmətləri ilə tanış olmaq, eyni zamanda inkluziv təhsil təcrübəsi barədə mütəxəssislərlə müzakirə aparmaqdan ibarət olmuşdur.

2020-ci ilin dekabr ayında Avropa İttifaqının maliyyə dəstəyi ilə Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi (RİİB) tərəfindən icra olunan "İnklüziv təhsil: reallıqlar, çağırışlar, perspektivlər" adlı Beynəlxalq elmi konfransın iştirakçısı olmuş, "İnklüziv təlim şəraitində müəllim hazırlığına verilən psixopedaqoji tələblər" adlı tezislə çıxış etmişdir. Çoxlu sayda konfrans və seminarların, yerli və xarici ölkə psixoloqlarının nəzəri, praktik

təlimlərinin iştirakçısı olmuşdur.

K.A.Xuda-Zadənin elmi-pedaqoji tədqiqatlarının əsas istiqamətləri aşağıdakılardır:

– tələbələrin müəllim peşəsinə hazırlığında pedaqoji təcrübənin rolu;
– peşə seçiminə təsir göstərən psixoloji amillər;
– pedaqoji fəaliyyətin psixoloji xüsusiyyətləri.

Əsas elmi əsərləri:

1.Uşaq şəxsiyyətinin formalaşmasında və tərbiyəsində empatiyanın rolu. ADPUnun professor-müəllim heyətinin X Elmi konfransının materialları. Bakı, 2012, səh. 348 – 350.
2.Tələbələrin müəllim peşəsinə hazırlığının psixoloji məsələləri. Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları. Bakı, 2013. səh. 359 –362.
3.Tələbələrin müəllim peşəsinə hazırlığına pedaqoji təcrübələrin təsiri. Azərbaycan Dillər Universiteti, “Elmi xəbərlər”, Bakı, 2014, № 4. səh. 203–205.
4.Müasir dövrdə müəllim peşəsinə hazırlığın bəzi məsələləri və perspektivləri. DOI: 10.36719/AEM/2007–2020/57/95–97.
5.Müəllim peşəsinə hazırlığın psixopedaqoji tədqiqi istiqamətləri. DOI: 10.36719/2663–4619/60/177–180.



## Yaqut Ağasıyeva

Müəllim

Ağasıyeva Yaqut Tahir qızı 1985-ci ildə, Ağdam rayonunun Quzanlı kəndin də anadan olmuşdur. 2001-ci ildə Bakı şəhər 297 saylı orta məktəbi bitirmişdir. Həmin ildə Bakı Dövlət Universitetinin sosial elmlər və psixologiya fakültəsinə qəbul olunmuş, 2005-ci ildə həmin fakültəni psixologiya ixtisası üzrə fərqlənmə diplomu ilə məzun olmuşdur. BDU-nun rəhbərliyi tərəfindən xüsusi təşəkkürnaməyə layiq görülmüşdür.

Y.T.Ağasıyeva 2005–2007-ci illərdə BDU-da ümumi psixologiya ixtisası üzrə magistr təhsili almış və təhsilini müvəffəqiyyətlə bitirmişdir.

2007–2009-cu illərdə Azərbaycan Müəllimlər İnstitutunun Psixologiya kafedrasında baş laborant vəzifəsində çalışmışdır. 2009-cu ildən institutda 0.5 ştat müəllim kimi fəaliyyət göstərmiş, 2011-ci ilin iyul ayından isə institutun Elmi Şurasının qərarı ilə 1 ştat müəllim vəzifəsinə seçilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji psixologiya kafedrasının müəllimidir. kafedranın ictimai-metodik işlərində fəal iştirak edir. Fa-

kültə rəhbərliyinin təşəbbüsü ilə YUNISEF-in inkluziv təhsillə bağlı təlimlərində dəfələrlə iştirak etmiş, təlimçi statusu qazanmışdır. Pedaqoji psixologiya, psixoterapiya, psixofiziologiya kimi fənləri tədris edir.

Y.T.Ağasıyeva bir metodik vəsait, 30-a yaxın tezis və məqalə, o cümlə dən, 3 beynəlxalq tezis və 1 beynəlxalq jurnalda məqalə müəllifidir. Elmi fəaliyyətini davam etdirir.

Y.T.Ağasıyevanın elmi-pedaqoji tədqiqatlarının əsas istiqamətləri bunlardır:

– tələbələrdə özünüqiymətləndirmə və idrak fəallığının inkişafı;
– uşaqlarda olan psixoloji problemlər;
– utancaqlıq problemi.

Əsas elmi əsərləri:

1.Müasir şəraitdə müəllim şəxsiyyətinə verilən psixoloji-pedaqoji tələblər. (tezislər). AMİ, I Beynəlxalq konfrans. Bakı, 2011, səh. 212–214.
2.Şəxsiyyətin mənlik şüurunun strukturunda özünüqiymətləndirmənin yeri. BDU-nun “Psixologiya” jurnalı. Bakı, 2012, səh. 65–72.
3.Təlim fəaliyyətində fəallıq və idrak fəallığı anlamı. BSU-nun “Humanitar elmlərin öyrənilməsinin aktual problemləri” jurnalı, № 3. Bakı, 2013, səh. 249–251.
4.Təlim şəraitində özünüqiymətləndirmənin təzahürü. (tezislər). Gənc tədqiqatçıların XIX Respublika konfransı. Bakı, 2015, səh. 211–212.
5.Konflikt probleminə psixoanalitik yanaşma. (məqalə). Bakı Qızlar Universitetinin “Elmi əsərlər”i, № 4. səh. 309–314. Bakı, 2018.
6.“Topluca iletişim ihtiyacının giderilmesi talebelerin idrak aktifliyini yükselten faktör gibi”. (tezis). 1 Mayıs Uluslararası Sosyal Politikalar ve Bilimsel Araştırmalar Konqresi, Ankara, 2019, səh. 200–203.8. Tələbələrin idrak motivlərinin onlarin təlim nəticələrinə təsiri.(tezis).
VII Uluslararası Sosyal Bilimler Kongresi, Bursa, 2020, səh. 258–

260.

7. Tələbələrin təlim nəticələrinə təsir edən psixoloji problemlərinin aradan qaldırılması üsulları. (tezis). (həmmüəllif: S.T. Fərzəliyeva). VII Uluslararası Sosyal Bilimler Kongresi, Bursa, 2020, səh. 261–263.

8. Konflikt zamanı şəxsiyyətin davranışı və konfliktə davamlılığı. (məqalə). ADPU-nun "Pedaqoji Universitetin Xəbərləri" jurnalı. Humanitar, ictimai və pedaqoji-psixoloji elmləri seriyası". Bakı, 2020, səh. 213–216.

9. Psixoloji ədəbiyyatlarda utancaqlığın tədqiqi istiqamətləri. (tezis). "Humanitar Elmlərin İnkişaf Strategiyası" Respublika Elmi Konfransı. Bakı, 2021, səh.125.





## Zülfiyyə Rüstəmova

Müəllim

Rüstəmova Zülfiyyə Rufət qızı Bakı şəhərində anadan olmuş,146 saylı orta məktəbi bitirmişdir.

2007-ci ildə Bakı Dövlət Universitetini psixologiya ixtisası üzrə bitirmişdir. Buraxılış işinin mövzusu "Ailələrdə valideyn–yeniyetmə münasibətləri" olmuşdur. Z.R.Rüstəmova 2009-cu ildə ümumi psixologiya ixtisası üzrə Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistraturasını bitirmişdir. "Şagirdlərin ailə haqqında təsəvvürlərinin psixoloji təhlili" mövzusunda dissertasiya işini müdafiə etmişdir.

Z.R. Rüstəmova Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun fəlsəfə doktoru proqramı üzrə dissertantıdır. "Tələbə gənclərdə özünü göstərən aqressiya və onun aradan qaldırılması yolları" mövzusunda dissertasiya işinin müdafiəsinə hazırlaşır.

Z.R.Rüstəmova uşaq psixologiyası, psixopedaqogika, psixofiziologiya, təhsildə sosial-psixoloji xidmət və psixoloji praktikum, psixologiya tarixi və s. fənləri tədris edir. Bir sıra beynəlxalq və respublika konfranslarında iştirak etmişdir. Bir çox elmi məqalə və tezislərin müəllifidir.

Z.R.Rüstəmovanın elmi-pedaqoji tədqiqatının əsas istiqamətləri aşağıdakılardır:

– ailənin psixopedaqoji problemləri;

– ailə modellərinin nəzəri-psixoloji məsələləri;

–aqressiya və onun psixokorreksiyası.

Əsas elmi əsərləri:

1.Məktəbəqədər yaşlılıarda HƏDÇS-in (Hiperaktivliklə əlaqədar diqqət çatışmazlığı sindromu) əsas göstəriciləri. (məqalə). BDU-nun “Psixologiya” jurnalı, 2011, №1, səh. 83–90.

2.Təhsil sistemində tələbə aqressivliyi və onun qiymətləndirilməsi. (tezis) “Təhsil sistemində monitorinq və qiymətləndirmənin yeri” mövzusunda Respublika elmi-praktik konfransının materialları. ARTPİ. Bakı, 27 aprel 2012-ci il, səh. 187–189.

3.Fövqəladə hallar zamanı tələbə gənclərdə özünü göstərən aqressiyanın təzahür xüsusiyyətləri. (tezis). “Fövqəl” – Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi problemləri üzrə mütəxəssislər assosiasiyasının 15 illik yubileyinə həsr olunmuş “Qloballaşma ilə əlaqədar fövqəladə hallara qarşı mübarizənin müasir problemləri” mövzusunda Beynəlxalq elmi-praktik konfrans. Bakı, 30–31 may 2012, səh. 233–235.

4.Aqressiv davranışın tədqiqi ilə bağlı nəzəriyyələr. (məqalə). ARTPİ-nin “Elmi əsərlər”i, 2012, № 2. səh. 85–90.

5.Valideyn–övlad münasibətlərinin aqressiv davranışa təsiri. (tezis). Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransının materialları. II cild. Bakı, 2013, səh. 185–186.

6.Aqressiv davranışın psixoloji mahiyyəti və onun tədqiqi istiqamətləri. (məqalə). Bursa, “Farabi” jurnalı, 1, 2 may, 2020, səh. 116–119.

7.Oyunlar və uşaqların həyatında onların rolu. (məqalə). Bursa, “Farabi” jurnalı 1, 2 may, 2020, səh. 120–123.

8.Əlilliyi olan uşaqlarda aqressiv davranışın korreksiyasında inklüziv təhsilin rolu. (tezis). Beynəlxalq konfrans: “İnklüziv təhsil: reallıqlar, çağırışlar,perspektivlər”. Bakı, 17, 18 dekabr, 2020, səh.182–183.



## Qarifat Dadaşova

Müəllim

Dadaşova Qarifat Şərif qızı 27 mart 1973-cü ildə, Bakı şəhərində, ziyalı ailəsində anadan olub. 1990-cı ildə Nizami rayonunda 201 №-li məktəbi bitirmişdir.

Q.Ş.Dadaşova 1991-ci ildə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji İnstitutuna qəbul olunmuş, 1997-ci ildə isə oranı pedaqogika və psixologiya (məktəbəqədər) ixtisası üzrə bitirmişdir.

1997–2005-ci illərdə Bakı şəhərinin Nizami rayonundakı 278 saylı uşaq bağçası-körpələr evində tərbiyəçi-müəllim vəzifəsində işləmişdir. Yeni Azərbaycan Partiyasının üzvüdür.

Q.Ş.Dadaşova 2005–2009-cu illərdə Bakı Sənaye-Pedaqoji Kollecində psixoloq vəzifəsində fəaliyyət göstərmişdir.

2012-ci ildən AMİ-nin magistratura və doktorantura şöbəsinin "Təlim və tərbiyə nəzəriyyəsi və metodikası" ixtisası üzrə dissertantı olmuşdur.

2009–2016-cı illərdə Bakı Sənaye-Pedaqoji Kollecində müəllim vəzifəsində işləmişdir. 2015-ci ildə müəllim vəzifəsində fəaliy-

yət göstərdiyi zaman pedaqoji işin səmərəli təşkilinə, gənc nəslin təlim-tərbiyəsində xidmətlərinə görə Fəxri fərmanla təltif olunmuşdur. Q.Ş.Dadaşova 2016–2017-ci illərdə Azər baycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində işləmişdir. 2017-ci ildə Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Mərkəzinin 4 saylı Bakı Peşə liseyində psixoloq vəzifəsində işləmişdir.

Q.Ş.Dadaşova 2017-ci ildən ADPU-nun Pedaqoji psixologiya kafedrasında müəllim işləyir. Müəllim vəzifəsində çalışdığı müddətdə bir neçə dərs vəsaiti, proqram, məqalə və tezisləri çap olunmuşdur. O, Pedaqoji psixologiya kafedrasının elmi seminarlarında, eləcə də bir çox respublika və beynəlxalq əhəmiyyətli konfranslarda çıxış etmişdir. Q.Ş.Dadaşova 5 məqalə və tezisin müəlli fidir. Q.Ş.Dadaşovanın tədqiqatlarının əsas elmi-pedaqoji istiqaməti ailədə uşaqlarda mədəni adət və vərdişlərin tərbiyə olunmasının psixoloji əsaslarıdır.

Əsas elmi əsərləri:

1. Pedaqogika fənninin tədrisində yeni texnologiyalardan istifadə. (dərs vəsaiti). Bakı, "Mütərcim", 2016.



## Nigar Ağayeva

Müəllim

Ağayeva Nigar Mirabbas qızı 1990-cı il yanvar ayının 15-də, Bakıda anadan olmuşdur. 2007-ci ildə orta məktəbi bitirmiş və elə həmin il Bakı Dövlət Universitetinin psixologiya fakültəsinə qəbul olunmuşdur. Bakalavr təhsili müddətində ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci və Psixi Sağlamlıq Mərkəzində təcrübədə olmuşdur.

N.M.Ağayeva magistratura təhsilini Xəzər Universitetində klinik psixologiya ixtisası üzrə başa vurmuş, "Ağır psixi pozulmaları olan şəxslərdə psixososial reabilitasiya xidmətlərinin effektivliyinin qiymətləndirilməsi" mövzusunda müdafiə etmişdir. Xəzər Universitetində oxuduğu müddətdə 1 saylı Respublika Psixiatriya Xəstəxanasında təcrübə keçmişdir.

2018-ci ildə müsabiqə yolu ilə ADPU-nun Ümumi psixologiya kafedrasına laborant kimi işə qəbul olunmuşdur. Elə həmin ildən etibarən Elektron Universitet layihəsində şöbə əməkdaşı kimi fəaliyyət göstərmişdir. İşə qəbul olunduğu ilk gündən vəzifəsinə

hörmətlə yanaşmış, ona tapşırılan işləri layiqincə yerinə yetirmişdir. Hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji psixologiya kafedrasının müəllimidir.

2020-ci ildən sosial psixologiya ixtisası üzrə Azərbaycan Dillər Universitetinin doktorantıdır. Hazırda "Fiziki məhdudiyyətli şəxslərin iş həyatına adaptasiyasının sosial-psixoloji tədqiqi" adlı dissertasiya mövzusu üzərində işləyir.



## Ayşən Quliyeva

Laborant

Quliyeva Ayşən Fikrət qızı 1991-ci ildə Bakı şəhərində anadan olub. 2008-ci ildə Bakı şəhəri, Binəqədi rayonundakı 3 saylı tam orta məktəbi bitirmişdir.

2009-cu ildə Bakı Qızlar Universitetinə daxil olmuş, 2013-cü ildə həmin universitetin ümumi psixologiya fakültəsini bitirmişdir. Həmin ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji psixologiya kafedrasının magistrantı olmuş, 2015-ci ildə "Pedaqoji kollektivdə mənəvi-psixoloji iqlim və onun təlim-tərbiyə prosesinə təsiri" mövzusunda dissertasiya müdafiə edərək, magistraturanı bitirmişdir. 2015–2017-ci illərdə Heydər Əliyev adına Müasir Təh sil Kompleksinin orta məktəbinin tədris-köməkçi heyətində katibə-referent və həmin heyətin mütəxəssisi vəzifələrində çalışmışdır.

2019-cu ilin oktyabr ayından etibarən ADPU-nun psixologiya kafedrasında laborant vəzifəsində çalışır.

A.F.Quliyeva işə qəbul olunduğu ilk gündən vəzifəsinə hörmətlə yanaşmış, işlədiyi kollektivin dərin hörmətini qazanmış və ona tapşırılan işləri layiqincə yerinə yetirmişdir.

## Xüsusi təhsil kafedrası

Xüsusi təhsil kafedrası yaranma etibarilə gənc olsa da, onun formalaşdırılması üçün uzun və məsuliyyətli bir yol qət edilmişdir. Müasir təhsil və inkişaf tendensiyası, eləcə də dövrün tələbləri bu kafedranın yaradılmasını zərurətə çevirmişdir.

Xüsusi təhsil kafedrasının və korreksiyaedici təlim ixtisasının yaranma tarixinə nəzər yetirərkən bu sahədə çox mühüm işlər görüldüyünü və kafedranın müasir fəaliyyətinin əhəmiyyətini vurğulamaq lazımdır.

XX əsrdə Azərbaycanda sağlamlıq imkanları məhdud olan uşaqların təhsili ilə bağlı dünya təcrübəsi öyrənilməyə başlandı və xüsusi təhsil müəssisələri şəbəkəsi yaradıldı. Sağlamlıq imkanları məhdud olan uşaqların təhsilinin inkişaf etidirilməsi sahəsində elmi-tədqiqat işləri aparılmağa, məqalələr, dərsliklər, tədris proqramlarının nəşr olunmasına başlanıldı. Bunlarla bərabər, Azərbaycanda Karlar Cəmiyyəti, Korlar Cəmiyyəti yaradıldı. Ölkəmiz öz müstəqilliyini bərpa etdikdən sonra bu sahənin inkişafına diqqət daha da artırıldı. Sağlamlıq imkanları məhdud uşaqların təhsili ilə bağlı Azərbaycanda hüquqi-normativ baza yaradıldı (Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili, Xüsusi təhsil Qanunu, İnkişaf proqramı və s.). Təhsil sahəsində aparılan islahatlar xüsusi təhsilin səmərəliliyinin artırılması, onun bütün sahələrinin yenidən qurulması, strukturlarının yaradılması, xüsusi təhsil sahəsində fəaliyyətlərin daha da inkişaf etdirilməsi, xüsusi təhsil müəssisələrinin idarə olunması, təlim-tərbiyə, korreksiya, re abilitasiya və adaptasiya yollarının, digər problemlərin araşdırılması müasir təhsil sistemində hərtərəfli, xüsusi biliklərə malik mütəxəssislərin hazırlanmasını zərurətə çevirirdi.

Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün məktəbəqədər təhsil müəssisələrində, məktəblərdə çalışmaq, əhaliyə yüksək səviyyədə defektoloji-korreksiya, pedaqoji-psixoloji yardım göstərmək üçün defektologiyanın müxtəlif sahələri üzrə ixtisaslı kadrların hazırlanması məqsədi ilə 1991-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetində (keçmiş V.İ.Lenin adına APİ) defektologiya (əla və loqopediya) ixti-

sası öyrənilməyə başlamışdır.1991-ci il, 14 iyun tarixində "Azərbaycan müəllimi" qəzetində qəbul şərtlərinə dair elan dərc edilmişdi.

Elanda deyilirdi: "Defektologiya (əlavə loqopediya) şöbəsinə daxil olmaq istəyən abituriyentlər ümumi hazırlıqla yanaşı, bəzi əlavə tələblərə də cavab verməlidirlər.

Hər şeydən əvvəl, gələcəkdə defektoloq-loqoped olmaq istəyən hər bir gənc gözəl nitq mədəniyyətinə malik olmalı, artikulyasiya baxımından səsləri son dərəcə təmiz və düzgün tələffüz etmək bacarığını nümayiş etdirməyə nail olmalıdır". İlk dəfə I kursa bu ixtisasa əyani təhsil formasında 15 tələbə (qrup108) qəbul olunmuşdu. İxtisas 1997-ci ildən etibarən pedaqogika və psixologiya (məktəbəqədər) fakültəsinin nəzdində tədris olunmağa başlan mışdı. 2014-cü ildən isə ixtisas "korreksiyaedici təlim" adlandırılmışdır.

Sonrakı illərdə kafedranın elmi potensialının inkişafı və bu ixtisasa olan tələbatı nəzərə alaraq, belə bir mürəkkəb, məsuliyyətli vəzifənin yerinə yetirilməsi üçün 9 oktyabr, 2015-ci il tarixdə, ADPU Elmi Şurasının qərarı ilə (protokol 2) yaradıldı və 3/305 nömrəli, 29 oktyabr, 2015-ci il tarixli əmrlə Korreksi yaedici təlim kafedrası fəaliyyətə başladı. Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorunun əmri ilə pedaqoji elmlər üzrə fəlsəfə doktoru, dosent Nailə Tofiq qızı Hüseynova 2015-ci il dekabr ayının 28-dən Korreksiyaedici təlim kafedrasının müdiri təyin edildi və hazırda kafedraya rəhbərlik edir. 2019-cu ildə ADPU-nun Elmi Şurasının 9 iyul, 2019-cu il tarixli qərarı ilə Korreksiyaedici təlim kafedrasının adı dəyişdirilərək Xüsusi təhsil adlandırılmağa başladı.

Hazırda Xüsusi təhsil kafedrası ali təhsilin bakalavriat səviyyəsində korreksiyaedici təlim, magistratura səviyyəsində korreksiyaedici təlimin metodikası və metodologiyası istiqamətləri üzrə kadr hazırlığı ilə məşğul olur. Kafedrada ali təhsilin hər 3 səviyyəsi – bakalavr, magistratura və doktorantura üzrə təhsil proqramları həyata keçirilir. 2019-cu ildə magistratura, 2020-ci ildə isə bakalavriat səviyyəsi üzrə tədris planları yenilənmiş, onlara aktual və müasir məzmunlu fənlər əlavə edilmişdir.

Kafedra əməkdaşlarının elmi fəaliyyəti 2 istiqamətdə həyata keçirilir:

1) xüsusi təhsilin təkmilləşdirilməsi;
2) xüsusi təhsil sahəsində aparılan islahatların dəstəklənməsi və həyata keçirilməsi.

2017–2021-ci illər ərzində kafedranın müəllimləri tərəfindən bir sıra elmi-tədqiqat işləri üzərində araşdırmalar aparılmışdır:
–ümumi istiqamət: korreksiyaedici təlimin təkmilləşdirilməsi;
–ümumi problem: korreksiyaedici təlimdə kurikulum islahatı;
–ümumi mövzu: korreksiyaedici təlimin müasir problemləri.

Tədqiq olunan mövzular: “Mürəkkəb qüsurlu məktəbəqədər yaşlı uşaqların erkən diaqnostikası və defektoloji xidmətinin təşkili”,“Məktəbəqədər yaşlı mürəkkəb qüsurlu uşaqlarla təlim-tərbiyə işinin təşkili”, “Mürəkkəb qüsurlu uşaqlar üçün psixokorreksiya texnologiyaları”, “Mürəkkəb qüsurlu uşaqların sosial reabilitasiyası və adaptasiyası”, “Mürəkkəb qüsurlu uşaqlarda nitq inkişafının ləngiməsinin erkən aşkarlanması və korreksiyası”, “İntellektual çatış mazlığı olan 2–3 yaşlı uşaqların psixo-pedaqoji diaqnostikası”, “İntellektual çatışmazlığı olan 6–7 yaşlı uşaqların nitq inkişafının diaqnostikası”, “Pozulmuş dizartriya”, “Dizartriyanın ağır formalarının müqayisəli xarakteristikası”, “Uşaq serebral iflici zamanı dizartriya və anartriya”, “Dizartriyanın diaqnostikası, korreksiyası və profilaktikası”, “Pozulmuş dizartriyanın dislaliya ilə müqayisəsi”, “Uşaq serebral iflicinin kliniki təzahürü, yaranma səbəbləri, kliniki formaları”, “Serebral iflicli uşaqların erkən diaqnostikası və psixoloji xüsusiyyətləri”, “Serebral iflicli uşaqlarda ali psixi funksiyaların pozulması”, “Serebral iflicli uşaqlarda intellektual funksiyaların və nitqin pozulması”, “Serebral iflicli uşaqların şəxsiyyətinin formalaşması və psixoloji diaqnostikası”, “Eşitmə qüsurlu uşaqların erkən diaqnostikası və psixoloji xüsusiyyətləri”, “Eşitmə qüsurlu uşaqlarda idrak proseslərinin pozulması”, “Eşitmə qüsurlu uşaqlarda nitq inkişafının pozulması və korrek siyası”, “Eşitmə qüsurlu uşaqların ümumi və psixi inkişafında ailənin rolu”, “Eşitmə qüsurlu uşaqların sosial adaptasiyası zamanı təlim-tərbiyənin rolu”, “Uşaqların davranışında yayınmalar (deviasiya) və onların yaranmasına səbəb olan motivlər”, “Deviant davranışın psixo-pedaqoji xarakteristikası”, “Uşaqların davranışında yaranan ya-

yınmaların pedaqoji korreksiyası”,“XQEU üçün təlim strategiyaları”, “Fərdi tədris planının məqsəd və vəzifələri”, “Təlimdə akkomodasiya və modifikasiya”, “İnteqrasiyalı məktəbdə SİMU-nın, təlim-tərbiyə, korreksiya işinin təşkili”, “İnteqrasiyalı məktəbin xüsusi qruplarında loqopedik işin aparılması”, “SİMU-nın əmək və fiziki tərbiyə işinin təşkili və onlara verilən tələblər”, “Eşitmə qüsurlu uşaqlar və onların inkişaf xüsusiyyətləri”, “Kar və zəif eşidən uşaqlarda texniki təfəkkürün formalaşdırılması”, “İnklüziv dəyərlər əsasında kollektiv əməkdaşlığın formalaşdırılması istiqamətində xüsusi qayğıya ehtiyacı olan kiçik yaşlı məktəblilərin sosial reabilitasiyasının təşkili metodları”,“Xüsusi qayğıya ehtiyacı olan kiçik yaşlı məktəblilərin sosial refleksiya bacarığının inkişaf etdirilməsi yolları”, “Xüsusi qayğıya ehtiyacı olan uşaqların inklüziyasını təmin etmək üçün effektiv təsirə əsaslanan xüsusi təhsil situasiyalarının yaradılması”, “Görmə qüsurlu uşaqlar və onların psixoloji-pedaqoji xüsusiyyətləri”, “Görmə qüsurlu uşaqlarda idrak proseslərinin inkişafı”, “Görmə qüsurlu uşaq ların təlim-tərbiyə prosesinin xüsusiyyətləri”, “Oliqofren uşaqların ali sinir fəaliyyətinin xüsusiyyətləri”, “Oliqofrenlərin kliniki xarakteristikası”, “Oliqofrenlərdə dərketmə proseslərinin psixoloji xüsusiyyətləri”, “İbtidai siniflərdə inklüziv təhsilin tətbiqi imkanları”, “Xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyasının pedaqoji məsələləri”.

Son illərdə kafedra əməkdaşları tərəfindən 3 monoqrafiya, 7 dərslik, 11 dərs vəsaiti, 12 metodik vəsait, 40 proqram hazırlanmış və nəşr edilmişdir. Elmi və metodik ədəbiyyatların hazırlanması sahəsində Nailə Hüseynovanın “İntellektual inkişafı ləngiyən uşaqların pedaqogikası” (2017),“Loqopediya” (2018), “Xüsusi psixologiya” (2018), Məlik Məlikovun “Xüsusi pedaqogikanın müasir problemləri”, dos.Tamilla Ağayevanın “Eşitmə qüsurlu uşaqların psixokorreksiyası” (2015), “Görmə funksiyasının pozulmaları və onların psixokorreskiyası” (2017), “Kar uşaqlarda tələffüz vərdişlərinin formalaşdırılması” (2018), N.T.Hüseynova və S.R.Aslanovanın “Xüsusi psixologiya” dərsliyi (2 cilddə), S.R.Aslanovanın “Eşitmə orqanlarının anatomiyası, fiziologiyası və patofiziologiyası” (2019) adlı dərs-

lik və dərs vəsaitləri xüsusi əhəmiyyət kəsb edir.

Hazırda Xüsusi təhsil kafedrasında 3 nəfər fəlsəfə doktoru, dosent (Nailə Hüseynova, Tamilla Ağayeva, Səbinə Aslanova), 1 nəfər fəlsəfə doktoru, baş müəllim (Məlik Məlikov), 1 nəfər fəlsəfə doktoru, müəllim (Südabə İsgəndərova), 8 nəfər müəllim (Səlbi Abasova, Turan Şahvələdli-Qədimova, Adilə Mürsəlova, Zeynəb Məmmədova, Günel Allahverdiyeva, Afət İsrafilova, Sülhanə Bəşirova, Şəfa Kazımova), 1 baş laborant (A.Ş.Məmmədova) və 1 laborant (Məlahət Abdullayeva) fəaliyyət göstərməkdədirlər.

Xüsusi təhsil kafedrası Azərbaycan Respublikasının Təhsil İnstitutu, Azərbaycan Dövlət Pedaqoji Kolleci (ADPK), Moskva Pedaqoji Dövlət Universiteti Dərbənd filialının Psixoloji-pedaqoji təhsil kafedrası, Bakı şəhəri üzrə xüsusi (3, 11, 268) və inklüziv tipli məktəblər (55, 138, 202, 220, 252), Heydər Əliyev fondunun nəzdində fəaliyyət göstərən YUNİSEF, Regional İctimai İnkişaf Birliyi (RİİB), "Birgə və sağlam" İctimai Birliyi, Bakı Autizm İctimai Birliyi ilə əməkdaşlıq edir.



*Xüsusi təhsil kafedrası*



## Nailə Hüseynova

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Xüsusi təhsil kafedrasının müdiri

Hüseynova Nailə Tofiq qızı 1972-ci il sentyabr ayının 19-da, Bakı şəhərində anadan olmuşdur. 1988-ci ildə Bakı şəhərindəki 88 nömrəli orta məktəbi bitirmiş, 1988–1993-cü illərdə V.İ.Lenin adına Moskva Dövlət Pedaqoji Universitetinin defektologiya fakültəsində təhsil almış, 1993-cü ildə həmin universiteti xüsusi müəssisələrdə defektoloq-loqoped ixtisası üzrə bitirmişdir.

1993-cü ildən 17 saylı nitqi qüsurlu körpələr evi-uşaq bağçasında loqoped vəzifəsində çalışmışdır. 1996-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrasında müəllim, baş müəllim vəzifələrində işləmişdir. 2015-ci ildən yeni yaradılmış Korreksiyaedici təlim (hazırda Xüsusi təhsil) kafedrasının müdiri vəzifəsində çalışmaqdadır.

2003-cü ildə "Причины возникновения общего недоразвития речи у детей дошкольного возраста и пути их устранения" (Məktəbəqədər yaşlı uşaqlarda nitqin ümumi inkişafının ləngiməsini yaradan səbəblər və onların aradan qaldırılması yolları) möv-

zusunda dissertasiya müdafiə edərək, pedaqogika elmləri namizədi elmi dərəcəsini almışdır.

2017-ci ildən Korreksiyaedici təlim kafedrasının "Korreksiya pedaqogikası" şifri ilə elmlər doktoru proqramı üzrə dissertantdır. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 28 mart 2018-ci il tarixli (protokol № 09-K) qərarı ilə N.T.Hüseynovaya Korreksiyaedici təlim kafedrası üzrə dosent elmi adı verilmişdir.

Dos. N.T.Hüseynova ADPU-nun əməkdaşlıq etdiyi beynəlxalq layihələrdə fəal iştirak etmişdir. Bu layihələrdən 2018–2019-cu illərdə "Azərbaycan Milli Kvalifikasiya Çərçivəsinin icrasına dəstək" layihəsi çərçivəsində Bakı şəhərində həyata keçirilən, yeni tərtib olunmuş kvalifikasiya standartları əsasında mövcud tədris proqramlarının müasirləşdirilməsi üzrə işçi qrupunun üzvü kimi sertifikatlarla təltif olunmuş, korreksiyaedici pedaqoq ixtisası üzrə 4 modul hazırlayaraq, dərs vəsaitlərini çap etdirmişdir.

Dos. N.T.Hüseynova 21–25 aprel, 2019-ci il tarixlərində H.Əliyev Fondu RİİB-in və Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkil etdiyi inklüziv təhsil sahəsində müəllim hazırlığı ilə bağlı Belarus Respublikasının təcrübəsinin öyrənilməsi məqsədilə Minsk şəhərinə və 19–25 yanvar 2019-cu il tarixlərində inklüziv təhsil sahəsində Beynəlxalq təcrübənin öyrənilməsi məqsədi ilə Portuqaliyaya ezam olunmuşdur.

Dos. N.T.Hüseynova 2 dərslik, 9 dərs vəsaiti, 1 metodik vəsait, 19 proqram, 53-dən yuxarı elmi məqalə və tezislərin müəllifidir.

Əsas elmi əsərləri:

1.Xüsusi pedaqogika. Bakı, ADPU, 2008.
2.Loqopedik atlas. Bakı, ADPU, 2014.
3.İnklüziv təhsil. Bakı, ADPU, 2014.
4.Korreksiyaedici təlim (050119). (metodik göstərişlər). "Məktəbəqədər təlim və tərbiyə (050120)", "Təhsildə sosial-psixoloji xidmət (050121)", "Korreksiyaedici təlim (050119)" ixtisasları üzrə pedaqoji təcrübəyə dair. Bakı, ADPU, 2016

5. İntellektual inkişafı ləngiyən uşaqların pedaqogikası. (dərs vəsaiti). Bakı, ADPU, 2017.
6. Loqopediya. (dərslik). ADPU, Bakı, 2018.
7. Xüsusi pedaqogikanın müasir problemləri. (dərs vəsaiti). ADPU, Bakı, 2018.
8. Xüsusi psixologiya. (dərslik). ADPU, Bakı, 2018.
9. Humanist pedaqogikanın aktual məsələləri. (metodik vəsait). ADPU, Bakı, 2018.



## Tamilla Ağayeva

Filologiya üzrə fəlsəfə doktoru, dosent

Ağayeva Tamilla Hüseyn qızı 1954-cü ildə Bakı şəhərində, ziyalı ailəsində anadan olmuş,1961–1971-ci illərdə Bakı şəhəri, Yasamal rayonu, 199 nömrəli məktəbdə orta təhsil almışdır.

1971–1975-ci illərdə ADPU-nun (keçmiş V.İ.Lenin adına APİ) filologiya fakültəsini Azərbaycan dili və ədəbiyyatı müəllimi ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir.

1975–1976-cı illərdə təyinatla Quba rayonu, Vəlvələ kənd səkkizillik məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi vəzifəsində işləmişdir.1978–1994-cü illərdə kar uşaqlar üçün 1 və 3 nömrəli internat məktəblərində Azərbaycan dili və ədəbiyyatı müəllimi, məktəb psixoloqu və tədris işləri üzrə direktor müavini vəzifələrində çalışmışdır.

1982-ci ildə ADPU-nun müasir Azərbaycan dili ixtisası üzrə aspirantı olmuş, 1987-ci ildə "Müasir Azərbaycan dilində qrammatik formaların leksikləşməsi" adlı dissetrasiya mövzusunu müdafiə edərək, filologiya elmlər namizədi elmi dərəcəsini almışdır.

1994-cü ildən indiyə qədər ADPU-da müəllim vəzifəsində işləyir. 2003-cü ildən Korreksiyaedici təlim, (Xüsusi təhsil) kafedrasının dosentidir.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Ağayeva Tamilla Hüseyn qızı çoxsaylı elmi məqalələrin, 10 fənn proqramının, 5 dərslik, 5 metodik vəsaitin müəllifidir:

1. S.Qasımov, E.Kərimova, T.Ağayeva. İnklüziv təhsil. (müəllim, tərbiyəçi, tibb işçiləri və psixoloqlar üçün). Bakı, "Oka Ofset", 2006.
2. S.Qasımov, E.Kərimova, T.Ağayeva. İnklüziv təhsil sistemində ailə-məktəb, valideyn-müəllim münasibətləri. (müəllim, tərbiyəçi, tibb işçiləri və psixoloqlar üçün). Bakı, "Ərgünəş", 2006.
3. Eşitmə qüsurlu uşaqların psixokorreksiyası (dərslik). Bakı, 2015.
4. Görmə funksiyasının pozulmaları və onların psixokorreksiyası. (dərslik). Bakı, 2017.
5. N.T.Hüseynova, T.H.Ağayeva. Loqopediya. (dərslik). ADPU, Bakı, 2018.
6. Kar uşaqlarda tələffüz vərdişlərinin formalaşdırılması. (metodik vəsait). ADPU, Bakı, 2018.



## Səbinə Aslanova

### Pedogokika üzrə fəlsəfə doktoru, dosent

Aslanova Səbinə Ramiz qızı 1975-ci il yanvar ayının 13-də, Gəncə şəhərində anadan olmuşdur. 1982-ci ildə Gəncə şəhərində 4 nömrəli orta məktəbə qəbul olunaraq, 1992-ci ildə məktəbi bitirmişdir. 1992–1997-ci illərdə Moskva Dövlət Pedaqoji Universitetinin defektologiya fakültəsində təhsil almışdır. Elə həmin ildə MDPU aspiranturasının əyani şöbəsinə qəbul olunmuş, 2000-ci ildə "Показатели неплавности речи у детей дошкольного возраста как фактор заикания" mövzusunda dissertasiya işini müdafiə etmiş və 2001-ci ildə ona pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilmişdir.

1994–2001-ci illərdə Moskva Dövlət Pedaqoji Universitetinin Loqopediya kafedrasında laborant, baş laborant, assistent, müəllim vəzifələrində işləmişdir. Eyni zamnada, bu illərdə abituriyentlərin ixtisasa yararlılıq göstəriciləri üzrə tələbə qəbulu komissiyasının üzvü olmuşdur.

2003-cü ildən etibarən Azərbaycan Dövlət Pedaqoji Universite-

tinin Ümumi psixologiya kafedrasında müəllim, daha sonra baş müəllim, 2015–2020-ci illərdə Korreksiyaedici təlim kafedrasında baş müəllim, hal-hazırda isə Xüsusi təhsil kafedrasında dosent vəzifəsində çalışır.

2015-ci ildən etibarən Beynəlxalq Elmlər Akademiyasının pedaqoji təhsil üzrə müxbir üzvüdür.

S.R.Aslanova işlədiyi müddətdə özünü işgüzar, intizamlı, təvazökar və müəllimlik sənətinə ciddi yanaşan bir mütəxəssis kimi göstərmiş, professor-müəllim heyətinin və tələbələrin hörmətini qazanmışdır. İntellekt səviyyəsinin və mənəvi keyfiyyətlərinin daha da yüksəldilməsi üçün daim öz üzərində çalışır, universitetin, o cümlədən, məktəbəqədər təhsil fakültəsinin ictimai işlərində yaxından iştirak edir.

Müəllim son beş il ərzində dizartriya və uşaq serebral iflici zamanı nitq pozulmaları istiqamətində elmi-tədqiqat araşdırmaları aparmışdır.

S.R.Aslanova hər il həm respublika, həm də beynəlxalq miqyaslı konfranslarda fəal iştirak edir və çoxsaylı sertifikatlara sahibdir. İxtisas üzrə magistrant hazırlığı dövründə S.R.Aslanovanın rəhbərliyi altında 22 magistrant yetişdirilmiş, bakalavr səviyyəsi üzrə iki diplom işi işlənilmişdir. Müəllifin elmi-pedaqoji fəaliyyəti dövründə 2 monoqrafiyası, 2 dərsliyi, 8 fənn proqramı, 26 elmi məqa ləsi nəşr olunmuşdur.

Əsas elmi əsərləri:

1. Проблемы неплавности речи у детей дошкольного возраста. (монография). Москва, Изд-во «Прометей», 2007.
2. Заикание. Проблемы теории и практика. Оформление ООО «Национальный книжний центр». (монография). Москва, 2016.
3. Xüsusi psixologiya. (dərslik). Bakı, 2018, I və II cild.
4. Eşitmə və nitq orqanlarının anatomiyası, fiziologiyası və patofiziologiyası. (dərslik). 2018.



## Məlik Məlikov

Pedogokika üzrə fəlsəfə doktoru, baş müəllim

Məlikov Məlik Şıxbala oğlu 1960-cı il,6 noyabrda Azərbaycan Respublikası, Xaçmaz rayonu, Aşağı Zeyid kəndində anadan olmuşdur.

1967-ci ildə Aşağı Zeyid kənd orta məktəbinin I sinfinə qəbul olunmuş, 1977-cü ildə oranı bitirmişdir.

1977–1979-cü illərdə Xaçmaz rayonu, 26 Bakı komissarları adına sovxozda fəhlə işləmişdir. 1981-ci ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunun (indiki Bakı Slavyan Universiteti) rus dili və ədəbiyyatı ixtisasına qəbul olunmuşdur. 1986-cı ildə həmin institutu fərqlənmə diplomu ilə bitirərək, Xaçmaz rayonu, Alıcqışlaq kənd orta məktəbində müəllim işləməyə başlamışdır.

1991-ci ildə pedaqogika nəzəriyyəsi və tarixi ixtisası üzrə Azərbaycan ETPEİ-nin aspiranturasına qəbul olunmuş, 1994-cü ildə oranı bitirərək, ETPE-İ-də kiçik elmi işçi vəzifəsində işləməyə başlamışdır.

1999-cu ildə “Kiçik yaşlı məktəblilərin özünütərbiyəsi üzrə işin

sistemi" adlı namizədlik dissertasiyasını müdafiə etmiş, pedaqoji elmlər namizədi elmi dərəcəsini almışdır.

2000–2010-cu illərdə BSU-nun İbtidai təhsil kafedrasında dosent vəzifəsində çalışmışdır. 2011–2012-ci illərdə Azərbaycan Turizm Universitetində, 2012– 2018-ci illərdə BDU-nun Pedaqogika kafedrasında müəllim vəzifəsində işləmişdir.

2017-ci ildən bu günədək Azərbaycan Dövlət Pedaqoji Universitetinin Korreksiyaedici təlim (sonralar Xüsusi təhsil) kafedralarında müəllim vəzifəsində çalışır. M.Ş. Məlikovun elmi-pedaqoji fəaliyyəti dövründə 11 elmi məqaləsi, 8 fənn proqramı və 5 dərs vəsaiti çap olunmuşdur.

Əsas elmi əsərləri:

1. Korreksiya pedaqogikasının aktual problemləri. (dərs vəsaiti). ADPU,2017.
2. Pedaqogika. (dərs vəsaiti). BSU, 2018.
3. Pedaqogika tarixi. (dərs vəsaiti). BDU, 2018.
4. Pedaqogika tarixi. (dərs vəsaiti). BDU, 2019, II nəşr.
5. XQEU uşaqlarla effektiv ünsiyyət strategiyaları. (dərs vəsaiti). BSU, 2021.



## Südabə İsgəndərova

### Pedogokika üzrə fəlsəfə doktoru, müəllim

İsgəndərova Südabə Nəsrəddin qızı 1973-cü il noyabrın 22-də, Sumqayıt şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1980-ci ildə Sumqayıt şəhərində orta təhsilə başlamış, 1990-cı ildə Qazax şəhər orta məktəbini bitirmişdir. Elə həmin il H. Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutuna daxil olmuş, 1995-ci ildə biologiya, əlavə kimya müəllimi ixtisasına yiyələnərək, ali məktəbi bitirmişdir. 1995–2009-cu illərdə müxtəlif təhsil müəssisələrində çalışmışdır.

S.N.İsgəndərovanın psixologiya elminə olan marağı onun 2008–2009-cu illərdə Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda psixologiya ixtisası üzrə təhsil almasına səbəb olmuşdur. 2009–2011-ci illərdə yenidən hazırlanma fakültəsində nəzarətçi vəzifəsində calışmışdır. Psixologiya elminə olan marağı onu bir sıra layihələrdə və təlimlərdə iştirak edərək, bu elmi daha dərindən öyrənməyə sövq etmişdir.

2010–2011-ci illərdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Avstriyanın “Hilfsverk Avstriya” Beynəlxalq Təşkilatı arasında müqaviləyə əsasən, “Yerli hakimiyyət orqanları ilə qeyri-hökumət

təşkilatları arasında himayədar (foster) qayğı və ailə əsaslı xidmətlər üzrə əməkdaşlıq modelinin işlənib hazırlanması" layihəsi çərçivəsində BPKİYİ-də sosial iş ixtisası üzrə assistent-müəllim kimi çıxış etmişdir. Sağlamlıq imkanları məhdud uşaqların təlim-tərbiyə prosesinə olan marağı isə onu 2011–2014-cü illərdə Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunda korreksiya pedaqogikası ixtisası üzrə əyani doktoranturaya gətirdi. Elmi rəhbəri respublikamızın tanınmış elm xadimi, professor Yəhya Şəfi oğlu Kərimov olmuşdur. O, S.N.İsgəndərovanın sosial iş sahəsində biliklərini, təcrübəsini nəzərə alaraq, "Xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial reabilitasiyası" mövzusunda tədqiqat aparmasını və bu mövzuda dissertasiya yazmasını məsləhət bilmişdir.

S.N.İsgəndərova pedaqoji prosesi, sağlamlıq imkanları məhdud olan uşaqların bu prosesdə iştirakı, onların inkişafının izlənilməsini dərindən öyrənmək üçün 2013-cü ildə "Ümumi orta təhsil səviyyəsi üzrə yeni fənn kurikulumlarının tətbiqi və fəal interaktiv təlim", elə həmin il "Düşünərək öyrətmə" layihəsi çərçivəsində "Təcrübi tədqiqatlar", "Refleksiv tədris", "Təhsildə akademik araş dırmalar" təlimləri (MTTYM, ADPU, AMİ, ACİYF) və məktəbəqədər təhsil kurikulumu üzrə "Öyrədənlərin öyrədəni Proqramı – YUNİSEF, 2013" təlimlərində iştirak etmişdir. 2014-cü ildə "İnklüziv standartlar" (Açıq Cəmiyyət Fondu və Erkən Uşaqlıq Proqramı, 5–9 aprel, İstanbul) adlı beynəlxalq təlimdə, həmçinin, ARTİ-də "Elektron məktəb üçün elektron müəllim", 2015-ci ildə "Özel egitim və rehabilitasyon" (T.C., Milli Egitim Bakanlığı); "Özel egitim və rehabilitasyon" (Uluslararası Özel egitim, rehabilitasyon və aile terapileri dernegi) adlı yerli və xarici təlimlərdə, layihələrdə iştirak edərək, sertifikatlarla təltif olunmuşdur. Həmçinin, müəllimlik fəaliyyətini davam etdirərək, 2011–2016-cı illərdə BPKİYİ-də yenidənhazırlanma və ixtisasdəyişmə fakültələrində, ADPU-da yenidən hazırlanma və məktəbəqədər təlim, psixoloji xidmət, korreksiyaedici təlim fakültələrində mühazirəçi müəllim kimi çalışmışdır. Nəzəri fəaliyyətlə yanaşı, praktik fəaliyyətə də üstünlük verən S.N.İsgəndərova 2016–2018-ci illərdə akademik

Z.Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin konsultasiya-poliklinika şöbəsində psixoloq kimi fəaliyyət göstərmişdir. 2018-ci ildən isə öz fəaliyyətini Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xüsusi təhsil (əvvəlki adı Korreksiyaedici təlim) kafedrasında müəllim kimi davam etdirmişdir. Bu sahədə biliklərini artırmaq üçün 2019-ci ildə şəxsi təşəbbüsü ilə "WECHSLER – COCUKLAR IÇIN ZEKA ÖLÇEGİ" (Uluslararası Özel egitim, rehabilitasyon və aile terapileri dernegi) – uygulayıcı eğitim təlimində, bundan başqa, universitetin nəzdində "İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları" təlimində (ARTN, UNİCEF, Avropa İttifaqı, ADPU və RİİB) iştirak etmişdir. 2019-cu ilin aprel ayında Gəncə Regional Ofisi – Gənclər üçün Təhsil Mərkəzi tərəfindən təşkil olunmuş "Autizm spektr pozulması olan uşaqların cəmiyyətə inteqrasiyası" mövzusunda seminara verdiyi dəstəyə görə"Təşəkkürnamə" ilə təltif olunmuşdur.

Elmi məqalələrin xarici mətbuat orqanlarında çap olunmasını təmin etmək məqsədi ilə universitetin göstərişinə əsasən, 2020-ci ildə Təhsil Nazirliyinin təşkilatçılığı ilə "Elsevier" şirkəti tərəfindən keçirilən "Science Direct"ə giriş və "Sco-pus"təlimləri, həmçinin, onlayn dərslərin keyfiyyətini yüksəltmək məqsədi ilə "Moodle LMS" üzrə təlimlərdə iştirak etmiş və sertifikat almışdır.

2020-ci ildə korreksiya pedaqogikası ixtisasında pedaqogika elm sahəsi üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

S.N.İsgəndərova tələbələrin öyrənməsi üçün heç zaman biliklərini əsirgəmir. Onun elmi-pedaqoji tədqiqatlarının əsas istiqamətləri bunlardır:

– sağlamlıq imkanları məhdud olan uşaqların sosial reabilitasiyası;
–şagird kollektivinin inklüziv dəyərlər əsasında formalaşdırılması;
– xüsusi qayğıya ehtiyacı olan uşaqlarda sosial refleksiya bacarıqlarının inkişaf etdirilməsi;
– qarşılıqlı refleksiv təsirə əsaslanan xüsusi təhsil situasiyalarının yaradılması və s.

S.N.İsgəndərovanın elmi-pedaqoji fəaliyyəti ərzində 31 elmi məqalə və tezisi, 3 fənn proqramı çap olunmuşdur.



## Səlbi Abasova

### Müəllim

Abasova Səlbi Ağamehdi qızı 21 sentyabr 1976-cı ildə, Bakı şəhərində anadan olmuşdur. 1983-cü ildə Bakı şəhərində 18 nömrəli orta məktəbin I sinfinə qəbul olunmuş, 1993-cü ildə oranı bitirmişdir.

1993-cü ildə Bakı Dövlət Universitetinə, axşam təhsili formasında biologiya ixtisasına qəbul olunmuşdur. 1998-ci ildə BDU-nu bioloq ixtisası üzrə bitirmişdir. 1994–2005-ci illər ərzində Azərbaycan Respublikası Rabitə Nazirliyi nəzdində Yasamal TQ-da mühasib vəzifəsində çalışmışdır.

2001-ci ildə Rabitə və Nəqliyyat kollecinin mühasibat uçotu və auditor ixtisasına qiyabi qəbul olunaraq, 2003-cü ildə kolleci mühasib-auditor ixtisası üzrə bitirmişdir.

2013–2015-ci illərdə ADPU-da təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə magistratura səviyyəsində təhsil almışdır. Bu illər ərzində magistrant olaraq respublika üzrə konfranslarda "İlk gənclik dövründə peşə yönümü və peşə seçimi", "İlk gənclik yaş dövründə

əxlaqi şüurun inkişafı", "Böyük yaşlı məktəblilər üçün psixoloji xidmətin təşkili", "Dünya ilə həmahənglik", "Gənclik– ömrün bahar mövsümüdür", "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin gücləndirilməsi vacibdir", "Gənclik və sosiallaşma" adlı tezis və məqalələrlə iştirak etmişdir. 2015-ci ildən bu günədək Azərbaycan Dövlət Pedaqoji Universitetinin Korreksiyaedici təlim (indiki Xüsusi təhsil kafedrası) müəllim vəzifəsində çalışır. Pedaqoji fəaliyyətlə məşğul olduğu illərdə "Uşaq serebral iflicinin kliniki təzahürü", "Serebral iflicli uşaqların psixoloji xüsusiyyətləri", "Serebral iflicli uşaqlarda ali psixi funksiyaların pozulması", "Serebral iflicli uşaqlarda intellektual funksiya ların, nitqin pozulması", "Uşaq serebral iflici zamanı şəxsiyyətin formalaşması və serebral iflicli uşaqların psixoloji diaqnostikası" adlı elmi-tədqiqat işlərini araşdırmışdır.

2017–2020-ci illər ərzində fəaliyyət göstərdiyi kafedranın fəlsəfə doktoru proqramı üzrə dissertantı olmuşdur.Tədqiqatçı-müəllim "Məktəbəqədər yaşlı Daun sindromlu uşaqların nitq inkişafının diaqnostikası və korreksiyası" adlı dissertasiyanın müəllifidir.

Səlbi Ağamehdi qızı Abasovanın elmi-pedaqoji fəaliyyəti ərzində 33 elmi məqaləsi və 4 fənn proqramı nəşr olunmuşdur.



## Adilə Mürsələva

### Müəllim

Mürsəlova Adilə Ağaməmməd qızı 1974-cü ildə Bakıda, ziyalı ailəsində anadan olmuşdur. 1981–1991-ci illərdə Bakı şəhəri, Xətai rayonundakı 116 nömrəli orta məktəbdə təhsil almışdır. 1991–1996-cı illərdə ADPU-nun (keçmiş V.İ.Lenin adına APİ) defektologiya fakültəsində ali təhsil almışdır. 1996-cı ildən Bakı şəhəri, Xətai rayonunun 55 nömrəli tam orta məktəbin də loqoped vəzifəsində işləmişdir.2013–2018-ci illərdə ADPU-da saathesabı qaydada dərs demişdir. 2018-ci ildən etibarən Korreksiyaedici təlim kafedrasında ştatda olan müəllim kimi fəaliyyət göstərir. İxtisası ilə bağlı bir çox elmi konfranslarda iştirak edərək, sertifikat və diplomlarla təltif olunmuşdur.

Müəllimin 6 elmi məqaləsi, 1 fənn proqramı nəşr olunmuşdur.

1.AR Təhsil Nazirliyi, Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidən hazırlanma İnstitutu –“İnklüziv təhsil”, 2013, (təlim-sertifikat).

2.“Eşitmə və nitq ünsiyyəti olmayan SİMU üçün surdoloji xidmət mərkəzinin yaradılması və fəaliyyəti layihəsi”, “Jest dili”. AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında dövlət sosioloji təminat xidməti, SHAB–2014.



## Zeynəb Məmmədova

Müəllim

Məmmədova Zeynəb Camal qızı 1968-ci il iyulun 9-da, Beyləqan rayonunun Dünyamalılar kəndində anadan olmuşdur.

1976-cı ildə Dünyamalılar kənd orta məktəbinin I sinfinə qəbul olunaraq, 1986-cı ildə orta məktəbi bitirmişdir. 1994-cü ildə Bakı Dövlət Universitetinin fizika müəllimi ixtisası üzrə tam ali təhsil kursunu bitirmişdir.

1998-ci ildə PKİAHİ-nin praktik psixoloq ixtisası üzrə tam yenidənhazırlanma kursunu bitirmişdir. 1995-ci ildə Beyləqan Ali Kollecində müəllim vəzifəsində çalışmışdır. 1996–1998-ci illərdə AAEİ-nin Beyləqan filialında müəllim vəzifəsində çalışmışdır.1998-ci ildə Beyləqan rayon Təhsil Şöbəsində metodist, 2000-ci ildə Beyləqan rayon Təhsil Şöbəsində kadrlar üzrə inspektor vəzifəsində çalışmışdır.

2003-cü ildə Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunda Monitorinq və qiymətləndirmə şöbəsində kiçik elmi işçi, 2005-ci ildə həmin institutun Kurikulum Mərkəzində elmi işçi vəzifəsində çalışmışdır. 2014-cü ildə AR Təhsil Problemləri İns-

titutunun Kurikulum Mərkəzinə böyük elmi işçi vəzifəsinə təyin edilmişdir. 2017-ci ildə Azərbaycan Respubliksı Təhsil İnstitutunun Ümumi və məktəbdənkənar təhsilin kurikulumu şöbəsində baş mütəxəssis vəzifəsində çalışmışdır. 2005–2016-cı illərdə fizika fənn kurikulumunun məzmun standartlarının hazırlanması üzrə işçi qrupunun koordinatoru olmuşdur. Azərbaycan Respublikası təhsil nazirinin 26.12.2016-cı il tarixli, 850 nömrəli əmri ilə fizika fənni üzrə işçi qrupunun üzvüdür. 2012/2013, 2013/2014, 2014/2015-ci tədris illərində keçirilmiş "Ən yaxşı müəllim" müsabiqəsində ekspert komissiyasının üzvü olmuşdr. 2011–2017-ci illərdə AR Təhsil Nazirliyi ilə YUNİSEF-in Azərbaycandakı nümayəndəliyi ilə birlikdə təlimçilərin hazırlanması üzrə təşkil etdiyi təlim kurslarında təlimçi olmuşdur. 2013–2017-ci illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən yaradılan ümumtəhsil məktəb dərsliklərinin təhlili və ekspertizası ilə əlaqədar kurikulum üzrə ekspert qrupunun üzvü olmuşdur.

2016-cı ildə AR Prezidenti yanında "Elm Fondu" tərəfindən təşkil edilmiş elmi məqalələr müsabiqəsində məqalələrin qiymətləndirilməsi üzrə ekspert kimi fəaliyyət göstərmişdir.

2014/2015-ci tədris ilində ADPU-nun Yaş və pedaqoji psixologiya kafedrasında müəllim kimi (saathesabı) fəaliyyət göstərmişdir. 2016-cı ilin sentyabr ayından Korreksiyaedici təlim kafedrasında müəllim kimi (saathesabı) fəaliyyətini davam etdirmişdir. 2018-ci ildən bu günə qədər Azərbaycan Dövlət Pedaqoji Universitetinin Korreksiyaedici təlim (indiki Xüsusi təhsil) kafedrasında müəllim vəzifəsində çalışır. 2018-ci ildən həmin kafedranın fəlsəfə doktoru proqramı üzrə dissertantı olmuşdur.

Müəllimin elmi-pedaqoji fəaliyyəti dövründə 11 elmi məqaləsi və 7 metodik tövsiyəsi çap olunmuşdur.

Əsas elmi əsərləri:

1. Fizika fənni üzrə nümunəvi məktəb kurikulumu (metodik tövsiyə). ARTPİ. Məktəb kurikulumları. Bakı, 2015.
2. Təhsildə tələbyönümlülük və təklifyönümlülük. ARTPİ. Stan-

dartlar və kurikulumlar: nəzəri və praktik məsələlər. Bakı, 2016.
3. Kurikulum anlayışı. ARTPİ. Standartlar və kurikulumlar: nəzəri və praktik məsələlər. Bakı, 2016.
4. Milli kurikulumların xüsusiyyətləri. ARTPİ. Standartlar və kurikulumlar: nəzəri və praktik məsələlər. Bakı, 2016.
5. Fizikadan praktik məzmunlu tapşırıqlar vasitəsilə şagirdlərin həyati bacarıq larının inkişaf etdirilməsi. ARTİ. Ümumtəhsil fənlərinin tədrisinə dair tədqiqlər. Bakı, 2017.
6. Məntiq və kurikulum (nəzəri məlumat və qarışıq test nümunələri) I hissə. (monoqrafiya). "Ərgünəş–FM". Bakı, 2018.
7. Fizikadan məzmun standartlarını reallaşdırarkən fənn kurikulumlarının tətbiqi məsələləri. (müəllimlər üçün metodik tövsiyə). Bakı, 2018.





## Şahvələdli-Qədimova Turan

### Müəllim

Şahvələdli-Qədimova Turan Əlbəndə qızı 1991-ci il mart ayının 31-də, Bakı şəhərində anadan olmuşdur. 1996-cı ildə Xırdalan şəhər 1 nömrəli orta məktəbinin birinci sinfinə qəbul olunmuş, 2007-ci ildə Xanlıq kənd 3 saylı orta məktəbini bitirmişdir. 2008-ci ildə Bakı Dövlət Universitetinin kimya fakültəsinə qəbul olunmuşdur. 2012-ci ildə universiteti kimya ixtisası üzrə bitirmişdir.

T.Ə.Şahvələdli-Qədimova 2013-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə magistratura səviyyəsi nə qəbul olunmuşdur. 2015-ci ildə magistr təhsilini “Kar uşaqların sosial adaptasiyası və inteqrasiyasının psixoloji əsasları” adlı dissertasiya mövzusu əsasında müdafiə etmiş, təhsilini fərqlənmə diplomu ilə bitirmişdir. Bu illər ərzində magistrant olaraq respublika əhəmiyyətli konfranslarda “Məktəbəqədər yaşlı kar uşaqların sosial adaptasiyası və reabilitasiyasının təşkilində sosial-psixoloji xidmətin rolu”, “Məktəbəqədər yaşlı kar uşaqlarda sosial adaptasiya zamanı meydana çıxan problemlər”,

"Uşaqlarda eşitmə qüsurunun aşkar edilməsi metodları və eşitmə qüsurunun yaranma səbəbləri", "Eşitmə qüsurlu uşaqların erkən diaqnostikasında audiometr üsulundan istifadə", "Eşitmə qüsurlu uşaqların sosializasiyasında təlimin rolu", "Yeni doğulmuşlarda və uşaqlarda eşitmə patologiyasının etiologiyası, epidemiologiyası və patogenezi", "Eşitmə qüsurlu uşaqların reabilitasiyası üzrə konsepsiyalar", "Eşitmə aparatı və onun növləri" adlı tezis və məqalələrlə iştirak etmişdir.

2014–2016-cı illər ərzində "Psixoqamma" psixoloji xidmət mərkəzində praktik psixoloq kimi çalışmışdır. Bu müddət ərzində bir sıra yerli və beynəlxalq konfranslarda iştirak etmişdir.

T.Ə.Şahvələdli-Qədimova 2016-cı ildən bu günədək Azərbaycan Dövlət Pedaqoji Universitetinin Korreksiyaedici təlim (indiki Xüsusi təhsil) kafedrasında müəllim vəzifəsində çalışır. Pedaqoji fəaliyyətlə məşğul olduğu illərdə "Eşitmə qüsurlu uşaqların erkən diaqnostikası və psixoloji xüsusiyyətləri", "Eşitmə qüsurlu uşaqlarda idrak proseslərinin pozulması", "Eşitmə qüsurlu uşaqlarda nitq inkişafının pozulması və korreksiyası", "Eşitmə qüsurlu uşaqların ümumi və psixi inkişafında ailənin rolu" adlı elmi-tədqiqat işlərini araşdırmışdır.

2018-ci ildən etibarən əməkdaşı olduğu kafedranın "Korreksiya pedaqogikası" şifri ilə fəlsəfə doktoru proqramı üzrə dissertantıdır. T.Ə.Şahvələdli-Qədimova fakültə elmi şurasının üzvü, həmçinin, fakültə üzrə Tələbə Elmi Cəmiyyətinin (TEC) sədridir.
Müəllimin elmi pedaqoji fəaliyyəti dövründə 18 elmi məqaləsi və 1 fənn proqramı nəşr olunmuşdur.



## Sülhanə Bəşirova

Müəllim

Bəşirova Sülhanə Siyaxbər qızı 1990-cı il noyabr ayının 3-də, Oğuz rayonunun Xalxal kəndində anadan olmuşdur.

1997-ci ildə Oğuz rayonu, Yaşar Şəfiyev adına Xalxal kənd orta məktəbinin I sinfinə qəbul olunaraq, 2008-ci ildə həmin məktəbi bitirmişdir. 2009-cu ildə Azərbaycan Müəllimlər İnstitutu, Quba filialının ibtidai təhsilin pedaqogikası və metodikası ixtisasına qəbul olunmuş, 2013-cü ildə bu ixtisas üzrə bakalavr səviyyəsini bitirmişdir.

2013–2014-cü illərdə Oğuz rayon Uşaq Yaradıcılıq Mərkəzində dərnək rəhbəri vəzifəsində işləmişdir.

2014–2016-cı illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində korreksiyaedici təlimin metodikası və metodologiyası ixtisası üzrə magistratura səviyyəsində təhsil almışdır. Həmçinin, 2014-cü ildə MİQ imtahanında yüksək nəticə göstərərək, Bakı şəhəri, Sabunçu rayonunun 305 nömrəli tam orta məktəbində ibtidai sinif müəllimliyi vəzifəsi üzrə vakant yeri tutmuş və 2014–2018-ci tədris illərin-

də həmin məktəbdə vəzifəsində çalışmışdır.
2016–2017-ci tədris ilində ADPU-nun Korreksiyaedici təlim (indiki Xüsusi təhsil) kafedrasında saathesabı qaydada müəllim işləmişdir. 2018-ci ildə isə həmin kafedranın tam ştatlı müəllimi olaraq işə qəbul edilmişdir. Hazırda ADPU-nun Xüsusi təhsil kafedrasında müəllim vəzifəsində çalışır. Pedaqoji fəaliyyəti dövründə "Eşitmə qüsurlu uşaqlar və onlarin inkişaf xüsusiyyətləri", "Kar və zəif eşidən uşaqlarda texniki təfəkkürün formalaşdırılması", "Kar və zəif eşidən uşaqlarda texniki təfəkkürün formalaşdırılması vəziyyətinin öyrənilməsi" adlı elmi-tədqiqat işlərini araşdırmışdır. S.S.Bəşirovanın elmi-pedaqoji fəaliyyəti dövründə 11 elmi məqalə və tezisi çap olunmuşdur.



## Günel Allahverdiyeva

Müəllim

Allahverdiyeva Günel Ədalət qızı 1990-cı il avqust ayının 21-də, Sumqayıt şəhərində anadan olmuşdur. 1997-ci ildə Sumqayıt şəhər 6 nömrəli məktəbin birinci sinfinə qəbul olunmuş və 2008-ci ildə məktəbi bitirmişdir.

2008–2012-ci illərdə Azərbaycan Müəllimlər İnstitutunda pedaqogika və psixologiya ixtisası üzrə bakalavr təhsili almışdır. 2012-ci ilin noyabr ayından 2013-cü ilin sentyabr ayına qədər Sumqayıt şəhər 1 nömrəli peşə liseyində praktik psixoloq işləmişdir. 2013–2015-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistratura pilləsində ümumi psixologiya ixtisası üzrə təhsil almışdır. Bu illər ərzində respublika üzrə konfranslarda "Qloballaşma şəraitində tolerantlıq və onun təzahür xüsusiyyətləri", "Etnoslararası ünsiyyət mədəniyyəti və onun təzahür xüsusiyyətləri", "Dini identiklik və dini tolerantlıq", "Şəxsiyyətin etnik tolerantlığının tədqiqi", "Azərbaycanda tolerantlığın psixoloji təhlili" adlı tezis və məqalələrlə magistrant kimi iştirak etmişdir. 2015–2016-

cı illərdə Bakı Dövlət Universitetinin Psixologiya kafedrasında müəllim işləmişdir. 2017-ci ildən bu günə qədər Azərbaycan Dövlət Pedaqoji Universitetinin Korreksiya edici təlim (indiki Xüsusi təhsil) kafedrasında, müəllim vəzifəsində çalışır. Pedaqoji fəaliyyətlə məşğul olduğu illərdə "Görmə qüsurlu uşaqların psixi inkişaf xüsusiyyətləri", "Görmə qüsurlu uşaqların təlim-tərbiyə prosesinin xüsusiyyətləri" mövzularında elmi-tədqiqat araşdırmaları aparmışdır.

G.Ə.Allahverdiyeva 11 elmi məqalə və 1 fənn proqramının müəllifidir.



**Əlillər gününə həsr olunmuş tədbir 2017**



## Afət İsrafilova

Müəllim

İsrafilova Afət Afər qızı 1992-ci il oktyabr ayının 23-də, Oğuz rayonunda anadan olmuşdur. 1999-cu ildə Oğuz rayon Padar kənd 18 nömrəli orta məktəbinin I sinfinə qəbul olunaraq, 2010-cu ildə həmin məktəbi bitirmişdir. 2010-cu ildə təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə Azərbaycan Müəllimlər İnstitutuna qəbul olunmuşdur. 2014-cü ildə institutu bitirmişdir.

A.A.İsrafilova 2014-cü ildə ADPU-nun təhsildə sosial psixoloji xidmət ixtisası üzrə magistraturaya qəbul olunmuşdur. 2016-cı ildə magistr təhsilini "Özünüdərk və özünüqiymətləndirmənin sosial-psixoloji əsasları" adlı müdafiə işi ilə tamamlamışdır.

Bu illər ərzində respublika miqyaslı konfranslarda "Daun sindromlu uşaqların özünüdərki və onu sürətləndirən amillər", "Gənclik yaş dövründə milli özünüdərk və vətənpərvərlik hissinin formalaşması əsas amil kimi", "Özünüdərk şəxsiyyətin formalaşmasında əsas amil kimi" adlı tezis və məqalələrlə magistrant kimi iştirak etmişdir.

A.A.İsrafilova bir sıra yerli və beynəlxalq konfranslarda “Xüsusi qayğıya ehiyacı olan uşaqların cəmiyyətə inteqrasiyası və sosial adaptasiyası”, Respublika elmi konfransı (Azərbaycan Dövlət Pedaqoji Universiteti; “For Outstanding Paticipation at the II International Psychology Conference in Azerbaijan”, müxtəlif təlimlərdə (Khazar University, Psychology Department 25.04.2015-26.04.2015); “I am a Psychologist – 2” layihəsi (Khazar University, 09.10.2016; “Yetişkinlerde klinik Görüşme Teknikleri” 16.saat (PsikoTerap-İST Eğitim ve Danışmanlık Merkezi 17.11.2018-18.11.2018; Prof.Dr.Ayşe Sibel Türk tərəfindən tədris edilən “Transaksional Analiz” təlimi, (25.03.2017); Dr.İbrahim Bilgenin “Koqnitiv terapiyada davranış ilə iş metodları və tətbiqlər” təlimi (10.04.2018); Dr.Ibrahim Bilgenin “Panik Atak”, “Uşaq, yeniyetmə və böyüklərdə qrupdaxili formulyasiya və qrupdaxili tətbiq” (23.01.2019; Dr.İbrahim Bilgenin “Uşaq, yeniyetmə və böyüklərdə koqnitiv (CBT; ACT) davranış terapiyasına giriş və ilkin görüşmə yolları” (Grand Hospital, 19.10.2017) iştirak etmişdir.

A.A.İsrafilova 2017-ci ildən bu günə qədər Azərbaycan Dövlət Pedaqoji Universitetinin Korreksiyaedici təlim (indiki Xüsusi təhsil) kafedrasında müəllim vəzifəsində çalışır. Pedaqoji fəaliyyətlə məşğul olduğu illərdə “Oliqofrenlərin dərketmə fəaliyyətinin psixoloji xüsusiyyətləri”, Oliqofrenlərin kliniki xarakteristi kası”, “Oliqofreniya və onun formaları” mövzularında elmi-tədqiqat işlərini araşdırmışdır. A.A.İsrafilova kafedra üzrə Tələbə Elmi Cəmiyyətinin sədridir. Elmi-pedaqoji fəaliyyəti dövründə onun 9 elmi məqaləsi və 2 fənn proqramı nəşr olunmuşdur.



## Şəfa Kazımova

Müəllim

Kazımova Şəfa Eyvaz qızı 1987-ci il iyul ayının 21-də, Gədəbəy rayonu nun Qoşabulaq kəndində, ziyalı ailəsində anadan olmuşdur. İlk təhsilini yaşadığı kənddə almışdır. 2003-cü ildə şəhid R. İsmayılov adına 2 nömrəli Qoşabulaq kənd orta məktəbini bitirmişdir. 2003–2007-ci illərdə Bakı Qızlar Universitetinin ibtidai təhsil fakültəsini bitirmiş, ibtidai təhsilin pedaqogikası və metodikası ixtisası üzrə bakalavr dərəcəsinə yiyələnmişdir.

2007–2009-cu illərdə ADPU-nun magistratura və doktorantura şöbəsinə daxil olmuş, 5804.01 – ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi (o zamanlar 13.00.01 – pedaqogikanın nəzəriyyəsi və tarixi) ixtisası üzrə magistratura səviyyəsində təhsil almışdır. Həm bakalavriat, həm də magistratura səviyyəsini fərqlənmə diplomu ilə bitirmişdir. 2011-ci ildə Azərbaycan Respublikasının Təhsil İnstitutunda elmi işçi kimi fəaliyyətə başlamış, 2013-cü ildən 2019-cu ilə qədər böyük elmi işçi vəzifəsində çalışmışdır.

2013-cü ildə ADPU-nun Ümumi pedaqogika kafedrasının dissertantı kimi fəaliyytə başlamış, 2016-cı ildə təhsilini tamamlamışdır.

Ş.E.Kazımova Azərbaycan Respublikasının Təhsil İnstitutunda fəaliyyət göstərdiyi dövrdə çoxsaylı təlim və seminarların, beynəlxalq, respublika səviyyəli konfransların iştirakçısı olmuşdur. Yeni fənn kurikulumlarının tətbiqi ilə əlaqədar olaraq müxtəlif təlimlərdən keçmiş, uzun müddət təlimçi kimi fəaliyyət göstərmişdir.

AR Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən "İlin müəllimi", eləcə də təhsil işçiləri arasında hər il təşkil olunan pedaqoji mühazirələrin qiymətləndirilməsi müsabiqəsində ekspert və nəzarətçi kimi fəaliyyət göstərmişdir. 2019-cu ilin sentyabr ayından etibarən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xüsusi təhsil kafedrasında müəllim kimi fəaliyyətini davam etdirir. Bunlarla yanaşı, 2020-ci ilin əvvəlində (19-25 yanvar tarixlərində) Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllim heyəti ilə birlikdə Portuqaliyada rəsmi səfərdə olmuş və inklüziv təhsil təcrübəsinin öyrənilməsində iştirak etmişdir.

Ş.E.Kazımova elmi-pedaqoji fəaliyyəti dövründə, əsasən, ümumpedaqoji məsələlərlə bağlı müxtəlif tədqiqat işləri həyata keçirmişdir.

Pedaqoji fəaliyyəti müddətində indiyədək 40 elmi əsəri çap olunmuşdur. Bunlardan 5-i metodik tövsiyə, 1-i metodik vəsait, 16-sı məqalə, 18-i isə tezisdir.

Kazımova Şəfa Eyvaz qızı eyni zamanda bədii yaradıcılıqla da məşğul olur: onun iki şeir kitabı çap olunmuşdur. Mütəmadi olaraq saytlarda və qəzetlərdə şeirləri ilə çıxış edir.

Ş.E.Kazımova fəaliyyəti müddətində bir sıra peşəkar təlimlərdən keçmişdir. Bunlardan bir qisminin adlarını qeyd etmək olar:

1. "İnkişaf" Elmi Mərkəzi və YUNİSEF tərəfindən təşkil olunan "Öyrədənlərin öyrədəni" təlim kursu, 2012-ci il;
2. "Təhsilin inkişafına dəstək" İctimai Birliyi tərəfindən yeni fənn kurikulumları ilə əlaqədar təşkil olunmuş "Öyrədənlərin öyrədəni" təlim kursu, 2012-ci il;
3. Edumedia "Promethean" interaktiv lövhələrindən istifadə üzrə təlim kursu, 2012-ci il;
4. Məktəbəqədər kurikulumun tətbiq edilməsi ilə əlaqədar təşkil olunmuş "Öyrədənlərin öyrədəni" təlim kursu, 2013-cü il;
5. Mentorluq sisteminin yaradılması" mövzusunda Təhsil Texnologi-

yaları Mərkəzində təşkil olunmuş təlim kursu, 2014-cü il (2 dəfə);
6.AMEA, İnformasiya Texnologiyaları İnstitutu, Tədris-İnnovasiya Mərkəzində 1 aylıq kurs, 2014-cü il;
7.Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin İcrasına dəstək layihəsində işçi qrupunun üzvü (ibtidai sinif müəllimliyi ixtisası üzrə) kimi qiymətləndirmə və təlim materiallarının yazılması kursu , 2019-cu il;
8. "İnklüziv Təhsilə Dəstək Naminə" layihəsi çərçivəsində Azərbaycan Psixologiya və Psixoterapiya Assosiasiyasının təşkil etdiyi "Daun sindromlu uşaqlarla iş", "Autizm və diqqət əskikliyi. Hiperaktivlik diaqnozlu uşaqlarla iş", "Serebral iflic diaqnozlu uşaqlarla iş", "Disleksiya və epilepsiya diaqnozlu uşaqlarla iş" seminarlarında iştirak , 2019-cu il;
9.Azərbaycan Respublikasının Təhsil İnstitutunda təşkil olunmuş, "Easter seals" təşkilatının nümayəndələri Kassi Vells və Meri Elizabetin təlimçiliyi ilə keçirilən "Hamımız inklüzivlik üçün!" layihəsinin üç günlük təlim mərhələsində iştirak . 2019-cu il və s.

Müəllimin elmi-pedaqoji fəaliyyəti dövründə 27 elmi məqaləsi, 6 metodik vəsaiti və metodik tövsiyələri çap olunmuşdur.

Əsas elmi əsərləri:

1.Yeni təhsil proqramlarının (kurikulumların) tətbiqi məsələləri. Bakı: "Mütərcim", 2014, 380 s. (həmmüəlliflərlə birlikdə).
2.Təhsilin modernləşdirilməsinin elmi-nəzəri problemləri. Bakı: "Mütərcim", 2015, 452 s. (həmmüəlliflərlə birlikdə).
3.Müasir təhsilə innovativ yanaşmalar. Bakı: Azərbaycan Respublikası Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2016, 250 s. (həmmüəlliflərlə birlikdə).
4.Standart və kurikulumlar: nəzəri və praktik aspektlər. Bakı: "ŞAHİN-MB" MMC, 2016, 500 s. (həmmüəlliflərlə birlikdə).
5.Müstəqillik dövründə Azərbaycan təhsili: nəzəri və praktik aspektlər. Bakı, 2017, 448 s. (həmmüəlliflərlə birlikdə).
6.Şagirdlərdə ekoloji mədəniyyətin formalaşdırılması.(metodik vəsait). Bakı, 2019, 39 s. (R.E.Tağıyeva ilə birlikdə).



## Məlahət Abdullayeva

Laborant

Abdullayeva Məlahət Nazim qızı 1985-ci il dekabr ayının 12-də, Bakı şəhərinin Yasamal rayonunda anadan olmuşdur.

2003-cü ildə Bakı Qızlar Universitetinə qəbul olunmuş, 2007-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. Elə həmin ildə də ADPU-nun Magistratura və doktorantura şöbəsinə qəbul olunmuşdur. 2009-cu ildə təhsilini başa vurmuşdur. 2018-ci ilin fevral ayından etibarən ADPU-nun məktəbəqədər təhsil, psixoloji xidmət və korreksiyaedici təlim fakültəsinin Korreksiyaedici təlim (hazırda Xüsusi təhsil) kafedrasında laborant vəzifəsində çalışır.

**III. Magistrantlar və doktorantlar**

Magistr hazırlığı üzrə ilk dəfə 2013-cü ildə korreksiyaedici təlim ixtisasına 3 magistrant qəbul olunmuşdu. Bu sahədə ixtisaslı kadrlara olan tələbat nəzərə alınaraq, bu say illər ərzində artırılmışdır. Hazırda Azərbaycan bölməsində 19 magistrant təhsil alır. 2014–2019-cu illərdə 70 nəfər, o cümlədən, 59 nəfər Azərbaycan, 11 nəfər rus bölməsi üzrə məzun olmuşdur. Kafedrada elmlər dok-

toru proqramı üzrə 1 nəfər, fəlsəfə doktoru proqramı üzrə 3 dissertant və 1 nəfər qiyabi doktorant xüsusi təhsilin aktual problemləri ilə bağlı araşdırmalar aparır.

**IV. Layihələr**

Xüsusi təhsil kafedrası fəaliyyət göstərdiyi dövrdən kadr hazırlığı istiqamətində müasir dövrün tələblərinə uyğun bir sıra işlər görmüşdür. Xüsusi təhsil sahəsində dünyanın bir sıra aparıcı universitetlərinin təcrübəsi öyrənilmiş və buna əsasən, tədris edilməsi üçün ixtisasa yeni fənlər daxil edilmişdir.

1) Xüsusi təhsil sahəsində 21–25 aprel 2019-cu il tarixlərində Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən yaradılan işçi qrupu tərəfindən nazirliyin xüsusi və inklüziv təhsil üzrə müşaviri Nigar Bağırlı, AR TN-nin Xüsusi təhsil şöbəsinin müdiri Anar Xələfov və Xüsusi təhsil kafedrasının müdiri Nailə Hüseynova Belarus Respublikasının Minsk şəhərinə ezam olunmuşdular. Səfərin məqsədi inklüziv təhsil sahəsində müəllim hazırlığı ilə bağlı Belarus Respublikasının təcrübəsinin öyrənilməsi və Maksim Tank adına Belarus Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən İnklüziv Təhsil İnstitutu, həmçinin, resurs mərkəzi ilə tanış olmaq idi. Səfər nəticəsində ixtisas üzrə bir çox yeni ədəbiyyatlar gətirildi, mühüm əhəmiyyət kəsb edən tədris proqramları və planlar əldə edildi.

2) Heydər Əliyev fondunun Regional İnkişaf İctimai Birliyinin “Müəlliminin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması” layihəsi çərçivəsində Xüsusi təhsil kafedrasının əməkdaşlarına xarici mütəxəssislər tərəfindən xüsusi təlimlər keçilmiş və sertifikatlar əldə etmişlər. Layihə çərçivəsində işçi qrupu yaradılmış, dosent N.T.Hüseynova işçi qrupunun fəal üzvü seçilmişdir. Layihənin nəticəsi olaraq “İnklüziv təhsil” adlı dərslik çap olunmuşdur. Dos. N.T.Hüseynova həmin vəsaitin elmi redaktoru təyin edilmişdir.

3) 2019-cu ilin mart-aprel aylarında Avropa İttifaqının dəstəyi ilə Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi (RİİB) tərəfindən və AR Təhsil Nazirliyinin dəstəyi ilə “Müəllimlərin

inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi həyata keçirilmişdir. Regional İnkişaf İctimai Birliyinin həyata keçirdiyi "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" və YUNİSEF–Azərbaycan tərəfindən reallaşdırılan "Azərbaycanda əlilliyi olan uşaqlar üçün inklüziv təhsilin genişləndirilməsi" layihəsi "2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"na dəstək olaraq reallaşdırılmışdır. Layihədə universitetin, eləcə də Xüsusi təhsil kafedrasının müəllimləri də iştirak etmişlər. Layihə çərçivəsində kafedrada aşağıda adı qeyd edilən kitab redaktə olunmuşdur: "İnklüziv sinifdə təlimin təşkili" mövzusunda ixtisasartırma proqramının oxu materialları. Avropa İttifaqı, Azərbaycan Respublkasının Təhsil Nazirliyi, YUNİSEF, Regional İnkişaf İctimai Birliyi. 2019.

Layihə çərçivəsində xarici mütəxəssislər tərəfindən inklüziv təhsil üzrə təlim keçirilmiş, kursda təlim alanlara sertifikatlar təqdim olunmuşdur.

4) Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyinin "Müəllimin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi çərçivəsində 20–23 yanvar, 2020-ci il tarixdə Azərbaycan Dövlət Pedaqoji Univeristetinin və Regional İnkişaf İctimai Birliyinin bir qrup əməkdaşı, o cümlədən, Xüsusi təhsil kafedrasının müdiri, dos. N.T.Hüseynova Portuqaliyanın Lissabon şəhərinə ezam edilmişlər.

Səfər RİİB-nin təşkilatçılığı ilə həyata keçirilmişdir. Səfər Portuqaliya Respublikasının inklüziv təhsil sahəsində təcrübəsinin öyrənilib ümumiləşdirilməsi və Azərbaycanda inklüziv təhsilin inkişafının təmin olunması məqsədilə həyata keçirilmişdir.

5)Korreksiya pedaqogikasında yeni üsulların tətbiqi və fəaliyyətlərin təkmilləşdirilməsi istiqamətində modullar üzrə yüksək səviyyəli təlim materialları hazırlanmış, layihə rəhbərlərinə təqdim olunmuşdur. Hazırda həmin vəsaitlər çapa verilmişdir və korrek-

siyaedici təlim ixtisası üzrə təhsil alan tələbələr üçün mühüm əhəmiyyət kəsb edir.

**V. Kadr potensialının inkişafı istiqamətində görülən tədbirlər**

1. İnnovasiyalar üzrə təlim. 09 oktyabr, 2016.
2. Davranış terapiyaları və tətbiqi görüşmə metodları. (31.01.2018).
3. Koqnitiv terapiyada davranış üzərində iş metodları və tətbiqi. (10.04.2018).
4. Panik Atak. (23.01.2019).
5. Eğitim Belgesi "Yetişkinlərdə kliniki Görüşmə Teknikləri". (17–18 noyabr,2018).
6. Loqopediyanın nəzəri-praktik əsasları üzrə təlim kursu. (04.05.2018)
7. V Beynəlxalq Dodaq və Damaq Yarığı konfransı. (27–28 oktyabr, 2018).
8. Məktəbdaxili qiymətləndirmənin təşkili metodikası. (19–24 oktyabr 2018)
9. Avropa İttifaqının Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin icrasına dəstək layihəsi (20 noyabr – 4 dekabr, 2018).
10. İnklüziv təhsil sahəsində müəllim hazırlığı ilə bağlı Belarus təcrübəsinin öyrənilməsi. (21–25 aprel, 2019).
11. Avropa İttifaqının Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin icrasına dəstək layihəsi. (2019-cu il, fevral)
12. "Pedaqoji kadrların bacarıqlarının artırılması" layihəsi çərçivəsində ADPUda təşkil edilmiş 36 saatlıq "Təlimçilər üçün təlim" kursu. (12–14 fevral 2019) .
13. Avropa İttifaqının maliyyə dəstəyi ilə YUNİSEF və Regional İnkişaf İctimai Birliyi tərəfindən həyata keçirilən layihələr çərçivəsində inklüziv təhsil üzrə təlim. ( 2019cu il, 15–20 aprel)
14. "Wechsler çocuklar için zeka ölçeği (WISC-R) uygulayıcı sertifikası . Əngəlsiz hədəflər layihəsi –2019
16. "Ümumi təhsilin dövlət standartları və proqramlarının öyrənilməsi və tətbiqi".AR Təhsil Nazirliyi, ADPU. 2020, (sertifikat)

17.Distant təhsil və elektron tədris platformasından, resurslardan istifadə. AR Təhsil Nazirliyi, ADPU. 2020, (sertifikat)

**VI. Kafedra üzrə keçirilən tədbirlərdən nümunələr**

1.2 aprel – " Beynəlxalq Autizm günü"nə həsr olunmuş tədbir;

2.Beynəlxalq Loqopedlər Gününə həsr olunmuş "Rinolaliya və dodaq-damaq yarıqları mövzusunda elmi seminar;

3.3 dekabr– Beynəlxalq Əlillər günü ilə əlaqədar olaraq Daun sindromlu şəxslərin Reabilitasiya Mərkəzi ilə Korreksiyaedici təlim (Xüsusi təlim) kafedrasının birgə əməkdaşlığı nəticəsində baş tutmuş əyləncəli tədbir;

4.3 dekabr – Ümumdünya Əlillər günü ilə bağlı əqli, psixi və fiziki qüsurlu uşaqlar üçün tərtib edilmiş əyləncəli proqram;

5."Eşitmə qüsurlu uşaqlarda ünsiyyət çətinlikləri, onları yaradan səbəblər və nəticələr" mövzusunda elmi seminar;

6."Loqopedlər günü"nə həsr olunmuş loqopedlərlə görüş. AR Təhsil Nazirliyi,ADPU





ADPU-nun rektoru,professor Cəfər Cəfərovun Məktəbəqədər təhsil fakültəsinin professor-müəllim və tələbə kollektivi ilə görüşü (2018)



ADPU-nun rektoru,professor Cəfər Cəfərovun fakültə tələbələri ilə görüşü



ADPU-nu rektoru professor Cəfər Cəfərov birinci tədris ili tələbəsinə tələbə bileti təqdim edir (2016)



Tədris işləri üzrə prorektor dosent Eldar Aslanov, fakültə rəhbərliyi və əməkdaşlarının birinci tədris ili tələbələri ilə görüşü



Elmi işlər üzrə prorektor professor Asəf Zamanov fakültə TEC-in konfransında (2016)




Sosial və humanitar işlər üzrə prorektor professor Fıkrət Rzayev və fakültə əməkdaşlarının məzunlar ilə görüşü



**Universitet rəhbərliyinin adlı təqaüdçülərlə görüşü (2018)**

# Adlı təqaüdə layiq görülmüş tələbələr



**Günay Akif qızı Qəribova**

Qəribova Günay Akif qızı 1997-ci il iyun ayının 22-də, Yevlax şəhərində anadan olub. 2004-cü ildə Bakı şəhəri, Xəzər rayonu, 92 nömrəli orta məktəbin birinci sinfinə daxil olub və 2015-ci ildə həmin məktəbi bitirib. 2016-cı ildə 360 balla ADPU-nun məktəbəqədər təhsil fakültəsinə, korreksiyaedici təlim ixtisası üzrə qəbul olunub, 2020-ci ildə universiteti bitirib.Təhsil aldığı müddətdə universitet tələbələri arasında ilk olaraq, Qəribova Günay Akif qızı ümumi orta müvəffəqiyyət göstəricisi 98 bal olmaqla, ümummilli lider Heydər Əliyev adına təsis olunmuş təqaüdə layiq görülmüşdür.



**Ayşən Elşən qızı Bürcəliyeva**

Bürcəliyeva Ayşən Elşən qızı 2000-ci il iyul ayının 24-də Ukraynanın Xarkov şəhərində anadan olub. 2006-cı ildə Qazax şəhərindəki Mehdi Hü seyn adına tam orta məktəbin birinci sinfinə qəbul olunub. 2016-cı ildə məktəbi bitirdikdən sonra, 352 balla Azərbaycan Dövlət Pedaqoji Universitetinin məktəbəqədər təhsil fakültəsinə, təhsil də sosial-psixoloji xidmət ixtisasına qəbul olunub. III tədris ilində ümumi orta müvəffəqiyyət göstəricisi 98.5 bal olmaqla, fakültə üzrə təsis olunmuş Abdulla Şaiq adına təqaüdə layiq görülmüşdür.



## Münəvvər Qubad qızı Mehdiyeva

Mehdiyeva Münəvvər Qubad qızı 1999-cu il sentyabr ayının 28-də, Bərdə rayonundakı Türk Qızıl ayçadır-şəhərciyində anadan olub. 2006-cı ildə Ağdam rayonu, 14 nömrəli texniki fənlər təmayüllü məktəb-liseyə daxil olub. 2017-ci ildə həmin məktəbi bitirdikdən sonra, 384 balla Azərbaycan Dövlət Pedaqoji Universitetinin məktəbəqədər təhsil fakültəsinə, təhsildə sosial-psixoloji xidmət ixtisasına qəbul olunub. Hazırda təhsilini davam etdirir.II və III tədris ilində ümumi orta müvəffəqiyyət göstəricisi 97.7 bal və 99.3 bal olmaqla, iki dəfə Abdulla Şaiq adına təqaüdə layiq görülüb.



## Gülyanaq Ehtibar qızı Rəcəbova

Gülyanaq Ehtibar qızı Rəcəbova 2000-ci il may ayının 26-da, Şəki rayonunda anadan olub. 2007-cı ildə Şəki rayonu, Köndələn kənd tam orta məktəbinə daxil olub. 2018-ci ildə həmin məktəbi bitirdikdən sonra, 423 balla Azərbaycan Dövlət Pedaqoji Universiteti, məktəbəqədər təhsil fakültəsinin məktəbəqədər təlim və tərbiyə ixtisasına qəbul olunub. Rəcəbova Gülyanaq Ehtibar qızı fakültə tələbələri arasında ümumi orta müvəffəqiyyət göstəricisi 100 bal olmaqla, Abdulla Şaiq adına təsis olunmuş təqaüdə layiq görülmüşdür.

# Fakültənin fəal tələbələri



## Nərmin Elman qızı Zamanova

Zamanova Nərmin Elman qızı 2001-ci il noyabr ayının 24-də, Bakı şəhərində anadan olub. 2007-ci ildə Bakı şəhəri, Nəsimi rayonu, 240 nömrəli orta məktəbin birinci sinfinə qəbul olunub.
2018-ci ildə 464 bal ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin məktəbəqədər təhsil fakültəsinə, məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə qəbul olunub. Universitetə daxil olduğu ilk aydan etibarən Tələbə Gənclər Təşkilatında qrup meneceri olaraq fəaliyyətə başlayıb.

II tədris ilində fəaliyyətini ADPU TGT ATKİT departamentində davam etdirmiş, daha sonra ADPU-nun məktəbəqədər təhsil fakültəsində TGT-nin kargü zarı, sədr müavini vəzifələrində çalışmışdır. 2020-ci ilin oktyabr ayından etibarən məktəbəqədər təhsil fakültəsi üzrə TGT-nin sədri olmuşdur. Fəaliyyəti dövründə keçirilən 3 aylıq hesabat konfranslarının hər birində məktəbəqədər təhsil fakültəsi ayın ən yaxşı fakültəsi seçilmişdir



## Sevda Fəramiz qızı Cahangirli

Sevda Fəramiz qızı Cahangirli 3 aprel 1999-cu ildə, Cəlilabad rayonun da anadan olub. 2017-ci ildə Bakı şəhəri,Alı Mustafayev adına 202 saylı tam orta məktəbi bitirib. Həmin il ADPU-nun Məktəbəqədər təhsil fakültəsi, təhsildə sosial-psixoloji xidmət ixtisasına qəbul olunub. Universitetə daxil olduğu ilk aydan etibarən Tələbə Həmkarlar İttifaqı Komitəsində fəaliyyətə başlayıb. Fəaliyyəti dövründə aylıq hesabat iclasında məktəbəqədər fakültə “Ayın fakültəsi” seçilmişdir.2017-ci ildə fəaliyyətində fərqləndiyi üçün THİK sədri, dos.V.R.Məmmədov tərəfindən diplomla təltif olunmuşdur.2018-ci ildə universitetdə keçirilən “IV Uluslararası Türk Kültür Coğrafiya ında Eğitim ve Sosyal Bilimler Sempozyumu” konfransında göstərdiyi xidmətlərə görə “Təşəkkürnamə” ilə, 2019-cu ildə “Se-Nur” psixologiya və inkişaf mərkəzinin işində göstərdiyi dəstəyə görə “Təşəkkürnamə” ilə təltif olunub.2020-ci ildə Məktəbəqədər təhsil fakültəsində ictimai təşkilat üzrə ən fəal tələbə seçilmişdir. 2020-ci ildə universitetin ictimai həyatında göstərdiyi xüsusi fəallığına görə ADPU-nun prorektoru, prof. Fikrət Rzayev tərəfindən “Fəxri fərmanla təltif olunub.



## Mədinə Elxan qızı Həsənli

Mədinə Elxan qızı Həsənli 2002-ci il noyabrın 22-də, Bakı şəhərində anadan olub. 2008-ci ildə Bakı şəhəri, K. Eyyubov adına 12 saylı tam orta məktəbə daxil olub. 2011-ci ildən isə təhsilini Bakı şəhəri, Binəqədi rayonu, Sovet İttifaqı Qəhrəmanı Həbibulla Eynulla oğlu Hüseynov adına 83 nömrəli məktəb-liseydə davam etdirib. Məktəb illərində rəqs, musiqi, idmanla yaxından maraqlanıb, bu sahələrdə bir çox diplom və sertifikatlarla təltif olunub. Məktəb illərində rəqslə peşəkar şəkildə məşğul olub, bir çox tədbirlərdə və televiziyada çıxışlar edib.

Mədinə xalq, estrada və xarici musiqilərə öz ifası ilə rəng qatmışdır. O, bir çox musiqi alətlərində ifasına görə də fərqlənir. 2017-ci il 28 noyabr tarixində o, "Şövkət Məmmədova–120" ədəbi-bədii gecəsində ifa etdiyi mahnılara, fəal iştirakına görə Bakı şəhər Təhsil İdarəsi və lisey tərəfindən diploma layiq görülüb. Bütün bunlarla yanaşı, Mədinə idmanla həvəskar şəkildə məşğul olaraq, bu sahədə də fərqlənməyi bacarmışdır. 2015-ci ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Binəqədi rayon Gənclər və İdman İdarəsi tərəfindən

Binəqədi rayon məktəblilərinin XXVIII Spartakiadasının proqramına daxil olan mini-futbol üzrə rayon birinciliyində birinci yeri tutaraq, diplomla təltif olunub. 2016-cı il 22 aprel tarixində keçirilən “Şahin” hərbi-idman oyunlarında fərqlənmiş və diplom almışdır. Məktəbli olduğu müddətdə sosial məsələlərlə də maraqlanıb. Mədinə 2017-ci il 12 may tarixində lisey nəzdində “Su ilə bağlı ekoloji vərdişlər” layihəsi çərçivəsində “Hər damla bir həyatdır” adlı tədbirin təşkilatçısı olmuş və fəal iştirakına görə diplomla mükafatlandırılmışdır.

2011-ci ildə AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun əmək daşı, “Qanun naminə” qəzetinin xüsusi müxbiri Lalə Qəzənfər qızı Vəliyevanın istedadlı uşaqları üzə çıxarmaq, onların bacarıqlarını işıqlandırmaq məqsədilə müəllifi olduğu “Zəka” adlı kitabında Mədinə haqqında material dərc edib:

2019-cu ildə H. Hüseynov adına məktəb-liseyin XI sinfini bitirib. Həmin ildə də Azərbaycan Dövlət Pedaqoji Universitetinin məktəbəqədər təhsil fakültəsinə təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə qəbul olunub. Təhsil aldığı müddətdə psixologiya ilə yaxından maraqlanaraq, bu sahə üzrə təlimlərdə və vebinarlarda iştirak edir. Mədinə universitetdə təşkil olunan tədbirlərdən də geridə qalmır. İştirak etdiyi “ADPU – Bədii yaradıcılıq” müsabi qəsində xalq mahnısı nominasiyası üzrə II yer tutduğuna görə diplomla təltif olunub. O, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Tələbə Həmkarlar İttifaqı Komitəsinin məktəbəqədər təhsil fakültəsi üzrə sədri vəzifəsində çalışır. Özü nün və idarə heyətinin aktiv fəaliyyəti ilə fakültə tərəfindən layihələr təşkil olun masını və fakültənin bu sahəhərdə fəal inkişafını təmin edir.

2020-ci ildə Mədinə universitetin ictimai həyatında göstərdiyi xüsusi fəallığa görə ADPU-nun prorektoru, prof. Fikrət Rzayev tərəfindən “Fəxri fərman”la təltif olunub. Əlavə olaraq, 2020/2021 tədris ilində aktiv fəaliyyətinə görə ADPU Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri, dos. V.R.Məmmədov tərəfindən “Təşəkkürnamə” ilə təltif edilib. Hazırda universitetin tələbəsidir, dərs əlaçısıdır.



# Böyük qələbənin başlanğıcı



# Biz onlarla fəxr edirik!




## Qazi

## İbrahim Mansur oğlu Hüseynov

Hüseynov İbrahim Mansur oğlu 20 fevral 1997-ci ildə, Cəlilabad rayonunun Günəşli kəndində anadan olub. Orta məktəbə 2004-cu ildə, Salyan rayonunun Kərimbəyli kəndində gedib. Oxuduğu illərdə dəfələrlə fənn olimpiadalarında iştirak etmiş və müsbət göstəricilər əldə etmişdir. 2015-ci ildə orta məktəbi bitirib, Azərbaycan Dövlət Pedaqoji Universitetinə, məktəbəqədər təhsil fakültəsinin korreksiyaedici təlim ixtisası üzrə qəbul olunub. Tələbəlik illərində məntiq olimpiadasının finalçısı olmuşdur. Bir neçə təhsil ocaqlarında təcrübədə olmuş və seminarlarda iştirak etmişdir. Psixologiya üzrə 50-dən çox sertifikata yiyələnmişdir. 2019-cu ildə, ali təhsilini başa vurduqdan sonra AR Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsinə hərbi xidmətə yollanmışdır. Hərbi xidmətdə olarkən onun xidmətləri Fəxri fərman və "Təşəkkür məktubu" ilə təltif olunmusdur. 2020-ci il, iyul ayının 2-də hərbi xidməti bitirib tərxis olunmuşdur. Elə həmin ay iyul döyüşləri zamanı könüllü olaraq Silahlı Qüvvələrin sıralarına

yazılmış, sentyabr ayının 29-dan 2-ci Qarabağ döyüşlərinə qatılmışdır. Cəbrayıl, Hadrut və Füzuli rayonları uğrunda gedən döyüşlərdə fəal iştirak etmiş, Füzuli rayonu uğrunda gedən amansız döyüşlərin birində (15.10.2020-ci il) əks-kəşfiyyata gedərkən ağır yaralanmışdır. Həmin gün döyüş yoldaşları onu döyüş meydanından çıxarır və təxliyə edirlər.

Aldığı yaralardan 3 gün komada qalır. İlk tibbi yardımı Füzuli rayon xəstəxanasında, daha sonra isə Silahlı Qüvvələrin Baş Klinik Hospitalinda alır. Partlayış nəticəsində döş qəfəsinin ön səthinə və qarın boşluğuna nüfuz edən, hər iki yuxarı ətrafın və budun çoxsaylı yaralanmaları, ikitərəfli hemopnevmotoraksla nazik bağırsağın kəsilməsi, sağ əlin sinirlərinin yanması, sağ əl barmaqlarının sınması, sol qolun 4 yerdən sınması və həddən artıq qəlpə yaralarının alınması diaqnozu qoyulur.

30 oktyabr 2020-ci ildə Hüseynov İbrahim ATU-nun Tədris-Cərrahiyyə Klinikasına köçürülmüşdür. Orada da bir müddət əməliyyat və müalicə olunduqdan sonra, 8 dekabr tarixində ona 30 günlük məzuniyyət verilmişdir. Hazırda döyüşçümüzün müalicəsi davam edir. Hələ də bədənində 60-a qədər qəlpə qalmaqdadır.

Hüseynov İbrahim Mansur oğlu göstərdiyi şücaətə görə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı, cənab İlham Əliyev tərəfindən "Cəbrayılın alınmasına görə", "Füzulinin alınmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.



## Samir Balakişi oğlu Xankişiyev

44 gün davam edən Vətən müharibəsi böyük qələbəmizlə başa çatdı. Rəşadətli Azərbaycan Ordusu müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə böyük şücaət və yüksək döyüş hazırlığı göstərərək, torpaqlarımızı işğaldan, düşmən tapdağından azad etdi. Bu şanlı tarixi yazan qəhrəman ordumuz, əsgər və zabitlərimiz Azərbaycanın haqq uğrunda mübarizə aparmaq əzmini, əsl döyüş ruhunu bütün dünyaya nümayiş etdirdi. Bu qəhrəmanlar arasında Samir Xankişiyev də var.

Xankişiyev Samir Balakişi oğlu 1999-cu il sentyabrın 22-də, Kürdəmir rayonnun Qarasaqqal kəndində anadan olmuşdur. 2005-ci ildə Kürdəmir rayon Qarasaqqal kənd tam orta məktəbinin 1-ci sinfinə qəbul olunmuşdur. 2016-cı ildə orta təhsilini başa vurub, elə həmin ildə də ADPU-nun məktəbəqədər təhsil fakültəsinə, təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə qəbul olunub. 2020-ci ildə ali təhsilini başa vurduqdan sonra, iyul ayında Azərbaycan Silahlı Qüvvələrinə müddətli həqiqi hərbi xidmətə çağrılıb. Hərbi xidmətini Sumqayıt şəhərindəki "N" saylı hərbi hissədə davam etdirmişdir. Azərbaycan ordusunun əsgəri olan Samir Xankişiyev 27 sentyabr, 2020-ci ildən başlayan Vətən müharibəsində iştirak edərək, Füzulinin, Cəbrayılın, Xocavəndin, Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə şücaətlə vuruşmuşdur. Döyüş əməliyyatlarının ən çətin keçdiyi yerlərdə döyüşərək, rəşadət nümunəsi göstərmişdir. Keçdiyi döyüş yolu qəhrəmanlıq xatirələri ilə zəngindir.



## İsaq Vidadi oğlu Qənbərov

Qənbərov İsaq Vidadi oğlu 25 dekabr 1997-ci ildə, Bakı şəhərinin Badamdar qəsəbəsində anadan olub. 2004-cü ildə Badamdar qəsəbəsində Tofiq Məmmədov adına 239 saylı orta məktəbə daxil olub. 2015-ci ildə orta məktəbi bitirib və Azərbaycan Dövlət Pedaqoji Universitetinin məktəbəqədər təhsil fakültəsinə, korreksiyaedici təlim ixtisası üzrə qəbul olunmuşdur. 2019-cu ildə ali təhsilini başa vurub, hərbi xidmət keçmək üçün Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsinə yollanmışdır. Murov dağında postda xidmət etdiyinə görə "Təşəkkürnamə" ilə təltif olunmuşdur. 2020-ci il iyul ayının 23-də hərbi xidmətdən tərxis olunub, ehtiyata buraxılmışdır. Sentyabr ayının 29-da 2-ci Qarabağ müharibəsinə könüllü yollanmışdır. Füzuli, Xocavənd rayonlarında Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissənin qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirmişdir. 44 gün gedən müharibədən sonra 1 aydan artıq müddətdə Laçın rayonunun müdafiəsində xidmət göstərmişdir. Müxtəlif medallarla təltif olunmuşdur.



## Elşən Şahlar oğlu Atamoğlanov

Atamoğlanov Elşən Şahlar oğlu 23 mart 1997-ci ildə, Hacıqabul rayonunda anadan olub. Orta məktəbə 2003-cü ildə getmişdir. Oxuduğu illərdə məktəbin fəal şagirdlərindən olmuş və musiqi olimpiadalarında nailiyyətləri ilə fərqlənmişdir. 2012-ci ildə Bakı Texniki Kollecinə, yol hərəkətinin təşkili ixtisasına qəbul olunmuşdur. 2016-cı ildə kollecdən müvəffəqiyyətlə məzun olmuş və həmin ildə də Azərbaycan Dövlət Pedaqoji Universitetinin məktəbəqədər təhsil fakültəsinə təhsildə sosial psixoloji xidmət ixtisası üzrə qəbul olunmuşdur. Universitet illərində dəfələrlə tədbirlərdə iştirak edərək, fəal tələbələrdən biri olmuşdur. 2020-ci ildə ali təhsilini bitirib, AR Müdafiə Nazirliyinin "N" saylı hər bi hissəsinə hərbi xidmətə yollanmışdır. 2-ci Qarabağ müharibəsinə oktyabr ayının 3-də qatılmışdır. Füzuli, Cəbrayıl və Xocavənd rayonları uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Hazırda hərbi xidmətini Laçın rayonunda davam etdirir.





Birinci tədris ili tələbələri ilə görüş (2017)












Azərbaycanın Milli Kvalifikasiyası Çərçivəsinin icrasına dəstək (Az.MKÇ) layihəsində fakültənin əməkdaşları (2019-2021)





Kopenhagen Universitet Kolleci (UCC)-nin professorları fakültəmizdə (2019)



Qazaxıstan Respublikası Alma-Atı Pedaqoji Universitetinin nümayəndələri fakültəmizdə (2020)



Dünya azərbaycanlılarının Həmrəylik günü (2019)
















“Mən Xocalıyam” tədbirindən (2012)





Fakültəmizdə təhsil alan türk tələbələrimizin tədbirindən


ALİ MƏKTƏB MÜƏLLİMİ
OLMAQ, MÜƏLLİMLƏR
HAZIRLAMAQ,
YƏNİ MÜƏLLİMLƏR
MÜƏLLİMİ OLMAQ
İKİQAT ŞƏRƏFLİ VƏ
EYNİ ZAMANDA İKİQAT
MƏSULİYYƏTLİ İŞDİR...







Bilik günü (2016)










Məzun günü (2018)



## *SABAHA BÖYÜK ÜMİDLƏRLƏ...*

***Bu kitabda biz öz köklü ənənələri ilə tanınan, respublikanın təhsil tarixində önəmli yeri olan, qocaman təhsil ocağı Azərbaycan Dövlət Pedaqoji Universitetinin aparıcı fakültələrindən olan Məktəbəqədər təhsil fakültəsi haqqında Sizlərə söhbət açdıq.***

***Fakültədə görülən işləri, müəllimlərin fəaliyyəti, tələbələrin nailiyyətləri haqqında məlumatları, qismən də olsa, Sizə çatdırmağa çalışdıq.***

***Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyi münasibəti ilə hazırlanmış bu kitabın gələcək nəsillər üçün maraqlı bir tarixi vəsait olacağına əminik.***

***Fakültənin bu günkü uğurlarının qazanılmasında universitet rəhbərliyini, onun struktur bölmələrinin əməkdaşlarını, burada əməyi olan hər kəsin xidmətlərini dəyərləndirir və universitet kollektivini 100 illik yubiley münasibəti ilə təbrik edirik.***

***100 illik yubileyin mübarək, ADPU!***

# Mündərəcat

Ön söz. Rektor professor Cəfər Cəfərov............................. 7

Məktəbəqədər təhsil fakültəsi.............................................11

Məktəbəqədər təhsilin pedoqogikası kafedrası. .................. 34

Ümumi psixologiya kafedrası. ......................................... 101

Pedaqoji psixologiya kafedrası..........................................153

Xüsusi təhsil kafedrası. ......................................................209

Adlı təqaüdçülər ................................................................ 252

Fəal tələbələr .....................................................................254

Biz onlarla fəxr edirik!........................................................ 259

Tədbirlər.............................................................................. 265

Sabaha böyük ümidlərlə....................................................275